Terminlər xüsusi anlayışların işarə olunmasıdır. Terminlərin özünəməxsusluğu ondan ibarətdir ki, hər şeydən əvvəl onların məzmunu hansı vasitə ilə ifadə olunsa da, öz tamlıqlarını, bütövlüklərini itirmir. Terminlər bir sözdən yaxud çoxsözlü söz birləşmələrindən düzəlməyindən asılı olmayaraq, onlar həmişə bir anlayışa, məfhuma uyğun gələn bir işarədən ibarət olur. Hətta əgər termin mürəkkəb daxili semantik quruluşa malik olsa da, bütün hallarda o, vahid müstəqil bir ad ifadə edir. Adi sözlər kimi terminlər çox vaxt söz yaradıcılığı vasitəsilə mövcud sözlərin bazasında yaranır [6, s. 4].

Azərbaycan dilində termin yaradıcılığında müxtəlif vasitələr mövcuddur. Onlardan əsasları – morfoloji, semantik, sintaktik termin yaradıcılığı və xarici dillərdən alınmalar hesab olunur.

Termin yaradıclığının semantik vasitəsi dedikdə, semantik dəyişikliklərin geniş dairəsi, ilk növbədə məcazi mənanın müxtəlif növləri (metonomiya, metafor, funksional köçürmə), sözün semantik həcminin dəyişməsi (mənanın daralması və genişlənməsi, xüsusiləşməsi), semantik kalkalar və s. başa düşülür. Semantik sözyaradıcılığı ikinci adlandırmaya aiddir, yəni dildə artıq mövcud olan nominativ vasitələrdən ikinci advermə funksiyasında işlədilməsi nəzərdə tutulur [5, s. 2]. Terminlərin əmələ gəlməsinin semantik vasitəsi daha çox mənanın daralması və metaforik köçürülmələrə əsaslanır [7, s. 45]. Qeyd etmək lazımdır ki, terminlərin yaranmasının bu və ya digər vasitəsinın məhsuldarlığı kompüter terminoloji sisteminin özünəməxsusluğu ilə şərtlənir.

"Rus dilində kompüter terminlərinin əmələ gəlməsində semantik sözyaradıcılığının geniş yayılmış növü metaforik köçürülmələrdir. Metafor termin yaradıcılığının bir vasitəsi kimi əşyalar arasında oxşarlığa uyğun olaraq dil işarələrinə yeni məfhum və məna verir. Metaforikləşmə prosesi elmi anlayışı bildirmək üçün ümumişlək sözün seçilməsindən başlayır" [5, s. 4].

Koqnitiv dilçiliyin baniləri C.Lakoff, M.Conson güman edirdilər ki, "metaforun mahiyyəti bir növün mahiyyətinin (thing) digər növün mahiyyəti terminlərində dərk etmək və yaşamaqdır" [9, s. 5].

Qeyd etmək lazımır ki, oxşarlıq metaforun əsasını təşkil edir. Metaforun müəyyənləşdirilməsi üçün oxşarlığın ölçüsü anlayışı əhəmiyyət kəsb edir. Metafor o zaman yaranır ki, tutuşdurulan obyektlər arasında ümumi cəhətlərdən daha çox sayda fərqli cəhətlər mövcuddur.

Oxşarlıq zahiri və obyektiv yaxud daxili və subyektiv ola bilər. Özü də "metaforun oxşarlığı iki tipə bölünür: birinci tip − əşyaların təbiətində mövcud olan oxşarlıqların əsasında olan metafor (similarity-based metaphors); ikinci tip – adətən psixoloji assosiasiyaların baza-

sında yaranan insan tərəfindən yaradılan oxşarlıqlara əsaslanır (similarity-creating metaphors)" [8, s. 15]. İnsanın idrak prosesində ikinci tip daha mühüm hesab olunur.

Metafor kompüter texnikası və kompüter dilinin bütün səviyyələrindəki texnologiyaların obyekt və proseslərində, həmçinin elektron kommunikasiyanın müasir vasitələrinin tətbiqi və istifadəsi ilə bağlı olan bütün dil hadisələrinin adlarının yaradılmasında iştirak edir. Kompüter dilinin leksikasında metaforun bütün növlərinə, yəni bir əşyanın adının digərinə onların əlamətlərinin oxşarlığı əsasında köçürülməsini asanlıqla aşkar etmək olar.

Azərbaycan dilinin kompüter terminləri metaforik köçürülmənin köməyi ilə, hər şeydən əvvəl, əşyaların xarici oxşarlığı əsasında yaranır. Bu, fiziki əlamətlərin oxşarlığına əsaslanan sadə metaforadır: kompüter dilində bu, məsələn, siçan, pəncərə, iş masası, virus, yaddaş, poçt, menyu və s. Oxşarlığın ən sadə növü fiziki əlamətlərin oxşarlığıdır.

"Siçan is. Təsərrüfata ziyan vuran balaca, uzunsifət, uzunquyruq, adətən boz rəngli gəmirici" [2, s. 111].

"Mouse – мышь – fare – siçan – kompüterin ekranında göstəricini (pointer) idarə edən giriş qurğusu" [3, s. 9].

"Maus – мышь – mouse. Kompüterin manipulyatoru və koordinat qurğusu. Qrafiki interfeysdən istifadə edərkən klaviatura əlavə və avadanlığın vacib hissəsidir. "Maus" tipli manipulyatorun konstruksiyasındakı fərqlər bunlardır: korpusun forması, düymələrin miqdarı, yerinə yetirdiyi funksiyalar" [4, s. 252-253].

Siçan termini istifadəçinin kompüterlə interfeysini təmin edən daxil olma qurğularından biridir. Kompüter siçanı binalarda və çöldə yaşayan kiçik heyvan deyildir. Bu, kompüter qarşısında düz səthdə hərəkətdə olan kiçik qurğu olaraq kompüterin ekranında nişanı (kursoru) hərəkət etdirir. Məişət anlayışından kompüter termininə köçürülən metafor zahiri əlamətlərin – forma və ölçünün oxşarlığı əsasında həyata keçirilir: real siçanı da, kompüter siçanının da əldə tutmaq olar.

"Pəncərə is. İşıq və hava gəlmək üçün evin və s. divarında açılan deşik və həmin deşiyi qapayan şüşəli çərçivə" [1, s. 592].

Hamıya məlum olan "pəncərə" kompüter termini həm obrazlı, həm də dərin məzmun daşıyan bir məfhumdur, çünki o ekranın elə bir hissəsidir ki, orada proqram və proseslər yerinə yetirilə bilər. Eyni zamanda bir neçə pəncərə açıla bilər. Pəncərələri bağlamaq, sürüşdürmək, onların ölçülərini dəyişmək, yığışdırmaq yaxud bütün ekranda genişləndirmək olar. Bu təsvirdən aydın olur ki, pəncərənin zahirən bəsit obrazı kompüter dilində elmi konseptin əlamətlərini daşıyır. Kompüter terminologiyasında pəncərə sözü ilə bir sıra terminoloji söz birləşmələri yaranır, məsələn: fəal pəncərə, proqramın pəncərəsi, düzəlişin pəncərəsi/redaktənin pəncərəsi, dialoq pəncərəsi, siyahı pəncərəsi, mətn pəncərəsi, xəbərdarlıq məlumatlarının pəncərəsi və s. Gündəlik anlayışdan kompüterə metaforik köçürmə xarici xüsusiyyətlərin oxşarlığı əsasında həyata keçirilir.

"Window – окно – pəncərə – tətbiqi proqram, yaxud onun bir hissəsi ilə qarşılıqlı əlaqədə olmaq üçün monitorun ekranında müəyyən düzbucaqlı sahə. Pəncərələr qrafik istifadəçi interfeyslərində geniş tətbiq olunur. Pəncərələri təyinatından asılı olaraq üç növə ayırmaq olar: proqram pəncərəsi, sənəd pəncərəsi və dialoq boksu. Hər bir pəncərənin çərçivəsi olur və ən yuxarı hissədə başlıq zolağı yerləşir. Orada proqramın adı, eləcə də açıq faylın adı göstərilir. Başlıq zolağının bilavasitə altında, adətən, menyu zolağı yerləşir. Proqramın bütün komandalarını burada tapmaq olar. Pəncərələrin bir çoxunda menyu zolağının altında alətlər zolağı olur. Burada ən çox istifadə olunan komandaların düymələri toplanır. Alətlər zolağından aşağıda ola bilər. Sənəd pəncərəyə yerləşmirsə, onu bütövlükdə görmək üçün pəncərənin sağ və aşağı qıraqları boyunca fırlatma zolaqları nəzərdə tutulub.

Pəncərəni böyüdüb-kiçiltmək, yerini dəyişmək və qapatmaq olar. Onu tapşırıqlar zolağında müvəqqəti yerləşdirmək də mümkündür. Bu zaman yığılmış pəncərə tapşırıqlar zolağın-

da düymə ilə əvəzlənir. Bu düyməyə basmaqla pəncərəni yenidən bərpa etmək olar. Pəncərənin ölçülərini siçan vasitəsilə dəyişmək mümkündür" [3, s. 809].

"Masa is. Miz, stol" [1, s. 293].

İş masası metaforik termini kompüter erkranının bütün iş sahəsini bildirir. İstifadəçi masaya qoyduğu kimi ekrana proqramların işarələrini (yarlıkları) düzür və ona necə rahatdırsa, o cür də onları hərəkət etdirir. Biz onun xarici görünüşünü divar kağızlarından, iş stolunun mövzularından, güllər və s.-dən istifadə etməklə yaxşılaşdırmağa çalışırıq.

"Desktop – рабочий стол – iş masası – kompüterin ekranında: üzərindəki simgələr və menyu vasitəsilə adi iş masasının səthini modelləşdirən iş sahəsi. Adi (fiziki) iş masasında kağızlarla, yaxud başqa obyektlərlə necə hərəkət edilirsə, burada da siçanın köməyi ilə obyektlərlə bənzər hərəkətləri etmək olar.

Macintosh və OS/2 əməliyyat sistemlərində iş masası həm də simgələrin düzülüşü, istifadə olunan proqramlar haqqında və başqa bu kimi informasiyaları özündə saxlayan xüsusi fayldır. Kompüter söndürüldükdə bu informasiya diskdə saxlanılır və kompüter yenidən başladıldıqda bərpa olunur.

Windows əməliyyat sistemində iş masası hər bir istifadəçi üçün xüsusi kataloqdur. Adətən orada çoxlu sayda proqram fayllarının qısayol simgələri olur" [3, s. 213].

"Qutu is. İçinə şey qoymaq üçün taxtadan, kartondan, metaldan, plastmasdan və s.-dən düzəldilən qab" [1, s. 226].

Windows proqramında xaric olunmuş faylların saxlanma yeri qutu, zibil qutusu - tipli funksional oxşarlıq daha mürəkkəb xarakter daşıyır. Bu halda metafor bildirənin obrazlı ifadəsidir, yəni adlandırma əlamətinə emosionallıq, ifadəlilik əlavə olunur.

"Recycle Bin – Корзина – Çöp kutusu – Çöp qabı – Windows 95 əməliyyat sistemində və daha sonrakı versiyalarda uzaqlaşdırılmış faylların atıldığı yer. Gərək olduqda sonradan Restore (bərpa) komandasının köməyi ilə onları oradan çıxarıb götürmək olar" [3, s. 627].

"Virus is. (lat.) İnsan və bitkilərdə yolxucu xəstəlik törədən mikrob" [2, s. 487].

"Virus – вирус – virüs – kompüter fayllarına (adətən, icra fayllarına) girməklə onları "yoluxduran" proqram. "Yoluxmuş" fayl yaddaşa yüklənərkən onun içərisinə girmiş virus yerinə yetirilir və beləliklə, başqa fayllara da yoluxur. Viruslar çox zaman informasiyanı korlayır, yaxud onu tamamilə məhv edir" [3, s. 789].

Virus sözü metaforik köçürülmənin tipik nümunəsini nümayiş etdirir. Onun ilkin mənası qeyri-hüceyrəvi yolxucu agentdir ki, o yalnız canlı hüceyrələrin daxilində yarana bilər. Bu bioloji yaxud tibbi termindir. Virus kompüter termini kimi zərərverici proqram mənasındadır. Virus internetdən yaxud yoluxmuş diskdən kompüterə düşür və zərərli hərəkətlər yerinə yetirərək onun normal işləməsinə mane olur.

Həm bioloji (tibbi), həm də kompüter virusu ümumi xüsusiyyətlərə malikdir: yoluxma, çoxalma, nəzərə çarpmayan, qıcıqlandırma, dağıdıcılıq, epidemiya və s. Bu faktı kompüter terminologiyasındakı bir çox sözlər və söz birləşmələri də sübut edir, məsələn: virusun siqnaturası, virusun tipləri, virusun mutasiyası, virusdan qorunma tədbirləri, kompüter viruslarının məhvi, virusun mövcudluğunu üzə çıxarmaq üçün skan etmək, virus proqramı, antivirus / antivirus proqramı.

Adları yuxarıda çəkilən sahələrdə virusların analogiyası mücərrəd və mürəkkəb anlayış olan kompüter virusu terminini daha obrazlı edir, məsələn: kompüter virusların tapılması, yox edilməsi və ondan müdafiə üçün bir neçə növ xüsusi proqramlar hazırlanmışdır ki, onların köməyi ilə virusları tapmaq və məhv etmək olur.

"Yaddaş is. Bir şeyi zehnində saxlamaq və yenidən təsəvvürdə canlandırmaq qabiliyyəti, hafizə" [2, s. 498].

Yaddaş sözünün ilkin mənası əvvəlki təəssüratları, təcrübələri, eləcə də şüurda saxlanılan təəssüratların, təcrübələrin çoxunu şüurda saxlamaq və təkrarlamaq qabiliyyətidir.

Kompüter terminologiyasında yaddaş hesablama müəyyən vaxt əzində hesablamalarda istifadə edilən məlumatların saxlanması üçün hesablama maşının bir hissəsi, fiziki qurğudur. Məişət anlayışından kompüter anlayışına metaforik köçürülmə saxlanma və işlənmə funksiyalarının oxşarlığı əsasında həyata keçirilir.

"Memory – память – bellek – yaddaş – informasiyanı saxlamağa və bərpa etməyə imkan verən mikrosxem. Ən geniş anlamda yaddaş maqnit diskləri, yaxud maqnit lentləri kimi xarici sistemlərə aid olur; ancaq çox zaman yalnız bilavasitə prosessorla birləşdirilmiş, yarımkeçiricilər əsasında olan sürətli operativ yaddaş (RAM) nəzərdə tutulur" [3, s. 489].

"Menyu (fr.) Restoran, aşxana və kafedə yeməklərin adları olan siyahı" [1, s. 305]. Menyu sözünün ilkin mənası yeməklərin seçimi, həmçinin onların siyahısı olan vərəqdir.

"Menu – меню – menü – menyu – proqramın parametrlərinin, komandalarının və başqa elementlərinin elə strukturlaşdırılmış yığınıdır ki, istifadəçi lazım olan əməliyyatı yerinə yetirmək üçün onlardan birini seçə bilər" [3, s. 489].

Göstərilən obyekt konkret və maddi əşyadır. Qastronomiyada olduğu kimi, kompüter sahəsində də menyu nəyinsə siyahısını bildirir, lakin o virtual proqramdır. Çox vaxt bu termin saytlara tətbiq olunur və onun onun bölmələri və kompüter proqramlarının siyahısını bildirir. Burada menyu fəaliyyət və komandaların siyahısıdır ki, onların vasitəsilə həmin proqamı idarə etmək olar. Burada da metaforik köçürülmə əşyanın funksiyalarının oxşarlığı əsasında həyata keçirilir.

"Poçt. 1. Adresatlara pul, məktub və s. göndərməklə məşğul olan rabitə idarəsi və həmin idarənin yerləşdiyi bina. 2. Həmin idarə vasitəsilə alınan məktub, bağlama və s." [1, s. 612].

Elektron poçt paylanmış kompüter şəbəkəsi (o cümlədən İnternet vasitəsilə) üzərindən elektron mesajların (elektron poçtların) göndərilməsi və qəbulu üçün təqdim etdiyi texnologiya və xidmətlərdir. Mənbənin hədəfə uyğunlaşdırılması göndərmə və qəbul funksiyasının oxşarlığına əsasən həyata keçirilir.

"Mailbox – почтовый ящик – posta kutusu – poçt qutusu – şəbəkə istifadəçisinin elektron poçt məlumatlarını alması üçün diskdə nəzərdə tutulmuş yaddaş hissəsi" [3, s. 478].

Koqnitiv terminşünaslığın inkişafı ilə bağlı terminlərin adlandırılmasının koqnitiv mexanizmi terminoloji tədqiqatlarda əsas yer tutmağa başladı. Kompüter terminlərinin formalaşması vasitələri tədqiqatların aktual mövzusuna çevrildi. Məqalə metaforikləşmə hadisəsinə sistemli yanaşma əsasında koqnitiv terminşünaslıq çərçivəsində əsas kompüter terminlərinin semantik izahına həsr edilmişdir.

İşin elmi nəticəsi: Kompüter terminologiyasının əhəmiyyətli bir hissəsini ümumişlək sözlərin mənalarının metaforikləşməsi nəticəsində yaranan terminlər təşkil edir. Məqalədə metaforikləşmə hadisəsinə sistemli yanaşma əsasında koqnitiv terminşünaslıq çərçivəsində əsas kompüter terminlərinin semantik izahı verilir. Azərbaycan dilinin kompüter terminləri metaforik köçürülmənin köməyi ilə, hər şeydən əvvəl, əşyaların xarici oxşarlığı əsasında yaranır.

İşin elmi yeniliyi: Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, ilk dəfə olaraq kompüter terminologiyasının semantik aspektləri hərtərəfli araşdırılaraq, terminlərin metaforikləşməsi prosesi izlənilir.

İşin tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi: Tədqiqatın praktiki əhəmiyyəti ondan ibarətdir ki, tədqiqatın nəticələri kompüter texnologiyası üzrə sistemli ikidilli lüğətin hazırlanması üçün əsas təşkil edə bilər və gələcəkdə Azərbayan dilinin kompüter terminləri lüğətinin yaradılmasında da istifadə oluna bilər.

Ədəbiyyat

1. Azərbaycan dilinin izahlı lüğəti: [4 cilddə]. − Bakı: Şərq-Qərb, − c.3, − 2006, − 672 s.
2. Azərbaycan dilinin izahlı lüğəti: [4 cilddə]. – Bakı: Şərq-Qərb, − c.4, − 2006, − 712 s.
3. Calallı, İ. İnformatika terminlərinin izahlı lüğəti / İ.Calallı. −Bakı:Bakı nəşriyyatı, − 2017, − 996 s.

4. Rüstəmov, Ə.M. İnformatika:Azərbaycanca-rusca-ingiliscə izahlı terminlər lüğəti / Ə.M.Rüstəmov. − Bakı: Uniprint, − 2011, − 570 s.
5. Зарипова, А.Н. Экономическая терминология в немецком, русском и татарском языках: Дисс. … канд. филол. наук. − Казань: − 2004.
6. Фролова, О.Н. Словообразование в терминологической лексике современного китайского языка / О.Н.Фролова, − М., − 1981, − 132 с.
7. Цаголова, Р.С. Лексико-семантические особенности политэкономических терминов / Р.С.Цаголова, − М., − 2017.
8. Шу, Динфан. Исследования по метафоризации. − Шанхай, − 2000, − 267 с.
9. Lakoff, G. Metaphors We Live By / G.Lakoff, M.Johnson. −Chicago, − 1981, − p. 256.

S.M.Gafarova

Metaphorization of Computer Terms

Summary

In the process of forming computer terms, metaphorization occurs at different levels. The productivity of a particular method of term formation is determined by the features of a computer terminological system. Numerous linguistic facts show that a model based on existing similarities, including similarities in external features and functions, plays an important role in the formation of computer terms.

Key words: *cognitive linguistics, metaphor, computer term, word formation, metaphorical transfer*

С.М.Гафарова

Метафоризация компьютерных терминов

Резюме

В процессе образования компьютерных терминов метафоризация происходит на разных уровнях. Продуктивность конкретного способа терминообразования определяется особенностями компьютерной терминологической системы. Многочисленные лингвистические факты показывают, что важную роль в образовании компьютерных терминов играет модель, основанная на существующих сходствах, в том числе сходства внешних признаков и функций.

Ключевые слова: *когнитивная лингвистика, метафора, компьютерный термин, словообразование, метафорический перенос.*

Rəyçi: fil.f.d. A.Bədəlova

Redaksiyaya daxil olub: 29.03.2024

A.Ə.QULİYEVA
dosent, müəllim
e-mail: aynurmurad@yahoo.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

:10.62021/0026-0028.2024.2.068

İNGİLİS DİLİNDƏ OLAN ZOONİMLƏRİN LEKSİK XÜSUSİYYƏTLƏRİ

Xülasə. *Zoonimlər ingilis dilinin lüğətinin mühüm hissəsini təşkil edir. Heyvanların müxtəlif xüsusi adlarla adlandırılması qədim zamanlardan bu günə qədər mövcud olmuşdur ki, bu da onların insan həyatındakı xüsusi rolu ilə bağlıdır. Onlar insanın təsərrüfat fəaliyyətində əvəzsiz köməkçilər, sirk və zoopark işçiləri üçün yaxın və həqiqi dostlardır. Üstəlik, onları tərcümə etmək mümkün olmadığından, ekvivalent olmayan vahidlərə aid edilir. Məhz buna görə də o, sözlərin semantik təhlili və müqayisəsi yolu ilə üzə çıxan milli-mədəni komponenti ehtiva edir. İnsan dünya ilə deyil, öz ideyaları, idrak nümunələri və modelləri ilə məşğul olur. Belə olduğu halda da dil və mədəniyyətin ünsiyyəti və qarşılıqlı əlaqəsi müasir dilçiliyin əsas problemlərindən birinə çevrilir.*

Açar sözlər: *zoonim, frazeoloji vahidlər, metafor, leksik xususiyyət, ünsiyyət*

Hər bir dilin lüğət tərkibinin zənginləşməsində zoonimlər nəzərə çarpacaq yer tutur. Bildiyimiz kimi, zoonimlər heyvanlara verilən xüsusi adlardır. Daha dəqiq desək, heyvan adları ilə bağlı ləqəblərdir ki, bunlardan istifadə olunur. Zoonimlər onomastikanın bir sahəsidir. Bəs onomastika nədir? Onomastika dilçilikdə ən gənc hesab olunan elm sahəsidir ki, dildə uzun müddət istifadə və ya başqa dillərdən alınma nəticəsində hər hansı xüsusi adın tarixini öyrənir. "Dildə mövcud olan xüsusi adların cəmi onomastikanı təşkil edir. Deməli, onomastika hər hansı bir dildəki xüsusi adların məcmusudur" [1, s. 3]. Zoonimiya isə onomastikanın heyvanların adlarını və ləqəblərini öyrənən ən gənc elm sahələrindən biridir.

Onomastik vahidlərinin bir qrupu olduğuna görə prof. A.M.Qurbanov zoonimləri ümumi və xüsusi olmaqla iki yerə ayırır. Onun fikrinə görə, heyvan, quş növlərin, sürünənlər, həşəratlar ümumi zoonimlərə daxildir. Adları, "ləqəb"ləri isə xüsusi zoonimlərə aid edir. Buraya da, o, əsasən, zooantroponimləri − heyvan adlarından əmələ gəlmiş şəxs adlarını (Maral, Ceyran, və s.), zootoponimləri − heyvan adlarından əmələ gəlmiş toponimləri (Tülküdərəsi, Ayıtalası, və s.), zoohidronimləri – heyvan adlarından əmələ gələn hidronimləri (Ceyranbatan, Maralgöl və s.) daxil edir [2, s. 402-403].

Zoonimlər zəngin metafor, frazeoloji vahidlər mənbəyidir və deyə bilərik ki, onlar nümunəvi milli mədəni baxışları, fikirləri ifadə edirlər. Onlar heyvanların zahiri görkəminə və davranışına insanın davamlı müşahidəsini əks etdirir. Onlara insanların münasibətini göstərərək bəzi keyfiyyətlərini önə çəkir və simvollara çevrilirlər. Zoonimlər hər bir dilin mədəniyyət və informasiya fonduna çevrilməklə hər bir xalqın təfəkkürünü yaradırlar.

Zoonimlər həm bədii ədəbiyyatda, həm də ünsiyyət zamanı müxtəlif funksiyaları yerinə yetirə bilərlər və xüsusi semantic gücə malikdirlər. Məsələn, müxtəlif frazeoloji vahid, idiom, atalar sözləri, zərb məsəllərdə metaforik mənalarda işlədilə bilər. İnsanların zoomorfoloji səciyyələndirilməsi zamanı zoonimlər məcazi mənada işlədildiyi üçün məna daralması baş verir.

İstənilən dildə heyvanların adlarına istinad təbii və normal hesab olunur, çünki heyvanlar da insanlar kimi özünəməxsus vərdişlərə, xüsusiyyətlərə malikdir. Onların da hər birinin özünəməxsus həyat tərzi və davranışı mövcuddur. Hal-hazırda bir çox heyvan adları metafor ilə təyin olunur. Metaforik obraz insanın heyvan haqqında təsəvvürü əsasında formalaşır və

heyvan adı ardıcıl olaraq müəyyən keyfiyyət və xüsusiyyətlərə malik olan predmetlə, onun simvolik mənası ilə əlaqələndirilir. İngilis dilində, *the cow is stupid, the hare is wise, the fox is sly, the bear is clumsy, a snake in the grass, as stubborn as a mule* və s.

Hər bir dilin frazeoloji sistemində zoonimlər böyük bir hissəni təşkil edirlər desək yanılmarıq. Frazeoloji vahidlərin formalaşmasının dilçilik baxımından öyrənilməsi xalqın dünyagörüşünün xüsusiyyətləri haqqında məlumat əldə etməyə imkan verir. Dilin leksik sistemində zoonimlər ən maraqlı hadisələrdən biridir. Hələ qədim dövrlərdən heyvanların qavranılmasında rəmz kimi heyvaniliyin və totemizmin formalaşdığı bizə məlumdur. İnsan özünü yaradılışın zirvəsi kimi ucaltmayıb, heyvanların davranışları müəyyən dərəcədə insanlara örnək olub.

Zoonimləri ev heyvanları (keçi, at, dovşan, it, donuz, toyuq, inək, toyuq, qoç) və vəhşi heyvanlar (maral, meymun, pələng), quşlar (göyərçin, bayquş), həşəratlar (hörümçək) və sürünənlər (ilan) olmaqla kateqoriyalara bölürlər. Bu bölgüdə kontekstual bir məna əldə edərək, müəyyən bir xarakter xüsusiyyətini və ya düşüncə tərzini vurğulamaq üçün istifadə olunur. İkili təbiətə malik olan, yəni insanı həm müsbət, həm də mənfi xüsusiyyətlərinə görə səciyyələndirən leksik komponentlər – heyvan adları xüsusi maraq doğurur. İngilislər insanın hər iki xüsusiyyətinin cəhətlərini aşağıdakı kimi heyvan adlarından istifadə edərək fikirlərini ifadə edirlər:

as harmless as a dove – göyərçin kimi zərərsiz;
innocent as a lamb – quzu kimi günahsız;
as watchful as a hawk – şahin kimi ayıq;
behave like a dog – it kimi davranmaq;
as fat as a pig – donuz kimi kökəlmək;
be lower than a snake's belly – çox alçaq, rəzil olmaq;
as greedy as a wolf – qurd kimi tamahkar olmaq və s.

İlk növbədə insanlara yaxın olan ev heyvanlarına (pişik, it, at, inək) xüsusi adlar verilir: Məstan, *Reks, Pulsar, Gümüş, Xallı, Yallı, Maks, Poppy* və s. Lakin cəmiyyət üçün müəyyən əhəmiyyət kəsb edən digər heyvanların (məsələn, zooparklarda və sirklərdə saxlanılan) öz adları ola bilər. Bundan əlavə, zoonimlərin semantikasında çoxfunksiyalı zoonimlər müəyyən olunur ki, bu adlar, ləqəblər müxtəlif heyvan növlərinə uyğun atribut kimi tətbiq olunur. Zoonim hər hansı heyvan növünün tipik ləqəbi statusu aldıqda asanlıqla ikinci dərəcəli təsnifat nominasiyasını alır, yəni ümumi adlar kateqoriyasına qayıda bilir.

Məlum olduğu kimi, sözlərin leksik mənasının həm denotativ, həm də konnotativ məna növləri olur. Zoonimlər də dil elementlərinin tərkib hissəsi kimi həm denotasiya, həm də konnotasiya məzmununa malikdirlər. Denotatlar öz istinad, birbaşa mənalarını ifadə edərkən, insanların hisslərindən, qavrayışlarından və zehni obrazlarından irəli gələn konnotasiyalar isə ifadə olunan obyektə müsbət və ya mənfi fikirlərini ortaya qoyurlar.

Belə bədii ifadəli konnotasiyalar atributlar toplusunu verilmiş insanlara, obyektlərə və ya elementlərə aid edir. Təcrübədə bu cür atributların öyrənilməsi bizi dominant təfəkkürün və dildə və cəmiyyətdə zoonimlərin istifadəsinə üstünlük verən tendensiyanı başa düşməyə aparacaq [3].

Z.F.Jurabayevanın fikrinə görə, zoonimlər mənbə etibarilə bir neçə yerə bölünür:

a) çoxsaylı antroponimlər. İngilislərin nitqində qısaldılmış sözlərə düzəltmə elementlərin artırılaraq istifadəsinə daha geniş rast gəlinir. Məsələn, Mag, Sam, Ben və s. adlara "-y" və ya "-ie" şəkilçisi əlavə oluaraq Molly, Nicky, Maggie kimi ifadə olunur.

b) nominal adlar. Burada heyvanların bəzi xarici xüsusiyyətlərini, xarakterini və ya onunla başqa bir əlaqəni vurğulayan nominal adlar, başqa söz və ifadələr işlədilir. Məsələn, *Blackberry, Sweety Pie, Spotsie* [5].

Dilçilikdə zoonimlər son dərəcə az tədqiq edilmiş və onların tərcümə mətnlərində transformasiya məsələsi praktiki olaraq işlənməmişdir. Tərcümə üçün problem ilk növbədə müəyyən motivasiyaya malik ləqəblərdir.

Elmi ədəbiyyatda zoonimlər az tədqiq olunduğu üçün və onların tərcümə mətnlərində ötürülməsi problemini həll etmək mümkün olmur. Tərcümə üçün problemlər ilk növbədə insanların müəyyən motivasiyaya malik olduğu ləqəblərdir.

Əgər ləqəb ümumi isimdən və ya səciyyələndirici söz və ya söz birləşməsindən yaranıbsa, bu orijinal söz və ifadələrin mənası, bir qayda olaraq, aktual olaraq qalır və buna görə də tərcümə üçün vacibdir. Bu mənanı çatdırmaq cəhdi çox vaxt xüsusi isimlərin fərdiləşdirmə funksiyası ilə ziddiyyət təşkil edir ki, bu da onun unikal zahiri formasının qorunmasını tələb edir.

Zoonimlərin tərcüməsi zamanı tərcüməçi ilk olaraq tərcümənin xarakterindən və vəziyyətindən asılı olduğunu bilməlidir. Bu zaman tərcümə olunan mətnlərin şifahi və yazılı şərhində, orijinala yaxın adın xarici formasını çatdıran onomastik uyğunluqlardan istifadə olunmalıdır. Ünsiyyətlər zamanı tərcüməçi oxucuya başa salır ki, heyvan zoonimin daşıyıcısıdır. Ləqəbin motivasiyasını dinləyiciyə, oxucuya izah etməyi zəruri hesab edən tərcüməçi tərcüməni aydınlaşdırmaq üçün mötərizə daxilində hərfi mənası ilə yanaşı, daşıdığı ümumi başa düşülən mədəni və ya emosional əlaqələri təsvir edə bilər.

İşin elmi nəticəsi: belə hesab edirik ki, zoonimlər istər bədii ədəbiyyatda, istər şifahi nitqimizdə daim işlənsə də yeni-yeni elmi araşdırmalara ehtiyac duyulur.

İşin elmi yeniliyi: ingilis dilində olan zoonimlərin ifadə etdiyi leksik mənalar araşdırılmaya cəlb olunmuşdur, müəyyən dərəcədə zoonimləri izah etməyə çalışmışıq.

İşin tətbiqi əhəmiyyəti: belə düşünürük ki, "İngilis dilində zoonimlərin leksik xüsusiyyətləri" mövzusunda tədqiqat aparan hər kəs üçün əhəmiyyətli ola bilər.

Ədəbiyyat

1. Azerbaycan onomastikasi (kurs üzrə metodik göstəriş). − Bakı, − 1990, − 91 s.
2. Qurbanov, A.M. Azərbaycan dilinin onomalogiyası / A.M.Qurbanov. − Bakı: Maarif, − 1988, − 596 s.
3. Ghobadighadikolaei, F. A comparative connotative Analysis of 35 Zoonyms in English and Persian.SCI Science Arena Publications Specialty Journal of Humanities and Cultural Science ISSN: 2520-3274 www.sciarena.com 2018, Vol, 3 (2): 13-19
4. Hajiyeva, A. English lexicology / A.Hajiyeva. − Baku, − 2011, − p. 248.
5. https://cyberleninka.ru/article/n/linguocultural-analysis-of-zoonyms-in-english-and-uzbek

A.A.Guliyeva

Lexical Features of Zoonyms in English Language

Summary

Zoonyms consist of an important part of the vocabulary in English language. The naming of animals by various special names has existed since ancient times to nowadays, which is related to their special role in human life. They are invaluable assistants in human economic activity, close and true friends for circus and zoo workers. Moreover, since they cannot be translated, they are attributed to non-equivalent units. That is why it contains a national-cultural component revealed through the semantic analysis and comparison of words. Human does not deal with the world, but with his own ideas, cognitive patterns and models. Even so, the communication and interaction of language and culture becomes one of the main problems of modern linguistics.

Key words: *zoonym, phraseological units, metaphor, lexical feature, communication*

А.А.Кулиева

Лексические особенности зоонимов в английском языке

Резюме

Зоонимы составляют важную часть словарного запаса английского языка. Наименование животных различными специальными именами существует с древнейших времен и по наших дней, что связано с их особой ролью в жизни человека. Они – неоценимые помощники в хоз-

яйственной деятельности человека, близкие и верные друзья работников цирка и зоопарка. При этом, поскольку они не подлежат переводу, их относят к безэквивалентным единицам.Именно поэтому оно содержит национально-культурный компонент, выявляемый посредством семантического анализа и сравнения слов. Человек имеет дело не с миром, а со своими собственными идеями, когнитивными закономерностями и моделями. Несмотря на это, общение и взаимодействие языка и культуры становится одной из главных проблем современного языкознания.

Ключевые слова: *зооним, фразеологический единицы,метафора, лексическая особенность, коммуникация*

Rəyçi: dos. Z.N.Aslanova

Redaksiyaya daxil olub: 22.04.2024

İ.N.SƏRDAROVA
filologiya üzrə fəlsəfə doktoru, dosent
e-mail: iradasardarova@yahoo.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

:https://orcid.org/0009-0005-6189-5869

:10.62021/0026-0028.2024.2.072

ÜNSİYYƏTİN KOMMUNİKATİV MODELİ

Xülasə. *Məqalə ünsiyyətin kommunikativ modelindən bəhs edir. Müəllif ünsiyyəti mürəkkəb bir proses kimi təqdim edir. Ünsiyyət modelinin daha dolğun və aydın şəkildə təqdim edilməsi son dövrlərdə təkcə dilçi alimləri deyil, nitq fəaliyyəti ilə məşğul olan digər sahə mütəxəssilərini də maraqlandırır. Psixoloqlar və fizioloqlar bu modellə ünsiyyətin psixoloji və fizioloji əsaslarını açmağa çalışırlar.*
Məqalədə ünsiyyət modeli müasir rabitə sistemləri ilə müqayisə edilir. Qeyd edilir ki, dilin fonoloji yarusunun vahidləri normaya əsasən səslərdə öz əksini tapır. Bunun üçün insanda tarixi inkişaf prosesində danışıq vasitələri formalaşmış və insan ayrı-ayrı səslərin tələffüzünə nail olmuşdur.

Açar sözlər: *ünsiyyət, model, nitq, fonoloji, beyin, səs*

Ünsiyyət mürəkkəb bir prosesdir. Onun modelinin daha dolğun və daha aydın verilməsi son dövrlərdə təkcə dilçiləri deyil, danışıq fəaliyyəti ilə məşğul olan bütün elm sahələrini maraqlandıran məsələlərdəndir. Psixoloqlar və fizioloqlar bu modellə ünsiyyətin psixoloji və fizioloji əsasını aşkar etməyə çalışırlar. Texnika elmləri, xüsusilə avtomatik tərcümə, obrazların və nitq siqnallarının avtomatik tanınması və informasiya nəzəriyyəsi kimi yeni bilik sahələri bu modeldə ünsiyyətin analoqunu yaratmağa can atırlar. Məlumdur ki, modelləşmə müasir elmin inkişafında xüsusi mərhələ sayılır. Ünsiyyət modeli ilə biz danışıq kimi çoxşaxəli bir prosesi əyaniləşdirmiş oluruq. Ünsiyyət modeli dedikdə biz "danışma-dinləmə-dərketmə" prosesinin necə keçdiyini başa düşürük.

Dil ünsiyyət vasitəsi kimi ona görə fəaliyyət göstərir ki, dil vahidləri insan tərəfindən reallaşır, kodlaşdırılır və insan tərəfindən qəbul edilir, dekodlaşdırılır. Bu modelə baxanda müasir rabitə sistemlərini xatırlayırıq. Dilin fonoloji yarusunun vahidləri normaya əsasən səslərdə öz əksini tapır. Bunun üçün insanda tarixi inkişaf prosesində danışıq vasitələri formalaşmış və insan ayrı-ayrı səslərin tələffüzünə nail olmuşdur. Real gerçəkliyin hiss üzvləri vasitəsilə inikas etməsi və şeylərin insan beynində yaranmış şəkillərinin və obrazlarının ifadəsi üçün sinir sisteminin mürəkkəb fəaliyyəti nəticəsində danışıq cizahında fəal üzvlərin hərəkəti və xirtdəkdə səs tellərinin titrəməsi ilə yaranmış səsin xirtdəküstü boşluqlarda müxtəlif şəklə düşməsi və nəhayət, səslərin hava dalğaları kimi ardıcıllığı uzun sürən bir evolütiv prosesin məhsuludur. Bu prosesin bir növ əks istiqamətini dinləyəndə görürük. Hava dalğaları səsin gücündən və tezliyindən asılı olaraq dinləyənin qulağına çatır, səslər insan qulağına daxil olur, mexaniki prosesə çevrilir, sinirlərə çatır, sinirlər isə eyni eşitmə mərkəzində oyanma yaradır. Beləliklə, göndərilən məlumat dərk edilir və dilin kommunikativ funksiyası yerinə yetirilmiş olur.

Ünsiyyət modelində nəzərə çarpan 4 komponenti bir-birindən ayırmaq lazımdır: 1) Ünsiyyətin linqvistik bazası; 2) Ünsiyyətin artikulyator bazası; 3) Ünsiyyətin akustik bazası; 4) Ünsiyyətin perseptiv bazası [1, s. 55] (Bax: şəkil 1).



Şəkil 1. *Ünsiyyətin modeli.*

İndi bunların hər biri üzərində ətraflı dayanaq.

Ünsiyyətin linqvistik bazası

Burada ünsiyyətdə çıxış edən dil işarələrindən söhbət gedir. Bu işarələrin biri digərilə paradiqmatikada qarşı-qarşıya qoyulur. Fərqlənmə bir və ya bir neçə əlamətə əsaslana bilər. Paradiqmatikada vahidlərin qarşılaşması eyni diferensial əlamətlər üzrə olduğu halda, sintaqmatikada qarşılıqlı əlaqə oppozisiya diapozonunu variativlik baxımından genişləndirir və buraya diferensial əlamətlərdən başqa inteqral əlamətlər də daxil olur. Müqaisə et:

[t^0]		[d^0]		[s^0]	
[t]	[t´]	[d]	[d´]	[s]	[s´]
[t^h]		[ḍ]			[s̲]

Göründüyü kimi, [t] və [d] fonemləri sintaqmatikada bir neçə variantda çıxış edir, lakin onların paradiqmatik qarşılaşması bir fonem hüdudundan kənara çıxmamaq şərtilə qüvvədə qalır. [t] və [d] nitq zəncirində dodaqlanan yumşaq və sərt variantlarında oppozitiv münasibətə girir.

Ünsiyyətin baş tutması üçün danışanla dinləyənin eyni linqvistik bazaya malik olması əsas şərtdir. Avarın öz ana dilində *(dun dirsjəe qoola) – "Mən dərsə gedirəm"* cümləsi ilə verdiyi məlumatı bu dili bilməyənlər başa düşməyəcəklər. Linqvistik bazanın 2-ci ən mühüm komponenti normadır. Norma sistemlə tənzimlənir. Sistemdə olmayan dil vahidi və ya hadisəsi normaya gələ bilməz. Dilönü samitlərin dodaqlanmaya görə fərqlənməsi yoxdur. Lakin dilönü samitləri [Ø], [ü], [o], [u] saitləri qarşısında dodaqlanır. Beləliklə, sistemə paradiqmatik baxımdan xas olmayan xüsusiyyət, sintaqmatik səviyyədə özünü göstərir. Norma dil vahidinin nitq zəncirində fəaliyyəti ilə bağlıdır. Norma da danışığı tənzimləyir.

Fonemlər ünsiyyət prosesində təklikdə, təcrid edilmiş şəkildə işlənmirlər. Çox nadir hallarda bu və ya digər dildə məlumat yalnız bir fonemin intonasiya tipində realizə olunması ilə verilir. Məsələn, Azərbaycan dilində *"Kim oxuyur?" – O* [1, s. 28] dialoqunda cavabda yalnız bir fonem realizə olunmuşdur. Azərbaycan dilində bir fonemin morfem, söz, cümlə kimi çıxış etməsinə təsadüfi hallarda rast gəlinir.

Fonemlərin morfem kimi çıxış etməsinə Azərbaycan dilində yönlük və yiyəlik hallarında, feil şəkillərində və s. alman dilində cəm və hal şəkilçisi kimi [ə] və birləşdirici əlamət

kimi [s], rus dilində hal və cəm şəkilçisi kimi, habelə ayrı-ayrı söz kimi [i, a, u, v] və s. işlənməsinə rast gəlmək olur. Adətən, morfem, söz və cümlələr bir neçə fonemin ardıcıllığıdır. Elə buna görə də nitq zəncirində bir-biri ilə əlaqəyə girdiyindən fonemlər ciddi dəyişikliklərə uğrayırlar. Fonemin dəyişikliyə uğramasında vurğunun və intonasiyanın, onu əhatə edən qonşu fonemlərin, habelə danışan şəxsin sosial-linqvistik inkişafı mühüm rol oynayır. *(səeməed ayı-ayı gülümsündü)* cümləsində 11 fonem bir-birinin ardınca düzülmüşdür. Onlardan /u/ – 3 dəfə, /s/ – 2 dəfə, /əe/ – 2 dəfə, /m/ – 2 dəfə, /d/ – 2 dəfə, /a/ – 2 dəfə təkrar olunur. Bu fonemlərin işlənmə mövqeləri tamamilə müxtəlifdir. Məsələn, /s/ fonemi birinci dəfə cümlənin əvvəlində vurğusuz [əe] saiti qarşısında, 2-ci dəfə isə /m/ samitindən sonra və vurğusuz /ü/ qarşısında işlənmişdir. Şübhəsiz, bu iki /s/ arasındakı fonetik fərq çox böyükdür, onlar akustik cəhətdən bir-birindən əsaslı şəkildə fərqlənir, lakin fonoloji cəhətdən hər ikisi eyni fonemi təmsil edir. Hər ikisi bir fonemin – /s/-in funksiyasını yerinə yetirir.

Digər tərəfdən, həmin fonemlər onları realizə edənin, danışanın spesifik fərdi xüsusiyyəti ilə əlaqədar olaraq, dəyişikliyə uğrayır. Birinci növ dəyişikliyə uğramanı L.R.Zinder kombinator, ikinci növ dəyişikliyi isə fərdi dəyişiklik adlandırır [12, s. 60].

Fonologiya fonetikanın tərkib hissəsidir. Danışanın tələffüz etdiyi səslərlə dinləyicinin dərk etdiyi vahidlər arasındakı qarşılıqlı əlaqənin öyrənilməsi dilçiləri maraqlandıran mühüm məsələlərdən biridir. Klassik fonetika hər bir səsdə üç aspekti ayırırdı, lakin danışıq üzvlərinin fəaliyyəti səslərin yaranmasında əsas səbəb hesab edilirdi. Elə buna görə də nitqin artikulyator tərəfi birinci, akustik aspekt isə danışıq üzvlərinin hərəkətinin nəticəsi olduğundan ikinci hesab edilirdi. Bu fikirlə razılaşmayan akustiklər israr edirdilər ki, şeylərin mahiyyəti onların meydana gəlməsindən daha vacibdir. Akustiklər və fizioloqlar (genetiklər) arasında uzun sürən mübahisə dilin səs tərəfinin funksional aspektinin mahiyyətini açmaqdan yayınaraq, artikulyator və ya akustik baxımın 1-ci olmasını ayırd etməyə yönəltmişdi. O.Yespersen yazırdı: *"Tərəflərin hər biri özlüyündə düzgün mövqe tutmur, ancaq onların hər ikisi birlikdə haqlıdır"* [2, s.75].

Dilçiliyin tarixinə akustik aspektin o qədər əhəmiyyətli olmaması haqqında çoxlu faktlar məlumdur. Q.Forxhammer qeyd edir ki, nitq səsləri danışıq üzvlərinin yerindən başqa bir şey deyildir. Ona görə də, Q.Forxhammer səslərin əmələ gəlməsinə dair fikirlərini dilçilik tarixində dönüş nöqtəsi adlandırır, fonetikanı dilçilikdən çıxarır, onu "laletika" ilə əvəz etməyi təklif edir (gr. *Lalein* – danışmaq) [3, s. 24].

O.Yespersenin fikrindən məlum olur ki, hansı aspektin daha vacib olduğunu aydınlaşdırmaq elm üçün mənasız bir şeydir, onların hər ikisi vacibdir [3, s. 25].

Danışıq üzvlərinin hərəkətinin nəticəsi olan akustik effekt dilin kommunikativ funksiyasının həyata keçməsi üçün mühüm şərtdir.

Qeyd etmək lazımdır ki, artikulyator aspekt XX əsrin əvvəllərinə qədər aparıcı olmuşdur. Bütövlükdə bu aspekt o zamanlar Almaniyada hakim cərəyan olan psixologiyaya əsaslanırdı. A.Svit [4, s. 19] və E.Siversin [5, s. 76] ilk əsərləri tamamilə psixoloji konsepsiyanın təsiri altında yazılmışdı. Bunun əksinə olaraq Rusiyada dil səslərini akustik cəhətdən öyrənməyə başlamışlar. A.İ.Tomsonun, L.V.Şerbanın [6] və V.A.Boqoroditskinin [7] əsərlərində nitq səslərinin akustik xüsusiyyətləri haqqında geniş məlumat verilir, akustik və artikulyator aspektlərin qarşılıqlı əlaqəsi göstərilir. Müəlliflər qeyd edirlər ki, bu və ya digər aspektin primatının aşkar edilməsi nəzəri məsələ deyildir, hər hansı bir məsələnin praktiki həllində isə məqsəddən asılı olaraq bu və ya digər aspekt aparıcı ola bilər [8, s. 90].

Müasir Amerika dilçilərindən R.Yakobson, M.Halle və başqalarınn fikrincə, ünsiyyətdə dərketmə birincidir, artikulyator aspekt axırıncı, akustik baxım isə ortada qalır. R.Yakobson və onun həmkarları bu qənaətə akustik təhlil nəticəsində gəlirlər.

Aydın məsələdir ki, aspektlərin primatlığı fonetikanın elmlər içərisində yerinə toxunmaya bilməz. Fonetikanın müstəqilliyi və onun humanitar və dəqiq elmlər arasındakı yeri ciddi mübahisə doğuran məsələlərdəndir. "Baxım elmin obyektini müəyyən edir" deyən F. de Sös-

sür, qarşılaşdırma nəticəsində hasil edilən fərqləndirmələri əsas götürür. Lakin bu böyük alim fərqləndirmənin maddi əsasını nəzərdən qaçırır.

Eksperimental fonetikanın geniş vüsət alması fonetikanın təbiət elmlərinə daha yaxın olması fikrini bir növ təsdiq edir. Bu bir də onunla bağlıdır ki, eksperimental fonetikanın başında dilçilər yox, həkimlər, fizioloqlar və akustiklər dururdular [9, s. 46].

F. de Sössürün şagirdi H.G.Trubeskoy müəlliminin nəzəri fikirlərinə sadiq qalaraq, danışıq səsləri haqqında iki fənnin mövcudluğunu sübut etməyə cəhd göstərir. O qeyd edir ki, bu fənlərdən biri danışıq aktına, digəri isə dilə yönəldilməlidir. Birincisi təbiətşünaslıq elmlərinə daha çox yaxındır, tədqiqatda təbiətşünaslıq elmlərinin işləyib hazırladığı metodlardan istifadə edir, ikincisi isə ictimai elmlərə daxildir. Trubeskoya görə, bu elmlərin özünəməxsus tədqiqat obyekti və tədqiqat metodları olduğundan, onların fonetika və fonologiya adı altında müxtəlif elmlər kimi qəbul edilməsi nəinki mümkündür, hətta vacibdir. Lakin N.S.Trubeskoyun [10, s. 67] bu cəhdi baş tutmadı.

Yuxarıda qeyd etdiyimiz kimi, dil danışıqda təzahür edir, yalnız danışıq dilin fonetik strukturunun öyrənilməsində obyekt ola bilər, bütün dil qanunauyğunluqları burada müşahidə olunmalı və ümumiləşdirilməlidir. Nitq səslərinin öncə öyrənilməsi akustikadan seçilmir. Fonetika akustika və ya fiziologiya olmaq istəmirsə, o linqvistik aspekti əsas götürməlidir.

Ünsiyyətdə iştirak edən danışan və eşidənin fizioloji cəhətdən öyrənilməsinin fonetika üçün heç bir mənası yoxdur. Fonetikanı fizioloji baxımdan səslərin deyilməsi və eşidilməsi prosesində danışıq üzvlərin rolunun nədən ibarət olması maraqlandırır. İnsan gurultu, çığırtı, hənirti bildirən səslər də deyə bilər, lakin bunlar ünsiyyətə xidmət etmir. Bu səsləri də insan eşidir, lakin bunları bütöv kimi dərk edir. İnsan qulağı onları tərkib hissələrinə bölmür, kompleks kimi eşidir. Fonetikanı dilçiliyin bölməsi kimi maraqlandıran odur ki, insan akustik cəhətdən minimum bir əlamətdən tutmuş, maksimum böyük tekstlərə qədər bir-birindən seçilən fikirlərin maddi qabığını tələffüz edir və bunları da onun müsahibi dərk edir. Fonetikanı məhz bu prinsiplərin aşkar edilməsi maraqlandırır. Fonologiyaya gəlincə demək lazımdır ki, o fonetik müxtəlifliyi eyniləşdirir, eyniliyi isə müxtəlifləşdirə bilir. Elə qarşılıqlı anlama da bu prinsipə əsaslanır. Aşağıda müxtəlif dillərdən gətirdiyimiz misallar bunu bir daha sübut edir.

Azərbaycan dilində	**Fransız dilində**	**Rus dilində**
$[a_1]\ldots[a_2]\ldots[a_3]$ | | $[a]$	[e]…[ε] ↓↓ [e] [ε]	[e]…[ε] [e]

N.S.Trubeskoy və onun tərəfdarları 1926-cı il (Praqa linqvistik dərnəyinin fəaliyyətə başladığı il) və xüsusilə linqvistlərin Haaqa konqresindən (1928) başlayaraq dilin səs tərəfi haqqında müstəqil elmin olması fikrini müdafiə edirlər. Lakin F.Veysəlli yazır ki, bu fikrin köklərini İ.N.Boduen de Kurtenin, L.V.Şerbanın və hətta ingilis D.D.Djounzun da əsərlərində görmək olar. Bu alimlərə görə, eşidilən və deyilən sonsuz səs çoxluğu dinstinktivliyə görə məhdud miqdarda səs mənalarında cəmləşir ki, bunlar vasitəsilə sözlər və söz formaları bir-birindən fərqlənir. Bu səs mənalarının konkret olaraq necə adlandırılmasından asılı olmayaraq (dilin səs sistemi vahidi, fonem, fonoloji vahid, səs təsəvvürü, səs tipi, səs ailəsi və s.) onlar heç zaman fonetika ilə fonologiyanı belə kəskin şəkildə qarşı-qarşıya qoymamışlar. Düzdür, İ.A.Boduen de Kurtene bu iki aspekti bir-birindən ayırmış, birincini antropofonika, ikincini isə psixofonetika adlandırmışdı [11, s. 78].

Fonetika və fonologiya terminləri hələ N.S.Trubeskoya qədər də ədəbiyyatda işlənirdi. Elə F. de Sössürün özündə fonetika dil sistemində səslərin tarixi dəyişmələri, fonologiya isə səslərin fiziologiyası haqqında elm kimi başa duşülür. O.Ernst isə fonetikaya motor danışıq

aktını tədqiq edən, fonologiyaya dilin tarixən yaranmasının səbəblərinin bir qismini öyrənən elm kimi yanaşırdı.

Hazırda dünya dilçiliyində N.S.Trubeskoyun fikrinə tərəfdar az tapılır Doğrudan da, N.S.Trubeskoyla razılaşdıqda ünsiyyətdə meydana gələn bir sıra hadisələri izah etmək mümkün olmur [1, s. 26]. Məsələn, rus dilində [o] saitinin diftonqoidli deyilişi müasir rus ədəbi tələffüzü üçün norma sayılır, ancaq rus dilinin fonoloji sistemində bu əlamət relevant sayıla bilməz, çünki rus saitləri sistemində fonemlərin diftonqoid, qeyri-diftonqoid əlamətə görə qarşılaşdırılması yoxdur. Başqa bir misal: Azərbaycan dilində sözün və morfemin mütləq sonluğunda [r] samiti karlaşır. Azərbaycan dili fonemlər sistemində sonorlar karlığa və cingiltiyə görə oppozisiya yaratmır. Lakin [r] samitinin karlaşması müasir Azərbaycan dilində tələffüz norması hesab edilməlidir. Müq. et: *(nar) "nar" (gar) "qar"* və s.

Beləliklə, elə hadisələr var ki, onlar dilin fonoloji sisteminə aid deyil, sırf fonetik xarakter daşıyır, lakin o hadisələrsiz fonologiya ola bilməz. Bütün bunlar bir daha göstərir ki, fonetika və fonologiyanın belə kəskin şəkildə qarşılaşdırılması F. de Sössürün dixotomik prinsipini əyani göstərməyə xidmət edir.

İşin elmi nəticəsi: bütün yuxarıda deyilənləri nəzərdən keçirərək deyə bilərik ki, ünsiyyətin modellərinin araşdırılması bu gün də aktualdır. Ünsiyyətin modelləri müəyyən edilməlidir və danışıqda onlara əməl edilməlidir.

İşin elmi yeniliyi: məqalədə ünsiyyətin kommunikativ modeli tədqiq edilmişdir. Ünsiyyət və onun kommunikativ modellərinin izah edilməsi, onların müəyyən edilməsini işin elmi yeniliyi kimi qəbul etmək olar.

İşin tətbiqi əhəmiyyəti: bizə elə gəlir ki, təqdim olunan məqalə "Ünsiyyətin kommunikativ modeli" mövzusu ilə maraqlanan hər kəs üçün əhəmiyyətli ola bilər. Bu məqalə ingilis dilinin Azərbaycan auditoriyasında tədris prosesinin təkmilləşdirilməsinə dair nəzəri biliklərin zənginləşdirilməsinə xidmət edə bilər.

Ədəbiyyat

1. Veysəlli, F.Y. Fonetika və fonologiya məsələləri / F.Y.Veysəlli. − Bakı: Mütərcim, − 1996.
2. Jespersen, O. Phonetische Grundfragen / O.Jespersen. – Berlin: – 1925, − s.75.
3. Forchhammer, G. Grundlagen der Sprechkunde / G.Forchhammer. – Halle: – 1924.
4. Sweet, H. A primer of phonetics / H.Sweet. – Oxford: – 1906.
5. Sievers, E. Grundzüge der Lautphysiologie / E.Sievers. – Leipzig: – 1876.
6. Щерба, Л.В. Языковая система и речевая деятельность / Л.В.Щерба. – Ленинград-Москва: Наука, –1974.
7. Богородицкий, В.А. Фонетика русского языка в свет-экспериментальных данных / В.А.Богородицкий. – Казань: – 1930.
8. Fischer. E.Jorgensen. The phonetic basis for identification of phonetic elements // In: "JASA", – 1962, 615 s.].
9. Otto Wilhelm von Essen. Allgmeine und angewandte Phonetik / Otto Wilhelm von Essen. – Berlin: – 1964.
10. Трубецкой, Н.С. Основы фонологии / Н.С.Трубецкой. – Москва: – 1960.
11. Бодуэн де Куртене, И.А. Избранные труды по общему языкознанию / И.А.Бодуэн де Куртене. – Москва: – 1963.
12. Зиндер, Л.В. Общая фонетика / Л.В.Зиндер. – Ленинград: – 1960.

I.N.Sardarova

The Communıcatıve Model of Communıcatıon

Summary

The article is about the communicative model of communication. The article presents communication as a complex process. A more complete and clear presentation of the communication

model has recently been of interest not only to linguists, but also to other specialists involved in speech activity. Psychologists and physiologists try to unravel the psychological and physiological basis of communication with this model.

The article compares the communication model with modern communication systems. It is noted that the units of the phonological level of the language are usually reflected in sounds. For this, in the process of historical development, the means of communication were formed in man, and man succeeded in pronouncing different sounds.

Key words: *communication, model, speech, phonological, brain, voice*

И.Н.Сардарова

Коммуникативная модель общения

Резюме

В статье рассматривается коммуникативная модель общения. Автор рассматривает общение как сложный процесс. Более полное и ясное представление этой модели – один из вопросов, интересующих в последнее время не только лингвистов, но и специалистов других научных сфер, занимающиехя речевой деятельностью. Психологи и физиологи пытаются раскрыть психологическую и физиологическую основу общения с помощью этой модели.

В статье сравнивается модель связи с современными системами связи. Отмечается, что единицы фонологического уровня языка обычно отражаются в звуках. Для этого в процессе исторического развития у человека сформировались средства общения, и человек научился произносить разные звуки.

Ключевые слова: *общение, модель, речь, фонология, мозг, голос*

Rəyçi: fil.f.d., dos. C.Babayev

Redaksiyaya daxil olub: 22.04.2024

S.E.TAĞIYEVA
filologiya üzrə fəlsəfə doktoru, dosent
e-mail: s.tagiyeva10gmail.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

:10.62021/0026-0028.2024.2.078

DÜZƏLTMƏ SÖZLƏRİN YARANMASINDA KONVERSİYANIN ROLU

Xülasə. *Məqalə söz yaradıcılığının formalaşmasında konversiyanın rolundan bəhs edir. Aydındır ki, əsasən feillər isimə, isimlərsə feillərə konversiya edə bilərlər. Araşdırmalardan aydın olur ki, yalnız feillər və isimlər deyil, başqa nitq hissələri də (sifət və feillər və s) isimə və feilə konversiya edə bilərlər. Bu yolla sözlərin yaranması ingilis dilinin söz yaradıcılığını lüğət tərkibini zənginləşdirir.*

Açar sözlər: *sözdüzəltmə, konversiya, çoxmənalılıq, substantivləşmə, semantik quruluş, fleksiya, affiksasiya*

Müasir ingilis dilində yeni sözlərin yaradılması üçün istifadə olunan digər sözdüzəldici üsul konversiyadır.

Sözyaradıcılığının obyekti düzəltmə sözləri tədqiq etməkdən ibarətdir və onun əsas vəzifəsi yeni söz mənaları və çalarları yaratmaqdır. Bu isə bir başa semantika ilə əlaqədardır. Hər bir yeni yaranmış söz morfoloji-semantik və genetik analizlərdən keçir. Yeni yaranmış sözlərə semantik və struktur məna baxımından yanaşmaq lazımdır. Sözyaradıcılığında forma və məna məfhumlarına vahid şəkildə yanaşma son dərəcə diqqət mərkəzində olan məsələdir.

İngilis dilinin sözyaradıcılığını təşkil edən, bütün qayda və qanunlar hər şeydən əvvəl ingilis dilinin sözdüzəltmə prinsiplərinə əsaslanır və daha doğrusu, onun yaranmasını quruluş xüsusiyyətlərini özündə əks etdirir. Aydındır ki, hər hansı bir dilin təbiəti, onun quruluş xüsusiyyətləri hər şeydən əvvəl, həmin dilin qrammatikasında öz əksini tapır. Demək olar ki, dilin qrammatik quruluşu xaricində sözyaradıcılığı prosesinin heç bir ünsürü əmələ gəlmir. Daha doğrusu dilin sözyaradıcılığı prosesi o dilin qrammatik quruluşu əsasında inkişaf edir [4, s. 15].

Sözün bir nitq hissəsindən digər nitq hissəsinə keçməsini səciyyələndirən formal əlamətlər olmadan bir nitq hissəsindən digər nitq hissəsinin yaranmasında sözdüzəldici element kimi sözün özünün çıxış etməsi mümkündür. Bir nitq hissəsindən digər nitq hissəsinin bu yolla yaranması konversiya adlanır.

Tarixi inkişaf və qrammatik formaların dəyişməsi, sayəsində ingilis dilində xeyli miqdarda sözdüzəldici forma meydana gəlmişdi. Dildəki infleksiyaların (şəkilçilərin) yox olması sayəsində ingilis dilində sözlərin əksəriyyətinin hansı nitq hissəsinə aid olmasını göstərən xüsusi bir forma yox idi. İngilis dilində infleksiyanın yox olması zamanı feili isimdən fərqləndirmək üçün heç bir əlamət yox idi. Məsələn: to work – work, to drive – drive, to water – water, to love – love, to programme – programme, to plan – plan, roof – to roof, statch – to statch və s.

Konversiya nəinki qrammatik qaydaların formalaşmasında, hətta ingilis dilinin söz yaradıcılığında da həddindən artıq məhsuldar idi. Bu müasir ingilis dilinin analitik quruluşa malik olması və dilin nitq hissələrinin paradiqmalarının sadəliyi ilə izah olunurdu. Çoxlu sayda bir hecalı sözlərin konversiya olunması isə ingilis dilində bir faktor idi [7, s. 24].

İsim və feil düzəldən vasitə kimi konversiya ingilis dilində XII əsrdən yaranmağa başlayıb. Konversiya orta əsrlərdə ingilis dilində flektiv sistemin dağılması nəticəsində işlənməyə başlayıb. Əvvəllər səs strukturuna görə fərqlənən, mənaca yaxın isim və feil cütləri, orta əsrlərdə quruluşca eyniləşdi. Bu, feilin başlanğıc forması olan məsdər şəkilçisi itiriləndən sonra mümkün oldu. Məhz məsdər şəkilçisinin itirilməsi nəticəsində eyni köklü isim və feillərin for-

İ. Musayeva C.Coysun simvolikasını özünəməxsus şəkildə şərh edərək əsərdə alleqorik satirizm olduğunu qeyd etmişdir. Belə ki, onun fikrincə, romanda insansevərlik arxa planda təqdim edilir, əvəzində isə bitkisevərlər, heyvansevərlər, tarixsevərlər ön plana gətirilir.

"İrlandiyanın yeni Məsihi" başlıqlı məqaləsində müəllif C.Coysun bu romanı qələmə almaqla nəinki yeni tipli ədəbi nümunələr ərsəyə gətirdiyini, həm də yeni tip oxucu kütləsi – "Uliss" oxucusu yaratmağa müvəffəq olduğunu nəzərə çatdırmışdır [15]. Eləcə də o, "Uliss" romanının kontekstində C.Coys üslubunda realizm, romantizm, sentimentalizm və s. Xüsusiyyətlərinin özünü büruzə verdiyini konkret nümunələrlə izah etmişdir [16].

Silsilənin "Allahı inkar edə-edə Allaha doğru yürüyən adam – Ceyms Coys" adlanan sonuncu məqaləsində İ.Musayeva sözügedən əsəri *"Modern ədəbiyyatın, postmodern estetikanın, yeni roman təfəkkürünün ilk nümunələrindən olan "Uliss""* şəklində şərh etmişdir [17].

İ.Musayevanın yuxarıda təqdim etdiyimiz bu araşdırması Azərbaycan ədəbiyyatşünaslığında C.Coysun yaradıcılığının tədqiqi sahəsində çox böyük əhəmiyyət kəsb edir.

C.Coysun yardıcılığına tənqidçi Cavanşir Yusifli də öz "Ceyms Coys və onun "Uliss" romanı" məqaləsində münasibət bildirərək yazıçının xidmətlərini T.Eliotun poeziyada və tənqiddə göstərdiyi xidmətlərlə müqayisə etmişdir. C.Yusifli "Uliss" romanın qələmə almasının səbəblərini ümumi və konseptual olmaqla 2 qrupa bölərək 1-ci səbəb kimi bəşər övladının irrasional mahiyyətinin araşdırılması istəyini göstərmiş, 2-ci səbəb kimi isə yazıçının insan düşüncələrinin özəyinin axtarışında olması ilə əlaqələndirmişdir. O həm də diqqətə çatdırmışdır ki, özünəqədərki bütün üslubları parodiya etmiş C.Coysun ədəbiyyat aləminə yeni nəfəs gətirmiş üslubunun özünəməxsusluğu onun ərsəyə gətirdiyi obrazlarının özlərinin-özlərinə çatmaq, özlərini tapmaq arzusunda əksini tapmışdır [18].

İşin elmi nəticəsi: Azərbaycan ədəbiyyatında modernizm ədəbi cərəyanının mövcud olması məsələsi ədəbiyyatşünaslar arasında daim mübahisə doğuran məsələlərdən biri olmuşdur. Bu baxımdan yuxarıda araşdırmalarını təqdim etdiyimiz ədəbiyyatşünaslarımızın Ceyms Coysun yaradıcılığını tədqiq edərək modernizmin aparıcı xüsusiyyətlərini təhlil etməsi, həmin xüsusiyyətlər ilə XX əsrin ilk yarısında Azərbaycan ədəbiyyatında yaranmış bir çox əsərləri müqayisəyə cəlb edərək sözügedən cərəyanın əsas cəhətlərini bu nümunələrdə araşdırması qeyd edilən mübahisəli məsələnin aydınlaşdırılmasında böyük rol oynayır və ədəbiyyatşünaslığımız üçün böyük töhfədir.

İşin elmi yeniliyi: Ceyms Coysun yaradıcılığına Azərbaycan ədəbi mühitində maraq böyük olmuşdur. Təqdim etdiyimiz bu məqalə ədəbiyyatşünaslarımızın yazıçının yaradıcılığına, eləcə də onun yaradıcılığı kontekstində modernizm ədəbi cərəyanına münasibətini, onun əsərləri ilə ədəbi nümunələrimizi müqayisə edərək gəldikləri nəticəni ümumi şəkildə şərh edir.

İşin tətbiqi əhəmiyyəti: Fikrimizcə, təqdim olunan məqalə modernizm ədəbi cərə-yanının əsas cəhətlərinin aydınlaşdırılması, eləcə də Azərbaycan ədəbiyyatında sözügedən cərəyanın xüsusiyyətlərinin araşdırılması sahəsində istinad oluna biləcək bir mənbə kimi qəbul edilə bilər.

Ədəbiyyat

1. Joyce, J. Ulyses. Global Grey ebooks, 2018.
2. Memmedova, C. Celil Memmedguluzade ve James Joyce'un Yaratıcılığında İnsan ve Ortam Sorunu // "International Journal of Interdisciplinary and Intercultural Art" Volume:3, Issue:4, June, July/Summer/2018, − s. 21-32.
3. Memmedova, C. XX yüzyılın başlarında Azerbaycan ve İrlanda edebiyatında ulusal özgürlük düşüncesinin sanatsal yansıması // "TİDSAD Türk & İslam Dünyası Sosyal Araştırmalar Dergisi" / "The Journal of Turk & Islam World Social Studies", Yıl: 6, Sayı: 22, Eylül 2019, s. 49-61.
4. Məmmədova, C. Ceyms Coysun avtobioqrafik əsərlərində tarixi həqiqətlərin bədii əksi // "Filologiya məsələləri" jurnalı, № 8, 2020-ci il, − s. 252-258.
5. Məmmədova, C. Cəlil Məmmədquluzadənin və Ceyms Coysun avtobioqrafik əsərlərində ortaq yaradıcılıq prinsipləri // "Filologiya məsələləri" jurnalı, № 9, 2021-ci il, − s. 262-271.
6. Məmmədova, C. Ceyms Coysun romanlarının ideya və sənətkarlıq xüsusiyyətləri // "Filologiya məsələləri" jurnalı , № 10, − 2021-ci il, − s. 305-313.
7. Şirvani, X. Seçilmiş əsərləri / X.Şirvani, − Bakı: Lider, − 2004.
8. https://www.globalgreyebooks.com/ulysses-ebook.html
9. https://www.avanqard.net/index.php?action=static_detail&static_id=57840
10. https://kulis.az/xeber/edebi-tenqid/xeber__-18994
11. https://www.kulis.az/news/19035
12. https://www.kulis.az/news/19124
13. https://www.kulis.az/xeber/edebi-tenqid/xeber_-19196
14. https://kulis.az/xeber/edebi-tenqid/xeber__-19284
15. https://kulis.az/xeber/edebi-tenqid/xeber____-19420
16. https://kulis.az/xeber/irade-musayeva/edebi-tenqid/xeber____-19653
17. https://kulis.az/xeber/edebi-tenqid/xeber_____-20129
18. https://web.archive.org/web/20170215115645/http://sim-sim.az/slider/cavansir-yusifli-ceyms-coys-v%c9%99-onun-uliss-romani/

S.A.Aliyeva

James Joyce Through the Eyes of Azerbaijani Literary Critics

Summary

Great interest has been shown to the works of the Irish writer James Joyce, who is one of the prominent figures of modernism, as well as to the study of his works in Azerbaijani literary studies. The main reason for this was to clarify the features of the modernism literary trend by analyzing the writer's creativity, and presenting his works to a wide audience.

From this point of view, the article analyzes the research of literary critics who studied James Joyce's work, and presents their attitude to the writer's creative activity. The articles written by Javida Mammadova, Irada Musayeva, Azer Turan and Javanshir Yusifli on the topic are investigated in the research.

Key words: *modernism, comparison, symbolism, character, article*

С.А.Алиева

Джеймс Джойс глазами азербайджанских литературных критиков

Резюме

В азербайджанском литературоведении проявляется большой интерес к творчеству ирландского писателя Джеймса Джойса, одного из видных деятелей модернизма, к изучению его .

Основной причиной этого было выяснение особенностей литературного направления модернизма путем анализа творчества писателя и представление его произведений широкой аудитории.

С этой точки зрения в статье анализируются исследования литературоведов, изучавших творчество Джеймса Джойса и представлено их отношение к творчеству писателя. В исследование включены статьи Джавиды Мамедовой, Ирады Мусаевой, Азера Турана и Джаваншира Юсифли.

Ключевые слова: *модернизм, сравнение, символика, образ, статья*

Rəyçilər: filol.e.d., dos. L.H.Səmədova
filol.f.d.,dos. C.A.Məmmədova

Redaksiyaya daxil olub: 08.05.2024

S.H.HƏSƏNOV
filologiya üzrə fəlsəfə doktoru, dosent
e-mail: hasanovseyfal@gmail.com

AMEA-nın Folklor İnstitutu
(Bakı şəh., İçərişəhər, Kiçik qala, küç., 31)

:10.62021/0026-0028.2024.2.126

AZƏRBAYCANDA YAŞAYAN AZSAYLI XALQLARIN FOLKLORUNUN ÖYRƏNİLMƏSİ: REALLIQLAR, PERSPEKTİVLƏR

Xülasə. *Məqalədə Azərbaycanda yaşayan azsaylı xalqların folklorunun öyrənilməsi ilə bağlı qısa tarixi ekskurs təqdim olunur, bu sahədə mövcud vəziyyətdən, problemlərdən danışılır. Azsaylı xalqların folklorunun öyrənilməsi sahəsində qarşıda duran ən aktual vəzifə kimi aparılan folklor əsərlərinin toplanması və öyrənilməsi, daha əvvəl yazıya alınmış və müxtəlif ölkələrin muzeylərində, şəxsi kolleksiyalarda və s. saxlanılan əsərlərin elmi dövriyyəyə daxil edilməsi ilə bağlı məqsədyönlü işin təşkili ön plana çəkilir.*

Açar sözlər: *şifahi xalq yaradıcılığı, azsaylı xalqların folkloru, folklorun toplanması və tədqiqi, folklorşünaslıq işinin təşkili*

Vacib məsələlərdən biri kimi fərqli tarixi dönəmlərdə fərqli səbəblərdən folklor əsərlərinin, ilk növbədə də şifahi epos nümunələrinin strukturuna, poetikasına, ideya məzmununa edilmiş əlavə, ixtisar və təhriflərin aradan qaldırılması, bu əsərlərin ilkin variant və ya versiyalara maksimal dərəcədə yaxın şəkildə bərpa edilməsi zərurəti vurğulanır.

XX əsrin sonunda yer kürəsinin altıda birini təşkil edən nəhəng geosiyasi məkanda global tarixin gedişinə təsir edə biləcək dərəcədə əhəmiyyətli dəyişikliklər baş verdi. Dünyanın iki güc mərkəzindən biri, ifrat dərəcədə ideolojiləşdirilmiş kommunizm utopiyasının hökmranlıq etdiyi dövlət – SSRİ əslində ilk işartıları hələ 60-cı illərdə üzə çıxmış, daha sonrakı dövrlərdə müxtəlif intensivlikdə özünü göstərmiş proseslərin məntiqi nəticəsi olaraq, parçalanıb dağıldı, milli özəlliklərin, adət-ənənlərin, milli mədəniyyətlərin "Kommunizm qurucusunun əxlaq kodeksi" ilə əvəzlənməsi, yüzlərlə xalqın və millətin "vahid sovet xalqı"na çevrilməsi uğrunda mübarizə, vahid sosialist mədəniyyətinin yaradılmasının strateji məqsəd elan olunması, millətlərarası münasibətlər sahəsində insanları ümummilli faciələrə sürükləyən siyasət, sosialist iqtisadi modelinin doğurduğu kütləvi səfalət həm mərkəzdə, həm də periferiyalarda müqavimət hərəkatının güclənməsinə səbəb oldu, yüzlərlə millətin və xalqın "könüllü ittifaq"dan imtina edib, "kökə qayıtmaq" zərurətini dərk etməsinə gətirib çıxardı.

Təbii ki, xalqların və millətlərin şüurunda baş verən bu oyanış bütün digər milli yaddaş saxlancları ilə yanaşı, şifahi xalq yaradıcılığı nümunələrinə olan marağı da gücləndirdi, bu sahədə araşdırmaları görünməmiş dərəcədə aktuallaşdırdı. Milli mədəniyyətləri öyrənən elm adamları haqlı olaraq hesab edirlər ki, bəşəriyyət "...bu gün keçmişi öyrənməklə, onun keçdiyi yolu araşdırmaqla, gələcəyi işıqlandıran ən böyük çırağa yiyələnmiş..." olur [3, s. 12].

Məhz bu dövrdə folklor əsərlərinin toplanması və eyni zamanda daha əvvəllər toplanmış, yazıya alınmış, lakin müxtəlif səbəblərdən, əsasən də ideoloji baxımdan, "zamanın nəbzi ilə düz gəlməmiş", dövriyyədən çıxarılmış folklor nümunələrinin öyrənilməsi, nəşri, təbliği sahəsində əhəmiyyətli addımlar atılmağa başlandı.

XX əsrin 60-cı illərindən etibarən artan intensivliklə gedən bu proses ilk növbədə, o dövrün terminologiyasından istifadə etsək, müttəfiq və muxtar respublikaların, milli mahal və vilayətlərin titul millətlərinin və xalqlarının folklorunu əhatə edir, folklorşünaslıq elmi də əsasən bu çərçivələrlə hüdudlanırdı. Sovetlər dönəmində təbii kimi qəbul edilən və rəsmi olaraq dəstəklənən bu cür yanaşma sonralar da sanki ətalət qanunlarına uyğun davam etdirilirdi.

Məlumdur ki, SSRİ məkanında etalon rolunu oynayan ən əhəmiyyətli və ən mükəmməl folklor nümunələri, əlbəttə ki, dövlətyaradıcı xalq kimi qəbul və təqdim olunan rus xalqına mənsub sayılırdı. "İqor polku haqqında dastan", rus bılinaları, nağılları, xalq nəğmələri və s. mədəniyyətşünaslığın və tarixşünaslığın başqa sahələri ilə bağlı olduğu kimi, ədəbiyyat və şifahi xalq yaradıcılığı sahələrində də bütün müttəfiq və muxtar respublikaların orta məktəb proqramlarına salınmış, elmi araşdırmaların prioritet istiqaməti kimi qeyri-rəsmi status qazanmışdı. Rus folklorunun digər millətlərin folkloruna birmənalı qəbul edilməli olan müsbət təsiri müxtəlif səviyyəli dissertasiyaların (bu qəbildən olan dissertasiyalar müdafiə prosesində də əlavə suallar doğurmur, SSRİ AAK-ında tez də təsdiqlənirdi), monoqrafiyaların, məqalələrin mövzusu olurdu.

Müteffiq və muxtar dövlətçilik qurumlarının titul millət və xalqlarının mədəniyyətlərinə və tarixlərinə gəlincə isə, bu prinsip, prioritetlərin qorunması şərti ilə yerlərdə də tətbiq olunurdu. Elmi qurumların işinin planlaşdırılması, müxtəlif ekspedisiyaların fəaliyyətinin maliyyələşdirilməsi, nəşr siyasəti və digər vacib məqamlarla bağlı məhz bu prinsip rəhbər tutulurdu.

Azsaylı xalqlara gəlincə isə, onların mədəniyyətlərinin inkişafına qayğıdan, milli bərabərlikdən danışılsa da, gerçəkdə "azsaylı xalq" təyininin təsir dairəsinə aid edilən bütün qeyri-titul xalqlar və etnik icmalar sanki dünəni olmamış, "göydən səbətlə düşmüş", yaradıcılıq potensialından məhrum və mövcudluqlarına görə kiməsə borclu olan etinasız kütlə kimi təqdim edilməyə başlanırdı. Təbii ki, eyni münasibət bu xalqların mədəniyyətlərinə, o cümlədən də onların folklorunun öyrənilməsinə şamil edilirdi.

Qeyd etdiyimiz kimi, "vahid sovet xalqı" ideologiyasının süqutundan sonra ictimai şüurda baş verən oyanış milli tarixə, milli mədəniyyətə, o cümlədən də etnik folklora olan marağı artırdı. İlkin mərhələdə bir növ xaotik şəkildə təzahür edən, çox vaxt metodoloji təminatı olmayan bu maraq heç də həmişə müsbət nəticələrə gətirib çıxarmadı. Məsələ bundadır ki, epik əsərlərin, ilk növdədə də xalqın tarixi portretinin təsviri baxımından olduqca vacib sayıla bilən qəhrəmanlıq eposu nümunələrinin yazıya alınmalarına qədərki həyatı heç də həmişə təkamül səciyyəli olmamış, müxtəlif ideoloji və siyasi amillərin təsiri altında bu qədildən olan nümunələrin dövriyyədən çıxarılması, bunu etmək mümkün olmadıqda isə onun ana ideyasının dəyişdirilməsi, obrazlar sisteminin, poetik özəlliklərinin destrukturlaşdırılması və nəticədə milli yaddaşdan silinməsi cəhdləri də olmuşdur. Bunu Qafqaz xalqları qəhrəmanlıq eposunun bəzi nümunələrində, o cümlədən də ləzgi qəhrəmanlıq eposu nümunəsində aydın görmək olur.

Bu qəbildən olan folklor nümunələri həm keçmişdə, həm də ən yeni dövrdə əsassız "redaktələrə" məruz qalmış, onların ideyasına, məzmununa və süjet xətlərinə, obrazlı sistemlərinə yersiz müdaxilələr, əlavə və ixtisarlar edilmişdir ki, bütün bunlar əsərin həm ana xəttinin, həm də yardımçı süjet xətlərinin təhrifinə gətirib çıxarmışdır. Nəticədə folklorşünaslıq elmi daha bir problemlə – xalq yaradıcılığı əsərlərinin subyektiv, çox vaxt da yolverilməz "redaktə", əlavə və təhriflərdən təmizlənməsi problemi ilə qarşılaşdı. İlk baxışdan həlli asan görünən bu problem əslində cox ciddi, o qədər də tez gözə çarpmayan, subyektiv müdaxilə izlərinin məharətlə gizlədildiyi bir vəziyyət də ala bilirdi.

Söhbət minillər boyu yaranmış, bir çox folklorşünas alimlərin də qeyd etdikləri kimi, xalqın, millətin özünü və ətraf aləmi, eləcə də bu aləmdə öz yerini dərk etmək cəhdi kimi dəyərləndirilən folklor nümunələrinin (bu halda söhbət təkcə şifahi xalq yaradıcılığı nümunələrindən deyil, ümumiyyətlə xalq sənəti nümunələrindən, musiqi folklorundan, tarix və tarixi şəxsiyyətlər barədə rəvayətlərdən və s. də gedə bilər) milli özünüdərkdə, milli kimlik şüurunun formalaşmasında, milli dəyərlərin qorunmasında və təbliğində müstəsna əhəmiyyətini bir daha qabartmaq zərurətindən, bu əsərləri sonradan edilmiş əlavələrdən və yorumlardan, məqsədsiz və ya "xeyirxah məqsədlərlə" edilmiş dəyişikliklərdən təmizləməkdən, onların ilkin, həqiqi xalq yaradıcılığının nümunəsi olan anavariantları ilə maksimal eyniyyətinə nail olmaqdan gedir.

Ümumilikdə aktual olan bu cür yanaşma tarixən multikultural toplum kimi formalaşmış, multikultural dəyərlərin milli dəyərləri üzvi şəkildə tamamladığı, multikulturalizmin dövlət siyasəti elan edildiyi, öz multikultural ənənələrini, onları qorumaq və inkişaf etdirmək təcrübəsini dünya xalqları ilə həvəslə bölüşən, multikulturalizm modeli dünya xalqları tərəfindən bir örnək kimi qəbul edilən müasir Azərbaycan cəmiyyəti üçün də olduqca təbii və vacibdir.

İndiki halda qeyd edilməlidir ki, ümumilikdə götürüldükdə həm Cənubi Qafqazda, həm də Qafqaz diyarının şimal torppaqlarında yaşayan və Qafqaz dövlətlərinin titul əhalisi fonunda "azsaylı" təyini ilə işarələnən etnik birliklərin mədəniyyətlərinə və mədəniyyət tarixlərinə münasibət heç də dövrün tələbləri səviyyəsində deyildir.

Bütün bunları xatırlatmaq bizə ölkəmizdə yaşayan azsaylı xalqların folklorunda, mədəniyyətində tarixən yaranmış boşluğun səbəbini və miqyasını təsəvvür etməyə və beləliklə, hər bir xalqın tarixi və mədəniyyəti ilə bağlı nümunələrin toplanması, tədqiqi və təbliği istiqamətində prioritetləri düzgün müəyyənləşdirməyə, fəaliyyətimizi doğru planlaşdırmağa, çoxmillətli Azərbaycan xalqının mənəvi sərvəti xəzinəsini daha da zənginləşdirməyə imkan verər.

Sovetlər dönəmində və hətta ondan da əvvəl bəzən rəsmi və ya da qeyri-rəsmi hesab olunurdu ki, millətlərin, xalqların bəziləri bu və ya digər dərəcədə qədim tarix və mədəniyyətlərini təsdiq edəcək izlər qoymuş, digərləri isə azsaylı olmaları səbəbindən və ya başqa səbəblərdən müstəqil tarixə, bu və ya digər dərəcədə zəngin mədəniyyətə sahib ola bilməmişlər. Adı çəkilən məsələ ilə bağlı vəziyyətin doğrudan da belə olduğuna əmin olmaq üçün sadəcə orta məktəb dərsliklərinin strukturuna diqqət etmək yetərli idi. Məsələn, tarix kitablarında materialın 70-80 faizi SSRİ tarixi başlığı altında təqdim olunan Rusiya (daha geniş götürsək, slavyan xalqları) tarixindən ibarət olurdu. Yerdə qalan hissə isə müttəfiq respublikaların titul xalqlarının tarixini ehtiva edirdi. Azsaylı xalqların tarixi isə olmamış sayılır, onların adları sadəcə bu və ya digər inzibati ərazi vahidi əhalisinin etnik tərkibini göstərən məlumatlarda çəkilirdi. Eyni vəziyyət ümumilikdə mədəniyyət sahəsində, o cümlədən də şifahi xalq yaradıcılığı sahəsində mövcud idi.

Misal olaraq uzun əsrlər boyu xalqın söz yaddaşında yaşamış ləzgi xalqının müxtəlif düşmənlərə qarşı minilliklər boyu davam etmiş mübarizəsinin salnaməsi, xalqın əyilməz ruhunun mücəssəməsi, həm milli yaddaş nümunəsi, həm də vətənpərvərlik tərbiyəsi məktəbi kimi olduqca dəyərli bir əsər olan "Şarvili" qəhrəmanlıq eposunu göstərmək olar. Bu epos dünya epik folkloru nümunələri sırasında bəlkə də ən mürəkkəb, ən keşməkeşli tarixə malik əsərlərdən biridir. Ana xətti, nüvəsi hələ bizim eramızdan əvvəl, monoteizmə qədərki dövrdə formalaşmağa başlamış, sonradan müxtəlif dini cərəyan təmsilçilərinin (ilk növbədə Alban pravoslav kilsəsinin və paralel olaraq atəşpərəstliyin, daha sonra isə ərəb xilafəti ideologiyasının və təəssüf ki, "Roma Papasından daha çox katolik olmağa" çalışan yerli müsəlman din xadimlərinin), ən sonda isə rus istilasının, sovet düşüncə tərzinin və s. təsir və təzyiqlərinə məruz qalmış "Şarvili" hər cür qadağalar, transformasiyalar və təhriflər burulğanından çıxa bilmiş və bizə anavariantından müxtəlif dərəcədə uzaq düşmüş ayrı-ayrı nağıllar, rəvayətlər, nəğmələr şəklində də olsa gəlib çıxmışdır. Bütün deyilənlərə rəğmən əsər xalqın tarixi yaddaşındakı yerini qoruyub saxlamış, obrazlar sistemini, epik qəhrəmanın mübarizəsinin mahiyyətini, onun rəhbər tutduğu milli və mənəvi dəyərləri, etik normaları, xalqın istək və arzularını neçə-neçə nəsillərə çatdıra bilmişdir.

Yeni dövr köklü dəyişikliklər dövrü olaraq, azsaylı xalqların mədəniyyətlərinə münasibət sahəsindəki tənasübsüzlüyün aradan qaldırılmasını, mövcud boşluqların doldurulmasına xidmət edən məqsədli layihələrin həyata keçirilməsini tələb edir və bunun üçün müvafiq zəmin yaradır.

Azsaylı kimi təqdim olunan xalqların, indiki halda isə bir çox Qafqaz xalqlarının, mədəniyyətlərindəki lakunaları aradan qaldıra biləcək nümunələrin − müxtəlif muzeylərdə, elmi mərkəzlərin arxivlərində, fərdi kolleksiyalarda saxlanan çoxsaylı abidələrin, müxtəlif məişət əşyalarının, silah növlərinin, bizə kimi gəlib çatmış xarabalıqların və ən əsası əlyazmaların

obyektiv tədqiq olunmadığı və yaxud fərqli elmətrafı dairələrin öz havadarlarının maraqlarına uyğun manipulyasiyaları nəticəsində aidiyyətsiz olaraq "özəlləşdirildiyi", saxta tarixlər yaradıldığı (buna ən bariz nümunə kimi Qafqaz Albaniyasının tarixi ilə bağlı baş vermiş və verməkdə davam edən "ekvilibristika"nı göstərmək olar) bir zamanda uzaq tarixə, qədim mədəniyyətlərə, o cümlədən də bunların əsas daşıyıcılarından biri olan şifahi xalq yaradıcılığına diqqət artırılmalı, bu sahədə elmi obyektivliyin təmin edilməsi prioritet məqsəd olmalıdır.

Təbii ki, respublikamızda yaşayan xalqların nisbətən az öyrənilmiş folklor nümunələri araşdırılarkən bu sahədə müəyyən uğurları, təcrübəsi olan folklorşünaslıq məktəblərinin, bizim halda isə Azərbaycan folklorşünaslıq məktəbinin, imkanlarından bəhrələnmək də vacib şərtdir. Folklorşünaslıq sahəsində, o cümlədən də türk və Qafqaz xalqlarının folkloru sahəsində dəyərli araşdırmaların müəllifi akademik V.Jirmunskinin də göstərdiyi kimi, "... Homerin eposu, german drujina eposu və alman feodal eposu, fransız və ispan epik nəğmələri, rus bılinaları, cənubi slavyanların qəhrəmanlıq nəğmələri, türk və monqol xalqlarının qəhrəmanlıq eposu, Şimali Qafqaz xalqlarının nartlar haqqında epik rəvayətləri və karel-fin "Kalevala"sı – müxtəlif tarixi mərhələləri və xalq epik yaradıcılığının milli-özünəməxsus formalarını təmsil etmələrinə rəğmən, müqayisə edilərkən, bütün fərqliliklərinə baxmayaraq, tədqiqatçıların dəfələrlə qeyd etdikləri kimi, əhəmiyyətli oxşarlıqlar da aşkarlayırlar" [2, s. 10].

XXI əsrin gerçəklikləri göstərir ki, indiyə kimi yazıya köçürülməmiş şifahi yaradıcılıq nümunələrinin əhəmiyyətli hissəsi artıq itirilmiş sayılmalıdır. Ən qısa zaman ərzində zəruri addımlar atılmazsa, bəşəriyyət öz mədəni irsinin daha bir hissəsindən həmişəlik məhrum olacaq. Eyni sözləri nə vaxtsa yazıya alınmış, lakin kiçik tirajla da olsa çap edilməmiş, müxtəlif ölkələrin muzey fondlarında, əlyazma saxlanclarında, şəxsi kolleksiyalarda və s. qorunmaqda olan, bəzən də məqsədli şəkildə elmi ictimaiyyətdən gizlədilən (məsələn, Matenadaranda saxlanan Qafqaz Albaniyası tarixinə aid əlyazmaları kimi) materialın elmi dövriyyəyə cəlb edilməsi ilə bağlı da demək olar.

Bütün bu elmə məlum olmayan mədəniyyət abidələrinin aşkarlanması və öyrənilməsi bəşər mədəniyyətinin inkişafına dəyərli töhfə verər, cəmiyyətdə tolerantlığın, insanpərvərliyin, milli bərabərliyin bərqərar olmasına xidmət edərdi. Tanınmış folklor nəzəriyyəçisi R.Veymanın "Ədəbiyyat tarixi və mifologiya" monoqrafiyasında qeyd etdiyi kimi, "keçmişin folklor irsi arxaik sükunət deyil, təsirli mənəvi gerçəklikdir: bu irs arxivdə yox, xalqın həyatında qorunub saxlanır; o sadəcə nəsildən nəslə ötürülmür və əxz edilmir, ictimai həyatın funksiyası səviyyəsinə yüksələrək, bütün cəmiyyətin sərvətinə çevrilir" [1, s. 104-105].

Məqalənin aktuallığı. Məqalədə Azərbaycan folklorunun tərkib hissəsi kimi başa düşülən ökrədə yaşayan azsaylı xalqların şifahi yaradıcılığının öyrənilməsi sahəsində qarşıda duran vəzifələrə toxunulur, bu sahədə yaranmış boşluqların xarakteri, onların yaranma səbəbləri haqqında danışılır. Bu istiqamətdə ən qısa zaman ərzində zəruri addımların atılması zərurəti xüsusi olaraq vurğulanır.

Elmi yeniliyi. Məqalədə folklorşünaslığımızda yeni sayıla bilinəcək bir istiqamətin – Azərbaycanda yaşayan azsaylı xalqların folklorunun öyrənilməsinin elmi-metodik əsasları öz plana çəkilir. Multikultiral cəmiyyət kontekstində şifahi xalq yaradıcılığının öyrənilməsi sahəsində prioritetlər müəyyənləşdirilir, onların həyata keçirilməsi yolları təklif olunur. Azsaylı xalqların folklorunun əlahiddə götürülmüş halda deyil, çoxmillətli Azərbaycan xalqının mənəvi sərvəti xəzinəsini daha da zənginləşdirməyə imkan verəcək bir dəyər kimi öyrənilməsi əsas elmi-metodoloyi prinsip kimi irəli sürülür.

Elmi nəticəsi. Məqalədə azsaylı xalqların folklorunun öyrənilməsi və təbliği ilə bağlı boşluqlar göstərilir və bu boşluqların aradan qaldırılmasının yolları təklif olunur. Minillər boyu formalaşmış, xalqın ətraf aləmdə öz yerini dərk etmək cəhdi kimi dəyərləndirilən folklor nümunələrini yazıya alınması, öyrənilməsi ilə yanaşı, onların sonradan edilmiş əlavələrdən, məqsədsiz və ya "xeyirxah məqsədlərlə" edilmiş dəyişikliklərdən təmizlənməsi, anavariantları

ilə maksimal eyniyyətinə nail olunması zərurəti haqqında nəticə araşdırmaçılardan yeni bir elmi yanaşma tərzi tələb edir.

Praktiki əhəmiyyəti. Məqalə Azərbaycanda yaşayan azsaylı xalqların folklorunda, mədəniyyətində tarixən yaranmış boşluğun səbəblərini və miqyasını az da olsa təsəvvür etməyə və, deməli, bu boşluqların aradan qaldırılması yolları üzərində düşünməyə imkan verir. Ən əsas praktik nəticə kimi vurğulanır ki, göstərilən sahələr üzrə işin kompleks təşkili çoxmillətli xalqımızın ümumi mənəvi sərvət xəzinəsini daha da zənginləşdirməyə imkan verər.

Ədəbiyyat

1. Вейман, Р. История литературы и мифология. Очерки по методологии и истории литературы / Р.Вейман. − Москва: Прогресс, − 1975.
2. Жирмунский, В. Народный героический эпос. Сравнительно-исторические очерки / В.Жирмунский. − Москва: Гослитиздат, − 1962.
3. Seyidov, M. Azərbaycan xalqının soykökünü düşünərkən / M.Seyidov. − Bakı: Elm və təhsil-1, − 2018.

S.H.Hasanov

Studying Minority Folklore: Realities and Prospects

Summary

This article delves into the current state of knowledge regarding the folklore of minority peoples residing in Azerbaijan. It aims to shed light on the existing challenges within this realm and delve into their historical causes.

In addition to purposeful collecting and research efforts, the author highlights the importance of utilizing samples of folk art previously collected and preserved in the form of manuscripts stored in museums across various countries, as well as in private collections. Another highlighted priority is the meticulous task of identifying and rectifying additions, deletions, and distortions that have been introduced into the structure, poetics, and ideological content of oral epic samples across different historical periods.

Key words: *oral folk creativity, folklore of minority peoples, collection and research of folklore, organization of folklore work*

С.Г.Гасанов

Изучение фольклора малочисленных народов: реальность и перспективы

Резюме

Статья посвящена состоянию изученности фольклора проживающих в Азербайджане малочисленных народов. В ней выявляются существующие в этой области проблемы, говорится об их исторических причинах.

В числе актуальных направлений работы по изучению фольклора малочисленных народов автор называет не только целенаправленную собирательскую и исследовательскую работу, но и работу по введению в научный обиход ранее собранных и хранящихся в виде рукописей в музеях разных стран, в частных коллекциях образцов народного творчества. В качесте первоочередных также выделяется работа по выявлению и устранению относящихся к разным историческим периодам, внесенных в различных целях в структуру, поэтику, идейное содержание образцов устного эпоса добавлений, изъятий, искажений, восстановлению их в максимально приближёном к первщначальрым вариантам и версиям виде.

Ключевые слова: *устное народное творчество, фольклор малочисленных народов, собирание и изучение фольклора, организация фольклороведческой работы*

Rəyçi: dos. K.Ə.Hacıyev

Redaksiyaya daxil olub: 02.04.2023

S.B.MƏMMƏDOV
e-mail: memmedov.subhan@gmail.com

AMEA-nın N.Gəncəvi adına Ədəbiyyat İnstitutu
(Bakı şəh., H.Cavid pr., 31)

:10.62021/0026-0028.2024.2.131

"AVESTA", ZƏRDÜŞTÇÜLÜK VƏ NOVRUZ ADƏT-ƏNƏNƏLƏRİNİN FOLKLORUMUZDA YERİ

Xülasə. *Bu yazıda bəşəriyyətin müjdəçisi, tarixi Azərbaycan ərazisində doğulduğu bilinən, bəşər mədəniyyətinə və dünyagörüşünə sistemli və davamlı təsir göstərən Zərdüştdən, Şərq ruhunu ifadə edən Novruz bayramından və onun zərdüştiliklə tarixi bağlılığı, zərdüştilik bayramları ilə Novruzun fərqli və oxşar cəhətləri, bəzən onların bir-birinə qarışması problemi və bütün bunların folklorumuzdakı mövqeyi, atalar sözləri və məsəllərimizdə, nağıl və dastanlarımızda və s. digər folklor nümunələrimizdə zərdüşti dünyagörüşünün izləri, bu baxışların milli-mədəni tariximizdə oynadığı rol və onların buraxdığı dərin izlər və s. bu kimi məsələlərdən bəhs edəcəyik.*

Açar sözlər: *"Avesta", Zərdüşt, Novruz, Hörmüz, ədəbiyyat*

Möhtəşəm abidəmiz olan "Avesta" və zərdüştçülük dini-ideoloji fəlsəfəsinin Avropa xalqlarına olduğu kimi Şərq xalqlarına, xüsusən Azərbaycan xalqına, onun folkloruna və bədii ədəbiyyatına da xüsusi təsiri olmuş, bir sıra şifahi xalq ədəbiyyatı nümunələrində − nağıllarda, dastanlarda, bayatılarda, atalar sözlərində, zərb-məsəllərdə, xalq tamaşalarında və s. öz izlərini buraxmışdır. Zərdüştün Azərbaycan torpaqlarından çıxdığını nəzərə alsaq, bu möhtəşəm abidənin ədəbiyyatımızda buraxdığı izlər çox təbiidir və hətta digər şərq xalqlarına nisbətən Azərbaycan xalqı bu məsələdə daha çox şanslıdır desək, yanılmarıq.

Bu gün də dilimizdə geniş şəkildə işlədilən bir sıra atalar sözlərində zərdüştlük fəlsəfəsinin, adət-ənənələrinin izlərini görürük. Belə ki, zərdüştçülükdə dəfn ayinləri ölünün basdırılması ilə icra edilməzdi. Onu öncə yüksək bir yerə, məsələn, bir evin damına açıq şəkildə qoyarlarmış. Qırx gün ərzində leş yeyən quşlar, qarğa-quzğunlar ölünün ətini yeyib qurtardıqdan, onun sümükləri ətindən təmizləndikdən sonra ölü sahibləri yerdə qalan sümükləri xüsusi bir yerdə saxlarlarmış. Çünki "inanca görə, insan odun, suyun və torpağın təmizliyini qorumalıdır. Odu və torpağı meyitlərlə murdarlamaq olmazdı. Buna görə də cəsədləri yüksəkliklərdəki daşlıq yerlərdə, yaxud belə yerləri xatırladan daxma (sükut qülləsi) adlı daş tikililərdə qoyurdular ki, qurd-quşa yem olsun. Sümüklər də torpağı murdarlamamaqdan ötrü xüsusi yerlərdə saxlanırdı" [4]. Bu gün də dilimizdə işlənən "Ət əmanətdi, sümük daimi", "Əti sənin, sümüyü mənim", "Ətinə qıysa da, sümüyünə qıymaz", "Ətini yeyər, sümüyünə göz dikər", "Ətimi yedirtsə də, sümüyümü çölə atmaz" kimi atalar sözləri zərdüştçülük dəfn ayinləri ilə bağlı olan ata sözləridir. Yaxud "Ocaq anamızdır, müqəddəsdir", "Ocaqdan qarşıla, ocaqdan da yola sal", "Od imandandır", "Od qoyup otluğa, Allah-Allah dimə", "Oda su tökməzdər", "Oda yanmayan balasına da yanmaz", "Odu suyun yanında qoymazlar" kimi atalar sözləri zərdüştçülük dininə görə odun müqəddəsliyi inancına dayanır [1, s.179-181, 327-328]. Odun qədimdən müqəddəs sayılması, insanı hər cür pisliklərdən, şərdən təmizləyəcəyinə, xeyirin qələbə çalacağına inam ifadə olunub. Bu, Azərbaycan ruhudur − bu gün də dünya mədəniyyətinin özülündə durur [4].

Şifahi xalq ədəbiyyatımızın ən mötəbər qaynaqlarından biri də xalq oyun və tamaşalarıdır ki, bunlar da bilavasitə zərdüştçülük adət-ənənələri ilə bağlıdır. Bu xalq oyun və tamaşaları yazın gəlişi, təbiətin oyanması, məhsuldarlıq və s. kimi təbiət hadisələri ilə bağlı olan və dünyanın

bir çox xalqlarında qeyd edilən bayram və mərasimlərdir. Özündə çox zəngin xalq adət-ənənələrini ehtiva edən belə bayramlardan biri də çox qədim tarixə malik olan Novruz bayramıdır.

Ümumiyyətlə, Novruzun mənşəyi, necə yaranması və müasir şəklini alması məsələsi olduqca maraqlı bir prosesdir. Bu prosesdə zərdüştçülük dini dünyagörüşünün, adət və ənənələrinin oynadığı rolu müəyyənləşdirmək və bu prosesin mədəniyyət tariximizdə buraxdığı izləri araşdırmaq dissertasiyamızın mövzusu gərəyi olduqca aktual bir məsələdir.

Novruzun mənşəyinin araşdırılması baxımından qədim zərdüştçülük ayinləri ilə bağlı bir sıra xalq mərasim oyunlarının nəzərdən keçirilməsi vacibdir. Məlumdur ki, digər mədəniyyət hadisələri kimi Novruz da özündən əvvəlki mədəni irsi qorumaqla bərabər, özündən sonrakı mədəniyyətdən, yəni zərdüştçülük adət və ənənələrindən də bir şeylər əxs etmişdir. Qeyd edək ki, zərdüştçülük mərasim oyunları ilə Novruz mərasim oyunlarının ortaq, oxşar və fərqli xüsusiyyətlərinin araşdırılması baxımından bu çox vacibdir.

Təbiətdəki bir mövsümün o biri mövsümlə əvəz olunması və bununla əlaqədar kənd təsərrüfatı işlərinin gedişi məhz bu baxımdan, ilahi qüvvələrin təsiri kimi izah olunmuş və buna müvafiq yarı ibadət xarakterli tamaşalarla qeyd edilmişdir. Sonrakı dövrlərdə həmin şənliklər başqalaşdırılıb, müxtəlif təsirlərə məruz qalıb, başqa-başqa adlarla adlandırılmışsa da, xalq bu bayramların ilkin mahiyətini və icra tərzini uzun müddət qoruyub saxlamışdır. Uzaq keçmişin qaynaqlarından əldə edilən natamam məlumatlar, əlbəttə, həmin mərasimlər haqqında bütöv təsəvvür yarada bilmir. Bununla belə indi bizə bəlli olan bir sıra el tamaşalarımızın ilkin yaranma dövrünü, izini bu qədim şənliklərdə axtarmaq lazımdır [10].

Beləliklə, zərdüştçülük dini dünyagörüşü və adət-ənənələri ilə bağlı aşağıdakı mərasim oyunları mövcuddur:

"Azərcan" mərasim oyunu, şənliyi əsasən ən qədim Azər şənliklərindəndir. Ulu əcdadımızın ən müqəddəs şənliyi insan bədəninə və canlı təbiətə "görünməz alov", hərarət bəxş edən od-alov tanrısına həsr olunurdu. Əski inama görə, onların hərəsi ayrı-ayrılıqda, yəni atəşin beş təcəssümünü ağac gövdəsində yatan alova, insana, təbiətə hərarət bəxş edən istiliyə, atəşgah və ocaqlarda alovlanan oda, hər şeyi yandırıb pak edən şimşək alovuna və səmada yanan atəş günəşə həsr olunurdu.

Soyuq günlər zamanı keçirilən bu bayramın iştirakçıları bədənə istilik verən şeylər – qozfındıq, yağlı və ətli xoreklər, sarımsaq yeyib açıq havaya çıxır, mərasim və oyunlarla soyuğa qarşı hazır olduqlarını nümayiş etdirirdilər. Qırqovul quşu bu bayramın rəmzi sayılmışdır.

Tarixdə **"Azər bayramı"** və **"Azərçəşn"** adı ilə məlum olan həmin şənlikləri **Şəhrivar, Səddə, Çıraqan, Mehrigah** və **Azərgah** adlandırırdılar.

Bizə bəlli olan və maraqlı sayılan mərasimlərdən **"Sucəddin"** tamaşalar içərisində xüsusi yer tuturdu. Bu söz "su əcdadımızdır" mənasındadır.

"Kahəmbər" – ətirli, qoxulu məkan deməkdir. Atəşə tapınma dövründə Azərbaycan ərazisində bir il ərzində keçirilən və ümumi sayı 6-ya və yaxud 7-yə çatan xüsusi mərasim şənliklərinin adıdır. Əsası Zərdüşt tərəfindən qoyulmuş hərəsi 5 gün davam edən bu şənliklərin (yazılana görə) ayrı-ayrılıqda səmanın, torpağın, suyun, bitki və heyvanın, insanların yaranmasına həsr olunmuşdur. Bir başqa yazıda həmin kütləvi bayramlar **"Hümbər"** adlandırılır.

Zərdüşt dövründə mərasimlərdə **"Dəstəbənd"** yallı oyunlarına əsas yer verilmişdir. Hətta buna şair Nizami Gəncəvinin əsərlərində də təsadüf edilir. Görkəmli şairimiz Zərdüşt məbədlərində tamaşa göstərən ağ və ya qırmızı geyimli gənclərin dəstələrini xüsusilə qeyd etmişdir.

Azərbaycanda keçirilən **"Pərvərdəgah"** mərasimi xüsusi olaraq dilimizdə qədimdən kök salıb. Həmin mərasim zamanı şən, gümrah və cazibədar insanlar səhərə qədər yatmır. Tonqal üstündən tullanır, nağıl, şən deyimlər söyləyir və bu kimi müxtəlif oyunlar icra edirdilər. Bəzən bu mərasimə "7 çərşənbə əhya gecəsi" deyirdilər.

Keçmişdə **"Şamon"** oyunu da böyük maraq doğururdu. Bu oyunda su ilə doldurulmuş nəhəng hovuzda əyləncələr nümayiş olunardı. Burada əlbəyaxa döyüş, güləşmə yarışı ilə bəra-

bər suda vəhşi heyvanlarla (şir, pələng, ayı, canavar, öküz və s.) pəhləvanların əlbəyaxa səhnələri tamaşaçıların böyük marağına səbəb olmuş, onları əyləndirmişdir. Bu oyunlarda incəsənət adamlarının çalıb-oynaması, rəqs etmələri ilə bərabər bəlağətli dillə, natiqcəsinə danışması bu qədim oyunun əsas cəhətlərindəndir. Bunlarla yanaşı el sənətkarlarının şamançı əlində qamı (əsa) tutması onun böyüklüyünün, məhşur ustalığının rəmzi sayılırmış. Belə sənətkarlar cadugərlik, dua oxumaqla bərabər, şer qoşmaq, nağıl söyləmək, ağı demək, saz-qopuz çalmağı mükəmməl bilirdilər. Ümumiyyətlə, "Şamon" oyunu zamanı toplaşanlar müxtəlif oyun, məzəli rəqs və s. ifa edər, mahnı oxuyar, əylənərdilər.

Qədim Azərbaycanda zərdüştilikdən başlanan kütləvi mərasim şənliklərindən biri də **"Ərdibehiştəgan"** idi. Əski inama görə, dağlara və müqəddəs odlara nəzarət edən Ərdibehişt adlı bir tanrının şəninə keçirilən böyük mərasim oyunları, şənlikləri olmuşdur. Məxəzlərdə bu kütləvi oyun və mərasimlərin adı bəzən "Ordubehişt" və "Urdubehişt" kimi də saslənirdi [10].

Erkən dövrlərdə Azərbaycan ərazisində zərdüştçülüklə bağlı keçirilən bayramlar arasında **Mehrikan** bayramı da xüsusi qeyd olunmalıdır. Məmməd Arif Dadaşzadə "Azərbaycan xalqının orta əsr mənəvi mədəniyyəti" adlı tədqiqatında Novruz bayramı və onun qədim adət-ənənələri haqqında məlumat verməklə yanaşı, göstərmişdir ki, "Mehrikan bayramı həmişə payız fəslinin əvvəlində, məhsulun toplanışından sonra keçirilmişdir". Orta əsr müəllifləri Mehrikan bayramından söhbət açarkən əvvəlcə onun keçirildiyi vaxtı qeyd edirlər. Əbu Reyhan əl-Biruni bu bayramın mehr ayının 16-dan 30-na kimi qeyd olunduğunu göstərir [8].

"Novruz və odlu çərşənbə şənlikləri günəşin qarşılanması ilə əlaqədar keçirilən böyük toplantılar idi. Burada iştirakçılar və tamaşaçılar alaqaranlıqdan yüksəkliklərə, dağ-təpə zirvəsinə qalxar, orada qalanmış tonqallar ətrafına yerləşərdilər. İlk günəş şüaları göründükdə tonqalları alışdırardılar, hamı günəşi salamlayıb, baş əyib onu şəninə təntənəli halay dikdəstə (mərdlik, qəhrəmanlıq kimi məzmuna malik) oyun oynayar, oxumalar ifa edib tonqal başına fırlanardılar, pəhləvanlar güləşər, xonça ilə mükafatlandırılardılar. Vaxtı ilə günəşə nəzir-niyaz kimi qəbul olunan bu mərasim xonçası iri, mis və ya gümüş siniyə düzülmüş ev və məişət üçün ən zəruri olan 7 cür nemət – çörək, duz, üzərlik, kömür, güzgü, su və yumurtadan ibarət olmuşdur. Adətə görə, xonçalar mükafatlandırılanların evlərində iki gün qalardı. Sonra hərə tonqaldan çıraq, məşəl yandırıb evlərə qayıdardılar. Həmin alovla ocaq-təndiri yandırıb, ruzi-bərəkət diləyərdilər" [10].

Professor Kamil Hüseynoğlu bir sıra Novruz adət-ənənələrinin zərdüştçülük nöqteyinəzərindən izahını verərək qeyd edir ki, bu təlimdə il iki fəsilə bölünür və belə hesab edilir ki, yayda xeyir, qışda isə şər qüvvələri üstünlük təşkil edirlər. Məhz bu səbəbdən də qışda insanlar, heyvanlar və bütün təbiət soyuq, xəstəlik və aclıqdan əziyyət çəkirlər. Qışın ortalarında şər qüvvələri o qədər güclənirlər ki, insanlar qoruyucu tanrıları köməyə çağırmağa məcbur olurlar. Hər çərşənbə günü onlar mərasimlər keçirərək, qoruyucu mələklərdən birinə müraciət etməyə başlayırlar. Nəhayət, axır çərşənbə axşamı qoruyucu mələklər və insanların ölmüş qohumlarının ruhları yerə yaxınlaşmağa başlayırlar. Novruz ərəfəsində evlərin, həyət-bacaların təmizlənməsi, yeni paltarlar alınması və s. də məhz bu "qonaqların" qarşılanması üçündür. Axır çərşənbə axşamı isə hətta kasıb adamlar belə öz qohumlarının ruhları və mələklərin şərəfinə bacardıqları səviyyədə bol süfrə açmalıdırlar. Həmçinin bu gün küsənlər barışmalı, hamı yaxşı sözlər danışmalı, mehriban olmalıdırlar ki, ruhlar və mələklər onlardan razı qalsınlar. Eləcə də ölmüş qohumların qəbri ziyarət edilməli, onların ruhuna ehsan verilməlidir. Bu səbəbdən də Cənubi Azərbaycanda axır çərşənbəyə "Ölülər bayramı" da deyilir. Axşam qaranlıq düşəndən sonra ruhlar öz evlərini və qohumlarını işıqda tanıyıb, evə tez çatsınlar deyə damların üstündə və digər hündür yerlərdə tonqal qalayıb, onun üstündən tullanırlar. Ancaq Novruz mərasimlərinin qədim mənaları unudulduğuna görə indi insanlar elə bilirlər ki, xəstəlik və azarlardan təmizlənmək üçün tonqalın üzərindən tullanırlar, halbuki zərdüştilikdə od çox müqəddəs sayılır və onu çirkləndirmək günah hesab edilir [7]. Məsələ bundan ibarətdir ki, Kamil Hüseynoğlunun "unudulma" kimi izah etdiyi bəzi adətlər, məsələn, odun üstündən tul-

lanma adəti yeni qazanılmış adət deyil, tam əksi zərdüştlükdən daha əvvəlki ənənələrlə bağlı olan adətlərdir. Bu və bu kimi adətlər bizə Şumer mədəniyyətindən miras qalmışdır. Görkəmli alim Novruz bayranımı zərdüştçülük adət və ənənələri ilə izah etməyə çalışır. Zərdüştçülüyə yad olan adət və ənənələri isə sonradan qazanılmış adətlər kimi izah edir. Ancaq qeyd etmək lazımdır ki, Novruz bayramının ölmüş insanların ruhları ilə heç bir əlaqəsi yoxdur. Odun üstündən tullanma isə daha əski Şumer-türk mədəniyyətinin izləridir. Qədim şumerlərdə də, onların xələfi olan türklərdə də od qədimdən qoruyucu, təmizləyici, himayə edən bir varlıq kimi qəbul edilmişdir. Bu bayram baharın qarşılanması ilə əlaqədar yaz gecə-gündüz bərabərliyinə əsaslanan asrtonomik bir mədəniyyət hadisəsidir. Ancaq bir mədəniyyət hadisəsi olaraq Novruzun, əlbəttə, zərdüştçülükdən də əxs etdiyi bir sıra adətlər vardır.

Kamil Hüseynoğlu daha sonra qeyd edir ki, xeyir və şər qüvvələr arasıdakı bu mübarizə Novruz gününə qədər davam edirmiş, Novruz günü isə (20 və ya 21 mart) xeyir qüvvələri şər qüvvələrə qalib gələrək, öz qələbələrini bayram etməyə başlayırmışlar. Zərdüştçülükdə od ünsürü də məhz bu gün qeyd edilirdi. Bu isə mahiyyətcə qışın yola salınıb, baharın qarşılanması anlamına gəlir, çünki həmin gün Günəşin ekvator xəttinin cənubundan Şimal yarımkürəsinə keçməsi nəticəsində gecə ilə gündüz bərabərləşir və onun səhəri günündən etibarən isə gündüzlər uzanmağa başlayır. Təbiidir ki, daha qədim dövrlərdə insanlar gecə ilə gündüzün bərabərləşdiyi günü dəqiq surətdə müəyyənləşdirə bilməzdilər və ona görə də Novruz bayramı da baharın müxtəlif günlərində qeyd edilirdi. Novruzun dəqiq günü yalnız XI əsrdə məşhur astronom və şair Ömər Xəyyamın başçılıq etdiyi alimlər qrupu tərəfindən hazırlanmış yeni Günəş təqvimində təsbit edildi [7].

Novruz yeni gün, həm də xalqımız üçün yeni ildir. Novruzda torpaq qış yuxusundan oyanır, həyat yenidən canlanır və yeni həyat başlayır. Novruz gününə aparan yol 4 çərşənbədən keçir. Bunlar isə su, od, torpaq və yel çərşənbələridir. Su çərşənbəsində su mənbələrinin təzələnməyini, od − günəşin hərarətinin artmasını, torpaq – torpağın oyanışını və yel isə küləyin köməyi ilə ağacların tumurcuqlamasını bildirir. Bütün bunlar isə bütövlükdə təbiəti canlandırır və yeniləyir [9].

Novruz çərşənbələri və onların zərdüştçülük inancları baxımından izahını professor Kamil Hüseynoğlu belə verir: "Bunu da təəssüflə qeyd etmək lazımdır ki, indi bizim qeyd etdiyimiz dörd çərşənbə ünsürü də Novruzun yox, həmin Mitra bayramının ünsürləridir. Halbuki 1970-ci illərədək farslardan fərqli olaraq, bizdə altı çərşənbə mərasimi və ya ünsürü qeyd edilirdi. O zaman bir neçə il Novruz bizdə rəsmi səviyyədə qeyd edilməyə başlandı. Çərşənbə günləri isə xalqın yaddaşında müxtəlif bölgələrdə fərqli adlar daşıyırdı. Əsasən isə "yalançı çərşənbə", "əzəl çərşənbə", "müjdəçi çərşənbə", "gül çərşənbə", "kül çərşənbə" və "ilaxır çərşənbə" adlarından istifadə edilirdi. Buna görə də bizim folklorşünaslara bu adları sistemləşdirmək barədə göstəriş verildi. Onlar isə Novruzun tarixini və sistemini bilmədiklərinə görə mexaniki surətdə fars çərşənbə günlərini və ünsürlərini (su, od, yel və torpaq) götürdülər. Bu ünsürlər Mitra dininin yaranış ünsürləridir" [7]. Qeyd etmək lazımdır ki, dörd ünsürün müqəddəsləşdirilməsi inancı nə mitra, nə də zərdüştçülüklə birbaşa bağlı olan adətlər deyil. Bu adətlər əslində ən qədim sivilizasiya hesab edilən Şumer mədəniyyətinin günümüzdəki təzahürləridir. Məsələyə bu mövqedən yanaşsaq, zənnimizcə, daha sağlam nəticələr əldə edə bilərik.

Qədim Novruz adətlərindən olan papaq atma adəti əskidən evlərin bacasından torba sallama şəklində olmuşdur [6]. Bu ənənə bir çox bölgələrdə indi də qorunub saxlanmaqdadır. Əski zərdüştlük baxımından isə bunun izahı belə olmuşdur: "Ruhlar və mələklər "gəlib çıxandan" sonra onların şərəfinə qonaqlıq başlayır. Ruhlar öz paylarını almaq üçün qapı və bacalardan torba sallayırlar. Ev sahibləri isə bu torbalara ən yaxşı yeməklərdən qoymalıdırlar" [7].

Novruz bayramının Novruz süfrəsi və Novruz xonçası var. Çox vaxt yeddi sin süfrəsi də açılır. Yeddi sin süfrəsi sin -"s" hərfi ilə başlayan sirkə (dad və zövqə işarədir), sarımsaq (sağlamlıq), səbzə (ümid), sumax (bərəkət), sikkə (varlıq), saat (uzun ömür) və su (aydınlıq) deməkdir. Kamil Hüseynoğlu bu məsələni zərdüştçülük inanclarına görə belə izah edir: "...öl-

məz mələklərin (spentələrin) şərəfinə süfrəyə "s" (ərəb əlifbasında bu hərf "sin" adlanır) hərfi ilə başlayan yeddi nemət də qoyulmalıdır (farslar buna "həft sin", yəni "yeddi sin" deyirlər)" [7]. Deməli, süfrəyə qoyulan nemətlər əski inanclara görə, spentələrin, yəni mələklərin şərəfinə "s" hərfi ilə başlanır. Nemətlərin yeddi sayında olması da həmin müqəddəs nemətləri qoruyan yeddi mələyin sayı ilə bağlıdır. Bu səbəbdəndir ki, bayram günü süfrəni bəzəyəndə 7 cür nemət masaya qoyulur. Bunlar su (təmizlik), güzgü (paklıq mənasında, yəni insanlar ona yalandan, paxıllıqdan, xudpəsəndlikdən uzaq olsun deyə baxarlar), səməni (təbiətin oyanması), balıq (bu heyvan çox çevik olduğundan insanların da həyatda çevik olması arzulanır), alma (xoş ətirli olduğu üçün), halva (şirinlik) və fincan içərisində qoyulan qızıldır (bu da var-dövlət rəmzidir). Zənnimizcə, yeddi sin süfrə adəti Novruz bayramına zərdüştçülükdən qalma adət-ənənələrdən biri kimi dəyərləndirilə bilər.

Novruzda müxtəlif şirniyyatlar hazırlanar ancaq şirniyyatlar içərisində ən önəmliləri şəkərbura, paxlava, qoğal və şəkər çörəyidir. Bunlar isə ayın, ulduzların və günəşin rəmzləri hesab olunur.

Bərəkət nişanəsi olan səməni bayramın əsas atributlarından biridir. Qadınlarımız bayram ərəfəsində səməni göyərtməklə evin və ailənin ümidini, arzusunu, ruzisini göyərtmiş olurlar ki, belə inanclarımız da çox əskidən mövcud olan adətlərimizdəndir. Belə ki, səməni göyərdilməsinin izləri əski Şumer sivilizasiyasına dayanan mədəniyyət hadisəsidir.

Təbii ki, bu halda süfrədən gül-çiçək, su, güzgü, qızıl əşyaları da əskik olmur. Süfrəyə aş gətirildikdə isə ailə üzvlərinin hər birinin adına şamlar yandırılır. Adət-ənənəyə uyğun olaraq bayram günü hər kəs öz evində olmalıdır. Qəmi-kədəri unudub, şən əhval-ruhiyədə olmalı və bir-birinə xoş sözlər deməlidirlər [5].

Novruzun simvolik personajları - Keçəl və Kosadır. Bu simvolik personajların özləri də təbiətlə əlaqələndirilir. Belə ki, Keçəl təbiətin oyanışdan əvvəlki dövrünü, Kosa ruzi-bərəkəti, bitki örtüyünün cücərməsini bildirir. Bu məsələni professor Kamil Hüseynoğlu belə izah edir: "Axır çərşənbə axşamının səhəri isə insanlar onlara köməyə gəlmiş ruhlar və mələklərin yardımı ilə şər qüvvələrlə mübarizəyə başlayırlar, yəni bu mübarizəni təcəssüm etdirən mərasimlər keçirirlər. Bizdə bu mərasimlərdən ən çox tanınanı keçəllə kosa arasındakı tamaşadır. Burada keçəl təbiəti keçəlləşdirmiş qışın, kosa isə xeyir-bərəkət rəmzi olan keçinin və baharın simvollarıdır. Bu mübarizədə kosa keçələ, yəni bahar qışa qalib gəlir. Bəzi rayonlarda (məsələn, Ordubadda) qışda ağalıq edən Əhrimən "xan" kimi geyindirilir və sonda onu götürüb suya atırlar. Gürcüstanın Muğanlı kəndində isə son zamanlara qədər şər qüvvələr rolunu "keçəpapaqlar" adlanan insanlar oynayırmışlar. Onlar adamlara əziyyət verir, onları "döyüb, pullarını alırmışlar". Sakinlər isə onları yumurta ilə vururmuşlar" [7].

Bəllidir ki, ulu əcdadımız atəş, su, torpaq, hava və s. təbiət qüvvələrini şəxsləşdirib ilahiləşdirmiş və onların şəninə mərasim, ayin və tamaşalar icra etmişlər. Qədim türklər inanırdılar ki, onların yaşadığı Vətənin hamisi var. Vətən hamisi müxtəlif şəkildə təsəvvür olunur və müxtəlif adlarla adlandırılırdı. Onlar Vətən hamisini ağac, dağ, od, yer, su kimi təsəvvür edirdilər. Qədim türklər həm vətənlərini, həm vətənin yüksək dağını, həm də Vətənin hamisi olan mifoloji qatını ötükən adlandırırdılar. Türk təfəkkürünə görə dağ Vətənin hamisi idi. Bir sözlə vətənin torpağı, suyu, odu, dağı bir-birindən ayrılmazdır [10].

Zərdüştçülük adət-ənənələri şifahi xalq ədəbiyyatının digər növ və janrlarına da öz təsirini göstərmiş və bu bədii yaradıcılıq nümunələrində dərin izlərini buraxmışdır. Məsələn, əski zərdüştçü mifik dünyagörüş və ilkin bədii təxəyyül təkanları nağılların təşəkkül və yaddaşına da əhəmiyyətli təsir göstərmişdir. Azərbaycan nağıllarının struktur–semantik mənzərəsi bu mətnlərdə bir tərəfdən qədim türk mifoloji dünyabaxışının daşındığından xəbər verir, digər tərəfdən də ənənənvi şərq mövzularının, beynəlxalq səciyyəli səyyargəzərgi motiv və süjetlərin əks olunduğunu ifadə edir. Sehrli və alleqorik nağıllarda türk mifoloji qatı (qanadlı at, sehrli su, hər şeyi yandırıb pak edən şimşək, müqəddəs dağ, ilan, ağac kultları) beynəlxalq səciyyəli motiv və süjetlərlə qaynayıb qovuşmuşdur.

Folklorumuzun epik növünə daxil olan janrlar içərisində nağılların xüsusi yeri vardır. Nağıllar da şifahi xalq ədəbiyyatının qədin janrları sırasındadır. Rəvayət, qaravəlli, lətifə, bəzən bir sıra məhəbbət dastanları, əfsanə və əsatir də çox zaman nağıl qrupuna daxil edilmişdir. Doğrudur, bu janrların oxşar, yaxın əlamətləri çoxdur. Ancaq bunları heç bir zaman eyniləşdirmək və qarışdırmaq olmaz... [2, s. 173, 174].

Bütün epik janrlar içərisində nağıllar öz əlamətlərinə görə seçilir. Nağıl bütün dünya xalqları içərisində geniş yayılmış epik janrdır. Ona görə də nağılların xüsusiyyətləri haqqında bir çox folklorşünaslar fikir söyləmişlər.

V.Q.Belinski sehr, cadu, əfsun tilsim, div, əjdaha, fantastika və sairəni nağılların əsasən əlamətlərindən saymışdır. Y.V.Çəmənzəminliyə görə, nağıllarda əsas cəhət haqqın nahaqq üzərində qələbəsindən ibarətdir. F.Köçərli göstərmişdir ki, bütün nağılların sonunda nağılçı güləş üzü ilə dinləyicilərə üzünü tutub deyir: “Onlar yedilər, içdilər, yerə keçdilər. Siz də yeyin için dövrə keçin” və s.

Əşya və təbiət hadisələrinin canlandırılması, insanlara məxsus xüsusiyyət və keyfiyyətlərin əşya və heyvanlar üzərinə köçürülməsi, cəmiyyətdə, təbiətdə çox adi görünən hadisələrin fantastik şəklə salınması, fövqəladə hadisələrlə qaynayıb qarışdırılması, gələcəyə nikbin münasibət, inam, xoş əhvali-ruhiyyə, geniş epik lövhələrin macəra və mürəkkəb hadisələrin bolluğu və s nağıllara xas olan xüsusiyyətlərdir [2, s. 174].

Nağılları təxminən aşağıdakı kimi qruplaşdırmaq olar: Heyvanlar haqqında nağıllar, sehrli nağıllar, tarixi nağıllar, ailə-məişət nağılları, satirik nağıllar. Mövzu ilə əlaqədar bizi ən çox maraqlandıran nağıllar sehirli nağıllardır.

Qədim nağıllar içərisində sehrli nağıllar xüsusi bir yer tutur. Bunlarda xalqın, qədim insanların, təbii qüvvələrə, vəhşi heyvanlara qarşı mübarizəsi öz bədii əksini tapmışdır. Təbii qüvvələr vəhşi heyvanlar qarşısında aciz qalan qədim insanlar bu qüvvələri həmin nağıllarda div, əjdaha şəklində təsvir etmişlər. Sehrli nağıllar Azərbaycan xalqının fantaziyasının bədii təfəkkürünün gözəl bir ifadəsidir. “Şəms və Qəmər”, “Məlikməmməd”, “Şahzadə Mütalib”, “Hatəmin nağılı”, “Qaraqaş”, “Ax-vax”, “Sehrli üzük” və b. belə nağıllara misal ola bilər.

Sehrli nağılların xarakter xüsusiyyəti odur ki, bunlarda qəhrəmanlar sehr, cadu, əfsunların köməyi ilə düşmən üzərində qələbə çalır, divlərə, əjdahalara, qırılmaz tilsimlərə qarşı vuruşurlar. Bu nağıllarda müxtəlif əfsanəvi yerlərdə, zülmət dünyasında, hətta o biri dünyada təsvir edilən hadisə, əhvalatlar, xalqın real mübarizəsi, iztirabları, xoşbəxt gələcək haqqında arzusu, düşmənlərə nifrəti kimi özünü büruzə verir [2, s. 179].

Əgər diqqət edilsə, sehrli nağıllarda rast gəldiyimiz əfsun, cadu, tilsim və s. heç də dini mistik xarakter daşımır. Bu tilsimlər, cadular içərisində xalqın istəkləri, arzuları açıq-aydın özünü göstərir. “Keçəl Məmməd”, “Gül oğlan”, “Məlikməmməd” və sair nağılların qəhrəmanları xalq içərisindən çıxmış igidlərdir. Beləliklə, Simurq quşları, göyərçinlər, pərilər, sehrli üzük, süfrə və müxtəlif əşyalar və s. köməkçi qüvvələr isə hələ acizlik göstərən bu qəhrəmanların mübarizəsini daha da reallaşdırır, xeyrin şər, ədalətin ictimai haqsızlıq üzərində qələbəsini şərtləndirir. Deməli, bu nağıllarda biz xalqın bəxt, tale, xoşbəxt həyat və sairə haqqında arzularını və ümumiyyətlə, dünyagörüşünü öyrənirik. Bu cəhətdən sehrli nağılların mühüm elmi-tarixi əhəmiyyətini xüsusilə qeyd etmək lazımdır.

Div sehrli nağıllarda tez-tez iştirak edən qüvvələrdən cübbə, xarici görünüşü cəhətdən kobud, eybəcər, nəhəngdir, divlərin bir, yeddi, hətta 40 başı olduğu təsvir edilir. Onlar bəzən uçur, gözəl qız və oğlanları oğurlayır, əsir edir. Bəzən onların adam əti yediyi təsvir edilir. Dünyada olan ən yaxşı nemətlər, o cümlədən qızıl, gümüş, daş-qaş, guya ki, divlərin ixtiyarında olur. Uçan xalça, süfrə, sehrli üzük də divlərin əlində olur. Bəzən divlər zülmətdə yaşayırlar. Divlər qəddar, kobud, amansız olduqları qədər də qorxaq, bacarıqsız, sarsaq, sadəlövhdürlər. Məsələn, “Hax Nəzər” nağılında, qorxaq Nəzər divlərdən xalçanı, üzüyü və süfrəni götürüb qaçır. Gözəl qızları oğurlayıb aparsalar da, divlər onları özlərinə tabe edə bilmirlər. Bütün

nağıllarımızda bu qorxunc, nəhəng divlər qəhrəmanlar tərəfindən məğlub edilir. Ədalət nağılın sonunda qələbə çalır.

Div qədər qorxunc qüvvələrdən biri də əjdahadır. Əjdahalar da azman və nəhəng təsvir olunur. Bunların da 3, 7, 40 başlı olduğu göstərilir. Əjdahalara nağıllarda əsasən iki yerdə rast gəlinir. Onlar suyu kəsib xalqa əzab verirlər, bəzən də qəhrəmanın köməkçisi olan Simurq quşlarının yumurtalarında olan balaları yeyirlər. Onlar Simurqun yumurtalarını yemək, yaxud balalarını məhv etnək istəyirlər, həmişə də qəhrəman və onun köməkçiləri tərəfindən məğlub edilirlər [2, s. 180].

Sehrli nağıllar içərisində "Məlikməmməd" nağılı daha xarakterikdir. Zərdüştçülük dini-ideoloji fəlsəfi baxış və dünyagörüşünün, həmçinin adət-ənənələrinin izahı baxımından bu nağıl bizə daha çox ip ucları verə bilər. Ona görə də bu nağılın təhlilinə diqqət yetirək.

"Məlikməmməd" nağılı üzərində aparılan müşahidələr, ümumiyyətlə, sehrli nağılların xüsusiyyətlərini aydınlaşdırmaq üçün kifayət edər. Bu nağıl ilə ilk dəfə geniş şəkildə yazıçı və folklorşünas Y.V.Çəmənzəminli məşğul olmuşdur. Şifahi dildən yazıya aldığı bu nağılı o, iki dəfə çap etdirmiş, bir neçə məqaləsində bu barədə ətraflı söhbət etmişdir. Görkəmli folklorşünas alim P.Əfəndiyev qeyd edir: "...sehrli nağıllarda qədim insanların etiqadlarının materialist təfəkkürünün izləri qalmışdır. Sehr, cadu və əfsunların içərisində qədim insanın materialist təfəkkürünün izlərini görmək çətin deyildir. Çox diqqətəlayiqdir ki, Y.V.Çəmənzəminli də sehrli nağıllara dediyimiz həmin cəhətlərdən yanaşır, xüsusilə bu nağıllarda qədim azərbaycanlıların zərdüştçülüklə əlaqədar etiqadlarını axtarır və onun çıxardığı nəticələr də əsasən düzgündür" [2, s.180-181]. Y.V.Çəmənzəminli bu xüsusda qeyd edir: "Bütün Azərbaycan nağılları içərisində "Məlikməmməd" tip sayıldığı üçün bunun təhlili qeyrilərin də izah edir". Daha sonra görkəmli alim davam edərək bu sehrli nağılı zərdüştçülük dini və fəlsəfi görüşləri ilə əlaqələndirir. O qeyd edir ki, "Məlikməmməd"in fəlsəfəsi təbiəti ikili təsvir eləyir. Bir tərəfdə Hörmüzlə və onun xəlq etdiyi nur, əbədi həyat, haqq və ədalət, o biri tərəfdə də Əhriman və gürühi: qaranlıq dünya məhsulu olan divlər, əjdahalar, büxür, həsəd, fəna fikirlər. Bir biri ilə "əbədi çarpışmada olan bu iki qüvvə Hörmüzün qələbəsi ilə nəticələnir" [3, s. 278].

Görkəmli ədibin göstərdiyinə görə, "Məlikməmməd" nağılında hər iki tərəfdəki qüvvə-lər arasında mübarizə bu cür başlayır və sona çatır: "Ecazkar alma ağacı Padşaha daim cavanlıq hazırlayır. Lakin Əhrimənin xəlq etdiyi div buna mane olur. Mübarizə başlayır. Müvəffəqiyyət Məlikməmmədin tərəfinə keçir. Çünki o, təmiz qəlbli və zəki bir şəxsiyyətdir. İki böyük qardaş hüsn-niyyətdən məhrum olduqları üçün müvəffəqiyyət əldə edə bilmirlər [3, s. 278].

"Məlikməmməd" nağılında təsvir edilən alma ağacı hər üç gündən bir bar yetirir. Bu ağacın barını yeyən hər kəs 15 yaşında cavana çevrilir. Qocalmış padşah bu almanı yemək həsrətindədir. Ancaq gecə yarısı yetişən alma, səhər açılar-açılmaz yox olur. Məlikməmmədin igidliyi də bu əhvalatla əlaqədar başlanır [2, s. 181].

Y.V.Çəmənzəminli gənclik, ömür, səadət mənbəyi kimi verilən bu almanı "Avesta" əsərində təsvir olunan ən qədim ayin və etiqadlarla bağlamağa çalışır. O yazır ki, ""Avesta"da alma ağacına bənzər "Naara" ağacı var. Kür və Araz çayları arasında yaşayan qədim irqlərin etiqadınca, "Naara" ağacı... bütün nəbatata ruh verərmiş. Bəziləri "Naara"nı əbədi həyat bəxş edən ağaca bənzədirlər. "Məlikməmməd"dəki alma ağacı "Naara"ya çox bənzəyir. Almanı yeyən cavanlaşır və ədəbi həyata vasil olur" [3, s. 278].

Daha sonra "Məlikməmməd" nağılının fəlsəfəsi ilə zərdüştçülüyün fəlsəfəsini uzlaşdıran Y.V.Çəmənzəminli yazır: ""Məlikməmməd"də mücadilə haqq və işığın hökmranlığı ilə nəticələnir. "Avesta"nın fəlsəfəsi də bundan ibarətdir. Sami irqindən zühur etmiş dinlərin (yəhudilik, xristianlıq və müsəlmanlıq) tövhidi zərdüştilikdə yoxdur. Vəhdət əvəzində kainatda ikilik var və mübarizə hər şeyə əsas olaraq vəz olunmuşdur. Bu mübarizə getdikcə inkişaf edib böyüyür və axırda qaranlığın, div və əjdahaların, paxıl vücudların yox olub, yer üzündən qaib olması ilə qurtarır. Zərdüştilikdə dini məfkurə dünyada əbədi bir həyat, əbədi işıq, əbədi istirahət və səadət təmin etməkdir" [3 s. 278-279].

Ümumiyyətlə, “Məlikməmməd” nağılında divlər, əjdaha, qara qoç, qaranlıq dünya qaranlıq, şər qüvvələri, sehrli alma ağacı, simurq quşu, ağ qoç, işıqlı dünya isə işıqlı, xeyir qüvvələri təmsil edirlər. Hər iki tərəfin mübarizəsi və sonda işıqlı, xeyir qüvvələrin, qaranlıq, şər qüvvələr üzərində qələbə qazanması zərdüştçülük dini-ideoloji fəlsəfəsinin milli mədəniyyətimiz olan folklorumuzda və milli təfəkkür tərzimizdə buraxdığı dərin izlərin ən bariz nümunəsidir.

Ədəbiyyat

1. Atalar sözləri. AMEA, Folklor İnstitutu. – Bakı: Nurlan, − 2013, − 476 s.
2. Əfəndiyev, P. Azərbaycan şifahi xalq ədəbiyyatı / P.Əfəndiyev. − Bakı: Maarif, − 1992, − 477 s.
3. Çəmənzəminli, Y.V. Əsərləri. [3 cilddə]. / Y.V.Çəmənzəminli. – Bakı: Avrasiya Press, − 2005, − c.3. − 440 s.

İnternet materialları

4. Azərbaycan ruhunun zəngin ifadəsi. Uğur. Xalq Cəbhəsi, − 8 iyun, − 2016, − s. 13 http://www.anl.az/down/meqale/xalqcebhesi/2016/iyun/494638.htm
5. Milli adət və ənənə – Novruz bayramı. İ.ƏLİYEV. “Səs” qəzeti, − 2 mart, 2011, − s.10 http://www.anl.az/down/meqale/ses/2011/mart/161117.htm
6. Novruz barəsində bilmədiklərimiz. − 21 mart 2020, 00:13 https://kayzen.az/blog/ad%C9%99tl%C9%99r/25333/novruz-bar%C9%99sind%C9%99-bilm%C9%99dikl%C9%99rimiz.html
7. Novruz dünyanin ən qədim astronomik bayramidir. Kamil Hüseynoğlu https://axar.az/news/layiheler/450272.html
8. Nəbiyeva, Ü. Novruz görkəmli alimlərin tədqiqatlarinda. − Bakı Dövlət Universitetinin professor. https://azerbaijan-news.az/az/posts/detail/novruz-gorkemli-alimlerin-tedqiqatlarinda-1647635124
9. Xalqımızın milli simvolu olan Novruz Bayramı. MDU xəbərləri. − 20.03.2022 https://mdu.edu.az/xalqimizin-milli-simvolu-olan-novruz-bayrami/
10. Zərdüştilik mərasimləri, adət-ənənələri və qədim olimpiya oyunlarında onların səpkisi. Hüseynqulu Məmmədov, Məmməd Əliyev https://huquq.org.az/ru/publication/zrdtilik-mrasimlri-adt-nnlri-v-qdim-olimpiya-oyunlarnda-onlarn-spkisi/

S.B.Mammadov

The Place of "Avesta", Zoroasthıans and Nowruz Tradıtıons in Our Folklore

Summary

In this article, we will talk about Zarathustra, the harbinger of humanity, known to have been born in the territory of historical Azerbaijan, who has systematically and continuously influenced human culture and world views, Novruz holiday, which expresses the spirit of the East, and its historical connection with Zoroastrianism, the different and similar aspects of Zoroastrian holidays and Nowruz, the problem of sometimes mixing them up, and the position of all these in our folklore, the traces of Zoroastrian worldviews in our proverbs and parables, fairy tales and other examples of folklore, the role played by these views in our national-cultural history and the deep traces left by them, etc. such issues.

Key words: *"Avesta", Zarathustra, Nowruz, Hormuz, literature*

С.Б.Мамедов

МЕСТО АВЕСТСКИХ, ЗАРОАСТИЙСКИХ И НАВРУЗСКИХ ТРАДИЦИЙ В НАШЕМ ФОЛЬКЛОРЕ

РЕЗЮМЕ

В этой статье мы поговорим о Заратустре, предвестнике человечества, как известно, родившемся на территории исторического Азербайджана, который систематически и непрерывно влиял на человеческую культуру и мировоззрение, празднике Новруз, выражающем дух Восто-

ка, и его историческая связь с зороастризмом, разные и сходные стороны зороастрийских праздников и Навруза, проблема иногда их смешивания и место всего этого в нашем фольклоре, следы зороастрийских мировоззрений в наших пословицах и притчах, сказках и сказках. другие образцы фольклора, роль этих воззрений в нашей национально-культурной истории и оставленные ими глубокие следы и т. д. такие вопросы.

Ключевые слова: *«Авеста», Заратустра, Новруз, Ормуз, литература*

Rəyçi: filol.e.d., prof. C.Nağıyev

Redaksiyaya daxil olub: 30.04.2024

M.Ə.ŞIXIZADƏ
e-mail: metanetshikhi@mail.ru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

:10.62021/0026-0028.2024.2.140

AQATA KRİSTİNİN ƏSƏRLƏRİNDƏ BƏDİİ İFADƏ VƏ TƏSVİR VASİTƏLƏRİ

Xülasə. *Bu məqalədə Aqata Kristinin əsərlərindəki bədii ifadə və təsvir vasitələri, o cümlədən metafora, metonimiya, frazeoloji birləşmələr və s. araşdırılır. Burada həmçinin yazıçının əsərlərindən stilistik fiqurların tərcüməsi variantları təqdim edilmişdir. Bu məqsədlə məqalədə müəllifin əsərlərinə müraciət edilir və konkret nümunələr əsasında nəzəri fikirlər əyaniləşdirilir.*

Açar sözləri*: bədii, metafor, metonimiya, frazeoloji birləşmə, tərcümə*

Aqata Kristinin əsərlərində biz danışıq dilindən götürülmüş və ya müəllifin öz təxəyyülünün məhsulu olan bədii ifadə və təsvir vasitələrinin ustalıqla istifadə edildiyini görə bilərik. Məsələn:

"Now then, there are lots of things I want to know "said Mrs. Oliver. Poirot hastened to pour oil on troubled waters" (A. Christie Third Girl) (İndi isə öyrənmək istədiyim çox şeylər var, "miss Oliver dedi.....Poirot isə sulara narahatlıqla neft tökməyə tələsirdi"). Bu nümunədə "to pour oil on troubled waters" frazeoloji birləşməsinin dilimizdə "oda yağ (neft) tökmək" ekvivalenti işlənir.

"She beat about the bush a little bus at last it all came out …… The letter with a German stamp …….. the one Charles had torn up [6, s. 180].

"The Four Suspects" – bu parçada işlənmiş beat about the bush metaforasının mənası narahat olmaq deməkdir. Burada all came out birləşməsi – hər şey aydın oldu, üzə çıxdı kimi tərcümə edilir. Bu parçanı aşağıdakı kimi tərcümə edə bilərik: O, bir az narahat oldu "lakin nəhayət hər şey aydınlaşdı. Üzərində alman markası olan məktub Carlizin cırıb tulladığı məktub idi."

"A black cloud has come between is we are constrained" [6, s.180].

Bu nümundə A.Kristi metaforik epitet yaratmışdır. Cümlənin mənası, "aramızdan qara buludlar keçib, biz çarəsiz qalmışıq" deməkdir.

Azərbaycan dilində də bu frazeoloji birləşmə geniş işlənir [2]. İki dostun arasındakı yaxşı münasibət pozularsa, bu zaman onların arasından qara bulud keçib deyilir; hətta "qara pişik keçib" ifadəsi də işlənir.

Aqata Kristinin "Strange jest" (Qəribə jest) hekayəsində bir neçə nümunəyə diqqət yetirsək: "Served him right" said Edward. Ona əcəb oldu – Edvard dedi [6, s. 186]. Müəllif burada to serve smb. right – bir kəsə əcəb olmaq birləşməsini istifadə etmişdir.

"You see, he said we`d counted on it a bit …. and Charmian herself hasn`t got a bean" [6, s. 150].

Bu kiçik parçanın mənası belədir: "Bilirsiniz, o dedi, biz bir qədər buna arxayın idik … və Çarnianın özünün heç bir çöpü də yoxdur", deməkdir. Burada işlənmiş "to count on smth" Frazeoloji birləşməsi bir şeyə arxayın olmaq, ümid etmək kimi tərcümə edilir. Count sözünün lüğəvi mənası saymaq, hesablamaq, güman etmək deməkdir.

"Hasn`t got a bean" frazeoloji birləşməsinin lüğəvi mənası "bir lobyasıda yoxdur" deməkdir. Dilimizdə bu frazeoloji birləşmə "bir çöpü də yoxdur" kimi işlənir.

"He looked at us both. He said you will be all right, my pretty pair of doves" o bizim hər ikimizə baxdı .....o dedi : [6, s. 151]. Mənim gözəl göyərçinlərim, hər şey yaxşı olacaq. Bu kiçik parçada müəllif "my pretty doves" metaforu yaratmışdır. "My pretty doves" "mənim gözəl göyərçinlərim" əzizləmə mənasında işlənən metafordur. Z.A.Kristinin "The Adventure of the Cheap Flat", "Ucuz mənzildə macəra" hekayəsində kiçik bir parçaya diqqət yetirək:

"I was well aware that in the struggle for house – room the baser side of human nature frequently triumphed over the higher and that the will – known rule of dog eat dog always applied" [6, s. 23]. Bu parçanın tərcüməsi: "Mən çox yaxşı bilirdim ki, bir evdə otaq əldə etmək üçün insan təbiətinin əsas rəzil tərəfi daha yüksəkdə olanla mübarizədə qalib gəlməkdir və onlar buna görə həmişə it kimi bir-birini yeyirlər adlanan məşhur qaydanı tətbiq edirlər".

Burada müəllif insanların bir məqsəd üçün bir-biri ilə apardığı mübarizəni itlərin bir-birilə qapışmasına bənzətmişdir və itlərə xas olan xüsusiyyəti insanlara şamil edərək maraqlı metafor yaratmışdır.

Müəllifin "Word was passed to the Customs authorities and every soul that left Ship was gone over with a toothcomb!" [6, s. 46] cümləsinin lüğəvi mənası belədir: "Vergilərin rəhbərliyinə bu barədə xəbər gəlib. Gəmini tərk edən hər bir kəs diş çubuğunun üzərindən keçib" deməkdir.

Burada müəllif "toothcomb" (dişçubuğu) sözünü metaforu kimi istifadə etmişdir. Diş çubuğu çox kiçik əşya olduğu üçün insanların gəmidən onun üzərindən keçərək qaçmaları ağlasığmazdır. Burada müəllif gəmini tərk edənlərin izinin qalmadığını, onların yoxa çıxdığını göstərmək istəmiş "to go over the toothcomb" ifadəsini məcazi mənada, frazeoloji birləşmə kimi istifadə etmişdir.

To go over toothcomb" (yoxa çıxmaq" A.Kristinin "Where there`s a will" (Vəsiyyətnamə hardadır?) hekayəsindən götürülmüş nümunəyə diqqət yetirsək, "I wonder who on earth he could be, the face was so – early Victorian, if you know wath I mean" [6, s. 249].

Verilmiş bu cümlənin mənası: "Aman Allah, bu, görəsən kim idi, üzü erkən Viktoriya dövründən qalmışdı, nəyi nəzərdə tutduğunu yəqin ki, bilirsən" deməkdir. Bu nümunədə müəllif "early Victorian" metaforunu yaradaraq mənanın daha emosional və təsirli alınmasına çalışmışdır. Bu metaforu "Victoriya dövründən qalmış qoca, yaşlı" kimi tərcümə edə bilərik.

Tərcümə olunmuş variantda bu hissə, "Mən də pəncərədə bu adamın sifətini görmüşdüm, boş şeydir, qarabasmadır" kimi tərcümə edilmişdir [6, s. 219].

Gördüyümüz kimi, tərcüməçi metaforun tərcümə variantında istifadə etməmişdir, bu amil orijinalın təhrif olunmasına və mənanın səthi çatdırılmasına səbəb olur. Fikrimizcə, tərcüməçinin əsas vəzifəsi tərcümə zamanı mümkün olan qədər mənanı orjinala yaxın, itkilərə çox az yol verərək çatdırmaqdan ibarətdir. Hər bir dildə istənilən ifadənin ekvivalentini tapmaq asan məsələ deyildir, amma bütün hallarda tərcüməçi buna cəhd etməlidir [1].

Bu hekayədə "Some victorian clothing belonging to his late uncle he replace in the comphor – scented chest in the attic" [6, s. 255] cümləsindən də müəllifin "victorian" metaforunu geyimə aid istifadə etdiyini görürük.

Hekayənin sonunda "Somebody had been playing with him – playing with him like a cat whit a mouse" cümləsində müəllif çox uğurlu bənzətmə yaratmağa müvəffəq olmuşdur [6, s. 261]. Tərcüməçi bu cümləni frazeoloji birləşmə vasitəsilə tərcümə etmişdir.

"Elə bil kimsə onu barmağına dolamışdı, ələ salmışdı" [6, s. 626]. Cümlənin lüğəvi mənası aşağıdakı kimidir: Kimsə onunla oyun oynamışdır – pişiyin siçanla oynadığı kimi.

Gördündüyü kimi, A.Kristi bu hissədə Çarlizin başına gələn oyunu pişiyin siçanla oynamasına bənzədir. Müəllif öz əsərlərində bənzətmə üsulundan geniş istifadə etmişdir. "The Adventure of the Egyptian Tomb" hekayəsində "like a flash the doctor ran to our tent" [6, s. 234] cümləsində müəllif bənzətmə yaradaraq həkimin qaçmasını işıq sürətinə, alova bənzətmişdir. Bu cümləni Azərbaycan dilinə belə tərcümə etmək olar: "Həkim işıq sürəti ilə bizim çadıra qaçdı".

"They`ll drift farther and farther apart, those two – with suspicion a ghost between them – a ghost that can`t be laid" [6, s. 181] (A.Kristi The four suspects).

"Dörd şübhəli" hekayəsindən götürülmüş nümunəyə diqqət yetirək: "Onlar bir-birindən daha çox uzaqlaşacaqlar, aralarında dayanan qarabasma kimin şübhə ilə − o ruh ki, onu məğlub etmək olmur."

Burada müəllif şübhəni qarabasmaya bənzətmişdir.

Metonimiya bədii ədəbiyyatda geniş istifadə edilən bədii ifadə vasitələrindən biridir. Metonimiyadan istifadə etməklə müəlliflər sözü nəzərdə tutduqları mənada istifadə edirlər, lakin bu zaman kontekstual məna ilə sözün lüğəti, həqiqi mənası arasında müəyyən əlaqə olur [2].

A.Kristinin "The Adventure of the cheap flat" (Ucuz mənzildə məcara) hekayəsində "There is a taxi waiting just around the corner" [6, s. 33] cümləsində "taxi" metonimiya kimi işlənmişdir.

Bu cümlə dilimizə "Orada küncdə səni taksi gözləyir" kimi tərcümə edilir.

Burada müəllif "taksi gözləyir" deyəndə sürücünü nəzərdə tutur. "Taksi" cansız əşyadır, bildiyimiz kimi, kimisə gözləyə bilməz.

A.Kristinin "Where there`s a will" (Vəsiyyətnamə hardadır?) hekayəsində "The radio, which had been playing an orchestral selection, died away with the same suddenness as before" [6, s. 246] cümləsində müəllif "radio" sözünü metonimiya kimi işlətmişdir. Bu cümlə Azərbaycan dilində "Orkestr seçimi ifa edən radio əvvəllər olduğu kimi eynilə qəfildən susdu" kimi tərcümə olunması daha məqsədəuyğundur.

Bildiyimiz kimi, radio özü musiqi ifa etmir, müəllif radioda səslənən orkestr musiqisini nəzərdə tutmuşdur. Hekayənin tərcümə variantında tərcüməçi metonimiyadan istifadə etməyib: "Radioda orkestr çalırdı. Birinci dəfə olduğu kimi bu dəfə də musiqi qəfildən kəsildi" [6, s. 617]. "A well – known soprano was singing Annie Laurie and the middle of Annie Laurie a change thing happened" [6, s. 245].

Tərcümə variantında bu hissəni tərcüməçi aşağıdakı kimi verib: "O axşam qədim, ürəyəyatımlı mahnılar səslənirdi, müğənni Enni Lori nəğməsini ifa edirdi və Enni Lori nəğməsinin yarısında qəribə əhvalat baş verdi".

Göründüyü kimi, tərcüməçi müəllifin istifadə etdiyi üslubdan istifadə etməmişdir. A.Kristi burada inversiya üsulundan və metonimiyadan istifadə etmişdir. Cümlənin birinci hissəsində mübtədanı sonda işlətmişdir. İngilis dilində bildiyimiz kimi mübtəda cümlənin əvvəlində işlənir. Adi qaydada cümlə "Annie Laurie was singing a well – known soprano" kimi olmalıdır. Lakin müəllif inversiya vasitəsilə həm də metonimiya yaratmışdır, müğənninin soprano səsə malik olduğuna bəlkə də diqqət yönəltmək istəmişdir. Cümlədə "soprano was singing" – "soprano" oxuyurdu metonimiyadır. Bildiyimiz kimi, soprano (zil səs) özü oxumur, kimsə zil səslə, soprano səslə oxuyur.

"The Kidnapped prime minister" hekayəsindən götürülmüş nümunəyə diqqət yetirsək: "One higher than the Prefet: One whose word was once law in Belguim – and shall be again. That England has sworn!" [6, s. 90].

"O, baş polis Kommusarından daha yüksəkdədir. Bu, o kəsdir ki, bir zamanlar sözü Belçikada qanun idi – və yenidən belə olacaq. İngiltərə buna and içir!"

Göründüyü kimi, müəllif bu hissədə maraqlı və emosional təsirə malik metonimiya yaratmışdır. Əlbəttə ki, London şəhərdir və and içmir. Bura da müəllif Londonun sakinlərini nəzərdə tutmuşdur.

İşin elmi nəticəsi: Dünya şöhrətli A.Kristinin yaradıcılığı daima diqqət mərkəzindədir və onun əsərləri dünyanın bir çox dillərinə, o cümlədən Azərbaycan dilinə tərcümə edilmişdir. Hesab edirik ki, onun yaradıcılığına aid hər bir əsərin tərcüməsinin linqvistik və üslubi xüsusiyyətlərinin tədqiqi ümumilikdə tərcümə işi üçün mühüm əhəmiyyətə malikdir.

İşin elmi yeniliyi: Məqalədə A.Kristinin əsərlərinin Azərbaycan dilinə tərcüməsində üslubi xüsusiyyətləri – metafor, metonimiya hadisələrinin verilməsi tədqiq edilmişdir.

İşin tətbiqi əhəmiyyəti: Nəzərə almaq lazımdır ki, tərcümə təbii dillərin, o cümlədən Azərbaycan dilinin leksik qatının zənginləşməsinə ciddi təsir imkanlarına malikdir. Bu məqalədən xarici dili tədris edən universitetlərin magistratura pilləsində ingilis dilinin qrammatikası və üslubiyyatı fənlərinin tədrisində istifadə edilə bilər.

Ədəbiyyat

1. Bayramov, Q.H. Tərcümə sənəti /Q.H.Bayramov, − Bakı: Oka Ofset, − 2008, − 110-124 s.
2. Bayramov, H.A. Azərbaycan dili frazeologiyasının əsasları / H.A.Bayramov, − Bakı: Maarif, − 1978, − 176 s.
3. Dəmirçizadə, Ə.M. Azərbaycan dilinin üslubiyyatı / Ə.M.Dəmirçizadə, − Bakı: Azərtədris nəşr, − 1962, − 272 s.
4. Арнольд И.В. Стилистика современного английского языка: Стилистика декодирования [Учеб. пособие для пед. ин-тов по спец. N 2103 "Иностр. яз."] / И.В.Арнольд. −2-е изд., перераб. − Ленинград: Просвещение. Ленингр. отд-ние, − 1981. − 295 с.
5. Hajiyeva, A.K. English stylistics: Lectures and Exercises/ A.Hajiyeva. –Azerbaijan University of Languages. − Baku: Elm və Təhsil, − 2015. − 172 p.
6. Christie, A. Selected detective stories / Agatha Christie. − Москва: Прогресс, − 1976. – 336 p.

M.A.Shikhizada

Artistic Lexical Expressive Means in Agate Kristie's Works

Summary

The article is devoted to the Artistic lexical expressive means in Agate Kristie's works. The article deals with the variants of translation stylistic devices as well. The examples have been presented from Agate Kristie's works. For this, the article provides links to the author's work and visualizes theoretical ideas based on concrete examples.

***Key words**: artistic, metaphor, metonymy, phraseological units, translation*

М.А.Шыхызаде

Средства художественной выразительности и описания в творчестве Агаты Кристи

Резюме

В данной статье исследуются средства художественного выражения и описания в творчестве Агаты Кристи, в том числе метафора, метонимия, фразеологическое сочетания и так далее. Здесь также представлены варианты перевода стилистических фигур из произведений писателя. Для этого в статье приводятся ссылки на работы автора и визуализируются теоретические идеи на основе конкретных примеров.

***Ключевые слова:** художественный, метафора, метонимия, фразеологическое сочетание, перевод*

Rəyçi: filol.f.d. C.M.Babayev

Redaksiyaya daxil olub: 15.05.2024

J.S.ŞÜKÜROVA
filologiya üzrə fəlsəfə doktoru
e-mail: shukurova.jalya@mail.ru

AMEA-nın M.Füzuli ad. Əlyazmalar İnstitutu
(Bakı şəh., İstiqlaliyyət küç., 26)

:10.62021/0026-0028.2024.2.144

MƏHƏMMƏD FÜZULİ SÖZÜNÜN QÜDRƏTİ

Xülasə. *M. Füzuli yaradıcılığı klassik ədəbiyyatımızın incisidir. Onun əsərləri sevilir, oxunur və əsrlər sonra da oxunacaq. Doğma dilinə böyük hörmət və məhəbbətlə yanaşan Füzulinin yaradıcılığı hər insan ağlı üçün əlçatan mənbə deyil. Bu mənbəni dərk etmək üçün oxucunun yüksək zövqü, dərin düşüncəsi olmalıdır. Böyük Füzuli dediyi hər sözün qədrini bilib, onu göylərə qaldırmağı bacarmışdır. İlahi gözəlliyi vəsf etməkdə əvəzsiz oan Füzuli məhz bu səbəbdən dünya söz sənətinin zirvəsində dayanır. Dərya ənginliklərində gizli qalmış gövhər kimi Füzuli sənəti də məna baxımından möhtəşəm hikmət okeanının dərinliyində pünhan qalmış məqamlarla zəngindir.*

Açar sözlər: *məna, söz sənəti, dil, bədii üslub, fəlsəfə*

Füzuli dahidir − mübahisəsiz, mübaliğəsiz; kəlamı sahilsiz ümman, fəlsəfəsi əlçatmaz bir zirvə. Hikmət dolu söz xəzinəsi əsrlərin sınağından keçərək qəlblərdə taxt salmağı bacarmış, fəlsəfəsi isə bu söz xəzinəsinə əbədi bağlanmış oxucularını öz aşiqinə çevirmişdir. Füzuli haqqında onlarla tədqiqat işi yazılmış, bundan sonra da yazılacaqdır. Yazıldıqca da bu sonsuz umman artacaq, bir qətrə belə azalmaq bilməyəcəkdir. Dahi şairin də elə ölməməzliyi, həmişə yaşarlığının səbəbi budur.

"Füzulinin sənəti, şübhəsiz ki, axırıncılardandır" [13, s. 3]. Şair özü də qələminin təkrarsızlığı gerçəkliyini qəbul edirdi. Necə ki özü deyir:

Gör nə sultanəm məni-dərviş kim feyzi-söxən,
Eyləmiş iqbalımı asari-nüsrət məzhəri.
Hər sözüm bir pəhləvandır kim bulub təyidi-həqq,
Əzm qıldıqda dutar tədric ilə bəhrü bəri,
Qanda kim əzm etsə mərsumu məvacib istəməz,
Qansı mülkü tutsa, dəyməz kimsəyə şuru şəri...! [7, s. 360]

"Füzuli nə alimdir, nə filosof: o sözün həqiqi mənasında Şairdir! Onun poeziyası dünyagörüşünün deyil, dünya duyumunun ifadəsinə xidmət edir" [12, s. 5].

Doğma dilinə böyük ehtiram və sevgi ilə yanaşan Füzuli yaradıcılığı hər insan zəkasının qavrayacağı və idrak edəcəyi bir mənbə deyildir. Bu mənbəni anlamaq üçün oxucu yüksək zövqə və dərin təfəkkürə malik olmalıdır. Böyük sənətkar dediyi hər bir kəlmənin dəyərini bilmiş, onu göylərə qaldırmağı bacarmışdır. İlahi gözəlliyin tərənnümündə əvəzsiz olan Füzulinin söz sənət aləminin zirvəsində durması da elə bu səbəbdəndir.

Füzuli yaradıcılığının çiçəklendiyi dövr Səfəvi və Osmanlı hakimiyyəti illərinə təsadüf edir. Məhz bu zaman kəsiyində şairin yaşadığı Bağdad şəhəri öz mədəni yüksəliş dövrünü yaşamışdır. İlk əvvəl Səfəvilərin, daha sonralar isə Osmanlı dövlətinin ərəb Bağdadında hakimiyyəti türk dilinin yüksəlişinə rəvac vermişdir. Bu dövrdə Şərqin parlaq günəşi Füzuli bir şair olaraq yetişərək genişlənməkdə olan Osmanlı imperiyasının Şərq üfüqlərində parlayan ulduz kimi səmanın dərin ənginliklərini müdhiş bir nura qərq etmiş, onun yerini heç bir varis

tuta bilməmiş, bu parlaq ulduz elə doğduğu yerdə də batmışdır. (17, s.70) Türckə yazmaqla "düşvar olanı asan" edən Füzuli bu dili ədəbiyyat dilinə çevirmişdir:

Ey feyzrəsani ərəbi-türki-əcəm!
Qıldın ərəbi əfsəhi-əhli-aləm.
Etdin füsəhayi-əcəmi İsadəm,
Mən türkzəbandan iltifat eyləmə kəm [7, s. 15]

O ki, qaldı Füzuli dilinin qəlizliyinə burada bir neçə məqamı nəzərə almaq lazımdır. Hər hansı bir dövrə aid olan yazılı abidəni anlamaq üçün ən əvvəl həmin mənbənin aid olduğu zamanın dilini və yazısını bilmək gərəkdir. Bundan əlavə tədqiqatçı yazılı abidənin dilini və yazısını oxumaqla yanaşı onun tarixinə də bələd olmalıdır. Yazılı abidəni anlamaq onun daşıdığı ədəbi mahiyyətini dərk etmək deməkdir, çünki məzmunundan və formasından asılı olmayaraq hər bir yazılı abidə bir ədəbi əsərdir [16, s. 10]. Bu fikirləri əsas götürərək qeyd etmək lazımdır ki, əvvəla şairin zamanında ərəb və fars dilləri dövrün oxucusu üçün anlaşılan bir ünsiyyət vasitəsi olmuşdur. Belə ki, IX əsrdən fars dilinin türk ədəbiyyatına sirayət etməsi farsların hakim mövqe tutması ilə əlaqədar olmuşdur. Bu səbəbdən də o dövrün və mühitin insanları, əsasən də ziyalı təbəqə bu dili öz doğma dilləri kimi mənimsəmişlər. Şairin "işlətdiyi ərəb və fars sözlərinin çoxu isə, o zaman danışıq dilinə keçmiş, ədəbi dildə və danışıq dilində vətəndaşlıq hüququ qazanmış sözlərdən ibarətdir." [2, s. 277] Yəni sözümüzün canı ondan ibarətdir ki, Füzuli öz dövrünün standartları və meyarlarına uyğun yazmış və əsərləri dillər əzbəri olmuş, əlyazmaları Şərqin bütün ölkələrində əldən-ələ gəzmiş, qəlblərdə taxt qurmağı bacarmışdır.

Füzuli dilinin çətin anlaşılan olmasının ikinci tərəfi isə onun poetik dili və bədii üslubu ilə əlaqədar olmasıdır. Hər bir savadlı şair kimi Füzuli də ərəb və fars dilində yazılan poetik sənət nəzəriyyəsinə dair traktatlar, şeirin əsas formalaşdırıcı elementlərinin təsvir edildiyi risalələr ilə tanış idi. Müasir ədəbiyyatşünaslıq elmində nəzəri problemlərin mövcud olması bu çətinliklərin əsasını təşkil edir.

Məhəmməd Füzuli kimi bir düha da sözə elə bir əsrarəngizlik, elə bir sehr qatmış ki, onun poetikası qarşısında deyilən hər hansı bir fikir aciz və gücsüz qalmışdır. Musa Adilovun təbirincə desək "bütün yüksək, ali sözləri Füzuli işlədib, bunların xıltı bizə qalıb. Biz də bu xıltla kifayətlənirik." [1, s. 9]

Füzuli yaradıcılığından bir çox əsər və tədqiqat işləri yazılmışdı. Lakin bu əsərlər Füzuli sözünün və şeirinin dərinliyinə qədər dərk olunması üçün kifayət etməmişdir. Bunun da səbəbi Füzuli poetikasının qarşısında duran bir çox problemlərin mövcud olmasıdır. Bu problemlər isə bizə sovet dönəmindən miras qalaraq həm ədəbiyyatımıza, həm mədəniyyət və incəsənətimizə sirayət etmişdir.

Baxmayaraq ki, "Yunan-Roma ədəbiyyatının əsas nümunələri VII-IX əsrlərdə ərəb dilinə də tərcümə olunmuşdur və nəticədə ərəb dilində müsəlman ədəbiyyat nəzəriyyəsi -Şərq poetikası və onun terminoloji bazası" [4, s. 11] yaransa da hələ sovet dönəmindən ədəbiyyatımız yunan Avropa sistemi əsasında öyrənilmiş, "hətta səhv olaraq Avropa və Şərq poetik kateqoriyaları bir yerdə qruplaşdırılmışdır." [8, s. 24]

Sovet boyunduruğundan azad olmağımıza baxmayaraq Avropa və rus ənənələri çərçivəsindən tam çıxmaq, ədəbiyyatımızı təzyiq altında saxlayan, şərq ənənələrinə zidd olan meyllərdən azad olmaq hələ də tam mümkün olmamışdır.

Füzuli ilə müasir dövrümüz arasında bizi dörd əsrdən çox zaman kəsiyi ayırır. Füzuli irsini araşdırarkən bu böyük zaman kəsiyi bizi məhz həmin vaxta kökləməli, həmin dövrün təfəkkür və düşüncə tərzinə istiqamətləndirməlidir. Burada ən vacib və ən mühüm olan Şərq poetik vasitələrini öyrənilməsində ənənəvi bir boşluğun mövcudluğudur.

Ədəbiyyat nəzəriyyəsinin qolu sayılan poetika uzun bir təkamül yolu keçərək sənət səviyyəsinə yüksəlmişdir. Şərq poetikası isə poetikanın banisi sayılan Aristotelin yalnız yunan

ədəbiyyatının özəlliklərini ümumiləşdirdiyi "Poetika" əsərində səsləndirdiyi fikirlərdən daha fərqlidir. Bunun əsasında klassik şərq ədəbiyyatının yaratdığı suallara cavab tapmaq qeyri mümkün hesab edilir. Döğrudur, sovet dönəminin müəllifləri klassik Azərbaycan şairlərinin söz haqqında fikirlərinin çox maraqlı və hikmətli olduğu qənaətində olduqlarını qeyd etsələr də, Azərbaycan şairlərin orijinal mülahizələrinin Aristotel poetikasından ayrı götürülməməsini də tövsiyyə etmişdilər.

Fikrimzcə klassik yunan mədəniyyəti ilə yaxından tanış olan şairlərimiz bu mədəniyyətin nəzəri görüşlərindən faydalansalar da daha yüksək və əlçatmaz bir sənətkarlıq nümunələri yaratmağa müvəffəq olmuşlar. Bunun da başlıca səbəbi "ərəb bəlağətinin heç də təkcə yunan sistemindən qidalanan bir sahə olamadığı" məsələsidir. [11, s. 79]

Şərq poetikası daim öz zənginliyi, rəngarəngliyi ilə seçilmişdir. Onun insan idrakına, mənəvi aləminə nüfuzunun nə qədər sirayət etdiyi həmişə maraq və təəccüb doğurmuş, hələ də təəccüb doğurmağa davam edir. Göründüyü kimi sovet dönəmində yazılan ədəbiyyat nəzəriyyəsinə əsaslanaraq Füzuli irsini, Füzuli poetikasını öyrənmək mümkün olmamışdır. Sovet dönəmində bu sahə Yunan-Avropa sistemi əsasında öyrənildiyi üçün klassik ədəbiyyatımız, klassik poeziyamız da sonuna qədər tədqiq edilməmiş qalmışdır. Haqqında bu qədər gözəl fikirlər deyilən söz sənətinin öyrənilib tədqiq edilməsi bir çox çətinliklər ilə üzləşmişdir.

Hər bir mədəniyyətin özünəməxsus cəhətləri olduğu kimi onları digər mədəniyyətlərdən fərqləndirən xüsusiyyətləri də mövcuddur. Lakin bu onların eyniliyi və yaxud da eyni müstəvi altında araşdırlımasına gətirib çıxarmamalıdır. Hər bir mədəniyyət öz kontekstində öyrənilməli və tədqiq olunmalıdır. Şərq poetikası məhz elə islam mədəniyyətindən qaynaqlanmışdır. Ritm və təqlid kateqoriyaları əsasında formalaşan Yunan-Avropa məktəbindən fərqli olaraq Şərq poetikası daha çox şaxəli, mürəkkəb və çətin bir sahədir.

Elə buna görə də bir çox klassiklarımızın, o cumlədən M.Füzuli əsərlərinin bədii xüsusiyyət və incəlikləri kölgə altında qalmışdır. "Məhəmməd Füzulinin (digər görkəmli klassiklərimizin) dil və üslub xüsusiyyətlərinin araşdırılmamasına səbəb XVI əsrdə Şərq, hazırda isə Avropa poetikasının (anlayışlarının, terminlərinin, görüşlərinin) təfəkkürümüzdə hakim olmasıdır." [1, s. 4]

Füzuli dilinin qəlizliyinin səbəblərindən biri kimi də şairin orjinallığı və təkrarsızlığını göstərmək olar. Sənətkar klassik Azərbaycan ənənələrini davam etdirsə də, Şərq ədəbi məktəbinə bağlı olsa da, bu məktəbin bir nümayəndəsi kimi yüksəlsə də heç kimi təkaralamamış, öz dəsti-xəttini yaratmışdır. Füzuli öz sələflərinin yaradıcılığı ilə yaxından tanış olmuş, lakin onları təqlid etməmiş, özünə yeni bir yol çizmişdı. Şair "əsl dahi kimi tapdanmış yollar ilə gedə bilməzdi. Ona görə də o poeziyada yeniliyi dəyərləndirən biri kimi hər bir sənətkarın özünəməxsus yaradıcı bir obraza sahib olmasını vacib hesab edirdi."[15, s. 9] Bənzərsiz, təqlidsiz bir yazı isə oxucunun qulaqlarına tanış gəlməyə bilər. Ədəbiyyata yeni bir ruh qatan şair bir inqilab yaratmış, buna görə də oxucusunu öz orjinallığl ilə çətinliyə salmışdı. Mühafizəkar oxucu isə qulaqlara yad olan hər hansı yeniliyi qəbul etmə və qavrama problemi yaşayır. "Yaradıcılıqda nə varsa, hamısı orijinal olmalıdır.- Füzulinin qənaəti belədir, həm də bu qənaət şairin nəzəri əqidəsinə çevrilmişdir." [5, s. 103]

Şairin düşüncə tərzi qəlblərdə təlatüm, beyinlərdə inqilab yaratmışdır. Bu sənəti ən incə məqamlarına qədər mənimsəyən şair ənənəvi fars şeir qəliblərindən çıxaraq "nəzmi-nazik türk ləfzi ilə" əbədiyyətə qədər yaşayacaq bir sənət qoymağa müvəffəq olmuşdur. F.Köçərlinin təbirincə desək, "Əgər ki, ondan müqəddəm türklərdən də bəzi mötəbər şairlər olubdur, vəli onun kimi müqtədir və cəmi lisana malik və camei-fünuni-nəzm və nəsr olmayıbdır. Və həqiqətdə demək olur ki, türk dilinə rövnəq verən və onu xarü-xaşakdan təmizləyib bir göyçək və şəfalı çəmənə bənzədən Füzuli olubdur" [9, s. 58].

Fars və ərəbdilli sözlərin geniş istifadə edilməsi ilə yanaşı, əruz vəzninin türk şeiri üçün istifadəsini bu çətinliklərin əsas səbəblərindən saymaq olar. "Belə ki, Füzuli Azərbaycan əruzunda işlənən on iki bəhrin onunu öz yaradıcılığında tətbiq etmişdir. Eyni zamanda o, ərəb

əruzuna məxsus olan, digər xalqların poeziyasında nadir hallarda işlənən, məsələn, kamil bəhrinə, yenə də ancaq və ancaq ərəb əruzunda işlənən münsərih bəhrinin müftə'ilün fA'ilAtü müftə'ilün fə' növünə müraciət edir" [10, s. 4].

Bütün həyatını şeirə, sənətə fəda edən Füzulinin hər bir misrasında ürfan, süluk, kəlam, fiqh, hədis, təfsir elmlərinin izləri hiss olunur. Dahi sənətkarın əsərlərində şiəliyin, imamətin təbliği açıq-aydın sezilir.

Ey padşəhi-səriri-lovlak,
Məqsudi vücudi-xakü əflak!
Olmuş əflak xaki-rahin,
Çəkmiş əflakı xak cahin.
Ey raqimi-nüsxeyi-məani,
Mə'mureyi-elmi-dinə bani! [6, s. 178]

Füzuli həqiqət yolunun yolçusudur. Bu yola onu aparan eşqdir. Şair hər eşqin əvvəlində və sonunda haqqın durduğuna əmindir. Lakin şairin sənətinin qayəsini təşkil edən bu eşqin zümzüməsini sonuna qədər dərk edə bilməmişik. "Füzulinin bütün gizli, dəruni, müqəddəs hissləri məhz bu iki anlamda öz ifadəsində tapır; dünya işlərinə, həyata və ümumiyyətlə kainata münasibəti də, Yaradana – Allaha və Yaradana – Allahın öz yaratmışlarına sevgisi də, axirət evinə baxışı da bu iki məfhumda Füzuli üçün birləşib vəhdət təşkil etmişdir" [14, s. 70].

Füzuli sözünün dəyəri onun poeziya dilinin həm məna baxımından, həm də mənanın necə ifadə olunması baxımından fərqliliyindən irəli gəlir. Ölməz sənətkarın dilini heç bir şairin dili ilə qarışdırmaq olmaz.

Bax elə Füzuli sözünün qiyməti də, dəyəri də, müasir dövrümüzdə sevilməsi də şeirdə ustalılqla işlətdiyi söz və məna təkararlarıdır. "Füzulinin bu dərəcə önəm verdiyi sözü işlətmə texnikasının bir yönü olan təkrarlar, həmən belirtelim ki, onun şiirlerinde pek çok örneği görülen, dilbilgisindeki ikileme denilen kuruluşlar değildir." [3, s. 10]

Füzuli hər kəlməsi ilə, hər fikri ilə öz təkarasızlığını sübut edir. Onun şeirlərini heç bir şairin qələminin məhsulu ilə qarışdırmaq olmaz. Füzuli öz adını ölümsüzləşdirən bir dühadır.

Mövzunun aktuallığı: M.Füzuli yaradıcılığı Azərbaycan ədəbiyyatının, habelə Şərq poeziyasının ən incə məqamlarını özündə ehtiva edən bir sənət nümunəsidir. Şair işlətdiyi söz və məna təkrarları və bənzətmələri ilə əsrarəngiz bir irs qoyub getmişdir. Böyük sənətkarın hər bir misrası bir musiqilik, bir ahəngdarlıq nümunəsidir. Oxunduqca yeni-yeni suallar, şərh olunmağı gərəkən məqamları ilə zəngin bu irs həmişə tədqiqata cəlb ediləcək bir mənbədir.

Mövzunun yeniliyi: Füzuli həmişə diqqət mərkəzində olub. Onun yaradıcılığı çox şaxəli, poetikası isə öz rəngarənliyi və zənginliyi ilə həmişə seçilmişdir. Məqalədə şairin dilinin çətinlikləri, onun şeirinin məzmun və fəlsəfəsinin qavranmasında yaranan problemlər araşdırılıb. M.Füzuli dilinin çətinlikləri haqqında yeni müddəalar irəli sürülərək bu problemlərin qaynaqlandığı səbəblər haqqında ətraflı söhbət açılmışdır. M.Füzuli yaradıcılığı şairin həm söz möcüzəsinin, həm də bədii təfəkkürünün inikasıdır. Şair qəlbinin, düşüncəsinin, duyğularının qarşılıqlı sintezindən mükəmməl bir nizam yaradaraq ölməzlik yaratmışdır.

Mövzunun praktik əhəmiyyəti: M.Füzuli poeziyası klassik Şərq poetikasının əsasında araşdırılmalıdır. Şairin ruhunu, dil-üslub incəliklərini və o cümlədən sənətkarlıq məharətini müəyyənləşdirmək üçün müsəlman Şərq poetikasına müraciət etmək lazımdır. Yəni Füzuli sözünün fəlsəfəsini anlamaq və dərk etmək üçün yunan-Avropa qəlibləri yararsızdır.

Ədəbiyyat

1. Adilov Musa. M.Füzuli üslubu və poetik dili. VII c. Elm və təhsil.
2. Araslı, Həmid. Böyük Azərbaycan şairi Füzuli. Bakı-Azərbaycan uşaq və gənclik ədəbiyyatı nəşriyyatı, 1958.

3. Dilçin, C. Füzulinin şiirlerinde söz tekrarlarına dayanan bir anlatım özelligi // Türkoloji dergisi, − 1992.
4. Əliyev R. Ədəbiyyat nəzəriyyəsi. Bakı-Mütərcim 2008
5. Əliyev S. Füzuli poetikası. Bakı-Yazıçı 1986.
6. Füzuli, M. Əsərləri / M.Füzuli, − Bakı, − c.2, − 1958.
7. Füzuli, M. Əsərləri. [VI cilddə] / M.Füzuli, − Bakı, − c.1. − 2005.
8. Həmid M. Orta əsrin bədii təfəkkürü və klassik Azərbaycan ədəbiyyatı (Füzuli yaradıcılığı əsasında) Ozan-Bakı 1996
9. Köçərli, F. Azərbaycan ədəbiyyatı / F.Köçərli, Bakı, − c.1. −2005.
10. Quliyev, T. Anadilli əruz vəznli şeirimizin poetik inkişaf yolu // Ədəbiyyat qəzeti, 06 sentyabr 2022-ci il.
11. Quliyeva M.Şərq poetikasının əsas kateqoriyaları. Bakı-2010
12. Məhəmmədi M. Ön söz// Mustafa N. Füzulinin poetik semantikası. − Bakı, − 1994.
13. Paşayev, M. Füzuli sənətkarlığı / M.Paşayev, − Bakı, − 2018.
14. Rüstəmova, A. Ön söz. M.Füzulinin seçilmiş əsərləri / A.Rüstəmova, − Çaşıoğlu, − 2004.
15. Гулузаде М. Основные мотивы лирики Физули. Литературный Азербайджан. 1958, №12
16. Конрад, Н. Запад и Восток / Н.Конрад, − Москва, − 1972.
17. Gibb E.J.W/ A history of Ottoman poetry, vol.I. London, 1900

J.S.Shukurova

The Power of Muhammad Fuzuli's Words

Summary

M.Fuzuli is the pearl of our classical literature. His works are loved, read and will continue to be read even centuries later. The work of Fuzuli, who treats his native language with great respect and love, is not a source accessible to every human mind. To understand this source, the reader must have high taste and deep thinking. The great artist knew the value of every word he spoke and managed to lift it to the skies. It is for this reason that Fuzuli, indispensable in praising the divine beauty, stands at the top of the world's verbal art.

Kay words: *meaning, word art, language, artistic style, philosophy*

Ж.С.Шукурова

Сила слов Мухаммада Физули

Резюме

М.Физули – жемчужина нашей классической литературы. Его произведения любят, читают и будут читать даже спустя столетия. Творчество Физули, который с большим уважением и любовью относится к своему родному языку, не является источником, доступным каждому человеческому разуму. Чтобы понять этот источник, читатель должен обладать высоким вкусом и глубоким мышлением. Великий Физули знал цену каждому сказанному им слову и сумел вознести его до небес. Именно по этой причине незаменимый в восхвалении божественной красоты Физули стоит на вершине мирового словесного искусства.

Ключевые слова: *смысл, искусства слова, язык, художественный стиль, философия*

Rəyçi: filol.e.d. N.Göyüşov

Redaksiyaya daxil olub: 08.05.2024

Ş.Ə.UMUDOVA
doktorant
e-mail: shems.umudova96@mail.ru

Qərbi Kaspi Universiteti
(Bakı şəh., İstiqlaliyyət küç., 31)

:10.62021/0026-0028.2024.2.149

MİLAN KUNDERA – "GÜLMƏLİ MƏHƏBBƏTLƏR" HEKAYƏSİNDƏ MƏHƏBBƏT İDEYASI

Xülasə. *Çexoslovakiyanın Brno şəhərində anadan olan Milan Kundera 1948-ci ildə Çexiya kommunist rejimi qurulanda tələbə idi, daha sonra Praqadakı Təkmil Kinematoqrafiya Araşdırmaları İnstitutunda fəhlə, caz musiqiçisi və professor kimi çalışıb. O, "Zarafat", "Həyat başqa yerdədir", "Əlvida valsı", "Gülüş və unudulma kitabı", "Varlığın dözülməz yüngüllüyü" və "Ölməzlik" romanlarının və "Gülməli məhəbbətlər" adlı hekayələr toplusunun müəllifidir – hamısı əslən çex dilindədir. Onun ən son romanları olan "Yavaşlıq", Şəxsiyyət" və "Cahillik", eləcə də "Roman sənəti" və "Xəyanət edilən vəsiyyətlər" adlı qeyri-bədii əsərləri ilk olaraq fransız dilində yazılmışdır. Müəllifin sonrakı romanlarında işləyəcəyi mövzuların özəyini, eləcə də bu mövzuların işlənməsində orijinal və yenilikçi povest üsullarını Kunderanın böyük zövqlə yazdığı "Gülməli məhəbbətlər" əsərində tapmaq mümkündür. Yazılmasına on il vaxt sərf olunan hekayə kitabının həm məzmun, həm də forma baxımından çox fərqli mahiyyət daşıdığını söyləmək olar. "Kunderanın hekayələrində kişilər "erotik gücə olan ehtirasları" ilə qadınları təqib edirlər. Evli, subay, yaşlı və gənc kişilər sosial çətinliklərə dözür, vaxt itkisini, iqtisadi çətinlikləri qəbul edərək qadınları cəlb etməyə çalışırlar. Kundera bu marafon zamanı qarşılaşdıqları universal problemləri gözəl şəkildə əks etdirir. "Gülməli məhəbbətlər"də ifadə gücünün və estetik səviyyənin ucaldılması ilə yanaşı, bu ümumbəşəri hadisəni müvəffəqiyyətlə – yumorla – əks etdirməkdən söhbət gedir.*

Açar sözlər: *məhəbbət, insan psixologiyası, cəmiyyət, kompleks münasibətlər, Milan Kundera*

"Bilirəm ki, sən həmişə düz oğlan olmusan və bununla fəxr edirsən. Ancaq özünüzə bir sual verin: Niyə həqiqəti deyirsiniz? Bizi nə məcbur edir? Bəs səmimiyyət niyə fəzilət hesab edilməlidir? Tutaq ki, bir dəli ilə rastlaşırsınız. Kim iddia edir ki, o balıqdır və biz hamımız balığıq. Onunla dalaşacaqsan? Onun qabağında soyunacaqsan ki, mən balıq deyiləm, üzgəcim yoxdur, ona deyəcəksən? Qardaşı susdu və Eduard sözünə davam etdi: "Əgər sən ona yalnız həqiqəti söyləsəydin, həqiqətən nə düşünürsən, bu, bir dəli ilə ciddi müzakirə aparmağa razı olman demək olardı. Özün dəlisən. Ətrafımızdakı dünya ilə də eynidir. Əgər sən onun üzünə həqiqəti söyləməkdə israrlı olsaydın, bu onu ciddiyə aldığını ifadə edərdi. Və bu qədər qeyri-ciddi bir şeyi ciddiyə almaq özün bütün ciddiliyini itirmək deməkdir. Mən olmamaq üçün yalan danışmaq lazımdır. Mən dəliləri ciddi qəbul edirəm və özüm də dəli olmayacağam". Kundera həmçinin bildirib ki, o, "bütün romantik biznesinin başlanğıc nöqtəsi" olan bu qısa hekayələri yazmaqla yazıçı kimi peşəsini tapıb. Əsas mövzular da sonrakı romanların əsas mövzularını elan edir."Gülməli məhəbbətlər" başlığı onun romantik yalanın həmişə ciddi şəkildə bağladığı sevgi ideyası ilə "...eşq macərası gülünc, təsadüf və təsadüflərdən ibarət idi" fikri arasında müşahidə etdiyi uyğunsuzluğu gözəl yekunlaşdırır. O məhəbbəti ciddilikdən və mənadan məhrum olan xəta hesab edir" [1, s. 87]. Müəllif bu uyğunsuzluğu həm də onun personajlarının özlərini təmsil etmələrinin ciddiliyi ilə özlərinə rəğmən girişdikləri antikalar arasında "kənardan tətbiq edilən; onları heç bir şəkildə xarakterizə etməmələri; onların qəribəliklərinə görə heç bir şəkildə məsuliyyət daşımadıqlarını; kim bilir hardan, kim bilir hansı xarici qüvvələr tərəfindən özləri yönləndirilərək onları sürükləyirlər. Niyə qaydaları və məqsədi onlardan qaçan bir oyuna borc verirlər? Çünki "o öz-özünə deyirdi ki, qarşılaşdığı bütün bu insanlar ancaq bir-birini əvəz edə bilən, möhkəm mahiyyəti olmayan varlıqlardır; lakin ən

pisi odur ki, o, bu kölgə şəxsiyyətlərin yalnız özüdür, çünki o, bütün zəka resurslarını onlara uyğunlaşmaq və təqlid etmək üçün tükətmişdir". Sevgi özgələşdirsə belə, onun personajları başqalarının gözü ilə mövcud olmağa kömək edə bilməz. Kundera "Xəyanət edilmiş vəsiyyətnamələr"də dedi; "O zaman dərindən, acgözlüklə arzuladığım yeganə şey aydın və məyus bir baxış idi. Nəhayət ki, roman sənətində tapdım. Buna görə də insan özü haqqında bu aydın və məyus baxışı qəbul edəndə oyundan uzaqlaşa bilir. "Varlığın dözülməz yüngüllüyü" Kundera Nitsşenin dəliliyini dünyadan uzaqlaşma kimi təyin edərkən: "Bu, 1889-cu ildə baş vermişdi və Nitsşe artıq Tereza'yı sevdiyim kimi orada uzaqlaşdı, ikisini də yan-yana görürəm: hər ikisi də insanlığın ağa və təbiət sahibinin daha əvvəl yürüşünü davam etdirdiyi yoldan çıxır. Oyundan geri çəkilmə və ya vəziyyətdən alınan məsafə, kimi ritorik təsirlərlə hekayə for-masında da mövcuddur; Hərəkəti hərəkətsizləşdirməyə və başqa bir rəvayət tərzinə, yəni uzaqlaşmaya səbəb olur [1, s. 121].

"Gülməli məhəbbətlər" (çex. Směšné lásky) Milan Kunderanın 1959-1968-ci illər arasında, yəni ilk romanı olan "Zarafat"dan sonra yazdığı yeddi qısa hekayədən ibarət topludur. Çex dilində və Bohemiyan tərzdə yazılmışdır. Kolleksiya 1970-ci ildə Fransua Kerelin tərcüməsi əsasında nəşr edilib və müəllif tərəfindən 1986-cı il nəşri üçün yenidən işlənib. Bu romandakı bütün qısa hekayələr arasında qırmızı bir xəttin keçdiyini görəcəksiniz: sevgiyə münasibətimizi düşünməyə məcbur oluruq və sevgi nədir? – bu sual bizi əsər boyu düşündürür. Gündəlik həyatın absurdluğu üzərində düşünmək istəsəniz, həm də sizə təsir edən və sizə müdaxilə edən bütün münasibətlərin mahiyyətini, aralarında heç bir əlaqə olmadığı kimi dərk etməyə çalışırsınızsa, bu kitab sizin üçün hazırlanmışdır. Personajlar ayrılır, bir-birini canlı izləyir və əks etdirir. Kundera insan ruhunun incəliklərini necə də yaxşı bilir! O, dəqiq və səmərəli qələmi ilə həyatı aydınlığı ilə yazır. O, insanın ziddiyyətlərə və işgəncələrə məruz qalan səhnələrə də genişliyi ilə yer verir. Xüsusilə kişi və qadın münasibətləri ilə maraqlananlar üçün narahat edici səhnələr mövcuddur. Əsərin məzmunu sanki bugünkü cəmiyyətə uyğunlaşdırılıb qələmə alınmışdır [2, s. 3]. Çox vaxt bu kolleksiyanın "Milan Kunderanın bütün romantik yaradıcılığının başlanğıc nöqtəsi" olduğu qəbul edilir. Əsas mövzular sevgi və sədaqət, şəxsiyyət, varlıq və görünmə və s. Kundera erotizmin ovsunlanmış portretini çəkir. Personajlar qərq olduqları komik və yüngül situasiyalardan və bu vəziyyətlərə ciddi yanaşmalarından kənardırlar. Kolleksiya bir ahəngə malikdir, mürəkkəb və balanslaşdırılmış struktura malikdir və əsərin marağı təkcə onun gənclik əsəri olması ilə bağlı deyil [4, s. 2]. "Əgər biz ancaq bildiyimiz şeylərə görə cavabdeh olsaydıq, axmaqlar əvvəlcədən bütün günahlardan keçərdilər. İnsan bilməlidir. İnsan öz cahilliyinə görə məsuliyyət daşıyır. Cahillik səhvdir" [5, s.2]. Kunderanın bestsellerlərindən biri olan "Gülməli məhəbbətlər" onun qara yumorundan istifadə edərək cinsi siyasət və şirniklendirmənin tanış mövzularını təsvir edən qısa hekayələr toplusudur. Hər bir hekayə personajların gözləntilərindən bir faciəli nüans zərbəsi ilə qeyd olunur. Fəlsəfə, erotizm, kinizm və yumorla zəngin olan yeddi bədii hekayədən ibarət bu kolleksiya, Kunderanı yüksək formada təzahür edir. Burada onun bəzi digər işləri ilə müqayisədə bürokratik siyasi istinadlar demək olar ki, yoxdur [1, s. 18].

Elmi nəticəsi: Milan Kundera'nın "Gülməli məhəbbətlər" əsəri məhəbbət, cinsiyyət münasibətləri, insan psixologiyası və mədəniyyət kimi mövzulara diqqət yetirir. Elmi nəticələr də bu mövzuların təhlilinə əsaslanır. Bu əsərin elmi nəticələri ümumiyyətlə, məhəbbətin subjektivliyi, insanların məhəbbət və cinsiyyət arasında qarışıq əlaqələri, mədəni və sosial normların insanların məhəbbət davranışlarına təsiri və insanların məhəbbətə münasibətləri kimi mövzuları təhlil edir.

Elmi yeniliyi: Milan Kundera'nın "Gülməli məhəbbətlər" hekayəsində məhəbbət ideyası ilə bağlı elmi yeniliklər çoxsaylıdır. İşlədiyi konseptlər və təqdim etdiyi fikirlər, insanın məhəbbətə münasibətini və bu münasibətin mövcud olan mədəni və sosial kontekst içindəki təsirini təhlil edərək məhəbbətə yanaşmaqda yeni perspektivlər açır. Elmi yeniliklərin bir hissəsi, Kundera'nın təsvirləri və məqaləsində irəliləyən konseptlərindən birində məhəbbətin so-

yuq və rasional tərəflərini dəstəkləməsidir. O, məhəbbətin anlamının yalnız romantik və həssas hisslərə əsaslanmadığını, həmçinin məntiqi və fərdi özünə qənaət etmə prosesinə də aid olduğunu göstərir.

İşin tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi: Milan Kundera'nın "Gülməli məhəbbətlər" hekayəsində təqdim etdiyi məhəbbət ideyasının tətbiqi əhəmiyyəti və iqtisadi səmərəsi müxtəlif düzənlərdə baş verir. "İnsan münasibətləri və psixoloji": Kundera'nın əsəri, insanların birbirilə olan münasibətlərində və psixologiyasında məhəbbətin necə təsir etdiyini anlamağa kömək edir. "Sosial münasibətlər və mədəniyyət": Kundera, məhəbbətin sosial və mədəni normalara və dəyərlərə necə təsir etdiyini vurğulayır. "İqtisadi təsir": "Gülməli Məhəbbətlər", məhəbbətin insanların iqtisadi həyatına necə təsir etdiyini də təhlil edir.

Ədəbiyyat

1. Kundera, M. Gülünesi aşklar / M.Kundera. − Can yayınları, − 2002.
2. http://www.kundera.de/english/Bibliography/Laughable_Loves/laughable_loves.html
3. https://www.allenandunwin.com/browse/books/fiction/Laughable-Loves-Milan-Kundera-9780571206926
4. https://astrofella.wordpress.com/2019/08/28/laughable-loves-milan-kundera/
5. https://books.google.az/books/about/Laughable_Loves.html?id=ZpupPwAACAAJ&redir_esc=y
6. https://pdfcoffee.com/milan-kundera-laughable-loves-pdf-free.html

Umudova Shams Afghan

Milan Kundera – The Idea of Love in the Story "Laughable Loves"

Summary

Ведь давным-давно прошли времена, когда все занимались опровержением мнения «поскоблите русского, и окажется татарин». С другой стороны, сегодня в Европе, в славянском мире, в Евразии утвердился совершенно другой миропорядок. Потеряло свою актуальность утверждение Ф. Достоевского: «Не может Россия изменить великой идее, завещанной ей рядом веков и которой следовала она до сих пор неуклонно. Эта идея есть, между прочим, и всеединение славян; но всеединение это – не захват и не насилие, а ради всеслужения человечеству…». Прав великий писатель в том, что силы России в этом направлении «довольно ошибочно направлялись» [10, с. 258]. Это вытекает также из утверждения К. Леонтьева о том, соперничество за доминантную роль в романо-германском мире между Францией и Германией продолжается, Россия же тщетно претендует на ведущую позицию в греко-славянском мире. В то же время Ф. Достоевс-кий, ярый сторонник теории Н. Данилевского, предполагал единение всех народов без каких-либо исключений: «Мы впервые объявим миру, что не чрез подавление личностей иноплеменных нам национальностей хотим мы достигнуть собственного преуспеяния, а наоборот, видим его лишь в свободнейшем и самостоятельнейшем развитии всех других наций и в братском единении с ними, восполняясь одна другою, прививая к себе их органические особенности и уделяя им и от себя ветви для прививки, сообщаясь с ними душой и духом, учась у них и уча их, и так до тех пор, когда человечество, восполнясь мировым общением народов до всеобщего единства, как великое и великолепное древо, осенит собою счастливую землю.» [11, с. 100]. На наш взгляд, в приведённых высказываниях Ф. Достоевского просматривается определённое противоречие. В одном случае он славянофил, сторонник Н. Данилевского, один из активных идеологов так называемого восточного вопроса, в другом – автор «русской идеи», ставшей основой русской философии. Это – всемирная отзывчивость, т.е. отсутствие национального эгоизма, готовность помочь другому народу. Думается, сегодня очень актуальна речь писателя о Пушкине, обращённая русскому человеку, славянскому миру и европейцам. По мнению Арсения Гулыги, «…подлинный «подвиг Пушкина» Достоевский видит в том, что в его поэзии засияли идеи всемирные. Ибо «что такое сила русской народности, как не стремление её в конечных целях своих ко всемирности и всечеловечности… О, народы Европы и не знают, как они нам дороги! И впоследствии, я верю в это, мы, то есть, конечно, не мы, а будущие грядущие русские люди поймут уже все до единого, что стать настоящим русским и будет именно значить

стремиться внести примирение о европейские противоречия» [6, с. 86]. Да, «Достоевский говорил о будущем… он обращал внимание на то, что в России «возникнет высший культурный тип, которого нет в целом мире – тип всемирного боления за всех». Этот «всемирный болельщик» возникнет из «почвенника»: чем сильнее привязанность к родной земле, тем скорее она перерастает в понимание того, судьба родины неотделима от судеб всего мира. Отсюда стремление устроить дела всеевропейские и всемирные как характерная русская черта» [6, с. 86]. В результате технического прогресса, глобализации, войн и катаклизмов мир стал таким маленьким, хрупким и беззащитным, что каждый из нас сегодня озадачен вопросами «Как сохранить и беречь его, не лишиться достижений и результатов цивилизации, мультикультурального и этнического своеобразия планеты? Что же делать, чтобы знать, видеть, оценить культурное многообразие мира, умело пользоваться, наслаждаться и дорожить всем, что имеем на Земле? Не являются ли сегодня изречения Ф. Достоевского ответом на эти вопросы, на трагические последствия противостояния в Восточной Европе между Россией и Украиной. Об этом ли Всеславянском единении мечтали славянофилы, разве подобное противостоянии России и Европы волновало авторов русской идеи? Таковыми ли должны были быть результаты романо-германского и греко-славянского развития пути Европы?

Вот к чему приводят наши размышления вокруг «подозрительной» концепции Н. Данилевского о культурно-исторических типах, где нашлось место даже цивилизациям доисторического времени, цивилизациям, не прикасающимся с российскими пределами. Справедливо, что он, исходя из реалий европейского развития, настоящих и будущих планов основных игроков европейской политики, разграничил романо-германский и греко-славянский культурно-исторические типы. Непонятно было только то, как же он промолчал и проморгал историю великой тюркской цивилизации, веками тесно переплетавшуюся и сосуществовавшую с древнерусской и древнеславянской культурами. Хотя и Ф. Достоевский с большим интересом ждал появление глав книг «Россия и Европа» Н. Данилевского в эпоху непрекращающихся споров западников и славянофилов, на наш взгляд, понять и адекватно воспринять его в плане интересующего нами «изъяна» невозможно без заметок того же самого Ф. Достоевского. В своих комментариях под заглавиями «Мой парадокс», «Вывод из парадокса» и «Восточный вопрос» [10] писатель разъяснил все причины невключения тюркского культурно-исторического типа в обсуждаемый перечень. Получается, что Россия стыдится своего гуннского, аварского, хазарского, печенежского, татарского прошлого, отказывается от истории своего возрождения в XIV-XVII веках, во многом ставшего возможным благодаря сношениям с Золотой Ордой, а потом с Османской Портой, способствовавшим её возведению в ранг великой евразийской державы. И это только из тех побуждений, чтобы быть услышанным и принятым на Западе, в Европе. Выходит, прорубив окно в Европу, Россия должна была отказаться не только от своего православного, но и тюркского прошлого. Оставалось только «стащить с постели больного человека (Достоевский имел ввиду Османскую Турцию – *замечание наше*) совсем долой». Но ради славянского единения русский теоретик Н. Данилевский и писатель Ф. Достоевский не хотят, чтобы Европа вызвала консилиум «опять лечить его». Понятно, что вмешательство европейских стран в так называемый «вечно неразрешимый Восточный вопрос» тогда помешало бы планам России согласно политической теории Филофея и завещанию Петра I освободить Константинополь от турков и превратить его в центр Всеславянского союза.

Недоумеваешь, когда даже в новейших исследованиях русские учёные за сегодняшние беды во всех грехах обвиняют тюркское наследие России. «Западноевропейские концепции особого пути России являются одним из весьма заметных элементов интеллектуального поля Запада. С точки зрения западного наблюдателя, этот особый путь

обусловлен двумя взаимосвязанными факторами – с одной стороны, петровскими реформами, максимально приблизившими Россию к Западу, и с другой – «сопротивлением материала», некоторыми чертами исторического, религиозного, культурного характера, не позволяющими России раствориться в западной цивилизации» [2, с. 336]. Нам же кажется, что проблема не в «сопротивлении материала», т.е. религиозного содержания, этнического разнообразия, истории формирования государственности России. С точки зрения политиков, публицистов и мыслителей Запада, ряд событий обусловил формирование мифа о русской угрозе, представлений о полуазиатской стране, предназначение которой – «потопить в крови ослабевшую от своих вековых устоев европейскую цивилизацию» [2, с. 339].

Сегодня в тюркских странах наряду с крупномасштабными международными и межрегиональными социально-экономическими проектами развития реализуются культурно-информационные и научно-технические мероприятия, способствующие усилению и укреплению интеграционных процессов в рамках Объединения тюркских государств. Это важно для каждого тюркского государства с точки зрения определения своей исторической, культурной и национальной идентичности. Нам необходимо рассмотреть свою историю и культуру в контексте выявления вклада тюркских народов в мировую культуру и цивилизацию. Сегодня Азербайджан переживает своеобразный национально-патриотический подъём. Восстанавливается историческая справедливость: возвращаются исконно азербайджанские земли, захваченные армянами в результате массовых переселений. Благодаря социально-экономическим, культурным и научным проектам возрождаются Карабахский и Восточно-Зангезурский регионы республики, восстанавливается историческая память… Очень надеемся на скорое открытие экономически выгодного для всех стран региона Зангезурского коридора…

Особо импонируют нам тюркологические исследования казахстанцев. В этом плане примечательна статья Сагади Булакбаева «Тюркский мир в контексте истории философии», недавно появившаяся в одном из научных журналов Казахстана. [3]. Во-первых, в данной публикации автор делает попытку «сведения отдельных «историй» в единую всемирную историю», во-вторых, он освободил нас от задачи предоставления неопровержимых фактов тюркской истории и культуры в пользу её утверждения в качестве одного из основных культурно-исторических типов. Обратим внимание на аргументы Булакбаева: 1) начиная с конца VI века, границы Тюркского каганата сомкнулись на западе с Византией, на юге с Персией и Индией, а на востоке с Китаем; 2) вопреки утверждениям историков, тюрки имели свою самодостаточную культуру и цивилизацию в центре Евразии, создали несколько очагов мировой культуры и цивилизации, оказавшие существенное влияние и на другие культуры и цивилизации, в первую очередь на европейскую; 3) ссылаясь на Л. Гумилёва, автором приводятся многочисленные факты технического прогресса (*изобретение металлических стремян и вьючной упряжи, плавка металла, получение чугуна и стали, изобретение изогнутой сабли, появление книгопечатания восемь веков до открытия Гуттенберга, «конная культура», ирригационное искусство, покорение народов и стран, умение удержать их под своей властью, простирание завоёванных территорий от Тихого Океана до Атлантики, в частности, владения Тюркского каганата, империя Чингисхана, империи Тимуридов, Газневидов, Моголов, жалаиров в Иране, Османская империя, обладание лучшим военным искусством, использование тюркских войск в качестве союзников или наёмников, совершенные формы общественного бытия и социальные институты, кочевая демократия, налоговая система, денежное обращение, безопасная торговля, идеальная коммуникационная сеть, дипломатия, толерантное отношение к языку, культуре и традициям всех народов и т.д.* – курсив наш). Опираясь на «Персидские письма» французского философа Шарля Монтескье, казахский учёный высказывает

следующую интересную мысль: «Завоевания Чингисхана значительно превосходят завоевания семи крупнейших европейских полководцев, признанных всем миром – Александра Македонского, Ганнибала, Цезаря, шведского короля Карла XII, Фридриха Великого, А. В. Суворова и Наполеона Бонапарта…» [3].

Мы согласны с мнением, что «…в контексте современной методологии культуры концепции Данилевского, Шпенглера и Тойнби вполне рабочие и востребованы» [15]. За основу своих взглядов и будущих разысканий по поводу тюркского культурно-исторического типа мы берём эти концепции. В то же время мы сторонники восстановления исторической справедливости и предлагаем научно-теоретическую платформу, необходимую для объединения тюркских государств. В противовес теории Н. Данилевского считаем вполне объективной евразийскую концепцию русской истории, предложенную учёными-евразийцами Г. Вернадским [3], Н. Трубецким [17], Л. Гумилёвым [6] и др., соответствующую характеру и логике развития многовековых славяно-тюркских связей, отношений России с Европой. Труды евразийцев советского и постсоветского времени, движение неоевразийцев в России, платформа Евразии в Турции, концепция туранского евразийства О. Сулейменова и Н. Назарбаева, а также тюркологические исследования последних десятилетий в тюркских странах свидетельствуют о том, что существование тюркского культурно-исторического типа не вызывает сомнений. Проблема в том, как преподнести и представить его, как широко и глубоко охватить и описать весь процесс его возникновения, развития, расцвета, определить нынешнее состояние цивилизационных тенденций.

Разрешение проблемы и рассмотрение вопроса о существовании самостоятельного тюркского культурно-исторического типа предлагалось нами в контексте исследований евразийцев. [9]

Необходимо придерживаться известного тезиса Л. Гумилёва о том, «что если Россия будет спасена, то только как евразийская держава и только через евразийство» (6). В этом смысле важно также мнение одного из известных представителей турецкой платформы евразийства Омара Гёксела Ишяра: «В Евразийском регионе Турция и Россия не должны выступать друг против друга, а действовать вместе, достичь политической гибкости между собой, не увлекаться превосходством и конкуренцией во взаимоотношениях…» [12, с. 89]. Этот призыв актуален и жизнеспособен для стабильности отношений между Объединением тюркских государств и Российской Федерацией во всех сферах жизнедеятельности.

Сегодня появились новые научные сферы, интегрирующие с культурой: культурология, этнокультурология, лингвокультурология, мултикультурализм, этнопсихология, другие метадисциплины, имеющие практическую значимость в изучении языка, культуры и истории народов мира. На наш взгляд, игнорирование или искажение истории и культуры какого-то не было народа ограничивает возможности культурного и научного обмена, сближения, диалога и всестороннего сотрудничества между народами.

Литература

1. Ağaoğlu, Ə. Üç mədəniyyət / Ə.Ağaoğlu. – Bakı: Mütərcim, – 2006. – 24-36 с.
2. Багно, В.Е. Миф – образ – мотив (Русская литература в контексте мировой). – Санкт-Петербург: Издатаельство Пушкинского Дома, издательство «Вита Нова», – 2014. – 480 с.
3. Булекбаев С. Тюркский мир в контексте истории философии // https://mysl.kazgazeta.kz/news/2265
4. Вернадский, Г. В. Московское царство: пер. с англ. / Г.В.Вернадский. – Тверь: ЛЕАН, – 1999. – 448 с.
5. Гизо Ф. История цивилизации в Европе // https://mybook.ru/author/fransua-gizo/istoriya-civilizacii-v-evrope-2/read/?page=3

6. Гулыга, А.В. Творцы русской идеи / А.В.Гулыга, – М.: Молодая гвардия, – 2006. – 316 с.
7. Гумилёв, Л.Н. Ритмы Евразии: эпохи и цивилизации. Спб: СЗКЭ: ООО «Издательский дом «Кристалл», – 2003 http://flibusta.site/b/192539/read
8. Данилевский, Н.Я. Россия и Европа / Н.Я.Данилевский. – Москва: Издательство АСТ: ОГИЗ, – 2023, – 624 с.
9. Джафаров, Т.Г. Концепции о культурно-исторических типах и тюркские цивилизации / Т.Г.Джафаров. Akademik Tarih ve Düşünce Dergisi, 11 (3) 2024 https://dergipark.org.tr/tr/pub/atdd/issue/85042/1508798
10. Достоевский, Ф.М. Дневник писателя: избранные страницы / Ф.М. Достоевский. – М.: Современник, – 1989, – 557 с.
11. Достоевский, Ф.М. Полн. собр. соч. в 30-ти тт. Т. 25.
12. Heyət, C. İslam mədəniyyətinin Qərb mədəniyyətinin inkişafına təsiri / C. Heyət // 525-ci qəzet. – 2010. – 19 mart.
13. İşyar, Ö.G. Avrasya ve avrasyaçılık / Ö.G.İşyar. – Bursa: Dora, – 2013, – 352 s.
14. Леонтьев, К.Н. Византизм и славянство. – М.: Издание Императорского общества Истории и древностей Российских при Московском университете, – 1876, – 144 с.
15. Равочкин Н.Н. Культурологические теории Данилевского, Тойнби и Шпенглера в контексте современной методологии культуры // https://cyberleninka.ru/article/n/kulturologicheskie-teorii-danilevskogo-toynbi-i-shpenglera-v-kontekste-sovremennoy-metodologii-kultury
16. Рахманалиев, Р. Империя тюрков. История великой цивилизации / Р.Рахманалиев, – Москва: Рипол Классик, – 2013.
17. Тойнби А. Постижение истории /А. Тойнби. – М.: Академический проект, – 2023, – 798 с.
18. Трубецкой, Н.С. История. Культура. Язык / Н.С.Трубецкой. – М.: Прогресс, – 1995. – 800 с.
19. Fukuyama, F. The End of History and the Last Man / F.Fukuyama, – The Free Press, – p.446. https://old.tsu.ge/data/file_db/anthim/011.pdf
20. Huntington S. The Clash of Civilizations? // Foreign Affairs. – 1993. – Summer (vol.72, № 3). – p. 22-49.
21. Шпенглер, О. Закат Европы: в 2 т. – М., – 2004. Т. 2.
22. Ясперс К. Смысл и назначение истории: Пер. с нем . – М.: Политиздат, – 1991. – 527 с.

T.H.Cəfərov

Türk tarixi-mədəni tipi dünya sivilizasiyaları tarixi ilə bağlı diskussiyalar kontekstində

Xülasə

Məqalədə rus filosofu N.Danilevskinin 1869-cu ildə işıq üzü görmüş “Rusiya və Avropa” kitabında təqdim olunan tarixi-mədəni tiplər, onun irəli sürdüyü sivilizasiyalar konsepsiyası təhlil edilir. Sonrakı dövrlərdə müzakirəyə çıxarılan O.Şpenqlerin və A.Toynbinin konsepsiyalarına, bütövlükdə, bu müstəvidə gedən diskussiyalara, “mədəniyyət”, “sivilizasiya”, “tarixi-mədəni tip” anlayışları ilə bağlı fikirlərə, həmçinin ədəbi ünvanlara və mətnlərə, F.M.Dostoyevskiyə istinad edilir. Türk tarixi-mədəni tipinin bu konsepsiyalarda layiqli yer tuta bilməməsinin əsas səbəbi kimi ilkin olaraq rus-türk müharibələri fonunda slavyan tarixi-mədəni tipinin qabardılması vurğulanır. Göstərilir ki, tarixi-mədəni tiplərin müəyyən olunmasında ilk rola malik olmuş rus aliminin müəyyən etdiyi qanunlara və hərəkət qanunauyğunluqlarına əsasən ilk və sonrakı təsnifatlarda türk tarixi-mədəni tipinin yer almaması təəccüb doğurur. Bunu sübut edən tarixi faktlar, dəlil və sübutlar sadalanır. Göstərilən yanlışlığın rus tarixinin Avrasiya konsepsiyası müəllifləri tərəfindən XX əsrin 20-30-cu illərdə aradan qaldırıldığı göstərilsə də, hazırda – Türk Dövlətləri Birliyinin formalaşdığı bir tarixi şəraitdə ideoloji oriyentir kimi türk tarixi-mədəni tipinin, türk sivilizasiyasının mövcudluğunun elmi-nəzəri təsdiqinə ehtiyac yarandığı qeyd edilir.

Açar sözlər: *N. Danilevski, “Rusiya və Avropa”, tarixi-mədəni tip, xaç yürüşləri, slavyanlar*

T.H.Jafarov

Turkic cultural-historical type in the context of discussions about the history of world civilizations

Summary

The article analyzes the historical-cultural types presented in the book "Russia and Europe" by the Russian philosopher N. Danilevsky, published in 1869, and the concept of civilizations put forward by him. The concepts of O. Spengler and A. Toynbee, discussed in the later periods, as a whole, discussions on this level, ideas related to the concepts of "culture", "civilization", "historical-cultural type", as well as literary addresses and texts, and F.M. Dostoyevsky are referred to. As the main reason why the Turkish historical-cultural type cannot take a proper place in these concepts, the rise of the Slavic historical-cultural type against the background of the Russo-Turkish wars is emphasized.

It is shown that it is surprising that the Turkish historical-cultural type is not included in the first and subsequent classifications based on the laws and regularities of movement defined by the Russian scientist who had the first role in defining historical-cultural types. Historical facts, evidence and evidence are listed to prove this. Although the indicated error was eliminated by the authors of the Eurasian concept of Russian history in the 20s and 30s of the 20th century, it is noted that there is a need for scientific-theoretical confirmation of the existence of the Turkish historical-cultural type and Turkish civilization as an ideological landmark in the historical conditions of the formation of the Union of Turkic States.

Key words: *N. Danilevsky, "Russia and Europe", cultural and historical type, crusades, Slavs*

Рецензент: доктор исторических наук А.Ш.Ахмед

PEDAQOGİKA. METODİKA. PSİXOLOGİYA – ПЕДАГОГИКА. МЕТОДИКА. ПСИХОЛОГИЯ

G.Ç.ASLANOVA
baş müəllim
e-mail: aslanovagulara@mail.ru

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

:10.62021/0026-0028.2024.2.172

AZƏRBAYCAN XALQ MAHNILARININ SƏS VƏ FORTEPİANO ÜÇÜN YAZILMIŞ İŞLƏMƏLƏRİNİN TƏDRİS PROQRAMLARINDA YERİ

Xülasə. *Məqalədə müxtəlif illərdə Azərbaycan bəstəkarları tərəfindən xalq mahnılarının səs və fortepiano üçün yazılan işləmələrindən bəhs olunur.Məqalədə demək olar ki, mahnı işləmələri toplularının əksəriyyəti nəzərdən keçirilib və təhlil edilib. Milli musiqiyə xas olan lirik melodiyalar, lad-məgam xüsusiyyətlər, spesifik vəzn və s. bu əsərlərə marağı artırır, dərs proqramlarını Azərbaycan musiqisi ilə tamamlayır və tədris prosesində tələbələr tərəfindən daha da həvəslə öyrənilir.*

Açar sözlər: *xalq, mahnı, işləmə, fortepiano, ritm, temp, tədris*

Ü.Hacıbəyov və M.Maqomayevin 1927-ci ildə çap olunmuş "Azərbaycan Türk el nəğmələri" toplusunun nəşri ilə ölkədə yeni milli fortepiano "folklor siması"nın yaranmasından danışa bilərik. Topluda olan xalq mahnılarının çox sayının fortepiano ilə müşayiət olunması bu işin təməlini qoydu və gələcək musiqiçilərə yol göstərdi.

Ən birinci nümunələrdən A.Zeynallının "Səndən mənə yar olmaz" xalq mahnısının fortepiano ilə oxumaq üçün işləməsini misal gətirə bilərik ki, bu mahnı müqəddimə ilə başlanır və 6/4 sayda yazılıb. Müşayiət çox sadə, bir əldən o birisinə keçən arpeciolarla, legato üslubunda yazılıb və bəsit səslənir.

Bu sahədə canlanma İkinci Dünya müharibəsindən sonraya təsadüf eləyir. Belə ki, bu zaman çoxsaylı azərbaycanlı gənc bəstəkarlar fəaliyyət göstərirdi. Onların əksəriyyəti Bülbülün rəhbərliyi altında Musiqi Kabineti ilə əməkdaşlıq etmiş, Azərbaycandakı yaradıcı ekspedisiyalarda folklor yığmış və bir hissəsi onun bəzi nümunələrindən ilhamlanaraq onlardan öz əsərlərində istifadə etmişlər.

Bunlardan 1952-ci ildə böyük bəstəkarımız F.Əmirovun çapdan çıxmış iki Azərbaycan xalq mahnısının fortepiano ilə oxumaq üçün işləməsini misal gətirə bilərik. Mahnıların ikisində də fortepiano girişi intermediya ilə başlanır. Giriş dinləyicinin nəğmələrdəki emosional əhvali-ruhiyyəyə tutulması və onun əsasında xalq havasının səslənməsini, açıqlamasını təmin edir. "Küçələrə su səpmişəm" Azərbaycan musiqisinə xas olan 6/8 sayında moderato cantabile tempində çox lirik xarakterə malikdir. Bəstəkar mahnının xarakterini qorumaq üçün müşayiəti nisbətən sadə, sağ əldə melodiyanı təkrarlayaraq gözəl, uyğun harmoniyalarla mahnının gözəlliyini qoruyub saxlamış və xalq ənənələrinə sadiq qalmışdır. I mahnı – "Evləri var xana-xana" tam fərqli xarakterə malikdir. Oktavalar və iri akkordlarla başlayan müşayiət, sonra da ritmi saxlayaraq (2/4) gah staccato ilə ifa olunan müşayiət, gah da legato çalınaraq mahnının ruhunu, əhvalını dinləyiciyə ötürür [2].

1957-ci ildə bir neçə bəstəkarımız xalq mahnı janrına müraciət etmişdir. Bunlardan H.Xanməmmədov və N.Əliverdibəyovu nümunə göstərə bilərik.

H.Xanməmmədovun 1957-ci ildə üç xalq mahnısı: "Ay qadası", "Ay qız, heyranın ollam" və "Yadıma sən düşəndə" çapdan çıxıb. Birinci mahnı – "Ay qadası" – cəld tempdə, 6/8 ritmdə, xalq musiqisinə xas olan "Üç badam, bir qoz" ritmik müşayiəti ilə çalınır. İkinci mahnı – "Ay qız heyranın ollam" – yenə də 6/8 sayda, cəld tempdədir, ancaq burada daha sakit və sadə müşayiət görürük. Üçüncü mahnı – "Yadıma sən düşəndə" – nisbətən asta-andante con mota tempində çalınır və yenə də 6/8 sayda müşayiətin iri akkordlarla ifa olunmasına baxmayaraq, mahnı daha mülayim xarakterə malikdir. Bunu akkordların sıx olması təmin edir. Təkcə axırda, müşayiətin fakturasında onaltılıq notların legato ilə çalınması musiqini hərəkətə gətirir [10, s. 17] .

1959-cu ildə bəstəkar M.Əhmədovun "Azərbaycan xalq mahnıları" (fortepiano ilə oxumaq üçün) kitabı nəşr olunub. Burada iki Azərbaycan xalq mahnısı – "Gözəlim sənsən" və "Gəl, gəl" yer alıb. Onu da qeyd etmək istəyirəm ki, "Gözəlim sənsən" mahnısı hələ M.Maqomayevdən başlayaraq bir neçə bəstəkar fortepiano və səs üçün işləyib. Mahnının gözəlliyi ("Şüştər" muğamı), lirikası, həzin melodiyası qəlbləri oxşayır və mahnı xalqın ən sevimli mahnısına çevirir.

1961-ci ildə bəstəkar S.Hacıbəyov Qax və Zaqatala rayonlarındakı ekspedisiyalardan sonra üç mahnı çap edir. Onu da qeyd etməliyəm ki, bu mahnıların melodiyalarını da nota bəstəkar özü köçürüb. Bunlar "Bənövşə" (Qax rayonu), Zaqatala rayonunda nota yazılan "Maralım, ceyranım" və "Ceyran balam" xalq mahnılarıdır. Birinci iki mahnı mülayim tempdə, 6/8 ritmə malikdir, axırıncı mahnı isə daha cəld (allegretto) tempdə və nisbətən nadir 6/4 ritmində yazılıb.

1962-ci ildə fortepiano ilə oxumaq üçün daha bir mahnı məcmuəsi bəstəkar M.Mirzəyev tərəfindən çap olunub. Məcmuədə beş Azərbaycan xalq mahnısı var: "Azərbaycan maralı", "Nəbi", "Qara tellər", "Bağçada gül", "Gözəlim sənsən". Mahnıların hamısı ənənəvi 6/8 ritmində yazılıb və "Nəbi" mahnısından başqa, qalanı asta və mülayim templi lirik melodiyalara malikdir. "Nəbi" mahnısı cəld tempdədir və xalq qəhrəmanına həsr olunduğundan melodiyası igidliyi, qorxmaz, döyüşkənliyi nümayiş edir. Bütün bu mahnıların müqəddiməsi və sonu nisbətən mürəkkəb fortepiano partiyası ilə seçilir [11, s. 18].

Həmən illərə nəzər saldıqda, bir sıra aşıq mahnıları fortepiano ilə oxumaq üçün bəstəkarlar tərəfindən işlənilib. 1960-cı ildə B.Hüseynlinin bu qəbildən altı aşıq mahnısının işləməsini qeyd etmək istərdim. Mahnılar ayrı-ayrı çapdan çıxıb. Mahnıların ritmi 3/8; 6/8-dir və fortepiano müşayiəti aşıq stilində, ritmi isə təkrarlar ilə və s. yazılıb.

Fortepiano ilə oxumaq üçün xalq mahnılarının işləmələrindən yazanda L.Abbasovanın fəaliyyətini xüsusi qeyd etməliyik. Onun 2000-ci ildə və 2005-ci ildə çap olunmuş toplularını ən çox mahnılar əhatə edir. Mahnılar iki cilddə yerləşdirilib və hər topluda 12-dən 19-a qədər mahnı cəmləşdirilib. Mahnılar müqəddimə ilə başlayır. Bunlar həm uzun, həm də qısa ola bilir və həmçinin fortepiano partiyası mahnının sonunda da yer tutur. Toplularda cəmləşən mahnılar hamısı lirik mahnılardır. Aralarında həm asta, həm mülayim, həm də tez templi mahnılar mövcuddur. Müşayiətin nisbətən sadə görünməyinə baxmayaraq, müşayiət tam əsərin xarakterini, dramaturgiyasını, onun ritmik rəngarəngliyini, dolğun harmonik zənginliyini üzə çıxarır. Konsertmeyster partiyasında çoxsaylı arpeciolar, üçsəsli akkordlar, xarakterik ritm və s. demək olar ki, bütün mahnılara məxsusdur. Ən əsası da mahnıların miqdarı imkan verir ki, ifaçılar gözəl, çox rahat seçim etsinlər.

2020-ci ildə G.Aslanovanın "Azərbaycan xalq mahnılarının səs və müşayiət üçün işləmələri" adında toplu çapdan çıxıb. Məcmuədə 12 Azərbaycan xalq mahnısı yer alıb. Mahnıların hamısı lirik mahnılardır və məhəbbət lirikasına aiddir. Əksər mahnıların ritmi 3/4 və 6/8-dir. Bir mahnı 4/4, biri də qarışıq, dəyişən ritmdə yazılıb. Mahnılarda geniş diapazon dəyişiklikləri, arpeciolar, oktava həcmində akkordlar, arpeciolar, çox saylı melizimlər və bütün mahnılarda pedalın qeyd

olunması mahnıları daha konsert xarakterli edir. Məcmuədə olan yeniliklərdən biri mündəricatda bütün mahnıların hansı muğama aid olmasının qeyd olunmasıdır.

1. "Ay bəri bax, bəri bax" (Segah); 2. "Ay Laçın" (Bayatı Şiraz);
3. "Bir dənəsən" (Bayatı Şiraz); 4. "Bülbülün geydiyi sarı" (Bayatı Şiraz);
5. "Çal oyna" (Mahur, Rast); 6. "Dağlarda çiçək" (Bayatı Şiraz);
7. "Əlimdə sazın qurbanı" (Mahur); 8. "Gül açdı" (Şur);
9. "Küçələrə su səpmişəm" (Bayatı Şiraz); 10. "Neylərsən" (Segah);
11. "Onu demə zalım yar" (Bayatı Şiraz); 12. "Qalalıyam" (Mahur, Rast) [14, s. 39].

Bütün zamanlar Azərbaycan xalqının zəngin və rəngarəng musiqisi musiqiçilərin diqqətini cəlb edib və Azərbaycan folklorundan öz yaradıcılığında istifadə etməsinə sövq edib.

Bunların da ən çoxu mahnı janrının payına düşür. Mahnı xalqın mənəviyyatı, daxili aləmi, hissi, düşüncələri, iztirabları, sevinc və kədəri, həyata baxışı, dünyagörüşü və psixologiyasıdır. Xalqın həyat tərzini, toyunu, yasını, mübarizəsini mahnılardan müəyyənləşdirmək mümkündür.

Dahi sənətkar Ü.Hacıbəyli Azərbaycan bəstəkarlarına xalq musiqi nümunələrinin tədris-pedaqoji proqramlarına daxil edilməsi, tələbələrin repertuarı üçün milli əsərlər yaratmağı tövsiyə edib.

"Azərbaycanda musiqi tərəqqisi" adlı məqaləsində Ü.Hacıbəyli yazır: "Bu mahnılardan münasibini seçib musiqi məktəblərimiz üçün "çalğı repertuarı" hazırlamaq".

Öncə sadaladığımız bütün məcmuələrə nəzər salsaq, bəzi ümumi cəhətləri görmək olur. Mahnılar əsasən Azərbaycan xalq musiqisinə xas olan 3/4 və daha çətin 6/8 ritmindədir. Nisbətən asta və ya mülayim tempdə olan mahnılarla yanaşı, daha cəld, hərəkətli mahnılar var. Azərbaycan musiqi folkloruna xas olan musiqi-inkişafı prinsipləri və ifadə vasitələri, faktura ritm-metr xüsusiyyətləri, dinamik çalarlar və ştrixlərin tətbiqi (leqato, stacatto və s) və əlbəttə milli musiqimizin gözəlliyi tələbələri bu əsərləri ifa etməyə təhrik edir. Bu məcmuələrdə fakturanın müxtəlif növlərinin tətbiqi, geniş akkordlardan istifadə olunması, registr növbələşməsi kimi rəngarəngliklə rastlaşırıq. Müxtəlif ştrixlərdən (stakato, leqato) ustalıqla istifadəsi də mahnıların işləmələrinin daha maraqlı olmasına kömək edir, əsərlər tədricən daha mükəmməl, faktura daha dolğun olur, bu da xalq melodiyaların işləməsidir və bütün Azərbaycan xalq musiqisinin səciyyəvi xüsusiyyətlərini özündə saxlayır: metro-ritm, ifadə vasitələri-legato, stakkato, registr dəyişmələri və s. Ancaq biz görürük ki, əsərlər tədricən çətinləşir, həcmi böyüyür, geniş akkordlardan, daha zəngin fakturadan istifadə olunur.Yəni əsərlər daha inkişaf etmiş, ifaçılıq imkanları daha geniş olan ifaçılara ünvanlanmışdır.

Qeyd etməliyik ki, əksər bəstəkarlarımızın xalq musiqisinə müxtəlif formada müraciətləri olub və bu mənbədən daim istifadə olunur və olunacaqdır. Azərbaycan xalq musiqisinin xasiyyətini ən çox üzə çıxaran güclü cəhət şərq melodiyasının təbiətindən gələn və ifaçının fantaziyasına geniş imkanlar yaradan improvisasionluqdur. Ancaq bu azadlıq müəyyən çərçivədə olmalıdır ki, bunlar lad quruluşu, musiqinin, melodiyanın xüsusiyyətləri, metro-ritmik quruluşun xüsusiyyətləridir. İmprovizə zamanı adətən əsas səsin ətrafının oxunmaları, motivin sekvent yerini dəyişmələri, çox sayda melizmatik bəzəmə, səsdən-səsə sürüşən qlissando və bir sıra başqa spesifik üsullardan istifadə olunur [8, s. 5].

Bütün bu müxtəlif Azərbaycan xalq mahnıları fortepiano ilə oxumaq üçün işləmələrdir və ifaçıların repertuarının xalq musiqisi ilə zənginləşdirilməsinə yönəldilib.

Xalq mahnıları folklorun ən demokratik və sevilən janrı olduğundan,ona olan maraq heç vaxt tükənməyib və bundan sonra da güclü olacaq. Onların işləməsinin əsasını qoyan Ü.Hacıbəyov və M.Maqomayevin "Azərbaycan Türk el nəğmələri" məcmuəsindən başlayan bu iş ildən-ilə inkişaf edib, müasir zamana gəlib çatıb. Xalqın ruhuna yaxın olan folklor işləmələri daha tez auditoriyanın rəğbətini qazanaraq populyarlaşır. Məhz onların vasitəsilə xalq musiqisinin dinləyicilər tərəfindən asan qavramasından, geniş kütlələrə, Avropaya məxsus olan və orada geniş yayılan fortepiano alətini kütləvi şəkildə məişətə yeritməsi mümkün olub. İlk işlə-

mələr nisbətən sadə, bəsit, kasıb fortepiano fakturaya, harmoniyalara, tembr rəngarəngliyinə malikdirsə, sonrakı işləmələrdə bu qüsurlar aradan götürmək üçün iş aparılıb.

İşin elmi nəticəsi: Bütün yuxarıda deyilənləri nəzərdən keçirərək deyə bilərik ki, xalq musiqi nümunələrinin işləmələri hal-hazırda musiqiçilərin repertuarında yer tutaraq, onu daha da zəngin və rəngarəng edib. Onların arasında müxtəlif həcmli və çətinlikləri ilə seçilən əsərlərin olması onu göstərir ki, fərqli səviyyədə olan ifaçılar: kiçik yaşlı şagirdlərdən tutmuş kollec və universitet tələbələri və professional ifaçılar da bu əsərləri proqramlarına daxil edə bilərlər. Məqalədə həmçinin əsərlərin təhlili də verilib.

İşin elmi yeniliyi: Elmi işdə xalq mahnılarının fortepiano ilə oxumaq üçün müxtəlif illərdə yazılan işləmələri bu yaradıcılıq növündə olan inkişafını göstərir. Bütün bunlar tədris proqramlarını milli musiqi nümunələri ilə daha da zənginləşdirməsinə gətirir. Elmi işdə səs və fortepiano üçün işləmələrin bütün mərhələləri araşdırılıb və təqdim olunub.

İşin tətbiqi əhəmiyyəti: Bizə elə gəlir ki, təqdim olunan məqalə səs və fortepiano üçün işləmələrin arasında artıq sadə müşayiətlə yanaşı, daha yüksək professional səviyyədə olanları da yer aldığını göstərib. Beləliklə, əsərlərin müxtəlif səviyyəli ifaçılara yönəlməsi, onların tədris prosesində daha çox tələbənin proqramına daxiletmə imkanını yaradır.

Ədəbiyyat

1. Hacıbəyov, Ü. Azərbaycanda musiqi tərəqqisi // Maarif və mədəniyyət, −1926, №8, − s. 9.
2. Əmirov, F. Azərbaycan xalq mahnıları fortepiano ilə oxumaq üçün / F.Əmirov. −Bakı: Azərnəşr, − 1952.
3. Абдуллаева, З.К. Азербайджанские народные мелодии (в записи и фортепианной обработке) / З.К.Абдуллаева. − Баку – 1992, – 80 с.
4. Əmirov, F. Azərbaycan xalq mahnıları / F.Əmirov. − Bakı: Azərbaycan Dövlət Musiqi Nəşriyyatı. – 1955.
5. Azərbaycan el nəğmələri (Ü.Hacıbəyov və M.Maqomayevin 100 illiyinə): Nota salan və harmonizə ed. Ü.Hacıbəyov və M.Maqomayev. Red. və şərhlərin müəllifi B.Hüseynli. − Bakı: İşıq, − 1985. − 67 s.
6. Hacıbəyov, S. Azərbaycan xalq mahnıları / S.Hacıbəyov, − B: Azmuznəşr, − 1957, − 13 s.
7. Əliverdibəyov, N. Azərbaycan xalq melodiyaları. Fortepiano ilə oxumaq üçün işləmələr / N.Əliverdibəyov. – Bakı: Azərnəşr, − 1957. – 13 s.
8. Quliyev, C. Azərbaycan xalq mahnılarının işləmələrinə dair bəzi mülahizələr // Musiqi dünyası. – 2007. №1. – 2/31. − 159 s.
9. Həsənova, A. Azərbaycan xalq məişət mahnılarına bir nəzər // Musiqi dünyası. – 2007. №3. – 4/33. − 133-134 s.
10. Xanməmmədov, H. Azərbaycan xalq mahnıları. Fortepiano ilə oxumaq üçün / H.Xanməmmədov. – Bakı: Azərnəşr. − 1957. – 17 s.
11. Azərbaycan xalq mahnıları. Fortepiano ilə oxumaq üçün işləyəni M.Mirzəyev. − Bakı: Az.Dövlət Mus.Nəşr. − 1962. − 18 s.
12. Zeynallı, A. Səndən mənə yar olmaz. Fortepiano ilə oxumaq üçün / A.Zeynallı, – Bakı: Azərnəşr. − 1934. – 9 s.
13. Abbasova, L.M. Azərbaycan xalq mahnıları. Fortepiano ilə oxumaq üçün işləmələr/ L.M.Abbasova. – Bakı: Təhsil EİM, − 2005. – 67 s.
14. Aslanova, G.Ç. Azərbaycan xalq mahnılarının səs və müşayiət üçün işləmələri / G.Ç.Aslanova. – Bakı: ADPU. − 2020. − 39 s.
15. Hacıbəyli, Ü.Ə. Azərbaycanda musiqi tərəqqisi. URL://üzeyir.musiqi-dünya.az/article 39.html

G.Ch.Aslanova

Place of Arrangements of Azerbaijani Folk Songs Written for Voice and Piano in Educational Programs

Summary

The article talks about arrangements of folk songs for voice and piano made by Azerbaijani composers in different years. The article examines and analyzes, one might say, most collections of song arrangements. The lyrical melodies inherent in national music, modal-mugham features, specific rhythm, etc. increase interest in these works, complementing the curriculum and are more readily studied by students in the learning process.

Key words: *folk, song, processing, piano, rhythm, tempo, education*

Г.Ч.Асланова

О месте обработок азербайджанских народных песен для голоса и фортепиано в учебных программах

Резюме

В статье говорится об обработках народных песен для голоса и фортепиано, сделанных азербайджанскими композиторами в разные годы. В статье рассмотрено и проанализировано, можно сказать, большинство сборников песенных обработок. Присущие национальной музыке лирические мелодии, ладово-мугамные особенности, специфический ритм и др. повышают интерес к этим произведениям, дополняя учебные программы и охотнее изучаются студентами в процессе обучения.

Ключевые слова: *народная, песня, обработка, фортепиано, ритм, темп, обучение*

Rəyçi: p.e.d., prof. T.Ə.Bağırova

Redaksiyaya daxil olub: 04.05.2024

Y.M.BABANLI
pedaqogika üzrə fəlsəfə doktoru, professor, doktorant
email: Y.babanli@mail.ru

Azərbaycan İdman Akademiyası
(Bakı şəh., Fətəli xan Xoyski pr., 98)

: https://orcid.org/0009-0006-7137-2882

:10.62021/0026-0028.2024.2.177

HƏRBİ QULLUQÇULARIN PEŞƏKAR FƏALİYYƏT SAHƏSİNDƏ FİZİKİ HAZIRLIĞIN ƏSASLARI

Xülasə. *Bu gün Azərbaycan silahlı qüvvələrinin sıralarında təlim hərbi qulluqçuların potensialının və fiziki imkanlarının artırılmasına yönəlib. Ölkənin Ali Baş Komandanı və Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən hərbi qulluqçuların qarşısında qoyulan tapşırıqların tam və vaxtında yerinə yetirilməsi hərbi qulluqçuların fiziki imkanlarının inkişaf etdirilməsini təmin etmək üçün əsas vəzifələrdəndir. Azərbaycan Ordusunun bədən tərbiyəsi sistemi bu gün icbari gündəlik səhər məşqlərindən, təmiz havada və idman zalında kütləvi idman tədbirlərindən ibarət səmərəli təkmilləşdirilmiş mexanizmdir. Qoşunların növündən, hərbi hissə və bölmənin peşəyönümündən asılı olaraq, bu dərslərə ayrılan saatların sayı dəyişir.*

Açar sözlər: *hərbi, təlim, fiziki, inkişaf, formalaşma, güc, qələbə, döyüş, iradə, xüsusiyyətlər, fəaliyyət*

Hərbi qulluqçuların fəaliyyətində bədən tərbiyəsi böyük rol oynayır. Birbaşa bütün hərbi xidmət əməkdaşların yüksək mənəvi, siyasi, mənəvi və fiziki imkanlarından asılıdır. Silahlı qüvvələrdə bütün xidmətlər hərbi qulluqçulardan ordunun döyüş və texniki problemlərini həll etmək üçün fiziki və könüllü hazırlıq tələb edir. Ona görə də hərbi qulluqçuların fiziki hazırlığına daim nəzarət etmək lazımdır. Hərbi personalın fiziki imkanlarının inkişafı üçün balanslaşdırılmış sistem ən son formalardan, üsullardan və ordunun bütün növlərinin kadr potensialının artırılmasından ibarətdir.

Hərbi qulluqçuların fiziki hazırlığında ən vacib şey onun ehtiyacları nəzərə alınmaqla hərbi təlimə inteqrasiyadır. Hərbi qulluqçuların fiziki hazırlığının bütün sisteminin inkişafı və təkmilləşdirilməsi texniki təchizatda müasir dəyişikliklər və ordunun hərtərəfli inkişafı ilə qarşılıqlı surətdə bağlıdır. Ordunun döyüş hazırlığının vəzifələri bədən tərbiyəsi proqramının hərtərəfli inkişafını getdikcə daha çox tələb edir. Ordunun və donanmanın hərbi qulluqçularının hərbi-fiziki hazırlığının spesifikliyi ordunun strateji problemlərinin həllinə yönəlmişdir [4, s. 7].

Silahlı qüvvələrdə hərbi bədən tərbiyəsinin strukturu hərbçinin şəxsiyyətinin fiziki və əqli keyfiyyətlərinin təkmilləşdirilməsinin bütün mahiyyətinə təsir edən sistemli konsepsiyaya uyğun olaraq proqramlaşdırılır və həyata keçirilir. Fiziki hazırlıq funksiyalarını inkişaf etdirməyin daha spesifik yollarının həyata keçirilməsi konkret məqsədlərə nail olmaq məqsədi daşıyır. Bütün bu məqsədlər hərbi qulluqçulara ordunun döyüş tapşırıqlarını yerinə yetirmək üçün lazımi fiziki keyfiyyətlərin verilməsinə yönəlmişdir [2, s. 3].

Qeyd etmək istərdim ki, qoşunlarda bədən tərbiyəsi sistemi nizamlı bir sistemdir və onun gərgin döyüş fəaliyyətinin tələblərinə uyğunluğundan, bilavasitə psixoloji və pedaqoji şəraiti təşkil edən bütün komponentlərin spesifik əlaqələrinin məcmusundan asılıdır. Bütün bacarıq və keyfiyyətlərin fiziki inkişafı prosesinin əsasları, habelə hərbi qulluqçuların şəxsiyyətinin formalaşmasının mənəvi-psixoloji sferasının təkmilləşdirilməsi. Ordunun texniki təminatının müasir inkişafı şəraitində bu prosesin təşkili və idarə edilməsi amili xüsusilə mühüm əhəmiyyət kəsb edir [1, s. 4].

Müasir ordunun müəyyən növlərində öyrəndiyimiz hərbi qulluqçuların fiziki hazırlığı sisteminin bütün bu psixoloji və pedaqoji aspektlərinin öz konseptual əsasları var. Hərbi qul-

luqçuların fiziki hazırlıq səviyyəsinin inkişaf etdirilməsi sistemi müasir döyüş texnikasının müasir texniki təchizatlı strukturlarının obyektiv tələblərini əks etdirməlidir. Belə şəraitdə şəxsi heyətin fiziki və psixoloji inkişafına xüsusi diqqət yetirilməlidir. Döyüş şəraitində zəruri olan psixoloji və fiziki keyfiyyətlərin tərbiyəsi real imkanların və ən əsası hərbi personalın mürəkkəb və ekstremal döyüş əməliyyatlarına fiziki hazırlığının təmin edilməsinin rasional yollarının nəzərə alınmasını nəzərdə tutur. Döyüşün bütün nəticəsi əsgərin fiziki və psixoloji cəhətdən nə qədər hazır olmasından asılıdır. Bütün bu psixoloji və pedaqoji aspektlər ordunun şəxsi heyətinin fiziki hazırlığının məqsəd, vəzifə və prinsiplərində öz əksini tapmalıdır.

Hərbi qulluqçuların fiziki hazırlığının strukturu, orduda və donanmada işçilərin hazırlanmasının bütün prosesinin fiziki hazırlığından əvvəl tərtib edilən tələblərlə əlaqəli qarşılıqlı amillərdən asılıdır. Müxtəlif aspektlərdə fiziki hazırlıq ordunun müasir strukturuna uyğun olmalıdır [1, s. 4].

Hərbi qulluqçunun günü səhər qaçışı ilə başlamalıdır, sonra ümumi inkişaf məşqləri və xüsusi peşəyönümlü məşqlər. Xüsusi bölmələr üçün gündüz hazırlığına müxtəlif döyüş sənətlərindən bir sıra məşqlər daxildir.

Bədən tərbiyəsi bütün fiziki keyfiyyətləri inkişaf etdirən və təkmilləşdirən və atletik formanı saxlamağa imkan verən məşqlərdən istifadə edərək gündəlik həyata keçirilməlidir. Təbii ki, hərbi qulluqçular xidmətdən asudə vaxtlarında fiziki imkanlarını inkişaf etdirmək üçün fiziki özünü təkmilləşdirmə ilə məşğul ola bilərlər. Ordu rəhbərliyinin qarşıya qoyduğu vəzifələri yerinə yetirmək üçün hazırlıqlara nəzarət etmək üçün bütün fəaliyyətləri dəqiqləşdirmək lazımdır. Hər il hərbi qulluqçuların, əsgərlərin (matrosların) və ordu komandanlığının şəxsi heyətinin fiziki hazırlığı ən azı iki dəfə yoxlanılır. Fiziki hazırlıq standartlarını fərqlənmə ilə keçənlər komandanlıq tərəfindən mükafatlar və ilk istirahət günləri ilə mükafatlandırılır. Hərbi qulluqçular arasında keçirilən beynəlxalq yarışlarda fəxri yer tutanların çoxu təkcə maddi mükafatlar deyil, həm də qeyri-adi adlar alır. Beləliklə, ordu rəhbərliyi hərbi qulluqçuların fiziki imkanlarının daha da inkişafını təşviq etməli və həvəsləndirməlidir.

Hərbi qulluqçuların fiziki imkanlarını inkişaf etdirmək üçün iş zamanı fərdi keyfiyyətləri də nəzərə almaq lazımdır. Müəyyən idman növlərində və müəyyən şəxslərin məşq profilinə uyğun olaraq fiziki fəaliyyətin fərdiləşdirilməsi bütün hərbi qulluqçularda və onların hər birində fərdi olaraq əhvali-ruhiyyənin yaxşılaşdırılmasına kömək edə bilər.

Nəzəri cəhətdən səriştəli əsgər hərbi fəaliyyətin vəziyyətini ayıq şəkildə qiymətləndirməyi bacarır, düşmənin psixologiyasını başa düşür, müxtəlif hərbi vəziyyətlərdə əmr və tapşırıqları uğurla yerinə yetirir.

Məqsədli fiziki hazırlığın vacibliyini, fiziki keyfiyyətlərinin vaxtında yüksəldilməsinin vacibliyini yaxşı dərk edən hərbi qulluqçular daim öz üzərlərində çalışacaq, hərbi qulluqçularına dəstək olacaqlar.

Müxtəlif ordu birləşmələrinin fəaliyyət strukturunda hərbçilərin fiziki hazırlıq səviyyəsini artırmaq üçün idman komplekslərindən istifadə olunur. Psixofizioloqların fikrincə, əzələ dinamikası stress müqavimətini artırmağa imkan verir ki, bu da orduda əsgərin psixoloji, mənəvi və siyasi imkanlarına və vəziyyətinə təsir göstərir. Əzələ motor bacarıqları hərbi qulluqçuların psixikasında idrak proseslərinin inkişafına təsir göstərir.

Bədən tərbiyəsi təkcə kazarma şəraitində deyil, həm də ordunun təlim və hərbi əməliyyatlarının sahə (səyyar) şəraitində həyata keçirilə bilər. Daha irimiqyaslı hərbi-fiziki hazırlıq döyüş əməliyyatlarına ən yaxın şəraitdə qoşunlar tərəfindən tapşırıqların həllinə yönəlmiş təlim məşğələlərində həyata keçirilir və silahlı qüvvələr üçün təlimin ən səmərəli formasıdır. Bu məşqlərin əsas cəhəti xüsusi fiziki hazırlıqdır, fərqin əsas təsir amili tam avadanlıqla məşqdir. Bu vəziyyət həm psixoloji, həm də fiziki dözümlülüyü artırır. Əzələ kütləsinin gücünü və gücünü inkişaf etdirir. Süni şəkildə yaradılmış ekstremal şərait hərbi qulluqçulardan bütün təlim tapşırıqlarını yerinə yetirmək üçün daha böyük öhdəlik tələb edir. Bu cür təlimlər hərbi qul-

luqçuların peşəkar keyfiyyətlərini artırır. Məqsədli və metodik olaraq düzgün təşkil olunmuş bədən tərbiyəsi hərbi qulluqçuların hərbi bacarıqlarını artırır.

Və elmi-tədqiqat işlərimizə yekun vuraraq qeyd etmək istərdim ki, hərbi qulluqçuların hərtərəfli fiziki hazırlığının məzmunu və təşkili bütün qoşun növlərinin döyüş səmərəliliyinin artırılmasına yönəldilməlidir. Bədən tərbiyəsi əxlaqi, elmi və texniki hazırlıqla qarşılıqlı əlaqədə olmalıdır. Demək olar ki, fiziki hazırlıq ordunun döyüş qabiliyyətini təmin edən tədbirdir.

İşin elmi nəticəsi: bütün yuxarıda deyilənləri nəzərdən keçirərək deyə bilərik ki, müasir dövrdə hərbi qulluqçuların fiziki imkanlarını inkişaf etdirmək yeni-yeni tədqiqatlara ehtiyac duyulur.

İşin elmi yeniliyi: məqalədə müasir ordu strukturunda hərbi qulluqçuların fiziki hazırlığının imkanlarını inkişaf etdirmək xüsusiyyətləri nəzərdən keçirilmişdir.

İşin tətbiqi əhəmiyyəti: demək olar ki, təqdim olunan məqalədə "Hərbi qulluqçuların peşəkar fəaliyyət sahəsində fiziki hazırlığın əsasları" mövzu həm hərbi məktəblərdə çalışan mütəxəssislər, həm də ordu sıralarında hərbi qulluqçuların fiziki hazırlığına və təkmilləşdirilməsinə cavabdeh olan zabit heyəti üçün əhəmiyyətli ola bilər. Hərbi qulluqçuların fiziki hazırlığı zamanı hərbi-siyasi əhvali-ruhiyyənin yüksəldilməsi, hərbi qulluqçuların hərtərəfli, habelə fiziki hazırlığın əhəmiyyəti haqqında biliklərinin inkişaf etdirilməsi üçün məşğələlərin keçirilməsi zəruriliyi olduqca vacibdir.

Ədəbiyyat

1. Бабанлы, Ю.М., Психолого-педагогические особенности военно-физической подготовки в вооруженных силах // Педагогика & Психология. Теория и практика Международный научный журнал, № 5 (49), Волгоград, − 2023, − 35-39 с.
2. Володин, В.Н., Яковлев Д.С., Совершенствование физической подготовки военнослужащих // Новая наука: Современное состояние и пути развития, − 2016, №5-2, − 35-37 с.
3. Гадисов К.Я., Мартынов А.А., Основные компоненты физической подготовки военнослужащих // Успехи современной науки и образования, − 2016, №10, − 42-44 с.
4. Елькин Ю.Г., Методологическое обоснование средств и методов физического воспитания военнослужащих // Вестник Ярославского высшего военного училища противовоздушной обороны, − 2019, №12(40, с. 156-160.
5. Теория и организация физической подготовки войск. // Под ред. Л.А.Вейднер-Дубровина, В.В.Миронова, В.А.Шейченко, − СПб.: ВДКИФК, − 1992. − 340 с.
6. Физическая подготовка: теория и практика. Под редакцией Ю.В.Мишина. – М.: Военный Университет, − 1999. − 420 с.
7. Хайдукова, Н.Ю., Физическая подготовка военнослужащих // Исследования молодых ученых: материалы XII межд. науч. конф, Казань, − 2022, −77-81 с.

Y.M.Babanli

Basics of Physical Training in Professional Activities of Military Personnel

Summary

Today, training in the ranks of the Azerbaijani armed forces is aimed at increasing the potential and physical capabilities of military personnel. One of the main tasks is to ensure the development of the physical capabilities of military personnel for the full and timely implementation of the tasks assigned to military personnel by the country's commander-in-chief and the leadership of the Ministry of Defense. The physical training system of the Azerbaijan Army today is an effectively streamlined mechanism, which consists of compulsory daily morning exercises, mass sports activities in the fresh air and in the gym. Depending on the type of troops, career guidance of the military unit and unit, the number of hours allocated for these classes varies.

Key words: *military, training, physical, development, formation, strength, victory, battle, will, features, activity*

Ю.М.Бабанлы

Основы физической подготовки в профессиональной деятельности военнослужащих

Резюме

На сегодняшний день подготовка в рядах вооруженных сил Азербайджана направлена на повышение потенциала и физических возможностей военнослужащих. Одной из основных задач является обеспечение развития физических возможностей военнослужащих для полноценного и своевременного выполнения задач, поставленных перед военнослужащими Верховнокомандующим страны и руководством министерства обороны. Система физической подготовки Азербайджанской армии на сегодняшний день – это эффективно отлаженный механизм, представляющий собой обязательную каждодневную утреннюю гимнастику, спортивно-массовые занятия на свежем воздухе и в спортивном зале. В зависимости от рода войск, профориентации военной части и подразделения количество часов, отведенных для этих занятий, разное.

Ключевые слова: *военная, подготовка, физическая, развитие, формирование, сила, победа, бой, воля, особенности, деятельность*

Rəyçi: prof. E.Hüseynov

Redaksiyaya daxil olub: 15.05.2024

E.Ə.BABAYEVA
e-mail: Elza babayeva@inbox.ru

ADPU-nun Quba filialı
(Quba şəh., Fətəli Xan küç. 4)

:10.62021/0026-0028.2024.2.181

MƏTNDƏKİ BƏDİİ DİLİN TƏSİRLİ ÇATDIRILMASINDA OXUNUN ROLU

Xülasə. *Ədəbiyyatın bədiiliyi, sözlərin obrazlılığından qaynaqlanması, bu sahənin söz sənəti kimi formalaşmasına gətirib çıxarır. Oxu zamanı mətndəki bədii dil xüsusiyyətlərinin nəzərə alınması, sözə canlılıq verməsi, insan ruhunu oxşaması əsərlərin oxusunun, rəvan, ifadəli aparılmasından çox asılıdır. Bədii sözün mövcudluq formasının spesifikliyi bu sahə üzrə əsərlərə sonsuz gözəllik bəxş etməsi, sözlərlə rəssamın rəng çalarlarını əks etdirməsi və təsvir olunanların insan ruhunu oxşaması oxunun aparılmasında bədii dil xüsusiyyətlərinin nəzərə alınmasından asılıdır. Oxu mətnlərinin tədrisi prosesində şagirdlərin öz fikrini rabitəli şəkildə ifadəetmə bacarığı ilə kifayətlənmək olmaz. Eyni zamanda əsərin məzmunu dedikdə, yalnız rabitəli fikir nəzərdə tutulmamalıdır. Çünki mətn rabitəli nağıl edilə bilər, lakin qarşı tərəfdə heç bir hiss doğurmaz, onu həyəcanlandırmaz. Deməli, nağıletmədə rabitəliliklə yanaşı, obrazlı ifadələr, ekspressivlik də olmalıdır.*

Açar sözlər: *oxu mətni, bədii dil xüsusiyyətləri, bədii söz, obrazlılıq, ifadəli oxu*

Oxu zamanı mətndəki obrazlı ifadələr üzərində iş apararkən çalışmaq lazımdır ki, şagirdlər, bir tərəfdən, obrazlı ifadələrin əsərin bədii qüvvəsini artıran vasitə olduğunu anlasınlar, digər tərəfdən də bu iş əsərin məzmununu, ideyasını dərindən dərk etmək vasitəsinə çevrilsin.

İfadəlilik nitqin elə bir keyfiyyətidir ki, öz qeyri-adiliyi ilə həmişə diqqəti cəlb edə bilir, təsvirilik elə nitqə deyilir ki, məzmunu təxəyyüldə canlandırmaq imkanına malik olsun [4, s. 25-33]. Məhz bu baxımdan təsviretmə keyfiyyətinə, bədii dil xüsusiyyətlərinə malik olan sözlər estetik funksiya daşıyır və obrazlılıqla birləşir.

Oxu prosesində bədii dil xüsusiyyətlərinin nəzərə alınması üzrə işin mühüm sahələrindən biri də nitqin obrazlılığı üzərində işdir. Adətən, oxu zamanı mətndəki çətin söz və ifadələr izah edildikdən sonra mətn hissə-hissə oxunur, şagirdlərin diqqəti mətndə olan obrazlı ifadələrə cəlb edilir. Bu zaman şagirdlər müəyyən bir bədii lövhənin şair və yazıçı tərəfindən obrazlı ifadənin köməyi ilə necə yaradıldığının şahidi olurlar.

Oxu zamanı mətndəki bədii dil xüsusiyyətlərinin nəzərə alınması üçün vacib sayılan obrazlılıq, ekspressivlik, emosionallıqla bağlı işlərin aparılması mövcud şəraitdə məktəblərdə problem olaraq qalmaqdadır. Qeyd etmək lazımdır ki, obrazlılıq, emosionallıq və onların doğurduğu ekspressivliyin nitqin inkişafı üçün əhəmiyyəti böyükdür.

Ədəbiyyatın bədii sözsüz təsəvvür edilmədiyini nəzərə alsaq, nitqin bədii dil xüsusiyyətlərinin oxunun, bədii əsərlərin tikinti materialı olması danılmazdır. Bədii təsvir vasitələri bədii dilin tərkib hissələrindən biridir. Bədii təsvir vasitələrində sözlər həqiqi (müstəqim) mənada yox, məcazi (qeyri-müstəqim) mənada işlənir. Buna görə də onlara məcazlar da deyilir. Bunlar obrazlılığın leksik səviyyədə göstəriciləri hesab olunur [9].

Mətnin oxusu prosesində bədii dil xüsusiyyətlərinin nəzərə alınması və bədii mətndə başlıca qəhrəman olan insanın, ondakı nitqin, danışıq tərzi və digər xüsusiyyətlərin olması ilə qəbul edilməsi labüddür. Doğrudan da, obraza məxsus nitq, söhbət, ondakı xarakter xüsusiyyətləri, düşüncəsi, psixologiyası, mədəni səviyyəsi, dünyagörüşü onun daxili aləmini açmaq üçün vasitədir. Oxu zamanı mətndəki bədii dil xüsusiyyətlərinin nəzərə alınması bədii əsərdəki təsvir edilən şəxsin nitqinin inkişafının iki formada: dialoq və monoloq kimi təsvirinə imkan verir.

Bədii əsər müəllifi-yazıçı əsərdə qəhrəmanlarını, prototiplərini hərəkətləri və danışıqları ilə bütünlüklə əks elətdirmir. Onun əsərinə obraz kimi seçdiyi personajın nitqi olduğu kimi təsvir edilmir, bu müəllifin təxəyyül süzgəcinin məhsulu şəklində meydana gəlir. Yazarlar əsərdəki qəhrəmanını sevdirmək, surətlərin dili, qəhrəmanın yaşadığı şərait, mühit, zaman, dövrün keşməkeşləri, qəhrəmanın mimika və jestləri məzmunu mənimsəməkdə mühüm rol oynayır. Oxu zamanı mətndəki bədii dil xüsusiyyətləri obrazları nitqinə görə fərdiləşdirilir, lakin onların ümumi mühitdə yaşaması təsəvvürü bədii əsərdəki qəhrəmanın xarakter cəhətlərini açmağa kömək edir.

Aristotel əsərdə bədii dilə yüksək qiymət verirdi. O göstərirdi ki, şairin və yazıçının təqlidləri üç yolla, yaxud üçdən biri ilə gedir:

1 – düşünüldüyü kimi;

2 – olduğu kimi;

3 – haqqında danışıldığı kimi, bir də lazım olduğu kimi.

Aristotelin bu üç hala görə yazara sərbəstlik verilməsini məqbul sayması tamamilə doğrudur. Oxu zamanı mətndəki bədii dil xüsusiyyətlərinin nəzərə alınması dilin gözəlliyindən, ondan zövq alandan, bədii sözə dəyər verəndən, dildən bacarıqla istifadə etməyi bacarandan asılı olaraq yaradıcılığa istiqamət verir.

Oxu zamanı mətndəki bədii dil xüsusiyyətlərinin nəzərə alınmadan, spesifik söz sənətinin rəngarəng çalarları olmadan onun gözəlliyini duymaq qeyri-mümkündür. Bədii əsərdə bədiilik yaradan dil olmadan əsərin forması və məzmunu haqqında danışmaq boş sözçülükdür. Dil faktı forma və məzmunun mövcudluğunu dəstəkləyir.

Oxu zamanı mətndəki bədii dil xüsusiyyətlərinin nəzərə alınması nitqdə ifadəlilik, emosionallıq yaradır. Bura daxildir: intonasiya(diksiya, melodiya, temp, tembr, vurğu, pauza, ritm, səsin gücü, səsin diapazonu), leksik vahidlər: sinonim və antonimlər, frazeoloji birləşmələr, atalar sözü, zərbi-məsəllər, məcazi mənalı sözlər, birləşmələr, təkrarlar, ritorik fiqurlar, emosional nidalar və s.

Əsərin – bədii dilin danışıq dilindən, xalqın dilindən yaranması xalqa yaxınlığını özündə ehtiva edir. Bədii-ədəbi dilin üstünlüyü ondadır ki, o xalq dilinin cilalanmış, müəyyən normalara uyğun tənzim edilmiş qolunu inkişaf etdirir. Ədəbi dilin obrazlar silsiləsində xalq dilinin canlı variantını öz nitqində əks etdirən surətlər də vardır ki, bu da əsərin təbiiliyinin qorunub saxlanmasında müsbət rol oynayır. Odur ki, oxu zamanı mətndəki bədii dil xüsusiyyətlərinin nəzərə alınması diqqət mərkəzində saxlanılmalıdır.

"Bədii dil ədəbi dilin ən mükəmməl, cilalanmış formasıdır. Çünki bu dil sənətkar qələmi ilə yonulur, böyük fəlsəfi fikirləri ifadə edir. Bədii mətn harmoniyası tapılmış dil işarələri sistemidir" [3, s. 119].

Ədəbi dilin müxtəlifliyi o qədər çoxdur ki, bədii üslubda yazarların hər birinin bədii dili mövcuddur. Oxu prosesində bədii dilin üslubun müəyyənləşdirilməsi də əsas vasitə olaraq qalmaqdadır.

Xalqın dili bədii dilin aparıcı qolu hesab olunur. Bədii əsərdə ədəbi dilin leksik bazasından, lakonik, dərin mənalı atalar sözlərindən, frazeoloji vahidlərin gözəlliyindən, idiomlardan, obrazlı ifadələrdən, məcazlardan, bədii ifadə vasitələrindən yetərincə istifadə edilir.

Oxu prosesində həqiqi və məcazi məna daşıyan ifadər bədii dilə gözəllik gətirsə də, yerində işlədilə bilmədikdə əsəri "ağırlaşdırır". Bədii əsərin cəzbediciliyinə xidmət edən rəngarəng ifadələrin zərgər dəqiqliyi ilə seçilib istifadə edilməsi əsl söz sərraflarına məxsusdur.

Əsərdə işlənən hər bir sözün, ifadənin oxucuya düşünmək imkanı verən, məna daşıyan tərəfi olmalıdır ki, bu da bədii əsəri digər materiallardan fərqləndirir. Bədii əsərin gücü onun dilində, dilinin zənginliyindədir. Fonetik hadisələr, intonasiyanın komponentləri, orfoepik tələffüz, durğu işarələri və s. bədii əsərlərdə, o cümlədən şeirlərdə böyük əhəmiyyətə malikdir.

"Bədii dil yazıçının seçdiyi "ədəbi materialdır". Dil eyni zamanda milli təfəkkürün ifadə vasitəsidir" [2, s. 29-34].

Oxu zamanı mətndəki bədii dil xüsusiyyətlərinin nəzərə alınmasının əsas vəzifəsi şagirdlərdə dil və ədəbiyyatın əsas elementlərinə şüurlu münasibət formalaşdırmaq, onlarda yazı və oxuya maraq yaratmaq, eləcə də onlara ədəbi dilin bədii vasitələrindən öz nitqlərində istifadə haqqında ilkin məlumat verməkdən ibarətdir.

Əsərin dili zəngin deyildirsə, problemin aktuallığından asılı olmayaraq, birmənalı şəkildə deyə bilərik ki, əsər uğurlu alınmayacaq. Yazarın özünün fikirlərini, ideyalarını əks etdirən, onların "rəngli boyalar"la verilməsini bacaran əsl söz ustaları hər zaman oxucu kütləsinin sevimlisi olur.

Oxu zamanı mətndəki bədii dil xüsusiyyətlərinin nəzərə alınmasının səbəbi bədii dilin qüdrətli söz sənəti kimi formalaşması, onun daxili məna bağlılığı və ədəbi dilin, xalq dilinin zənginliklərindən qeyri-adi bir tərzdə istifadə edilməsi ilə bağlıdır. Dil poetik fiqurları bir-birinə qaynaq edən, möhtəşəm, canlı bir orqanizmdir.

Müəlliflər obrazları canlandırmaq məqsədilə daha təsirli ifadələrdən istifadə edirlər. Belə ki, oxunun ifadəli olması da yazarın fikirlərinin təsirli çatdırılması üçün əsasdır.

Qeyd edək ki, qəhrəmanı sevdirmək üçün yalnız dəbdəbəli ifadələr seçmək o qədər də məqsədəuyğun hesab edilmir. Ona görə ki, elə qəhrəman vardır ki, xalq içərisindən çıxır, sevilir və onun nitqi sadə xalqın dilidir.

İşin elmi nəticəsi: bütün yuxarıda deyilənləri nəzərdən keçirərək deyə bilərik ki, oxu zamanı mətndəki bədii dil xüsusiyyətlərinin nəzərə alınması zəruridir. Dil əsəri yaradan qüdrətli bir vasitədir. Ədəbi dilin "kütləsi" bədiiliklə yoğrulur, bədii yaradıcılıq poetik, obrazlı ifadələr olmadan yaranmır. L.İ.Timofeyevin fikrincə, bədii dilin qüdrəti ilə əsərin mərkəzi obrazlarını sistemli, əlaqəli şəkildə öyrənmək, dərk etmək mümkündür [5, s. 38].

İşin elmi yeniliyi: məqalədə oxu prosesində mətndəki bədii dil xüsusiyyətlərinin nəzərə alınmasının zəruriliyi əsaslandırılır. Oxu zamanı nitqin zəngin, aydın, ifadəli olması, bədii əsərdəki keyfiyyəti daha dolğun göstərilir, hadisələr bədii bir dillə dinləyiciyə çatdırılır. Bədii təsvir və ifadə vasitələrinin oxu prosesində diqqətdə saxlanılması əsərin bədii dilinin gözəlləşdirilməsində xüsusi yer tutur.

İşin tətbiqi əhəmiyyəti: bizə elə gəlir ki, təqdim olunan məqalə "Mətndəki bədii dilin təsirli çatdırılmasında oxunun rolu" mövzusu ilə maraqlanan hər kəs üçün əhəmiyyətli ola bilər.

Əsərin təsir gücü, bədiiliyi oxu bacarıq və vərdişlərinin yaradılmasında da mühüm əhəmiyyət kəsb edir. Bu məqalədən müəllimlər, tələbələr istifadə edə bilərlər.

Ədəbiyyat

1. Qəhrəmanlı, N. Ədəbiyyat nəzəriyyəsi / N.Qəhrəmanlı. − Bakı: BDU, − 2008, − 106 s.
2. Mustafayev, M. Bədii təsvir və ifadə vasitələrinin xüsusiyyətləri // − Sumqayıt Dövlət Universiteti "Elmi xəbərlər", №2, − s.25-30.
3. Şəmsizadə, N. Ədəbiyyat nəzəriyyəsi / N.Şəmsizadə. − Bakı: Proqress, − 2012, − 434 s.
4. Капацинская, Е.В. Определение выразительности и способы ее усиления // Проблемы экспрессивной стилистики. − Ростов н / Д, − 1987. − с. 25-33.
5. Richard J. Stiggins, Student-Involved Assessment for Learning, −2005.
6. Stephanie Wasta. Teaching social studies, −2006.
7. http://www.president.az/articles/7744
8. http://edu.gov.az/upload/file/tehsil-pillesinin-dovlet-strandartlari-ve-proqramlari.pdf
9. https://tehsil.com.az/bedii-tesvir-vasiteleri/

E.A.Babaeva

The Role of Reading in The Effective Transmission of Literary Language in Text

Summary

The artistic nature of literature, resulting from the figurativeness of words, leads to the formation of such a field as the art of words. Taking into account the peculiarities of artistic language

in the text when reading, giving life to words, touching the human soul largely depends on the smooth and expressive reading of works. The specificity of the form of existence of the artistic word depends on taking into account the characteristics of the artistic language when reading the fact that it gives endless beauty to works in this area, reflects the artist's colors in the word, and resembles the human soul. In the process of learning to read texts, one cannot be satisfied with the ability of students to express their opinions in a communicative way. At the same time, the content of the work should not mean only a coherent idea. Because the text may be a story with communication, but it does not evoke any feelings in the other side, it does not excite him. So, in addition to communication, storytelling should include figurative language and expressiveness.

Key words: *reading text, artistic features of language, artistic expression, imagery, expressive reading*

Э.А.Бабаева

Роль чтения в эффективной передаче художественного языка в тексте

Резюме

Художественная природа литературы, вытекающая из образности слова, приводит к формированию такой области как искусство слова. Учет особенностей художественного языка в тексте при чтении, придание жизни словам, прикосновение к человеческой душе во многом зависит от плавного и выразительного прочтения произведений. Специфика формы существования художественного слова зависит от учета особенностей художественного языка при прочтении того, что он придает бесконечную красоту произведениям в этой области, отражает в слове краски художника, напоминает человеческую душу. В процессе обучения чтению текстов нельзя удовлетворяться умением учащихся выражать свое мнение коммуникативным способом. При этом содержание работы не должно означать только связную идею. Потому что текст может быть историей с общением, но он не вызывает у другой стороны никаких чувств, не волнует его. Итак, помимо общения в повествовании должны быть образные выражения и выразительность.

Ключевые слова: *чтение текста, художественные особенности языка, художественное слово, образность, выразительное чтение.*

Rəyçi: prof. N.B.Cəfərova

Redaksiyaya daxil olub: 08.05.2024

N.A.CƏFƏROVA
e-mail: frhadcfrov033@gmail.com

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

:10.62021/0026-0028.2024.2.185

İSLAM DƏYƏRLƏRİ VƏ MƏHƏMMƏD PEYĞƏMBƏRİN TƏRBİYƏ HAQQINDA KƏLAMLARI

Xülasə. *Tədqiqat bir daha sübut etdi ki, "Qurani-Kərim" həm məktəblilərin, həm də gənclərin və böyüklərin daim istinad edəcəyi tərbiyə mənbəyidir. İslam dəyərlərindən və Məhəmməd Peyğəmbərin (s.ə.s.) kəlamlarından gənclərin fiziki, estetik, əmək, əxlaqi və əqli tərbiyəsində bol-bol istifadə etmək mümkündür. Məktəbli gənclərin kamil bir şəxsiyyət kimi yetkinləşməsində də Peyğəmbərin kəlamları ən qüdrətli vasitədir.*

Açar sözlər: *İslam dəyərləri, dini ayinlər, Məhəmməd peyğəmbərin (s.ə.s.) kəlamları, əxlaq tərbiyəsi, tərbiyəvi motivlər*

Məkkədə doğulan Məhəmməd peyğəmbər (s.ə.s.) çətinliklərə, təhqirlərə, təqiblərə məruz qalsa da öz əqidəsindən dönməyib Allahın müəyyən etdiyi islam dini uğrunda mübarizə aparmağa başladı. Məhəmməd peyğəmbərin həyatı ən güclü, müqəddəs tərbiyə məktəbidir. Çünki "Məhəmməddə Adəmin dürüst əxlaqı, Asəfin dərin zəkası, Nuhun ağlasığmaz cəsarəti, İbrahimin tükənməz mərhəməti, İsmayılın bəlağətli nitqi, Latın heyrətamiz bəsirəti, Yaqubun müəmmaları dərk etmək məharəti, Yusifin misilsiz gözəlliyi, Musanın sarsılmaz dəyanəti, İsanın dönməz iradəsi, Davudun təmənnasız xeyirxahlığı toplanmışdı" [5, s. 9-10].

Peyğəmbərin kəlamlarında elmə, əxlaqa, tərbiyəyə yüksək qiymət verilirdi.

Elm ən yüksək inkişaf etmiş insanların beyninin məhsuludur. Elmlə məşğul olan bir insanın yaradıcılığı başa çatanda onun maddi həyat çırağı sönür, insanlardan uzaqlaşdıqca mənəvi çırağı daha gur şölə saçır. *"Alim öldü, aləm öldü"* kəlamı ilə Məhəmməd peyğəmbər alimi əlçatmazlığa yüksəltmiş, onu əbədiyyətə qovuşdurmuşdur.

"Elm Çində də olsa, onun dalınca gedin", – deyən peyğəmbər bu kəlamı iki mənada işlədirdi. Birincisi, o bilirdi ki, VI-VII əsrlərdə elm Çində çox inkişaf etmişdi. İkincisi, elmin sərhədi yoxdur. O, harada olsa, dalınca gedib onu öyrənmək, mənimsəyib xalqın xeyrinə istifadəyə vermək vacibdir. *"Bir saat elm öyrənmək altmış illik ibadətdən xeyirlidir"*. Bununla Məhəmməd peyğəmbər hər bir insanın, xüsusilə də alimlərin elmə daha çox diqqət yetirməsini, biliklərini daha da dərinləşdirməsini zəruri hesab edirdi. *"Elm fəziləti ibadətin fəzilətindən əfzəldir"* kəlamı yenə də elmə sərf olunan vaxtı ibadətə həsr edilən vaxtdan üstün tutmaq deməkdir. *"Ömrünü elmə sərf edən adam heç vaxt ölmür"*. Dünya alimin təfəkkür ələyindən, süzgəcindən keçir. Elmlə məşğul olanlar, ömürlərini elmə həsr edənlər cismən ölsələr də mənən ölmürlər, əbədiyyətə qovuşurlar. Min illər keçir, lakin onların adları yaşayır. Platon, Aristotel, İbn Sina, Nizami Gəncəvi və minlərlə başqa elm nəhəngləri buna parlaq misaldır.

"Elmi beşikdən qəbrə qədər öyrənin" deyən peyğəmbərin kəlamı belə bir həqiqəti təsdiq edir ki, elmə yiyələnmək, onu əldə saxlamaq üçün daim oxumaq, öyrənmək və öyrətmək lazımdır. Alim öyrənməklə yanaşı, öyrətməli, bununla da elmi inkişaf etdirib xalqına fayda verməlidir. *"Elmindən fayda gələn alim min abiddən üstündür"* və yaxud *"Alimləri eşidin, çünki onlar bu dünyanın çırağı, axirətin nurudurlar"*. Peyğəmbərə görə, bilikli adamın nuru aləmə işıq saçan ulduza bənzəyir. *Elm tükənməz xəzinə, soruşub öyrənmək isə onun açarıdır.* Buna görə də alimləri qorumaq, onlara qayğı göstərmək hər bir şəxsin borcudur.

Elmlə məşğul olanlar hər şeyə qənaət etsələr də, elm öyrənməyə, mütaliəyə çox həris olurlar. *Elm təşnəsi elmdən heç vaxt doymaz. Öyrənilən, yayılın elmdən üstün ola biləcək heç bir sədəqə yoxdur. Ən xeyirli sədəqə bir müsəlmanın elm öyrənməsi və onu öz müsəlman qardaşına öyrətməsidir. Elm öyrənmiş alim biliyini elmsiz müsəlman qardaşına öyrədirsə, o şəxsin əql dünyasını zənginləşdirir, həyata gözüaçıq baxmasına zəmin yaradır* [3, s. 31]. Alim əldə etdiyini başqalarına öyrədirsə, onun ömrü onu dinləyənlərin ömrünə çalanır. Elmin təbliğ edilməsini peyğəmbər belə səciyyələndirir: *İnsanlar elə bir sədəqə verə bilməzlər ki, öyrənilən, yayılan elmdən üstün olsun.*

Elm öyrənmək heç də asanlıqla olmur. Buna illər, on illər lazım olur. Ona görə də, Məhəmməd peyğəmbər deyirdi: *elm öyrənən zaman birisini ölüm haqlayarsa, o şəhid sayılır.*

Peyğəmbər biliklərə hələ kiçik yaşlardan yiyələnməyi zəruri sayırdı. Uşaqlıq və gənclik illərində əldə edilmiş biliklər həmin şəxsin əbədi malı, onun sonrakı biliklərinin bünövrəsi, məhək daşı olur. *"Uşaqlıqda öyrənilən elm daş üzərində yazıya, ahıllıqda öyrənilən isə su üstündə yazıya bənzəyir".* Peyğəmbər deyirdi ki, *elmin bəlası – unutmaqdır, elmi tələf etmək isə onu ləyaqətsizə tapşırmaqdır.* Elmi ləyaqət sahiblərinə, millət, Vətən qədri bilənlərə tapşırmaq lazımdır. Peyğəmbər deyirdi ki, *elm çöldə dostumuz, tənhalıqda munisimiz, köməksizlikdə yoldaşımız, xoşbəxtliyə tərəf yol göstərənimiz, dostlar arasında zinətimiz, düşmənlər arasında silahımızdır* [4, s. 66].

Peyğəmbərin kəlamları sırasında insana, canlılara qayğı mühüm yer tutur. Bizim ekologiya deyib haray çəkdiyimiz məsələlərə dair Peyğəmbər öz fikirlərini ibrətamiz misallarla adamlara çatdırırdı. Heyvanlara qəzəblənməyi nadanlıq sayan peyğəmbər tələb edirdi ki, yer üzündə hərəkət edən nə varsa, hamısına mehribanlıq göstərmək lazımdır. Mövcud olduğu on minilliklər ərzində bir hörümçək yarada bilməyən insanlar təbiətə, onun canlılarına mərhəmətli olmalı, bir-birinə kömək etməli, qayğı göstərməlidirlər.

Allah lənət eləsin ağac kəsənə! Yer üzündə bir ağac əkməyən, torpaq becərməyən müsəlman ola bilməz. Axı insanlar, quşlar və heyvanlar həmin ağacdan, becərilən torpaqdan bəhrələnirlər. Deməli, peyğəmbərin fikrincə, əli bel tutan hər bir insan bir ağac əkməlidir. Əgər hər bir kəs belə bir xeyirxah iş görsə, onda planetimiz cənnətə çevrilər.

Peyğəmbər hələ kiçik yaşlarında uşaqları düzgün tərbiyə etməyi, onlarda həya hissinin tərbiyə olunmasını zəruri sayır və deyirdi ki, *insan övladı yalnız həya sayəsində insan olur.* İnsan həyalı böyüməlidir. Çünki həya nəcibliyin əsasıdır. Həya və iman bir beşikdə iki körpə kimidir. Həya bəzəkdir, həya edib pis işdən çəkinmək mərhəmətdir, kəramətdir.

Peyğəmbərin fikrincə, kim başqasının torpağının bir hissəsini zorla əlindən alırsa, Tanrıya, Tanrının özünə qarşı çıxmış sayılır. Tanrıya qarşı çıxanın cəzası ağır olur. Min lənət olsun torpağımızı zorla almaq istəyən erməni millətçilərinə. Xalqımızın kütləvi vətənpərvərlik hərəkatı, tarixin əzəmətli, unudulmaz və misilsiz qəhrəmanlıq səhifələri məhz belə bir mühitdə baş verir və xalqımız peyğəmbərin kəlamlarına, vəsiyyətlərinə əməl edərək öz torpağını qoruyur. Bu yolda lazım gələndə qan da tökülür.

Peyğəmbərə görə, insan torpağı əkməli, əkinçiliklə məşğul olmalıdır. Əkinçilik sevinc və fərəh doğuran peşədir. Hər bir insan müəyyən bir peşəyə yiyələnməlidir. Məsələn, kişilər dərziliyi öyrənməli, qoyun saxlamalı, dəvə, at sahibi olmalıdırlar. Əvvələn, dərzilik çox gözəl sənətdir, ikincisi, qoyun saxlamaq bərəkətdir, dəvə sahibi olmaq şərəfdir, ucalıqdır. Atın xeyri isə qiyamətədək onun yalmanına bağlıdır.

Peyğəmbər adamları acközlüyə, tamahkarlığa, həsədə qarşı mübarizəyə çağırır və deyirdi ki, tamahkarlıq yoxsulluğa yoldur. Başqasına həsəd aparmaq qəbahətdir. Nəfs və tamah ən böyük düşməndir. Atəş yeri-göyü yandırdığı kimi, həsəd də yaxşılıqları yandırıb kül edir. Kin və həsədlə çatılan tonqal külə döndərən atəşə bənzəyir, bütün yaxşılıqları puç edir. Həsəd yaxşı əməlləri güvə kimi yeyib xarab edir. Fikrimizcə, peyğəmbərin bu kəlamları adamlarda acgözlüyün, paxıllığın, laqeydliyin artdığı bir dövrdə bütün təhsil müəssisələri divarlarına qızıl xətlə həkk etmək lazımdır.

Dünyada savaş, döyüş çoxdur. Lakin ən böyük döyüş insanın özü ilə döyüşdür.

Dünyada ən böyük qələbə insanın öz nəfsi, arzusu və həvəsi üzərindəki qələbədir.

Tərəzidə çəkilsə, gözəl xasiyyətdən ağır gələn heç bir şey yoxdur. Gözəl xasiyyət dinin yarısıdır. Atəş qarı necə əridirsə, gözəl xasiyyət də günahları elə əridir.

Dilinə, sözünə sahib duran, evi gözünə geniş görünən, etdiyi günahların peşmançılığını çəkən adamlar xoşbəxtdirlər. Adamlarda üç gözəl keyfiyyəti – həya, etibar, düzlük gördünüzmü, onlardan bərk yapışın, onlardan öyrənin. Ən yüksək fəzilət mehribanlıqdır. Pislərə mehribanlıq onların pisliyinə mane olmaqdır. Mehribanlıq iman nişanəsidir. Mehriban olmayan adam imansızdır.

Məhəmməd Peyğəmbərin "Quranı" sayəsində Ərəbistanda elm surətlə inkişaf etmişdi.

Beləliklə də islam dini Şərq pedaqogika elminin (təlim-tərbiyə haqqında fikirləri) inkişafına ciddi təsir göstərmişdir.

Bu kitab əsas gücü insanlar arasında təmiz və yüksək mənəviyyatı təbliğ etməyə, təmiz əxlaqi keyfiyyətləri insanlar arasında aşılamağa yönəltmişdir.

"Yaxşılıq edilməyə layiq olub-olmamasından asılı olmayaraq, hamıya, hər kəsə yaxşılıq et; yaxşılığa layiq olana rast gəlsən, bu, çox yaxşı; layiq olmayana yaxşılıq etsən, bil ki, sən yaxşılıq edənlərdən birisən və bu sənin üçün bəsdir" [1, s. 113]. Bu kimi kəlamlar uşaqlara müəllimlər tərəfindən daim misal göstərilir. Burada Quran da, Məhəmməd peyğəmbər də uşaqlara yaxşılıq etməyi tərbiyə edir.

Beləliklə də islam uşaqları bilikli olmağa, biliyə yiyələnməyə, yüksək əxlaqi keyfiyyətlərə malik olmağa çağırır. Məhəmməd peyğəmbərin bütün bunlara aid saysız-hesabsız dəyərli kəlamları var.

Nəticə. Uzun illər boyu islam sıxışdırılsa da, təyziq altında saxlansa da, islam yenə öz dəyərini itirməmiş və təlim-tərbiyə kimi bir müqəddəs işdə daim istifadə olunmuşdur. "Qurani-Kərim" dünyada ən qüdrətli tərbiyə vasitəsidir.

Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, İslam dəyərlərindən təlim-tərbiyə prosesində istifadə üzrə işin sistemi yaradılmış, istifadənin mahiyyəti, xüsusiyyətləri, metod və vasitələri açıqlamışdır.

Tədqiqatın praktik əhəmiyyətini bunda görmək olur ki, işdə irəli sürülən ideyalardan orta məktəb müəllimləri, tədqiqatçı tələbələr, hətta ailə başçıları da öz işlərində istifadə edə bilərlər.

Ədəbiyyat

1. Qüdrətov, O.N. Məhəmməd peyğəmbər: Həyatı və kəlamları / O.N.Qüdrətov. −Bakı, −1990.
2. Dinimiz, Namazımız, İmamlarımız. −Bakı, −1996.
3. Qurani-Kərim. −Bakı:Azərnəşr, −2012.
4. Qurani-Kərim (Azərbaycan türkcəsində açıqlama). −Bakı: Azərnəşr, −2013.
5. Ələddin, B. Məhəmməd Peyğəmbərin (ə.s.) hekayəti / B.Ələddin. −Bakı:Gənclik, −1991.

N.A.Jafarova

Sayings From the Koran-Karim Related to Islamic Values, Teaching and Upbringing

Summary

The study once again proved that the Holy Quran is a source of education that schoolchildren, youth and adults will always turn to. In the physical, aesthetic, labor, moral and mental education of youth, Islamic values and the sayings of the Prophet Muhammad (peace and blessings of Allah be upon him) can be widely used. The sayings of the Prophet are a powerful tool for shaping young schoolchildren into perfect individuals.

Key words: *Islamic values, religious ceremonies, sayings of the Prophet Muhammad, moral education, educational motives*

Н.А.Джафарова

Изречения из «Корани-Карима», связанные с исламскими ценностями, обучением и воспитанием

Резюме

Исследование еще раз доказало, что священный “Коран» является источником воспитания, к которому всегда будут обращаться как школьники, так и молодежь и взрослые. В физическом, эстетическом, трудовом, нравственном и умственном воспитании молодежи можно широко использовать исламские ценности и изречения пророка Мухаммада (мир ему и благословение Аллаха). Высказывания Пророка являются мощнейшим средством для формирования юных школьников как совершенных личностей.

***Ключевые слова*:** *исламские ценности, религиозные обряды, высказывания пророка Мухаммеда, нравственное воспитание, воспитательные мотивы*.

Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev

Redaksiyaya daxil olub: 08.05.2024

İ.Ə.ƏHMƏDOVA
baş müəllim
e-mail:ridvan_baku@mail.ru

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

:10.62021/0026-0028.2024.2.189

ƏSAS MUSİQİ ALƏTİ MƏŞĞƏLƏLƏRİNDƏ AZƏRBAYCAN BƏSTƏKARLARININ YARADICILIĞINDA İSTİFADƏ OLUNAN İNSTRUMENTAL JANRLAR HAQQINDA BİLİKLƏR

Xülasə. *Təqdim olunan məqalə Azərbaycan bəstəkarlarının əsərlərinin janr xüsusiyyətlərinin öyrədilməsi mövzusuna həsr edilmişdir. Bu əsərlərin öyrənilməsi tələbəyə musiqi üfüqlərini genişləndirməyə imkan verir və janrların müxtəlifliyi ilə tanışlıq şəraiti yaradır. Təqdim olunan məqalə tədris prosesində metodoloji əhəmiyyət kəsb edir.*

Açar sözlər: *tələbə, incəsənət, musiqi, janr, fortepiano*

Mazel qeyd etmişdir: “Музыкальные жанры обладают чертами национальной характерности и при этом многие из них приобрели широкое интернациональное распространение”. (“Musiqi janrları milli xarakteristikaya malikdir və onların çoxu geniş beynəlxalq yayılma əldə etmişdir) [5, s. 22].

Yüksək ustalıqla yaradılmış bu prelyudiyalarda “Qarayev miniatyur”larının zənginliyi və rəngarəngliyi, milli kolorit, mövzuların psixoloji xüsusiyyətləri, görkəmli Azərbaycan bəstəkarlarının möhtəşəm fitri istedadının bəhrəsi sayəsində mümkün olmuşdur. Q.Qarayevin “dörd dəftər” – prelyudiyası – proqramlar bir sikl təşkil edir desək, heç də yanılmarıq. Əksər hallarda prelyudiyaların çoxu inkişaf etmiş period formasında tərtib olunurdu / II dəftərin 10-cu prelyudiyası istisna təşkil edir.

Xüsusilə prelyudiyaların məzmunlu istiqaməti özünü cəlb edir – yəni skertsodan başlamış ta fəlsəfi geniş məna kəsb etməsinə qədər – bu hallarda artıq bəstəkarların yaratdığı prelyudiyasının birinci dəftərindən hiss edilməyə başlanır. Bu əsərin birinci prelyudiyası / do major / – daimi ifa çalarlı və beşinci prelyudiya / re major / – ladında yəni – lirik mahnı janrında yazılmışdır. Sonrakı növbəti prelyudiyalarda obrazların lirik-psixoloji çalarlarının dərinləşməsi və fəlsəfi dünyagörüşünün açılması qabarıq surətdə müəllif tərəfindən göstərilmişdir.

Bütün bu dörd dəftərdəki prelyudiyalarda dünya bəstəkarlarının ən yaxşı musiqi nümunələrini özündə əks etdirir: Bax Raxmaninov və Prokfyev. Bütün bunlarla bərabər, bəstəkarların yorulmaz axtarışları onları milli melosa və yaradıcılıq dünyagörüşünün çalarlarına, yəni muğam janrına müraciət etməyə sövq edir. Muğamda olduğu kimi, fa-diyez minorda / I4 prelyudiya / həm yüksək tonallıq, kulminasiya momentlərlə yanaşı, aşağı tonallıq özünü göstərə bilir. Bu prelyudiyada ən yüksək kulminasiya nöqtəsində qəmgin hissiyyatlar tək bir fərdin yox, bəlkə simvolik bir məna daşıyıcısına çevrilir. Bu, Baxın orqan musiqisi yaradıcılığındakı oxşarlıqları xatırladır.

Q.Qarayev yaradıcılığında təkcə sırf muğam əsas rol oynamır. Bu əsərlərdə lirik xalq mahnıları da az rol oyanmır / re-major, I dəftərdə /. Burada müxtəlif əsərində lirik xüsusiyyətli mahnılarında – segah – zabuldan istifadə edir. Folklor köklü segah – zabuldan fərqli olaraq müəllif burada segah – zabulla çahargahın sintezindən məharətlə istifadə edir və bununla da prelyudiya çox oynaq, təravətli və təkrarolunmaz səslənir. Burada ritmo-fonik ostinato: həm aşıq sazının və milli musiqi alətlərinin səslərinin oxşarlığını əks etdirir, həm də qədim variasiyalı “basso ostinato” üslubunda olmasına baxmayaraq, yeni, müasir milli bir dildə səsləndirilir.

"Ostinato"nun Q.Qarayev yaradıcılığında tutduğu yer haqqında bir neçə kəlmə: məlum olduğu kimi, Azərbaycan xalq musiqisinin əsasında ostinat prinsipi durur. Q.Qarayev prelyudiyalarda bu əsaslarla yanaşı, müxtəlif çalarlardan / bemol-major/ 4 dəftər / istifadə etməklə əsəri daha da zəngin və müasirləşdirir. Müəllifin əsərlərində dəqiqlik və aydınlıq öz prinsipində qalır və buna tabe olur, hətta "eksiansiv" sayılan fa-majorda / IV dəftərin 23 pre./ belə. Bu hətta improvizə üsullu caz əsərini xatırladır. Belə prelyudiyaların yaranması təsadüfi deyil. Burada prelyudiyanın dili və obrazı 4-cü dəftərdə olduğu kimi, xüsusilə mürəkkəbləşir və fuqa, riçerkar, passakal – polifonik formalarla zənginləşir.

F.Əmirovun iki prelyudiyası dərin pisxoloji və rəngarəng çalarla bir kiçik həcmli/ vəhdət /yaradır. T.Quluyev iki prelyudya əsərində ənənvi romantik xarakterli və Raxmaninov stilində piano musiqidən istifadə etməklə zəngin və rəngarəng ladlarla əhatəli Azərbaycan folklor musiqisindən məharətlə istifadə etmişdir. Həmçinin N.Şəfiyeva, A.Bəbirov, A.Əzimov, A.Dadaşov və b. öz yaradıcılıqlarında xeyli maraqlı prelyudiyalar yaratmışlar. Yuxarıda qeyd etdiklərimizə istinad deyə bilərik ki, məşhur Azərbaycan bəstəkarları prelyudiya janrına müraciət etmişlər və burada Azərbaycan musiqisinin dərin və tarixi köklərindən və real ənənəvi musiqisindən bacarıqla istifadə etmişlər. Gələcəkdə bu janrın daha da inkişaf etməsinə çox böyük zəmin yaratmışlar.

Texniki cəhətdən çətin və bəzən də virtuoz pyes sayılan "Tokkata" / italyan sözü olmaqla "təmas", "toxunmaq" mənasında / əsasən klavişli musiqi alətləri üçün səslənən pyesdir. Prelyudiya və fantaziya kimi ilk yaranma zamanında / XVII-XIII əsr. / tokkata fuqa ilə ifa olunmağa başlamışdır. XVII-XVIII əsrlərdə yaranmış prelyudiyalardan tokkata müxtəlif rəngarəngliyi ilə seçilir. Bu müxtəlifliyi və improvizə formalı tokkatalar o dövrün (XVII-XVIII əsr) insturumental fantaziyalarına daha yaxındır. XIX-XX əsrlərin tokkatası, əsasən, konsert fortepiano pyeslərini təşkil edirdi.

Azərbaycan bəstəkarı A.Bağırovun fortapiano üçün tokkatosu orjinal, özünəməxsus, xüsusi milli koloritli bir əsərdir. Bu rəngarəng konsert pyesi özündə Azərbaycan milli musiqisinin elementləri ilə (metroritm, xarakterik intonasiyalar) yanaşı, ənənəvi Avropa musiqisi çalarları ilə zənginləşdirilmişdir. M.Mirzəyevin tokkatası rəqs musiqisi üslubunda üçhissəli geniş əhatəli bir pyes təşkil edir. S.Ələskərovun rəqs – tokkatasu – virtouz konsert tipli bir pyesdir.

XIX əsrin əvvələrində Avropada vals geniş yayılmağa başlamışdır. Vals – Avstriya-alman lendlerindən və polyar kuyavak rəqslərindən yaranmışlar. Sonralar vals geniş konsert pyesinə (Beber "Rəqsə çağırır", Şopenin, Listin, Çaykoviskinin valsları) çevrilmişlər. Avstriya bəstəkarı Loqan Ştrausun valsları geniş şöhrət tapmışdır. Cəmisi bu cür 447 valslar yazılmışdır. Valsın ritminə Azərbaycan bəstəkarları da müraciət etmişlər (Q.Qarayev, F.Əmirov, R.Quluyev).

Qafqazda geniş vüsət tapmış *Ləzginka* rəqsi rus bəstəkarları M.Qlinkanın və A.Rubinşteyinin marağına səbəb olmuşdur. Ləzginka rəqsini bir qrup cigitlər əllərində xəncər, döyüş mənzərələri ilə səciyyəvi bir şəkildə ifa edirlər. T.Quliyevin "Ləzginka"sı çox orjinal bir instrumental pyes təşkil edir. Burada bəstəkar virtouz pianino ifaçılığı ilə yanaşı, rəngarəng milli koloritli konsert pyesini özündə səciyyələndirə bilib.

XIX əsrin əvvələrindən başlayaraq, marş geniş yayılan musiqi əsərlərindən biri olmuşdur. Buna misal olaraq Şubertin yaratdığı marşı göstərmək olar. Burada bəstəkar Avstriyanın milli rəqs koloritini əsərində çox yüksək səviyyədə əhatə edə bilmişdi. Azərbaycan bəstəkarları bu janrda çoxlu pyeslər yaratmışlar. Ümumtəhsil məktəblərinin musiqi proqramlarında marş özünə geniş yer tapmışdır. II sinifdən başlayaraq, proqlamlara müxtəlif bəstəkarların marşları daxil edilmişdir (Q.Qarayev, X.Mirzəzadə, F.Əmirov, M.Mirzəyev, C.Quluyev və s).

"Марш, различного рода танцы и песни, романс, серенада, баркарола, ноктюрн, хорал, концерт, симфония, соната, квартет, кантата – все это жанры музыки, музыкальные жанры". ("Marş, müxtəlif növ rəqs və mahnılar, romans, serenada, barkarola, nokturn, xoral, konsert, simfoniya, sonata, kvartet, kantata – musiqi janrlarıdır") [4, s. 22].

Azərbaycan bəstəkarları da sonata janrına müraciət etmişlər. Buna misal olaraq V.Adıgözəlov, A.Sultanova, R.İbrahimov, Ə.Əlizadənin üçhissəli sonatalarını göstərmək olar. Həmçinin Azərbaycan bəstəkarları R.Hacıyev, Ə.Əzizov, F.Qarayev, E.Mahmudov, Q.Rzayev, A.Dadaşov sonatino formasına müraciət etmişlər. C.Hacıyev, M.Mirzəyev birhissəli sonata, E.Nəzirova "Sonata-poema", Ə.Abbasov "Drama-sonata" əsərlərini yazmışlar. Bu baxımdan A.Bəbirovun sonata do-diyez major formasında yazdığı əsəri də qeyd etmək olardı. Sonata forması çox geniş istifadə olmağa başlamışdı (həm sonat, həm də konsert formasında).

Konsert janrına Azərbayacan bəstəkarları da müraciət etmişlər (F.Əmirov, E.Nəzirova, Rzayev, Z.Bağırov, N.Məmmədov, V.Adıgözəlov, F.Əlizadə). Q.Qarayevin "Şadlıq poeması" Azərbaycan fortepiano konserti nümunələrdən biri hesab edilə bilər. Respublikamızda ikili konsert janrı inkişaf etməyə başlayır − birhissəli, ikili konsert skripka və fortepiano üçün yazılmış Fikrət Əmirovun simfonik əsəri. S.Ələskərovun violonçel və fortepiano üçün simfonik orkestrlə birgə əsəri, E.Dadaşovanın fortepianonun simfonik orkestrlə konsertinə əsəri və s.

Fortepiano üçün yazılan F.Əmirovun e-moll variasiyası öz xarakterik xüsusiyyətləri və melodik stili və harmoniyası ilə seçilir. Variasiyanın mövzusunda Azərbaycan folklor mahnıların ruhu (intonasiyası) duyulur. Bu əsər Azərbaycan xalq musiqisini professional musiqi formasında istifadə edilməsində çox maraqlı nümunə və təcrübə kəsb edir. T.Quliyevin səkkiz taktlı bir qədər qəmli mahnı mövzusu əsasında yeni obrazlar (skerso – IV variasiya, tokkatlı –V variasiya, geniş – təmtəraqlı – VI variasiya və s.) yaranmışdır. Rəşid Şəfəqin Azərbaycan xalq mahnısı "Qubanın ağ alması" əsasında olan variasiyasında milli musiqi çalarlarından geniş istifadə olunmuşdur. Elnarə Dadaşovanın variasiyası sərbəst klassik variasiya formasında olmaqla, müasir tonal fakturlu mövzu ilə də səciyyələnir. Paqanini mövzusu kəsb edən İsmayıl Hacıbəyovun variasiyası öz orijinallığı və mövzunun yeni məna çalarlığı ilə özünə cəlb edir.

Azərbaycan fortepiano musiqisində fuqa janrı inkişaf etməyə başlamışdır. Fuqa (lat. – qaçış) – termini həm imitasiya, həm polifoniya forması daşımaqla musiqi janrı adlanır. Fuqa pyes olmaqla müxtəlif mövzu və obrazlarda tərənnüm etdirmək imkanına malikdir. Mövzular müxtəlif və demək olar ki, əksər hallarda təbii, aydın janr xüsusiyyətinə malikdir. Fuqa – polifonik əsərdir. Polifoniya XVIII əsrdə öz yüksək inkişafını tapsa da indiyə qədər öz xüsusiyyət və mənasını saxlamaqdadır.

Azərbaycan bəstəkarlarından Q.Qarayev, F.Hüseynova, Ə.Əzizova, A.Dadaşovanın yaradıcılığında fuqa janrı böyük yer almışdır. Qara Qarayevin üç səsli fuqa əsəri öz rəngarəng konsert üsuluna görə çox möhtəşəm səslənir və bu əsərdə folklor çalarlar əsas yerlərdən birini tutur. Q.Qarayev yaratdığı fuqa əsərləri müxtəlif janr və müxtəlif xarakterli olmaqla bərabər, özündə bir mövzunu geniş şəkildə səciyyələndirir. Burada həm Bex musiqisinin oxşarlığı, yəni fuqa siklinin üç səsli stili (I, II, VI, VIII və X) və rəngarəng tipli fuqa əsərləri kimi özünü büruzə verir.

F.Hüseynovun fuqa əsəri maraq doğurur. Bu fuqa öz orijinallığı ilə seçilir. Mövzunun geniş diapazonu olmağına baxmayaraq, müəllif yalnız iki səsdən istifadə etmişdir. Ə.Əzimovun 8 fuqa əsəri ənənəvi polifonik yazı nümunəsi kimi səciyyələnə bilər. Həm Ə.Əzizovun, həm də A.Dadaşovun fuqa əsəri sərbəst polifonik forması ilə başqalarından seçilir. Musiqi məktəblərinin, həmçinin pedaqoji ali təhsil ocaqlarının musiqi şöbələrinin tədrisində çox vaxt polifonik musiqinin bir forması kimi – invensiyadan istifadə olunur. Beləliklə, musiqi janrlarından bəhrələnən biliklər musiqi əsərlərinin başa düşülməsində, onu anlamaqda, onun bədii kompozisyasının və idea obrazlarının açıqlamasında, tarixin və gerçəkliyin əks etdirilməsində əsas yerlərdən birini tutur.

Musiqi janrı dedikdə, musiqi əsərlərində musiqinin keyfiyyəti, duyumu, məzmunu, tipik və oxşar cəhətləri və ən əsası onun / musiqinin / həyat və məişət hadisələrinin tarixlə rabitəli olan növləri nəzərdə tutulur. Musiqinin məzmununu açmaq üçün janr əmələgəlmə şərtlərini anlamaq çox mühüm və vacibdir. Janr xüsusiyyətlərinin təyin edilməsi musiqinin məzmununun açılmasında xeyli kömək edir. Həmçinin eyni janrdan olan əsərlər öz bədii məzmun və

mənasına görə müxtəlif ola bilirlər. Eyni janrda olan musiqi əsərlərində müxtəlif stil və növlər mövcud olur. Janr və stil münasibətləri vəhdətlik təşkil edir. Janr stil kimi özündə tarixi və milli xarakter daşıyır. Köhnə janrlar kökündən dəyişərək yeni janrlar əmələ gətirir.

Problemin aktuallığı. Mövzunun aktuallığı müxtəlif janrlarda Azərbaycan bəstəkarlarının əsərlərinin öyrənilməsi prosesində ən vacib janr xüsusiyyətlərinin müəyyən edilməsindən ibarətdir. Bu əsərlər tədris prosesində milli musiqi janrlarının xüsusiyyətləri ilə tanışlıqda mühüm rol oynayır.

Problemin yeniliyi. Pianoçuların repertuarında Azərbaycan bəstəkarlarının müxtəlif janrlı əsərləri onların musiqi üfüqlərini genişləndirməyə imkan verir.

Problemin praktik əhəmiyyəti. Tədris prosesinə müxtəlif janrlı əsərlərin daxil edilməsi tələbələrə ifa olunan əsərləri düzgün şərh etməyə imkan verir və onların üslub xüsusiyyətlərinin dərkinə kömək edir.

Ədəbiyyat

1. Касимова, С. Азербайджанская советская музыкальная литература / С.Касимова, Н.Багиров. − Б: Маариф, −1986.
2. Мамедов, Б.М. О некоторых ладовых особенностях гармонии азербайджанских композиторов. Ученые зап. Серия XIII №1, − Баку, − 1973. (Hansı universitetin elmi əsərləridir?)
3. Сафарова, З. Музыкально-эстетические взгляды Уз.Гаджибекова / З.Сафарова, − М: Советский композитор, − 1973.
4. Мазель, Л. Анализ музыкальной формы, «Музыка» / Л.Мазель, В.Цуккерман . − Москва, − 1967, − 749 с.
5. Алексеев, А.Д. – История фортепианного искусства – М, − 1988, − 415 с.

I.A.Ahmadova

Acquiring Knowledge in The Class of the Main İnstrument of Musical Genres in the Creation of Azerbaijani Composers

Summary

The presented article is devoted to the topic of studying the genre characteristics of Azerbaijani composers in the process of teaching students the main instrument. Studying these works allows the student to expand his musical horizons and gives the opportunity to navigate the diversity of genres. As a result, the presented article has methodological value in the educational process.

Key words: *student, art, music, genre, piano*

И.А.Ахмадова

Приобретение знаний об инструментальных жанрах в творчестве азербайджанских композиторов на занятиях основного инструмента

Резюме

Представленная статья посвящена теме изучения жанровых особенностей творчества азербайджанских композиторов в процессе обучения студентов на основном инструменте. Изучение этих произведений позволяют студенту расширить его музыкальный кругозор и дает возможность ориентироваться в жанровом многообразии. В связи с этим представленная статья несет методическую ценность в учебном процессе.

Ключевые слова: *студент, искусство, музыка, жанр, фортепиано*

Rəyçi: s.ü.f.d., dos. K.R.Sədirxanova

Redaksiyaya daxil olub: 22.04.2024

M.T.ƏLİYEVA
pedaqogika üzrə fəlsəfə doktoru, baş müəllim
e-mail: m.aliyeva60@gmail.com

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

:https://orcid.org/0000-0002-2005-6090

:10.62021/0026-0028.2024.2.193

UOT kod: 78.06

PROBLEMLİ-MODULLU TƏLİMİN MAHİYYƏTİ

Xülasə: *Məqlənin məqsədini problemli-modullu təlimin mahiyyətinin və məğzinin araşdırılması təşkil edir. Məqalədə qeyd edilir ki, müasir bir mütəxəssisin ixtisas səviyyəsinin əsas göstəricisi onun bir peşəkar kimi səriştəsidir. Səriştəli mütəxəssis yetişdirmək üçün isə müvafiq təlim texnologiyasının işlənib hazırlanması və tətbiqi tələb olunur. Bu texnologiyalardan biri də problemli-modullu təlim texnologiyasıdır ki, o, üç amilə əsaslanır: "sıxılma" (kvantlılıq), modulluq və problemlilik.*

Açar sözlər: *səriştə, problemli-modullu təlim, texnologiya, çeviklik*

Müasir şəraitində texnika və texnologiyanın davamlı yenilənməsi prosesi mütəxəssis hazırlığına yüksək tələblər qoyur. Müasir bir mütəxəssisin ixtisas səviyyəsinin əsas göstəricisi onun bir peşəkar kimi səriştəsidir. Problemin həlli üçün xüsusi şərtlərdən asılı olaraq, səriştəli mütəxəssis bu şərtlər üçün ən uyğun olan bu və ya digər metodu tətbiq edə bilər. Bu məqsədə nail olmaq üçün müvafiq təlim texnologiyasının işlənib hazırlanması və tətbiqi tələb olunur.

Elmi-pedaqoji tədqiqat metodlarının kompleksini tətbiq edərək (müxtəlif pedaqoji texnologiyaların tənqidi təhlili, modelləşdirmə metodu, təhsilin məzmununun sistemli təhlili metodları, peşə fəaliyyətinin sistemogenez metodu və s.) və mütəxəssislərin hazırlanmasının yerli və xarici təcrübəsini öyrənərək belə qənaətə gəldik ki, qoyulmuş məqsədə nail olmaq üç aparıcı amilin inteqrasiyası ("sıxılma", modulluq və problemlilik) və bunların əsasında yeni pedaqoji texnologiyanın – problemli-modullu təliminin qurulması nəticəsində həyata keçirilə bilər. Burada təhsil məlumatlarının "sıxılması" termini bilik mühəndisliyinin nailiyyətlərindən istifadə etməklə biliklərin ümumiləşdirilməsi, sistemləşdirilməsi və konsolidasiyası mənasında istifadə olunur.

Təklif etdiyimiz texnologiya XX əsrin 60-cı illərində yaranmış və ABŞ, Almaniya, İngiltərə və digər inkişaf etmiş ölkələrin ali təhsil müəssisələrində və təkmilləşdirmə institutlarında böyük populyarlıq qazanmış modul təlimin nailiyyətlərinə əsaslanır. Bu texnologiyanı ilk dəfə XX əsrin 60-cı illərində ABŞ alimi Corc Rassel təklif etmişdir. Modul – təlim materialının məntiqi cəhətdən bitik hissəsidir ki, buraya mütləq şagirdin bilik və bacarıqlarının nəzarəti daxildir. Modul təlim texnologiyası təlim fəaliyyətinin səviyyələr üzrə fərdiləşdirilməsi və diferensiallaşdırılması ilə xarakterizə olunur. "Modul texnologiyada tədris materialının təqdimatının variativ forması həm də təlim fəaliyyətinin fərdiləşdirilməsinə kömək edir və tələbənin nəzərdə tutulan məqsədə öz marşrutu ilə çatmasına şərait yaradır. Qeyd etmək vacibdir ki, modul üzrə öyrənmə tələbənin tədris materialını mənimsəməsinin fərdi sürətindən asılıdır. Öyrənən modulu tam mənimsəyənə qədər onu bir neçə dəfə təkrarlaya bilər" [1, s. 63].

Həmçinin biz problemli təlimin nailiyyətlərindən də bəhrələnmişik. Problemli təlimin tələbələrin zehni fəaliyyətinin aktivləşməsinə, problemlərin həllinə qeyri-standart yanaşmala-

rın formalaşmasına və nəhayət, yaradıcı təfəkkürün inkişafına təsiri məlumdur. Bu təsir təlim prosesində intellektual çətinliyin xüsusi vəziyyətlərinin – problemli vəziyyətlərin və onların həllinin yaradılması ilə təmin edilir.

"Sıxılma" və modulluq mütəxəssisin peşəkar səriştəsinin strukturunda biliklərin hərəkətliliyini təmin etməyə yönəlib, problemlilik, ilk növbədə onun tənqidi təfəkkürünün inkişafına yönəlib və modulluqla birlikdə peşəkar fəaliyyət üsullarının tətbiqində çevikliyi təmin edir.

Bəs problemli-modullu texnologiyanın mahiyyəti nədən ibarətdir? Problemli-modullu təlimin həm pedaqoji nəzəriyyədə, həm də praktikada kökləri var. Problemli-modullu təlim texnologiyasının qurulması üçün ilkin metodoloji mövqe fundamental sistemlərin ümumi nəzəriyyəsidir ki, ona görə insanın zehni fəaliyyətinin bütün davamlılığı sistemli "kvant"lara bölünə bilər. Bu zehni fəaliyyətin əsas motivasiyası kimi şəxsi əhəmiyyətli bir problemin qoyuluşu və həlli çıxış edir.

Problemli-modullu təlim texnologiyası tədris məlumatının "sıxılması" (kvantlılığı), problemin həlli və modulluq prinsiplərinin vəhdətinə əsaslanır. Didaktikada təəssüf ki, bu prinsiplərə bir-biri ilə vəhdətdə baxılmır. Halbuki sistemli kvantlaşdırılma prinsipi təlim məlumatının "sıxılması" nəzəriyyələrinin metodoloji əsasını təşkil edir. Modulluq prinsipi modul təlim metodunun neyrofizioloji əsasıdır.

Problemli-modullu təlim texnologiyası özünə hədəf komponentini, aparıcı prinsipləri, təhsil məzmununun layihələşdirilməsinin xüsusi üsullarını, məsələlər və tapşırıqlar sistemini, didaktik materialların tərtibatını, təhsil nailiyyətlərinin monitorinqi və qiymətləndirilməsi üçün reytinq sistemini daxil edir.

Problemli-modullu təlim texnologiyasının əsas xüsusiyyəti **çeviklik**dir. Müasir dövrdə və yaxın gələcəkdə təhsil texnologiyalarının səmərəliliyi əsasən onların çevikliyindən – dəyişən elmi-texniki və sosial-iqtisadi şəraitə tez reaksiya vermək və mobil şəkildə uyğunlaşmaq qabiliyyətindən asılı olacaqdır. Əsas xüsusiyyət kimi çeviklik problemli-modullu təlim texnologiyasının bütün əsas komponentlərinə nüfuz edir. Məhz buna görə də struktur çevikliyi, məzmun çevikliyi və texnoloji çevikliyi bir-birindən fərqləndirmək lazımdır.

Struktur çevikliyi bir sıra məqamlarla təmin edilir: problemli modulunun strukturunun hərəkətliliyindən və problemli-modullu proqramın mərhələliyindən tutmuş çevik sinif cədvəlinin və sinif otağının daşınan strukturunun avadanlıqların layihələndirilməsi imkanlarına qədər.

Məzmun çevikliyi, ilk növbədə, təlim məzmununun həm diferensiallaşdırılması, həm də inteqrasiyası imkanlarında əks olunur. Bu imkan təklif etdiyimiz texnologiyada tədris materialının qurulmasının blok və modul prinsipi sayəsində yaranır.

Texnoloji çeviklik problemli-modullu təlimin prosessual aspektini təmin edir. Buraya tədris metodlarının dəyişkənliyi, nəzarət və qiymətləndirmə sisteminin çevikliyi, öyrənənlərin tədris və idrak fəaliyyətinin fərdiləşdirilməsi daxildir.

İnformasiya sıx dolğunluğu dövründə biliyin yığılması və onun operativ istifadəsi problemləri çox böyük əhəmiyyət kəsb edir. Bu məqsədlə "bilik mühəndisliyi" anlayışına uyğun olaraq biliyin "sıxılmış", yığcam, istifadəsi asan formada təqdim edilməsi üçün müxtəlif növ modellər nəzərdən keçirilir. Bunların sırasında məntiqi model; freym (çərçivə) modeli, semantik şəbəkə modelini göstərə bilərik.

Beləliklə, çeviklik problemli-modullu təlimin komponentlərinin inteqrasiyası nəticəsində formalaşan vahid keyfiyyət kimi çıxış edir. Bu çox vacib bir keyfiyyətdir, çünki məktəblərdə, texnikumlarda və universitetlərdə təlim prosesi zamanı öyrənənlərin qısa vaxt çərçivəsində mənimsəməli olduğu informasiya çox tez-tez yenilənir və mənimsəməli olduğu biliklərin həcmi olduqca böyüyür. Məhz bu məqam təklif etdiyimiz problemli-modullu təlim texnologiyasının tətbiqini zəruri və aktual edir.

Elmi nəticə: Məqalənin nəzəri əhəmiyyəti bundadır ki, burada müxtəlif fənlərin tədrisində yeni pedaqoji texnologiya – problemli-modullu texnologiya təklif olunur.

Elmi yenilik: Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, burada sistemli kvantlaşdırılma, problemlilik və modulluq prinsiplərinə bütövlükdə, üzvi vəhdətdə baxılır.

Tətbiqi əhəmiyyəti: Məqalədə təklif olunan metodika hər bir fənn müəlliminə, o cümlədən də musiqi müəllimlərinə təlim materialını qısa zaman çərçivəsində və səmərəli şəkildə öyrənələrə çatdırmaq imkanını yaradır. Məqalə həmçinin ali məktəblərdə və texnikumlarda "metodika" fənnini aparan müəllimlər üçün metodiki vəsait kimi çıxış edə bilər.

Ədəbiyyat

1. Hüseynova, A.Ə. İbtidai sinif müəllimlərinin musiqi hazırlığında yeni pedaqoji texnologiyalardan istifadə üzrə işin sistemi: / pedaqogika üzrə fəlsəfə doktoru dis. / − Bakı, − 2010, − 145 s.
2. Hüseynova, A.Ə. Musiqi aləti fənnində modul təlim texnologiyasından istifadə. Metodiki vəsait / A.Ə.Hüseynova, −Bakı:ADPU, −2011, −34 s.
3. Матюшкин, А.М. Проблемные ситуации в мышлении и обучении / А.М.Матюшкин, − М., − 2008, − 398 с.
4. Селевко, Г.К. Альтернативные педагогические технологии / Г.К.Селевко, − Москва: НИИ школьных технологий, − 2005, − 224 с.
5. Третьяков, П.И., Сенновский ИВ. Технология модульного обучения в школе. Монография / П.И.Третьяков, – Москва: Новая школа, − 2001, − 352 с.
6. Хуторской, А.В. Педагогическая инноватика / А.В.Хуторской, −Уч. пособие. − Москва: Изд-й центр «Академия», − 2008, − 256 с.

M.T.Aliyeva

The Essence of Problem-Modular Learning

Summary

The purpose of the article is to study the essence of the technology of problem-based modular learning. The article notes that the main indicator of the professional level of a modern specialist is his competence, and in order to educate a competent specialist, the development and application of appropriate technologies is necessary. One of these technologies is problem-modular learning technology, which is based on three factors: "compression" (quantum), modularity and problem-solving.

Key worlds: *aest competence, problem-modular learning, technology, flexibility*

М.Т.Алиева

Сущность проблемно-модульного обучения

Резюме

Целью статьи является исследование сущности технологии проблемно-модульного обучения. В статье отмечается, что основным показателем профессионального уровня современного специалиста является его компетентность, а чтобы воспитать компетентного специалиста, нужна разработка и применение соответствующих технологий. Одной из таких технологий является проблемно-модульная технология обучения, в основе которой лежат три фактора: «сжатость» (квантовость), модульность и проблемность.

Ключевые слова: *компетентность, проблемно-модульное обучение, технология, гибкость*

Rəyçi: ped.e.d., prof. T.Bağırova

Redaksiyaya daxil olub: 15.05.2024

Z.S.ƏMRAHLI
e-mail: Zrifmrahli@gmail.com

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

:10.62021/0026-0028.2024.2.196

ŞƏXSİYYƏTLƏRARASI ZİDDİYYƏTLƏRİN PSİXO-PEDAQOJİ VƏ GENDER SƏBƏBLƏRİ

Xülasə. *Problemin təhlili göstərdi ki, həm Azərbaycan, həm də xarici ölkələr psixologiyasında şəxsiyyətlərarası ziddiyyət probleminin interpretasiyasına, əsaslandırılmasına və təsnifatına müxtəlif yanaşmalar mövcuddur. Bununla belə, hazırkı yanaşmanın ümumiləşməsi şəxsiyyətlərarası ziddiyyətin motivasiyalı, koqnitiv, emosional və davranış səviyyələrində yaranan şəxsiyyətin dəyər – məna sferasının qarşıdurması olan, şəxsiyyətin inkişafında mürəkkəb, psixoloji qanunauyğunluq kimi başa düşülməsinə imkan verir.*

Açar sözlər: *şəxsiyyətlərarası ziddiyyət, gender xüsusiyyətləri, şəxsiyyətin inkişafı, ziddiyyətdə obyektiv və subyektiv səbəb, tərbiyə nəzəriyyəsi*

Son zamanlar tələbə kollektivində şəxsiyyətlərarası ziddiyyətlər probleminin tədqiqinə artan maraq və onun nəticələri təkcə psixologiya elminin özünün daxili məntiqi inkişafı ilə deyil, onun həllinin konstruktiv strategiyalarında, ziddiyyət növlərinin təşkilinin obyektiv əsasının axtarışında psixoloji təcrübənin tələbləri ilə şərtləndirilmişdir. Müasir psixologiya elmində hazırkı hadisələrin çoxaspektliyini və uyğunsuzluğunu ifadə edən geniş nəzəri və empirik materiallar toplanmışdır. Buna baxmayaraq, problem öz həllindən hələ ki, uzaqdır. Bu, subyektin şəxsi və peşəkar inkişafında tələbə kollektivində şəxsiyyətlərarası ziddiyyətin çoxmənalı rolu ilə şərtləndirilmişdir. Çoxmənalılıq bir tərəfdən, tələbə kollektivində şəxsiyyətlərarası ziddiyyətin inkişafına təkan verən hərəkət qüvvəsi, digər tərəfdən isə şəxsiyyətin inkişafının destruktiv təzahüründən ibarətdir [1, s. 171].

Şəxsiyyətlərarası ziddiyyətlərin məzmununun açılması, onların inkişaf tendensiyasının aydınlaşdırılması üçün bəzi nəzəri məsələlərə:

– Azərbaycan və xarici ölkələrin psixologiya üzrə tədqiqatlarında şəxsiyyətlərarası ziddiyyətlərin təyin olunmasına əsas yanaşmalara;

– şəxsiyyətlərarası ziddiyyətin, onun funksiyası, inkişaf dinamikasının məzmununu təyin edən psixoloji amillərə;

– gender qarşıdurması ilə şərtləndirilən şəxsiyyətlərarası ziddiyyətləri təhlilinə baxmaq lazımdır.

Prof. R.İ.Əliyevin qənaətinə görə, təbiətin dərkedilməsi və şəxsiyyətlərarası ziddiyyətin mövcudluğu, ziddiyyət kateqoriyasının gözdən keçirilməsi ümumi yanaşmaya müraciəti tələb edir [2, s. 73].

Ziddiyyət (latın dilindən – *konfliktus*) – toqquşma, yaxud mübarizə, düşmən münasibət deməkdir. Ziddiyyətin hazırkı təyini bu hadisənin geniş anlayışı haqqında danışmağa imkan verir. Humanitar elmlərdə bu anlayış elmin on bir sahəsindən az olmayaraq, anlayış aparatına daxil edilir və fənlərarası hesab olunur. Psixologiyada ziddiyyət dedikdə, bunlar başa düşülür:

– Adətən neqativ emosiyalarla ötürülən, ziddiyyət subyektinin qarşılıqlı hərəkətində tamamlanan, qarşıdurmaların həllinin ən gərgin üsuludur .

– Qarşılıqlı maraq, dəyər, mövqe və baxışların reallaşması məqsədilə subyektlərin mübarizəsi.

– Qarşılıqlı əks-motiv, məqsəd, hadisə, davranış, impulsun iştirak etdiyi istənilən situasiya.

"Ziddiyyət" anlayışının təhlili onun əsas məzmun mahiyyətini – müxtəlifyönlü, yaxud qarşılıqlı istisnalı tendensiyalar arasında qarşıdurma anlayışlarına ayırır.

Psixologiya elmində diqqətin xaricdən daxilə doğru bir yerə cəmlənməsi hərəkatında tamamlanan, ziddiyyətli inkişaf tendensiyası müşahidə edilir. Bu şəxsiyyətlərarası ziddiyyətlərin tədqiqinə marağın artmasını, alimlərin şəxsiyyətlərarası ziddiyyətləri, onun daxili və xarici determinantının inkişaf prosesinin aydınlaşdırılmasını şərtləndirir.

Xarici psixologiyada şəxsiyyətlərarası ziddiyyətlərin nəzəri və empirik öyrənilməsi öz başlanğıcını Z. Freydin konsepsiyasından götürür. Psixoanalitik nəzəriyyədə sosial aləmin tələblərinə vasitəçilik edən "O" və "Mən" instiktiv marağın qarşıdurma ideyası daxili psixi mövcudluğu müəyyən edir. Şəxsiyyətin instansiya ziddiyyətinə daxili gərginliyi yaradan daimi dinamik güc kimi baxılır [3, s. 114].

Z. Freyd öz işlərində şəxsiyyətlərarası ziddiyyətlərin iki tipini təsvir edirdi: patoqen və normal. Normal ziddiyyət cəmiyyətin tələblərinə uyğun gəlməyən baza tələblərinin məmnunluğunun inkar edilməsi ilə bağlıdır. İnsan ziddiyyəti əxlaqi yollarla dağıdır və nəticədə nailiyyət əldə edir. Patogen ziddiyyətə şüursuz maraqla bağlı təkcə xarici deyil, daxili məhdudlaşmalar da daxildir, bu toqquşma "Mən" və seksual əyləncə arasındakı maraqdır.

Psixotəhlil üçün açar olan xarici ziddiyyət anlayışı şəxsiyyətin müxtəlif psixoloji nəzəriyyəsinin yaddaş aparatının əsas hissəsi oldu.

Neofreydizmin nümayəndələri (A.Adler, K.Yunq, K.Horni, E.Fromm, E.Erikson və b.) psixotəhlilin imkanlarını genişləndirməyə cəhd göstərmişlər. Əgər Z.Freydə görə, ziddiyyətin mənbəyi "O", "Mən" və "Yüksək Mən"dirsə, A.Adlerə görə, ziddiyyət – natamamlıq kompleksidir, inqibitor kimi çıxış edən kamilliyə cəhddir; K.Horniyə görə, bu, başqa insanlara can atmaq, münasibətdə aqressiya göstərmək, müstəqil olmağa çalışmaq kimi fərdi təşəbbüsçünün etdiyi ziddiyyətli nevrotik tələblərdir; K.Yunqa görə, bu, ruh və instinkt arasında kənarlaşdırıla bilinməyən qarşıdurmadır; E.Eriksona görə, bu, şəxsiyyətin identikliyinin formalaşması prosesində yaranan psixososial böhrandır.

Yuxarıda göstərilən nəzəriyyələrin dolğun təhlilinin məqsədinə nəzər yetirməsək, K.Horni və E.Eriksonun nəzəriyyəsi üzərində qalırıq, ona görə ki, şəxsiyyətin psixososial inkişafına ziddiyyətin təsiri haqqında ilk ideyalar bunlar tərəfindən işlənmişdir.

K.Horni ziddiyyətdə şüursuzluğun aparıcı rolu haqqında psixotəhlilin əsas vəziyyətini, insanda təbiilik və sosial qarşıdurma fikirlərini bütövlükdə bölərək, psixi çaşqınlığın səbəbinin izahında psixoanalitik yanaşmanın yararsızlığı haqqında nəticəyə gəlir. Müəllif əsas vurğunu sosial mühitin şəxsiyyətin formalaşmasına təsirin əhəmiyyətinə edir.

K.Horninin fikrincə, şəxsiyyətlərarası ziddiyyətlərin başlanğıcı fərdin başqa insanlarla münasibətində qoyulur, zaman keçdikcə bu münasibətlər şəxsiyyətə bütövlükdə təsir edir. İlk dəfə tədqiqatçı belə anlayışı "bazal həyəcanı" kimi qəbul edir. Həyəcanın bu növü insanın hərəkətini determinasiya edir, təhlükəsizliyə cəhd göstərməyə məcbur edir.

Ziddiyyət, müxtəlifyönlülük insanın əsas marağıdır. Belə ki, təhlükəsizliyə cəhd, öz həyəcanına məmnunluq, psixoloji müdafiənin mexanizmini bildirir.

K.Horni bazal ziddiyyətlərə üstün gəlmənin aşağıdakı üsullarını təklif edir:

Birinci üsul əsas marağın ziddiyyəti ilə bağlı affektin, impulsun şüurdan çıxarılmasından, yatırılmasından ibarətdir, bundan sonra insan onların mövcudluğunu dərk etmir.

Məlumdur ki, yatırılmış impuls "Mən" müdafiə mexanizminin hərəkətində təzahür edən, şüur müqaviməti ilə rastlaşır. Buna görə də şəxsiyyətin müəyyən cəhətləri sakitləşdirilir, onlara əks olan başqaları isə birinci plana keçir" [3, s. 80].

İkinci üsul bazal ziddiyyətin üstün gəlməsi, sosial davranış strategiyalarının qurulması, ziddiyyətlərin praktiki mümkünsüz olduğu insanlar arasında müəyyən səddin yaranmasından ibarətdir.

Xarici ziddiyyətin üstünlüyünün üçüncü üsulu şəxsiyyətin potensial imkanlarına əsaslanan, şəxsiyyətin ideallaşmış obrazının yaranmasından ibarətdir. K.Horni diqqətini müdafiə

funksiyalarında cəmləşdirir. Bununla bərabər, K.Horni diqqətini şəxsiyyətlərarası ziddiyyətlərdən bu üsulun özündə daşıdığı təhlükədə aksentləşdirir. Birincisi bu, ideallaşmış obrazın fövqəladə incəliyidir və bu obraz düşünülmüş elementlərin olması ilə bağlıdır. İkincisi, ideallaşmış obraz "Real – Mən"dən uzaqlaşmanı şərtləndirir, nəticədə yeni ziddiyyətin yaranmasına gətirib çıxarır. "Baxmayaraq ideallaşmış obraz bazal ziddiyyətin aradan qaldırılması üçün yaradılır, müəyyən dərəcədə buna nail olmağa kömək edir, eyni zamanda şəxsiyyətdə parçalanmanın yeni xəttini yaradır" [4, s. 91].

E.Eriksonun şəxsiyyətlərarası ziddiyyətlərə baxışı daha optimistdir. "Böhran insan həyatının xüsusi vəziyyətidir, proqress və reqress arasında seçim anıdır. Bu cəza qorxusu deyil, çevriliş məntəqəsidir, şəxsi artıma, həyati maneələrin üstün gəlməsinə ontogenetik mənbədir [5, s. 189].

Şəxsiyyətlərarası ziddiyyətlərin məzmunu və mövcudluğu haqqında təsəvvürlərin evalyusiya təhlili kontekstində geştalt – nəzəriyyə xüsusi maraq kəsb edir. Hazırkı nəzəriyyənin əsas vəziyyəti ondan ibarətdir ki, hər bir insanın öz daxilində başqaları arasında və mühitdə optimal bərabərliyə çatmaq qabiliyyəti var. Buna görə də tam tarazlıq geştalta müvafiqdir: tarazlıqdan çıxma fiqurun dağılmasına, fonlar arasında aydın sərhədin itməsinə gətirib çıxarır.

İşin elmi nəticəsi. İdarəetmə fəaliyyətində şəxsiyyətin davranışının gender xüsusiyyətləri idarəetmə rolunun reallaşmasında təzahür edir və rəhbərliyin idarəetmə strategiyasını müəyyən edən amil kimi çıxış edir.

İşin elmi yeniliyi. Bu tədqiqat işində idarəetmə nəzəriyyəsi və şəxsiyyətin psixologiyasına dair nzəriyyələr sistemləşdirilmiş, "gender" anlayışının məzmunu aydınlaşdırılmış, gender idealları və rollarının səmərəli həyata keçirilməsində idarəetmə komponentlərinin təsir dərəcəsi göstərilmişdir.

İşin tətbiqi əhəmiyyəti. Alınmış nəticələr pedaqoji prosesdə diferensial kursların təşkilində, sosial pedaqogika ixtisaslarında istifadə oluna bilər. Əldə olunmuş nəticələrə gender problemlərinin pedaqoji həllində, treninqlərinin keçirilməsində və təşkilində, seçmə fənlərin tədrisində müraciət etmək olar.

Ədəbiyyat

1. Abbasov, Ə.S. Azərbaycanda gender tədqiqatları / Ə.S.Abbasov. − Bakı: Adiloğlu, − 2012, − 217 s.
2. Əliyev, R.İ. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları / R.İ.Əliyev. − Bakı: Araz, − 2000, − 196 s.
3. Фрейд, З. Введение в психоанализ / З.Фрейд. − М.: Просвещение, − 2009, − 405 с.
4. Хорни, К. Наши внутренние конфликты. Конструктивная теория невроза / К.Хорни. − СПб.: Лань, − 2017, − 240 с.
5. Юнг, К.Г. Либидо, его метаморфозы и символы / К.Г.Юнг. − Спб:Восточно – Европейский институт психоанализа, − 2014, − 436 с.

Z.S.Amrahli

Psychopedagogical and Gender Causes of Interpersonal Conflicts

Summary

Analysis of the problem showed that in the psychology of both Azerbaijan and foreign countries there are different approaches to the interpretation, justification and classification of the problem of interpersonal conflict. Along with this, a generalization of the existing approach allows us to understand interpersonal conflict as a complex, psychological pattern in the development of personality, which represents a confrontation between the value-semantic spheres of the individual, arising at the motivational-cognitive, emotional-behavioral levels.

Key words: *interpersonal conflicts, gender features, personality development, objective and subjective reason of contradictions, theory of education*

З.С.Амрахли

Психопедагогические и гендерные причины межличностных конфликтов

Резюме

Анализ проблемы показал, что в психологии как Азербайджана, так и зарубежных стран существуют разные подходы к интерпретации, обоснованию и классификации проблемы межличностного конфликта. Наряду с этим, обобщение существующего подхода позволяет понимать межличностный конфликт как сложную, психологическую закономерность в развитии личности, представляющую собой противостояние ценностно-смысловой сферы личности, возникающий на мотивационно-познавательных, эмоционально-поведенческих уровнях.

Ключевые слова: *межличностные противоречия, гендерные особенности, развитие личности, объективная и субъективная причина в противоречии, теория образования.*

Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev

Redaksiyaya daxil olub: 30.04.2024

G.T.HACIZADƏ
dissertant
e-mail: gunay92h@gmail.com

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 33)

:https://orcid.org/0009-0002-7247-9834

:10.62021/0026-0028.2024.2.200

UOT 372.8:811.111.

XARİCİ DİLDƏ ÜNSİYYƏT ÜÇÜN ƏLVERİŞLİ MÜHİTİ XARAKTERİZƏ EDƏN AMİLLƏRİN ANALİZİ

Xülasə. *Kommunikativ dil tədrisi hazırda bütün dünyanın təhsil müəssisələrində çox məşhurdur və ikinci dil tədrisinin əsas hissəsi kimi autentik ünsiyyətə önəm verilməkdədir. Lakin bəllidir ki, tələbələr ünsiyyət qurmaqda və fikirlərini ifadə etməkdə çətinlik çəkirlər. Qeyd olunan problemlərin həllində tələbələrə kömək etmək üçün uyğun üsullardan biri onlarda motivasiyanı artırmaq, gərginliyi azaltmaq və onları potensialından istifadəsi üçün düzgün istiqamətləndirməkdir. Aparılan tədqiqat tələbələrin davranışını müsbət yöndə dəyişmək, öyrənmə potensialını artırmaq və hədəf dildə ünsiyyət üçün dəstəkləyici mühit yaratmaq məqsədilə beyin və bədənin fəaliyyətini müsbət yöndə proqramlaşdırmağın mümkünlüyünü ifadə edir və tələbələrlə münasibəti düzgün qurmağın vacibliyinə toxunur. Tədqiqatın nəticəsi olaraq tələbələri ünsiyyətə motivasiya etmək üçün pedaqoji yanaşmalar və bəzi öyrətmə strategiyaları da təklif edilir.*

Açar sözlər: *ünsiyyət, ahəng qurma, neyrolinqvistik proqramlaşdırma, emosiyalar, öyrənmə mühiti*

Səmərəli tədris öyrənənlərlə yaxşı əlaqələrin qurulması və möhkəmlənməsini tələb edir. Tələbələr ürəyini onları başa düşüb, idarə edə bilən müəllimlərə açır. Tələbələri ilə əlaqə yarada bilən və effektiv ünsiyyət qura bilən bilən müəllimlər öyrənmə prosesini də uğurla aparır [15]. P.Silviaya (2017) görə, emosiyalar öyrənmə prosesinə təsir edən mühüm faktorlardan biridir [16]. Buna görə qorxu və gərginlik xarici dildə öyrənmə də daxil olmaqla tələblərin akademik fəaliyyətində stress və panik yaradacaqdır. Bu eyni zamanda öyrənilən materialların assimilyasiyasına mənfi təsir edəcək. Fərdin öyrənmə potensialı, hədəf dildə ünsiyyət qurmaq istəyi onun neyro-fizioloji vəziyyəti (məsələn, qorxu və sıxıntıdan çox maraq hissi), həmçinin özü və öyrənmə prosesi haqqında inancları (məsələn, öyrənmə potensialının olduğuna inanmaq, öyrənmənin əyləncəli və mənalı olduğu qənaətinə gəlmək), ətraf mühit və s. kimi amillər tərəfindən geniş mənada təsir görür [9; 18]. Bu vəziyyətin isə müəllim və tələbə ünsiyyətindən, seçilən fəaliyyət növlərindən asılı olaraq müsbət və ya mənfi yöndə dəyişmə ehtimalı mövcuddur [17; 19]. Bu məqamda təhdid və stresin öyrənmə prosesinə maneə yaratdığını unutmamaq gərəklidir [8].

Sinifdə müəllim-tələbə ünsiyyəti şüurlu həyat keçdiyi kimi şüuraltı səviyyədə də baş verir. Bu məqamda tələbələrin emosional ehtiyacları nəzərdən keçirilə bilər. Abraham Maslovun (1970) ehtiyaclar nəzəriyyəsinə diqqət etsək, görərik ki, insanların motivasiyası xarici faktorlardan başqa şəxsin daxilindəki ehtiyaclara bağlıdır. O bu ehtiyacları aşağıdakı iyeraxiyada qruplaşdırmışdır [10]:

Şəkil. *A.Maslovun ehtiyaclar iyerarxiyası*



Mənbə: Maslov (1970)

Maslov (1970) bu ehtiyacları piramida kimi təsvir edərək bir pillədəki ehtiyacı qarşılamadan digər bir pilləyə keçməyin mümkünsüz olduğunu vurğulamışdır. Məsələn, fiziki təhlükəsizlik və emosional rahatlıq hissi olmadan biz aydın düşünə və öyrənə bilmərik. Bu baxımdan neyrolinqvistik proqramlaşdırma (NLP) tədrisdə innovativ üsullardan biri hesab edilə bilər. NLP tələbələrin özünü tanımasına kömək edir, onlarda pozitiv emosiyalar yarada bilir və daha arxayın ünsiyyət qurmasına səbəb olur. NLP-də ahəng qurma (creating rapport) sağlam sinif mühitinin əsasında duran bir texnikadır [7; 13]. Hər bir tələbəylə eyni zamanda uyğunlaşmaq, anlaşmaq çətin olduğu üçün ən azından onlar arasında ahəng qura bilərik. Bunun üçün onlarla birgə mahnılar oxuya bilərik. Yaxud tələbələrlə yaşana biləcək problemlərin öncədən qarşısını almaq üçün hərdən ruh hallarını bir sözlə ifadə etmələrini istəyə bilərik. Bu həmçinin tələbələrin marağına uyğun olaraq mövzu müzakirəsi, tələbənin hər səhvini düzəltməyə çalışmamağı da nəzərdə tutur [12]. Müqavimət və dirənmə hissi ahəng qurmada əksikliyin göstəricisidir. Bu hal özünü qarşılıqlı inam və əlaqə olmadıqda göstərir. Müəllimlər sinifə əsasən çalışmalar, strategiyalar və bacarıqlar tərəfdən yanaşırlar. Uşaqlar isə daha çox fundamental səviyyədə – şəxsiyyət səviyyəsində fəaliyyət göstərirlər. Onlar daha çox sizin kim olduğunuz və sizə nəyin vacib olduğu ilə maraqlanır. Ahəng qurmanı inkişaf etdirmək sizə bu səviyyədə onlarla daha yaxşı ünsiyyət qurmağa, düşüncə və davranışınızı dəyişdirməyə kömək edəcəkdir. Yenidən çərçivələmə üsulu da dildən düzgün istifadəni və sözlərin dəyişdirilməsi ilə düşüncənin də dəyişdirilməsini nəzərdə tutur. Bu üsuldan istifadə şəxslərin mənfi inanclarını dəyişdirmək, onları həvəsləndirmək üçün bir vasitə kimi qiymətləndirilir [2; 13]. Məsələn, "səhv" sözü öyrəndiyimiz təcrübə, "son" sözünü isə yeni başlanğıc kimi adlandırdıqda bəzi məsələlərə münasibətimiz də dəyişə bilər.

Craft (2001) neyrolinqvistik proqramlaşdırma (NLP) və təhsil arasında əlaqəni araşdıraraq bunun düşünmə prosesində və ünsiyyətdə müsbət rolunu qeyd etmişdir [6]. Aparılan tədqiqatlarda NLP-nin istifadə olunduğu sinif mühitində tələbə və müəllimlərin daha rahat hiss etdiyi, öyrənənlərin öz fikirlərini daha rahat ifadə etməsi, həvəsli və özgüvənli olması məlum olmuşdur [3; 20].

Sinifdə fərqli maraqları olan və fərqli templərdə işləyən tələbələrə dərs keçilir. Bəs bu şəraitdə dərsi düzgün planlaşdırmaq və onların ehtiyaclarını qarşılaya bilmək necə mümkündür? Bu məqsədlə aşağıdakılar tövsiyə olunur [4; 5; 7; 13; 14]:

- VAK *(visual, kinesthetic, auditory)* modeli barədə məlumatlı olmaq;
- Vahid metodun tətbiqindənsə dil tədrisinə yanaşmada dəyişkənlik göstərmək;
- Çalışmaların tərtibi zamanı tələbələrin fikirlərindən, şəxsi təcrübələrindən istifadə etmək;
- Bəzən tapşırıqları qiymətləndirmədən öncə tələbələrdən öz işlərinə qiymət qoymasını istəmək;
- Hərdənbir olaraq eyni bir mövzu üçün nəzərdə tutulan tapşırıqları asan, orta və qəliz olaraq tərtib etmək;
- Təlim prosesinin daha maraqlı keçməsi üçün tələbələri bir-biriləri üçün müxtəlif tapşırıqlar, fəaliyyət növləri təşkil etməyə həvəsləndirmək;
- Tələbələrə bəli yaxud xeyr cavablarına uyğun gələn suallardan daha çox düşüncələrini hərəkətə gətirəcək suallar ünvanlamaq;
- Tələbələrə sinifdə aktiv olması, tapşırıqların icrası zamanı hərəkət etməsi üçün şərait yaratmaq;
- Tələbələri konstruktiv rəylə təmin etmək;
- Tapşırıqları tərtib edərkən maraq hissi oyatmağa çalışmaq. Maraq hissi daxili motivasiyadan gəlir və tələbənin yazması, oxuması, dinləməsi yaxud danışması üçün motiv yaratmağı nəzərdə tutur.

Beynimiz sosial məşğuliyyəti, ünsiyyəti sevir və buna yaxşı reaksiya göstərir. Bu baxımdan kooperativ öyrənmə, oyunlar, müzakirə və s. xarici dildə öyrənmə prosesini inkişaf etdirir [5; 11; 21]. Bununla yanaşı tələbələri monoloji nitqə həvəsləndirməklə də onlara hisslərini ifadə etməsinə şərait yaratmaq, tənqidi düşüncəsini, yaradıcılığını və xarici dildə danışıq bacarığını inkişaf etdirmək mümkündür [1]. Lakin dil dərslərində çox zaman bacarıq qazandırmaqdan daha çox tələbələrin sözlərlə, qrammatika ilə yükləndiyini müşahidə edirik. Məsələn, ingilis dilində danışmaq bir bacarıq kimi qiymətləndirilə bilməz. Bu o zaman bacarığa çevrilir ki, dili ünsiyyət vasitəsi kimi istifadə edə biləsən. Necə ki, fırçadan istifadə etməyimiz bir rəsm əsəri yaratmadığımız müddətcə bir bacarıq sayıla bilməz.

Tədris prosesinin əsasən kollektiv işi dəstəkləməsi və tələbə yönümlü olması məqsədəuyğundur. Bu prosesdə tələbələrin məqsəd, bacarıq və şəxsi təcrübəsinə yönələn tapşırıqların istifadəsi onlarda güvən və həvəs yaradacaqdır. Bu isə öz növbəsində tələbələrin emosional zəka ünsürlərini, eyni zamanda duyğu üzvlərini hərəkətə gətirirərək diqqətini, qavrama prosesini optimallaşdıracaq və beləcə onlarda xarici dildə ünsiyyətə həvəs yaratmaq mümkün olacaqdır. Bu nöqteyi-nəzərdən aşağıdakı fəaliyyət növləri və texnikalar fayda verə bilər:

- Yönləndirilmiş xəyalqurma (Guided Imagery). Tələbələr danışacağı mövzunu müəllimin köməyi ilə realda yaşayırmış kimi öncə təxəyyülündə canlandırır, yaxud vizuallaşdırır, sonra isə danışmağa başlayır.
- Zehin xəritəsi (Mind mapping). Oxu prosesində tələbələr hekayəni, yaxud mətndəki hadisələri, xarakterləri zehin xəritəsi ilə vizuallaştırır. Bu üsul xarici dildəki sözlərin yaxşı mənimsənilməsi və yazı prosesində də istifadə edilə bilər.
- Modelləşdirmə (Modelling). Tələbələrin xarici dildə kommunikasiyanın müxtəlif elementlərini analiz etməsi üçün hədəf dil daşıyıcısını dinləməsi və imitasiyası nəzərdə tutulur.
- Oxu dairəsi (Reading/Literature Circle). Mətn yaxud hekayənin yaxşı mənimsənilməsi üçün tələbələrə oxu materialı üzrə rollar *(discussion facilitator, summariser, vocabulary enricher)* tapşırılır.
- VAK *(visual, kinesthetic, audial)* modelindən istifadə. Multisensor yanaşmanın, sensor təcrübənin tətbiqi ilə öyrənmə və qavrama həyata keçir. Tələbələrə müxtəlif hiss üzvlərindən istifadə ilə fikirlərini ifadə etməsinə, tapşırığı həll etməsinə şərait yaradılır.
- Hədəf və bacarıqlara yönəlmə. Müəllim tələbələri bacarıqları barəsində düşündürməyə və danışdırmağa həvəsləndirir, yaxud da tələbələrə hədəfləri barədə düşünməyə şərait yaradır, sanki arzularına çatmış kimi yaşadıqlarını, hiss etdiklərini qeyd etməsini istəyir.
- Qrup müzakirəsi və beyin fırtınası. Dinləmə, oxu, yaxud yazı prosesinə başlamazdan öncə tələbələr mövzu ilə bağlı düşünür, müzakirə aparır, fikirlərini bir-birilərilə bölüşürlər.

Həmçinin problemli situasiya yaradaraq tələbələrə müəyyən rollar vermək və onları problemin ortaq həllini tapmağa çağırmaq mümkündür.

Nəticə. Xarici dildə kommunikasiya üçün dəstəkləyici mühit müəllim-tələbə münasibətindən və ünsiyyətindən çox aslıdır. Tələbə müstəqilliyinin dəstəkləndiyi, tələbələrin yaradıcılığının və tənqidi düşüncəsinin ifadəsinə şərait yaradılan stressiz mühitdə xarici dildə ünsiyyət mənalı və rahat olacaqdır. Tələbənin beyin fəaliyyətini stimullaşdırmaq da hədəf dildə kommunikasiyaya təsir edir. Bu məqsədlə tələbələri düşündürəcək, onlara mənalı gələn tapşırıqlar vermək, onların hiss edərək öyrənməsinə və bir-birilərindən öyrənməsinə şərait yaratmaq lazımdır ki, bununla onlar öyrənmə prosesinə daha həvəslə yanaşacaq, hədəf dildə danışmağa istəyi və cəhdləri artacaq və müstəqil formada öyrənməyin üsullarını da kəşf etmiş olacaqlar.

Problemin aktuallığı. Tələbələrin xarici dildə, xüsusilə ingilis dilində kommunikasiya qurmaq bacarığı dövrün tələblərindən birinə çevrilib. Tələbələrin xarici dildə kommunikasiya bacarığının inkişafı üçün linqvistik biliklərin aşılanması kifayət etmir və koqnitiv proseslərin incələnməsinə ehtiyac var. Həmçinin tələbələrin öyrənmədəki motivlərinin, ehtiyaclarının, bacarıqlarının, inanclarının, ətraf mühitin və s. kimi amillərin diqqətdə saxlanması effektiv dil tədrisinə səbəb ola bilər.

Problemin elmi yeniliyi. Məqalədə xarici dil tədrisində neyrolinqvistik proqramlaşdırmanın imkanlarından istifadə qeyd olunub. Nevroloji proseslər, dildən istifadə və davranışın bir-birilə əlaqəsi tədqiq edilib.

Problemin praktik əhəmiyyəti. Xarici dil dərslərində müəllimlərin tapşırıqları tərtib edərkən istifadə edə biləcəyi yanaşmalar və tələbələri hədəf dildə ünsiyyətə həvəsləndirən bəzi fəaliyyət növləri təqdim edilib.

Ədəbiyyat

1. Səfiyev, Ə. İngilis monoloji nitqinin kommunikativ tədrisinin əsasları / Ə.Səfiyev. – Bakı: Elm, − 2019, − 176 s.
2. Bandler, R. Frogs into Princes / R.Bandler, J.Grinder. − Red, − 1977. − 194 p.
3. Carey, J. Neuro-Linguistic Programming and Learning: Teacher Case Studies on the Impact of NLP in Education / R.Churches, G.Hutchinson, , J.Jones, P.Tosey // Online Submission, − 2010.
4. Christison, M.A. Cooperative learning in the EFL classroom. English Teaching Forum, − 1990, 28 (4), − p.6-9.
5. Churches, R. NLP for Teachers: How to be a highly effective teacher / R.Churches, R.Terry. − Crown House Publishing, − 2007. − 240 p.
6. Craft, A. Neuro-linguistic programming and learning theory // The curriculum journal, − 2001, 12(1), − p.125-136. https://doi.org/10.1080/09585170122455
7. Cullen B. Explorations in NLP& Language teaching/ Cullen B., Deacon B., [et al.] – Standing in Spirit Publications, − 2015. − 117 p.
8. Dhority, L. and Jensen,E. (1998) Joyful Fluency: Brain-Compatible Second Language Acquisition. − Corwin; 1st edition, − 1998. − 168 p.
9. Dilts, R. Logical level alignment- NLP Comprehensive, − 2014. http://www.nlpu.com/Articles/LevelsAlignment.htm
10. Maslow, A.H. Motivation and Personality (2nd ed.) / A.H.Maslow. − New York: Harper & Row, − 1970. − 369 p.
11. Netten, J., Germain, C.A new paradigm for the learning of a second or foreign language: The neurolinguistic approach. Neuroeducation, − 2012, 1(1), − p.85-114. https://doi.org/10.24046/neuroed.20120101.85
12. Pishghadam, R., Shayesteh, S. Neuro-linguistic Programming (NLP) for Language Teachers: Revalidation of an NLP Scale// Theory & Practice in Language Studies, − 2014, 4(10), − p.2096-2104. doi:10.4304/tpls.4.10.2096-2104
13. Ready, R. & Burton, K. Neuro-Linguistic Programming for Dummies®, 2nd Edition. John Wiley & Sons Ltd, England, − 2010. − 416 p.

14. Revell, J. Handing over: NLP-Based Activities for Language Learning / J.Revell, S.Norman. − England: Saffire Press, − 1999. − 144 p.
15. Safiyev, A. Methods of teaching English in Azerbaijan. Second Edition / A.Safiyev, F.Karimov. – Baku: Azerbaijan University of Languages, − 2023.
16. Silvia, P.J. Curiosity. In: O'Keefe P., Harackiewicz J. (eds) The Science of Interest// Springer, − 2017, − p. 97-107. Cham. https://doi.org/10.1007/978-3-319-55509-6_5
17. Thornbury, S. The unbearable lightness of EFL// ELT Journal, − 2001, 55(4), − p.391-402. DOI:10.1093/elt/55.4.391
18. Tosey, P., Mathison, J., & Michelli, D. Mapping Transformative Learning: the potential of neuro-linguistic programming// Journal of Transformative Education, −2005, 3(2), − p.140-167. DOI:10.1177/1541344604270233
19. Tosey.P, Mathison.J. Neuro-linguistic programming: its potential for learning and teaching in formal education// European Conference on Educational Research, – University of Hamburg, − 17- 20 September, − 2003.
20. West-Burnham, J. Creating and sustaining a culture of creativity. Learning Matters. − 2010, 15(1), − p.24-26. https://research.stmarys.ac.uk/id/eprint/368
21. Yule, G. The study of language. Cambridge University Press, − 2022. − 320 p.

G.T.Hajizada

Analysis of Factors Characterizing a Favorable Environment for Foreign Language Communication

Summary

Communicative language teaching is now very popular in educational institutions around the world, and authentic communication is emphasized as a key part of second language teaching. However, students have difficulty communicating and expressing their ideas. One of the appropriate ways to help students deal with the mentioned problems is to increase their motivation, reduce tension and guide them properly to use their potential. The conducted research proves the possibility of programming the activity of the brain and body and explains the importance of establishing a good rapport with students, which can positively change their behaviour, increase their learning potential, and create a supportive environment for communication in the target language. As a result of the research, pedagogical approaches and some teaching strategies are proposed to motivate students to communicate.

Key words: *communication, building rapport, neurolinguistic programming, emotions, learning environment*

Г.Т.Гаджизаде

Анализ факторов, характеристирующих благоприятную среду для иноязычного общения

Резюме

Коммуникативное обучение языку сейчас очень популярно в учебных заведениях по всему миру, а подлинное общение считается ключевой частью обучения второму языку. Однако учащимся трудно общаться и выражать свои идеи. Один из подходящих способов помочь студентам справиться с упомянутыми проблемами – повысить их мотивацию, снизить напряжение и направить их к использованию своего потенциала. Проведенное исследование доказывает возможность программирования деятельности мозга и тела и объясняет важность установления хорошего контакта со студентами, что может положительно изменить их поведение, повысить их учебный потенциал и создать благоприятную среду для общения на изучаемом языке. В результате исследования предложены педагогические подходы и некоторые стратегии обучения, позволяющие мотивировать студентов к общению.

Ключевые слова: *общение, установление взаимопонимания, нейролингвистическое программирование, эмоции, среда обучения*

Rəyçi: ped.f.d., dos. V.S.Bağırova

Redaksiyaya daxil olub: 22.04.2024

İ.M.HƏSƏNOVA
e-mail: hesenovailkane8@gmail.com

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

:10.62021/0026-0028.2024.2.205

İNFORMASİYA TEXNOLOGİYASINDAN İSTİFADƏNİN DİDAKTİK MƏZMUNU

Xülasə. *Tədqiqatda təhsil elə bir sistem kimi müəyyən edilmişdir ki, burada müəllimlər, şagirdlər, təhsil kontingenti və öyrənmə mühiti təlim sisteminin əsas iştirakçıları kimi nəzərdə tutulur. Əgər bu əsas fəaliyyətdə İKT-dan istifadə etmək üçün qabiliyyət və hazırlıqları yarada bilsək, o halda təlim-tərbiyə sistemində onun inkişaf etdirilməsi üçün lazımi iş görüldüyünü iddia etmək olar. Təlim keyfiyyətinin yüksəldilməsində İKT-nin rolunun böyük olduğunu görə bilərik.*

Açar sözlər: *didaktik məzmun, informasiya-kommunikasiya texnologiyaları, informasiya cəmiyyəti, fəaliyyətlər və tədbirlər, şagirdyönümlü*

Bizi əhatə edən aləmdə müxtəlif sistemlər mövcuddur. Bu sistemlər içərisində təhsil sistemi də özünəməxsus yer tutur. Sistem bir-birinə bağlı olan qarşılıqlı əlaqəyə malik, bir-birinin iştirakı ilə müştərək məqsədi təqdim edən və gerçəkləşdirən tərkib hissələrindən ibarətdir. Əksər sistemlər bir-biri ilə qarşılıqlı əlaqədə və anlaşmada olan giriş vahidlərinə, istehsala və çıxışa malikdir. Tərkib hissələri arasındakı anlaşma və əlaqə bir sistemin mühüm göstəricisidir. Təhsil də bu xüsusiyyəti özündə birləşdirən bir sistemdir.

Qeyd etdiyimiz kimi, təlim-tərbiyə də bir təlim sistemidir. Hər bir toplumun yaşaması və gələcəyi üçün onun inanc, dəyər, davranış, meyl, bilik və bacarıqlarının yeni nəsillərə ötürülməsi zəruridir. Bu ötürülmənin əsasında təlim-tərbiyə dayanır.

Hər bir ölkənin təlim sisteminin əhəmiyyəti ondan ibarətdir ki, "vətəndaşı üçün axtarışda olan, müasir öyrətmə-öyrənmə mühiti yarada bilir. Bu prosesdə təhsil sistemi öyrənmə məqsədindən ibarət olan tədris proqramları, məktəb, müəllim, öyrənən, təchizat, təlim materialları və bu qəbildən olan digər faktorları təmin edən kompleks kimi başa düşmək olar" [1, s. 30].

Y.A. Qanin göstərir ki, öyrətmə-öyrənmə mühiti aşağıdakı çoxsaylı tərkib hissələrdən ibarətdir:

− giriş hissəsi: məktəblilər, müəllimlər, təlim mühiti, təchizat, dərs proqramları və təlim mənbələrinin mövcudluğu təlim sisteminin mühüm təbəqəsidir.

− proses: sistemin məqsədlərinin gerçəkləşdirilməsi üçün təlim həyata keçirilən fəaliyyətlər və tədbirlər kompleksidir. O, cəmiyyətə münasib çıxış və istiqamət verir. Başqa sözlə desək, proseslər bir təlim sistemində mövcud elementlər arasındakı anlaşmanın şərhi üçün nəzərdə tutulmuş məfhumdur. Bu anlaşma əsasında nəticə və sistemin məhsulu olan bilik əldə edilir ki, bu zaman öyrənmə onun əsas nəticələrindən biri kimi özünü göstərir.

− çıxış: təlim çıxışları bu sistemin məhsuludur. Məktəblilərin təlim prosesində qazandıqları biliklər, qabiliyyət və bacarıqlar təlim sisteminin çıxışlarından biridir.

− qarşılaşma: sistemin giriş və çıxış fəaliyyətinin həmişə nəzərdə olmasını tələb edir ki, bu da həyata keçirməyin münasib yollarını verməklə bərabər, təlim sisteminin yaxşılaşdırılması şərtlərini hazırlamağa kömək etmiş olur. Bu yolla sistemin fəaliyyətinin mümkünlüyü və onun səmərəliliyi ilə bağlı informasiyanı təlim sistemi proqramlaşdırıcılarının ixtiyarına verir. Qarşılaşma təlim sisteminin gücləndirilməsinə və ya ləğv edilməsinə səbəb ola bilər [3, s. 79]. Hər bir kiçik sistemlər komponenti giriş, proses və çıxışı ilə bir sistemdir. Kiçik sistemlərin (sub-sistemlər) bir-biri ilə qarşılıqlı əlaqələri vardır.

Təlim prosesinin konseptual modelinin yaradılmasının üç zonası müəyyən edilmişdir:

− GİRİŞ: şagirdin ilk hazırlıq səviyyəsinin təhlili zonasıdır. Ənənəvi formada istənilən təlim prosesi auditoriyanın yeni materialı qavramaq və başa düşmək hazırlığı və ya qabiliyyətinin təhlilindən başlayır. Şagird və müəllimin qarşılıqlı əlaqəsi üçün kompüter təlim texnologiyaları ortaq mühit yaradır. Buna görə də prosesin problemə daxil olmaq mərhələsindən başlamaq zəruridir. "Giriş" şagirdin kursu mənimsəmə mərhələsinə daxil olduğu zaman əldə etdiyi bilikdir.

− PROSES: şagirdin təlim fəaliyyəti materialın mənimsənilməsinə rəhbərlik edən müəllimlərin zəruri fəaliyyətləri zonasıdır. Təlim prosesinin təklif edilmiş konseptual modelini bütövlükdə təhlil etdikdə modelin bir hissəsini dəfələrlə təkrarlanır, dərslərin böyük bir hissəsini alan, müəllimin, kifayət qədər yeknəsək fəaliyyətini göstərən proses kimi nəzərdən keçirmək lazımdır. "Proses", yəni şagirdin cari tapşırığı yerinə yetirmə prosesində kompetentliyin inkişafı indikatorunun monitorinqidir.

ÇIXIŞ: təlim prosesini həyata keçirərkən yarana biləcək tipik situasiyaları araşdırmağa imkan verən zonadır. Situasiyaların əksəriyyətinin həlli üçün apellyasiya blokları vasitəsilə təlim proqramının tələbini rəhbər tutaraq fərdi situasiyalarda son sözü müəllimə vermək lazımdır. "Son", yəni şagirdin tədris-idrak prosesinin nəticələridir.

Təlimin səmərəliliyi texnologiyadan düzgün istifadə edilməsindən çox asılıdır. "Texnologiya" sözü iki sözün – "tekni" "sənətkarlıq məharətlərinin sirri" və "loji" "bilik" birləşməsindən əmələ gəlmiş sistemli və məqsədyönlü verilən məna daşıyır. Ümumi tərifdə texnologiya insanın yaratdığı məhsullardır və insan onların istehsalı və istifadəsində lazım olan bilikdən yararlanmaqla öz məqsədlərinə çatmaq üçün onlardan istifadə edir kimi məna verir. Bu tərifdə texnologiya insan əlinin yaratdığı məhsullara aid edilir [2, s. 60]. Texnologiya praktiki baxımdan elmi kəşflərin tətbiqidir. Başqa sözlə desək, müxtəlif sahələrdə istehsal edilmiş biliklərdən əyani formada istifadə edilməsi "texnologiya" adlandırılır.

Deməli, təlim texnologiyası hər hansı sistemin möhkəmləndirilməsi olub, müasir kütləvi informasiya formalarından və vizual vasitələrindən, siniflərin tənzimlənməsi və yeni tədris üsullarından yararlanır, lakin eyni zamanda onlardan möcüzə də gözləmir. Təlim texnologiyası nəzəriyyələrindən ardıcıl olaraq istifadə edilməsi və ya təlim materiallarının hazırlanması və istehsalı üçün sistemləşdirilmiş bilikdir. Təlim texnologiyası öyrənmə prosesinin yaxşılaşdırılması üçün sistemli və yardımçı texnika və vasitələrdən istifadə edilməsidir.

Təlimin effektli aparılması üçün müxtəlif metodlar, təlim materialları, müvafiq təchizat və tədbirlərdən istifadə edilməlidir ki, bu da təlim texnologiyaları vasitəsilə mümkündür. Bu baxımdan öyrənməni asanlaşdıran və ya təsir gücünü artırmaq üçün bütün sistemlər və üsullar bir növ təlim texnologiyası ilə əlaqə yaradır. Bu baxımdan da təlim texnologiyasını təlim sisteminin ayrılmaz tərkib hissəsi saymaq olar.

Belə bir nəticəyə gəlmək olar ki, təlim-tərbiyə işində istifadə oluna bilən hər növ vasitə, alət və informasiya təlim texnologiyasıdır. Radio, televizor, dil laboratoriyaları və hazırlanmış hər hansı informasiya vasitələri öyrətmə-öyrənməni təmin edən avadanlıqları hesab edirik. Əslində təlim-tərbiyə texnologiyadan istifadə edilməsi danışıqda işlədilən öyrətmə texnologiyasıdır. Yəni görmə, eşitmə avadanlığından və monitorlardan istifadə etməkdir.

Yeni təlim texnologiyaları əsasən tədrisin bütün mərhələlərində müəyyən bir məqsəd üçün istifadə olunur. Bu sıraya aşağıdakıları daxil etmək olar: 1. Motivasiya, 2. Tədqiqetmə (öyrənmə), 3. İzahetmə, 4. Təkmilləşdirmə (və ya tətbiqetmə), 5. Qiymətləndirmə.

İnformasiya insana çox yaxın olub, onunla daim təmasdadır. İnsanlar onun ötürülməsinə səbəb olduqlarından həmişə bir sosial fenomen sayılır. İnformasiya insanlar üçün lazım olan, müəyyən şəkildə sistemləşdirilmiş və formalaşdırılmış verilənlərdir. Əslində informasiya qəbul edənin zehni sistemində dəyişiklik yaradan və qarışıqlığı azaldan vasitədir. İnsanın münasib sistemlərdəki bu dəyişikliyinin nəticəsi biliyin meydana gəlməsi və qərara alınması bacarığıdır.

Nəticə. Tədqiqatın nəticələri aşağıdakı qənaətlərə gəlməyə imkan vermişdir: hazırki yüzillikdə təlim-tərbiyə sistemində yeni informasiya-kommunikasiya texnologiyalarından isti-

fadə edilməsi inkar edilməz bir zərurətdir. Buna görə də, həm müəllimlərdə, həm də şagirdlərdə tədris prosesində İKT-dən səmərəli şəkildə istifadə etmək üçün zəruri bacarıqlar yaradılmalıdır.

Elmi yenilik. Təlim prosesində İKT-dən istifadənin yeni modeli hazırlanmış, müxtəlif fənlərin tədris prosesində İKT-dən istifadə üzrə ilkin bacarıq və vərdişlərə yiyələnməsinin vəziyyəti öyrənilmiş, nöqsanlar təhlil edilmiş, ondan istifadənin istiqamətləri, məzmun və metodları müəyyənləşdirilmişdir.

Tədqiqatın praktik dəyəri. Tədqiqat materiallarından ümumtəhsilin müxtəlif pillələrində fənlərin tədrisindən yararlanmaqla bərabər, bu materiallar pedaqoqlara, psixoloqlara, təhsil işçilirinə də öz fəaliyyətlərini səmərəli qurmaqda yararlı vasitə ola bilər.

Ədəbiyyat

1. İsmayılov, İ.N., Qədirov, S.G. Tədris prosesində istifadə olunan təlim vasitələrinin sistemi və yeri / Pedaqoji tədqiqatlar (Elmi məqalələr məcmuəsi) / − Bakı: ADPU, − 2010, − s.28-35.
2. Qəndilov, R.T., Əliyev A.F. Təhsildə yeni informasiya və kommunikasiya texnologiyaları: problemlər, prioritetlər // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun elmi əsərləri. − Bakı, − 2013, № 1, − s.59-61.
3. Ганин, Е.А. Современные информационные и коммуникационные технологии как средство самообразования будущих учителей / Е.А.Ганин. – Чита, − 2014, − 134 с.

I.M.Hasanova

Didactic Content of using Information Technologies

Summary

The study defines education as a system in which the main participants in the educational system are teachers, students, the educational contingent and the learning environment. If we can create the ability and training to use ICT in these core activities, then it can be argued that the necessary work to develop them in the teaching and educational system has been done. We see that the role of ICT in improving the quality of education is great.

Key words: *didactic content, information and communication technologies, information society, activities and events, student-centered*

И.М.Гасанова

Дидактическое содержание использования информационных технологий

Резюме

В исследовании образование определяется как система, в которой главными участниками образовательной системы рассматриваются преподаватели, учающиеся, образовательный контингент и среда обучения. Если мы сможем создать способности и подготовку к использованию ИКТ в этой основной деятельности, то можно будет утверждать, что необходимая работа по развитию их в учебно-воспитательной системе проделана. Мы видим, что роль ИКТ в повышении качества обучения велика.

Ключевые слова: *дидактическое содержание, информационно-коммуникационные технологии, информационное общество, деятельность и мероприятия, ориентированный на учащегося*

Rəyçi: ped.f.d., dos. G.R.Məmmədova

Redaksiyaya daxil olub: 08.05.2024

Q.N.HEYBƏTOV
dosent

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

:10.62021/0026-0028.2024.2.208

İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ ŞAGİRDLƏRDƏ MOTİVASİYANIN YARADILMASI ÜSULLARI

Xülasə. *Bu məqalədə ingilis dilinin tədrisinin daha səmərəli olması üçün motivasiyasiyanın yaradılması üsullarının vacibliyindən bəhs edilir. Tədris prosesində şagirdlərdə motivasiyanın yaradılması şagirdlərin xarici dil bilik, bacarıq və vərdişlərin inkişaf etdirilməsinə kömək edir. Məqalədə ingilis dilinin tədrisi prosesində şagirdlərdə motivasiyanın yaradılmasının üsullarından və üstünlüklərindən bəhs edilmişdir.*

Açar sözlər: *ingilis dili, motivasiya, tədris metodları*

Giriş. Bu gün ingilis dili dünyada beynəlxalq və güc dili hesab edilir. Qlobal səviyyədə ingilis dilini yaxşı bilənlərə iş təklif etmək tendensiyası yarandı. Bu, təhsil sisteminə ingilis dilinin tədrisinə tələbatın artmasına yol açdı. Bütün dünya ilə ayaqlaşa bilmək üçün ölkəmizdə ingilis dili öyrənmə və təlim mərkəzlərinin inkişafına güclü ehtiyac yarandı. Bütün bu məqsədlər üçün öyrənənlər ingilis dilində lazımi bacarıqlara və təcrübəyə malik olmalıdır.

Motivasiya dil öyrənməkdə uğur və ya uğursuzluğun müəyyən edilməsində böyük rol oynayan mühüm amillərdən biridir. Spolsky motivasiyalı şagirdlərin daha az motivasiyalı şagirdlərə nisbətən daha çox və daha sürətli öyrənməyə hazır olduğunu bildirir. Motivasiyası aşağı olan şagirdlər öyrənərkən diqqəti yayındırır, müəllimlərinə və məktəbə itaətsizlik edir və bəzən hətta sinifdə nizam-intizam problemlərinə səbəb olur. Əksinə, həvəsli olan şagirdlər fəal iştirak edəcək və öyrənmə tapşırıqlarına və ya sinif fəaliyyətlərinə daha çox diqqət yetirməyə meyllidirlər.

Şagirdlərin motivasiyasına dörd amil təsir edə bilər:

1) sinif atmosferi və şəraiti;
2) tədris metodları/yolları;
3) müəllimlər;
4) uğur [2].

Birincisi, sinif otaqlarının və məktəblərin fiziki vəziyyəti; bu, sinif atmosferinə aiddir. Sinif mühitinin əhəmiyyəti şagirdlərin özlərini dəyərli və hörmətli hiss etdikləri zamandır ki, onlar təlim prosesində fəal iştirak edirlər.

Məsələn, əgər şagirdlər dəhşətli işıqlandırma olan, izdihamlı, lövhəsi kiçik olan və ya üfunət qoxusu olan bir sinifdə oxumalı olsalar, onlar öyrənmə motivasiyalarını itirə bilərlər.

İkinci amil müəllimin metodu/tədris üsuludur; bu, şagirdlərin öyrədilməsi üsuluna aiddir. Müəllimin fəaliyyəti yaxşı olmadığı üçün şagirdlər dərslərində cansıxıcı hiss etdikdə, onların motivasiyası azalacaq və ya ümumiyyətlə motivasiyadan düşə bilər.

Üçüncüsü müəllimdir; onlar təsirli motivasiya və demotivasiya mənbəyidir; buna görə də onlar ya öyrənmə prosesində öz şagirdlərini həvəsləndirən və ya həvəsdən salan əsas amilə çevrilə bilərlər.

Dördüncü amil şagirdlərin uğurudur; bu, müəllimlərin şagirdləri üçün hazırladıqları tapşırıqların uyğunluğuna aiddir. Əgər müəllim şagirdlərin bacarıq səviyyəsinə uyğun olmayan bir fəaliyyət təyin edərsə (yəni onlar üçün çox asan və ya çox çətindir), bu, şagirdlərin öyrənmə motivasiyasını azalda bilər.

Ümumiyyətlə, şagirdlərin dil öyrənmək, xüsusən də ingilis dilini öyrənmək üçün motivasiyası müəllimlər üçün böyük bilik və anlayış mənbəyi ola bilər. Bu məsələləri bildikdən sonra müəllimlər öyrənmə mühitində motivasiyanı təşviq edən müvafiq tapşırıqları, fəaliyyətləri və ya proqramları icra edə bilərlər. Adekvat motivasiyaya malik şagirdlər tədris-təlim prosesində gözlənilən nəticələri qaytaracaq səmərəli dil öyrənənləri ola bilərlər.

Müəllimlər həmçinin müəllim şəxsiyyətinin şagirdləri həvəsləndirmək üçün vacib amil olması ilə razılaşırlar. Sinifdə özləri haqqında proqnozlaşdırdıqları şəxsiyyət şagirdlərin motivasiyasını artıra bilər. Budur, iki müəllimin öz davranışları ilə bağlı söylədiyi bəzi şərhlər, şagirdlərin motivasiyasını cəlb edəcək.

Müəllimin tədris üslubları yalnız mühazirə və ya orfoqrafiya və qrammatik məşqlə deyil, şagirdlərin öyrənmə üslubları ilə uyğunlaşmalıdır. İngilis dili bütün özəl və dövlət məktəblərində orta səviyyədə məcburi fənn kimi tədris olunur. Tədris üslubları şagirdləri mövzuya ya həvəsləndirir, ya da həvəsdən salır. Xüsusilə, xarici dil öyrədildikdə tədris metodları daha çox təsir göstərir. Tədris metodları şagirdlərin motivasiyasına və fənn üzrə nailiyyətlərinə böyük təsir göstərir.

Şagirdlərin çoxu sırf təsirli tədris tərzinə görə dərslərə qatılır, bu zaman bəzi müəllimlər öyrənmə mühitini inkişaf etdirə bilmir və şagirdlərin motivasiyası azalır. Xüsusilə şagirdlərin və müəllimlərin hər ikisinin ana dili ingiliscə bilməyən ingilis dilində tədris metodu şagirdin motivasiya səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır. Hər bir müəllim bir çox cəhətdən digərindən unikaldır. Müəllimlər öz tədrislərində müəyyən tədris metodlarından istifadə etmək meyli kimi xüsusiyyətlərə görə bir-birindən fərqlənirlər. Tədris metodu metodologiya və fənn biliklərindən daha çox üstündür. Tədris metodu müəllimin məlumatı necə təqdim etdiyini, şagirdlərlə qarşılıqlı əlaqədə olmasını, sinif tapşırıqlarını necə idarə etdiyini, kurs işlərinə necə nəzarət etdiyini və şagirdlərlə ünsiyyət qurmasını izah edən çoxölçülü bir prosesdir.

Gilakjani bildirdi ki, müəllimlər şagirdlərin öyrənmə üslublarını və öz tədris metodlarını düşünməlidirlər. Bu məlumat olmasaydı, münaqişələr şagirdlərə belə təsir edərdi ki, əgər müəllimin tədris metodu şagirdin öyrənmə tərzinə uyğun gəlirsə, o zaman şagird motivasiyalı olur və ingilis dilinin öyrənilməsində fəal iştirak edir [2]. Öyrənmə üslubları ilə tədris arasındakı fərq öyrənmə uğursuzluğuna, öyrənmə potensialına və onların öyrənməyə qarşı davranışına səbəb olur. Bu araşdırmada Qraşanın tədris üslubları, yəni; Formal Authority üslubu, Ekspert üslubu, Fasilitator üslubu, Şəxsi Model üslubu və Delegator üslubları orta məktəb səviyyəsində şagirdlərin ingilis dilinin öyrənilməsinə olan motivasiyası üçün təhlil edilir. Bu tədqiqat şagirdlərin ingilis dilinin öyrənilməsində motivasiyasına qarşı dominant tədris tərzini müəyyən edir [5].

Öyrənmə üslubları ilə müqayisədə tədris metodları üzərində çox az iş görülmüş, dillərə gəldikdə isə daha da azalmışdır. Tədris metodları üzrə tədqiqatçılar heç bir standartlaşdırılmış proseduru qəbul etmirlər, müxtəlif tədqiqatçılar və müəlliflər davam edən tədqiqat üçün fərqli terminologiyaya malikdirlər. Əsasən tədqiqatçılar öz sahələrində müxtəlif tədris metodlarını araşdırmağa meyllidirlər.

Tədris metodlarının növləri

Tədris metodlarının təsnif etməyin bir neçə yolu var və hər təsnifatın öz üstünlükləri var. Bu, onun təsvir olunduğu perspektivin artıq qəbul edilib-edilmədiyini başa düşmək üçün faydalıdır, əks halda, demək olar ki, bütün tədris üslubları modelləri bir çox cəhətdən qüsurlu görünə bilər. Braun tərəfindən təsvir olunduğu kimi və Qraşanın modeli kimi aşkar edilən məşhur müasir tədris metodları verilmişdir [1].

Brown tədris metodlarını, məlumatı ötürmək və ya öyrənəndən əldə etmək üçün müəllimin şəxsi davranışına istinad edir və müəllimin tədrislə bağlı fəlsəfəsinin icrasını nəzərdə tutur. Sun və Wang tədris üslublarını aşağıdakı kimi təsnif etmişdir:

a) avtoritar tədris üslubu;

b) demokratik üslub;

c) laissez faire tədris üslubu;

d) laqeyd tədris üslubu [2].

Qraşa tədris üslublarını beş kateqoriyaya bölür:

Ekspert Stil

Müəllim şagirdin tələb etdiyi müəyyən bilik və bacarıqlara malikdir. Müəllim ətraflı fakt və rəqəmlər nümayiş etdirməklə şagirdlər arasında səriştəli mütəxəssis statusunu saxlamağa çalışır. O, həmçinin şagirdlərini bilik mübadiləsi vasitəsilə bacarıqlarını artırmağa həvəsləndirir. Müəllim ümumiyyətlə məlumat ötürməklə maraqlanır və şagirdlərin tədris zamanı yaxşı hazır olmasını təmin edir [1].

Formal səlahiyyət üsulu

Bu metod müəllim mərkəzli metoddur, burada təlimatçılar məzmunun təmin edilməsi və ona nəzarət üçün cavabdehdirlər. "Formal səlahiyyət" növü bəzi şagirdlər arasında yalnız məzmuna nəzarət və onların müəllim kimi rolu səbəbindən statusunu saxlayır. Fakültə üzvü də narahatdır və şagirdlər üçün təlim məqsədləri, imkanlar və biznes qaydalarını inkişaf etdirərək konstruktiv rəy almağa çalışır.

Rol modeli üsulu

Bu tip həm də müəllimyönümlü metoddur, burada müəllim şagirdlərin öyrənməli olduğu bacarıqları nümayiş etdirir. Bu tədris metodu şagirdin dərsə cəlb olunmasını və müxtəlif öyrənmə üslublarını daxil etmək üçün onların təqdimatını əlavə etməyi təşviq edir. Müəllim "şəxsi nümunə ilə öyrətməyə" inanır və şagirdlər üçün necə düşünmək və davranmaq barədə davranış kodeksi müəyyən edir. Müəllim nəzarət edir, həvəsləndirir və istiqamətləndirir, işlərin necə ediləcəyini nümayiş etdirir, şagirdləri yoxlamağa və sonra müəllimin yanaşmasına əməl etməyə təşviq edir.

Fasilitator üsulu

Bu, şagird mərkəzli yanaşma hesab olunur. Bu metodda müəllim fasilitator kimi çıxış edir və şagirdlər müxtəlif tapşırıqlar üçün, məqsədlərə çatmaq üçün məsuliyyət daşıyırlar. Bu metod ikitərəfli öyrənmə ilə yanaşı avtonom olmağa kömək edir. Müəllimlər adətən aktiv öyrənmə, şagirddən şagirdə əməkdaşlığa və problemlərin aradan qaldırılmasına ehtiyac duyan qrup fəaliyyətləri hazırlayırlar.

Təmsilçi üsulu

Bu, həm də müəllimin nəzarəti və öyrənmə öhdəliyini şagirdə ötürdüyü şagird mərkəzli bir üslubdur. Müəllim şagirdlərin öz-özünə işləmək bacarığını artırmaqla məşğuldur. Bu yolla şagirdlər planlar üzrə və ya müstəqil komandaların bir hissəsi kimi avtonom şəkildə hərəkət edirlər.

Beləliklə, konkretlik və fərqliliyə görə, Qraşanın tədris üsulları ingilis dili müəllimləri arasında tədris üsuluna görə fərqləndirmək üçün üstünlük təşkil edir. Yuxarıda qeyd olunan üsullar fəlsəfi dəyərinə görə mübahisə edilə bilər, lakin onların mücərrədliyi ölçülə bilənlik baxımından onları çətinləşdirir. Bunun əksinə olaraq, Qaraşın modeli tədrisdə ölçülə bilən xüsusiyyətlər baxımından təsvir edilən beş tədris üsulu təklif edir ki, bu da tədris üsulları haqqında nəticə çıxarmağa gətirib çıxarır. Təsvir edilən üsullar həm də empirik olaraq ölçülə bilən ağlabatan fərqlidir [5].

Motivasiya mürəkkəb psixosomatik prosedurdur. Bu, ümumiyyətlə bir tələblə başlayır və insanlara məqsədlərinə çatmaqda kömək edən münasibətə istiqamət verir. Bu, həmçinin fərdin həyəcanını, hazırlığını və hər şeyi etmək və öyrənməkdən həzz almasını inkişaf etdirən ruhlandırıcı qeyri-intellektual məsələ olaraq ölçülür və ingilis dilini öyrənmək də istisna deyil. Bu mürəkkəbliyi anlamaq və nəhayət şagird motivasiyası məsələsini həyata keçirmək üçün müxtəlif üsullar qiymətləndirilir, çünki onlar müəllimlərə şagirdlərin münasibətini qabaqcadan görməyə və onlara müsbət təsir göstərməyə kömək edə bilər.

Nəticə etibarı ilə, şagirdlərin dil öyrənmək motivasiyası, xüsusən də ikinci dilin mənimsənilməsi sahəsində Mufta və Galea araşdırmışdır [2]. Gender, ikinci və ya xarici dil əldə etməkdə şagirdin motivasiyasına təsir edən əsas dəyişənlərdən biri hesab olunur. İngilis dilinin öyrənilməsində tədqiqatçılar öyrənənlərin motivasiyasında və ikinci dilə münasibətdə gender

fərqlərinin olduğunu göstərən bəzi faktlar qeyd etmişlər. Gender fərqlərinin şagird motivasiyasına təsiri ilə bağlı aparılan tədqiqatların əksəriyyəti qadınların ingilis dilini öyrənməyə kişilərə nisbətən daha həvəsli olduğunu göstərir.

Müəllimlərin tədris üsulunun şagird motivasiyasına göstərdiyi təsir müəllimlər arasında aydın anlaşmanın şagirdləri həvəsləndirmək üçün faydalı ola biləcəyini göstərir. Müəllimə şüurlu şəkildə birdən çox tədris üsulunda təcrübə və şagirdlərin təbiətini nəzərə alaraq tədris üsulunu dəyişdirmək bacarığı verilməlidir.

Müəllimlərin şagirdləri həvəsləndirmək səyləri aşağıdakı strategiyalardan təhlil edilmişdir:

1) əsas motivasiya şəraitinin yaradılması;
2) ilkin motivasiyanın yaradılması;
3) motivasiyanın saxlanması və qorunması;
4) müsbət retrospektiv özünü təşviq etmək − qiymətləndirmə [3].

Nəticə. Nəticələr göstərdi ki, müəllimlər şagirdlər üçün əsas motivasiya mənbələri arasındadır. Tədrisdə vasitəçi kimi müəllimin səyləri şagirdlərin təhsilləri və gələcəkləri üçün ingilis dilinin əhəmiyyəti haqqında düşüncələrini açır. Müəllimlərin şagirdləri həvəsləndirmək səyləri müsbət retrospektiv özünüqiymətləndirmənin təşviqi konstruksiyasına aiddir.

Düzgün qiymətləndirmə ingilis dilində uğur qazanan şagirdlər üçün çox vacib bir motivasiya mənbəyi ola bilər. Mənalı və maraqlı fəaliyyətlər və tədris materiallarının dəstəyi vasitəsilə müəllimlər şagirdlərin ingilis dilini öyrənməyə marağını artıra biləcək. Buna görə də, gələcək tədqiqat daha böyük məlumat toplusunu toplamaq üçün daha böyük nümunəni əhatə etməlidir; daha böyük bir iştirakçı qrupu ilə aparılan araşdırma, motivasiya anlayışımıza daha dəqiq məlumat verəcək.

Elmi yeniliyi. İngilis dilinin tədrisi prosesində şagirdlərdə motivasiyasiyasının yaradılması üsulları tədris prosesində problemli situasiyaların yaradılmasında və bu zaman problemin həlli yollarının aşkara çıxarılmasında vacib hesab olunur. Bu səbəbdən ingilis dilinin tədrisi prosesində şagirdlərdə motivasiyasiyanın yaradılması vacib əhəmiyyətə malikdir.

Nəzəri əhəmiyyəti. İngilis dilinin tədrisində şagirdlərdə motivasiyasiyanın yaradılması zamanı elmi-metodik xüsusiyyətlərinin tədqiqi əldə olunan nəticələrin ingilis dilini tədris edənlərə önəmli olan digər yeni üsullar təklif edə bilər.

Praktik əhəmiyyəti. Tədqiqat işində əldə olunan nəticələrin ingilis dilinin tədrisində və bu kimi mövzu üzrə seminarlarda istifadə edilə bilər.

Ədəbiyyat

1. Atkinson, J. W., & Birch, D. An introduction to motivation (2nd ed.). New York: Van Nostrand. Attribution theory: 18th Oct, − 2013.
2. Bennett, N., Jordan, J., Long, G. & Wade, B., Teaching styles and pupil progress. London: Open Books Publishing Limited, − 2004.
3. Bernaus, M., & Gardner, R.C. Teacher motivation strategies, student perceptions, student motivation, and English achievement. The Modern Language Journal, 92(3), − 2008.
4. Bindra, D., & Stewart, J. Motivation (2nd ed.). Harmondsworth, Middlesex, England. Penguin Education, − 2006.
5. Bolles, R. C. Theory of motivation (2nd ed.). New York: Harper & Row, − 2003.

G.N.Heybatov

Methods of Creating Motivation in Students in English Language Teaching

Summary

This article discusses the importance of methods of creating motivation to make English language teaching more effective. Creating motivation in students during the teaching process helps to develop students' foreign language knowledge, skills and habits. The article talks about the methods and advantages of creating motivation in students in the process of teaching English.

Key words: *English language, motivation, teaching methods*

Г.Н.Гейбатов

Методы создания мотивации у студентов при преподавании английского языка

Резюме

В этой статье рассматривается важность методов создания мотивации для повышения эффективности обучения английскому языку. Создание мотивации у студентов в процессе обучения помогает развивать у студентов знания, навыки и привычки в области иностранного языка. В статье говорится о методах и преимуществах создания мотивации у студентов в процессе обучения английскому языку.

Ключевые слова: *английский язык, мотивация, методы обучения*

Rəyçi: prof. Ç.M.Qaraşarlı

Redaksiyaya daxil: 30.05.2024

H.Q.KƏRİMOVA
e-mail: huru-kerimova@mail.ru

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

:10.62021/0026-0028.2024.2.213

AİLƏLƏRDƏ APARILAN MÜASİR TƏRBİYƏVİ İŞLƏRİN BƏZİ XÜSUSİYYƏTLƏRİ

Xülasə. *Məqalədə ailənin milli tərbiyədə rolu araşdırılmış, ata və ananın, ailənin digər üzvlərinin müasir tərbiyə prosesində roluna bir daha aydınlıq, həmçinin yeni qaydalar gətirilir. Bu yeni qaydaların gətirilməsi azərbaycanlı uşaqlarda milli qürur və ləyaqət, birlik və Vətən təəssübkeşliyi hisslərini gücləndirir. Məqalə hər bir gənc ailəyə, hər bir pedaqoqa lazımdır. Gətirilmiş nümunələr böyük tərbiyəvi mahiyyət kəsb edir.*

Açar sözlər: *sosial tərbiyə, ailə tərbiyəsi, ata nüfuzu, tərbiyə sistemi, uşaq psixologiyası*

Övladları üçün yaşayıb-yanan, cəfa çəkən, onun böyüməsinə, xoşbəxt yaşamasına ömrünü gilə-gilə əridən valideyn cütündə ata aparıcıdır. Ata xisləti, ata zabitəsi, ata məhəbbəti uşağın inkişafında və tərbiyəsində əvəzsizdir. Uşağın güvənc yeridir, ata! Onun ürəkli, cəsur, qorxmaz böyüməsinin səbəbkarıdır ata! Ata ailəsinin, övladlarının, bütövlükdə evinin qurucusudur; Ata ailənin qeyrət, ar, namus keşikçisidir! O, ata qüdrəti ilə balalarının gələcəyinin azad, xoşbəxt, bəxtəvər yaşayışının bələdçisidir!

Azərbaycanlı ata, ilk növbədə, oğluna kişilik, bütövlük, namusluluq, Vətən təssübkeşliyi, milli ləyaqət aşılamalıdır. Azərbaycanlı oğlu cəsur, mərd olmalı, anasının, bacısının namusunu qorumalı, Vətənin mübariz əsgəri kimi yadellilərdən qəhrəmanlıqla müdafiə etməlidir.

Ata övladlarının təlim-tərbiyəsinin zəhmətini ana ilə müştərək çəkməlidir.

Süleyman padşahın yanına iki qadın gəlir və xahiş edirlər ki, onların şərini kəssin. Onlar südəmər bir uşağın üstündə mübahisə edirlər. Hər ikisi uşağın əsl anası kimi çıxış edirlər. Süleyman padşah bir az fikirləşib deyir ki, uşağı iki yerə şaqqalayıb, hərəsinə bir şaqqa versinlər. Qadınlardan biri buna razılaşır, ikincisi isə ağlayıb yalvararaq deyir ki, uşağa toxunmayın, qoyun uşaq o biri qadına qalsın. Süleyman padşah əmr edir ki, uşağı ikinci qadına versinlər, onun əsl anası odur.

Əsl ananın "şaqqalamayın!" – deyə haray qoparması, gözyaşı tökməsi – onun analığından gələn yalvarışdır. Ana istəməz ki, övladının ayağına tikan bata, daş dəyə. Ana özü ac qalar, susuzluğa dözər, yuxusuz keçinər, ancaq son tikəsini, axırıncı damla su payını övladına verər. O, övladı üçün bütün əzablara hazırdır, təki övladı sağlam və xoşbəxt yaşasın. Məhz bu səbəbdən M.Şəhriyar deyirdi ki, həyatda yaxşılıq bacarmayanlar ana məhəbbətindən məhrum olanlardır. Tərbiyədə ananın rolu atalar sözündə çox sərrast ifadə olunubdur: "Ağıl ana südü ilə verilməyibsə, özgəsindən gözləmə". Ərəblər isə çoxdan deyirlər ki, üç şey adamın gözünü işıqlandırır: yaxşı arvad, ağıllı oğul, mehriban qardaş. Unutmayaq ki, yaxşı oğulu və onun qardaşını da dünyaya gətirən, tərbiyə edən anadır.

Ağrıyanda, əzab çəkəndə, tənhalıq duyğusu bizi bürüyəndə harayımıza sövq-təbii olaraq ilk əvvəl anamızı çağırırıq: "Ay, ay ana!", "Haradasan ana?!", "Sənə qurban olum, köməyimə çat ana!" Əgər anamız yaşayırsa, elə həmin an başımızın üstünü kəsir, ağlayır, gözyaşı tökür, insanları övladı üçün köməyə çağırır. Özünün şirin dili, əlinin hərarəti, gözünün qorası ilə balasına şəfa verir. O, övladı bir balaca toxtayınca, özünə gəlincəyə kimi çörək yemir, su içmir. Elə hey əllərini göylərə qaldırıb, uca tanrıdan balasına şəfa diləyir. Elə ki, balası bir azca şəfa

tapır, ana özünü dünyanın xoşbəxti sanır, şadlanır, sevinir, çöhrəsinə dirilik rəngi gəlir. Bütün bunların müqabilində övladın borcu belə analara qurban olmaqdır, onları əzizləmək, yaşatmaq, yaxşı əməlləri ilə ana ömrünü uzatmaqdır.

Çoxumuzun anamız belə olub. Bizi dünyaya gətirəndən əbədiyyəta köçüncəyə qədər özlərini övladlarına fəda ediblər. Bizi oxşayıb, sevir, ayaqüstə qaldırıb, məktəbə göndərib, yedirib, içirib, geyindirib... yaşadıblar bizi ömürlərindən kəsə-kəsə! Yaşadıblar bizi, ac-susuz qala-qala! Yaşadıblar bizi, yuxusuz gecələri kipriklərinə götürə-götürə!

Bütün bu əzablarına baxmayaraq, onların analıq hisslərindən, duyğularından hədsiz istifadə edənlər də olub: ana evdə və istehsalatda işlədikdən sonra, övladlarının ev tapşırıqlarının icrasına kömək göstərib, məktəbə valideyn iclaslarına gedib, onlar üçün bazarlıq edib, paltarlarını yuyub, yeməklərini hazırlayıb... Qadın işi də, kişi işi də görüb onlar.

Qadının evinə, ərinə, övladına münasibətinə görə onları öyrənib qiymətləndirən şəxslər çox olmuşdur. Onlardan biri Əli ibn Sinadır. O, qadınların üç mühüm əxlaqi keyfiyyətə sahib olmalarını zəruri hesab edirdi: a) ağıllı olmalarını; 2) həyalı olmalarını; 3) fərasətli və dərrakəli olmalarını.

N.Tusi isə bununla əlaqədar deyirdi: "Yaxşı qadın ana, dost və kənizə oxşar;

Ləqayətli qadını anaya ona görə oxşatmışlar ki, ərinin yanında olmasını istər, səfərə gedəndə darıxar, onun arzu və istəklərini yerinə yetirməklə əzab və əziyyətə dözər, ana da övladı üçün belə edər.

Dosta ona görə oxşatmışlar ki, əri nə versə razı qalar, vermədiyini üzürlü sayar, malını ondan əsirgəməz, heç yerdə onun əleyhinə çıxmaz.

Kənizə ona görə oxşatmışlar ki, qayğı göstərməkdə, qulluq etməkdə əlindən gələni əsirgəməz, ərinin danlağına dözər, eyblərini örtər, tərifləyər, çörəyini itirməz, ərinin xoşuna gəlməyən işləri görməz...".

Yazıya hələ köçürülməmiş qədim bir nağılımızda qadınlar evinə, ailəsinə diqqətinə görə üç qrupa bölünürlər:

Birinci qrup qadınlar – "horulu-hop" adlanırlar. Onlar ailənin gəlirini məsrəfsiz xərcləyir, normadan artıq və müxtəlif növ yeməklər bişirib yeyər, qənaətlə araları olmaz;

İkinci qrup qadınlar – "cırılı-cırp" adlanırlar. Belələri daha çox dəbdəbə ilə geyinməyə can atırlar. Onlar hər dəfə təzə paltar həvəsi ilə çoxlu parça alar, cırar, biçər, tikər. Nəticədə də ya bəyənərlər, ya da bəyənməyərlər?!

Üçüncü qrup qadınlar – "qırı-qırp" adlanır və əsl evdar qadın hesab olunurlar. Onlar əyinlərindən, boğazlarından kəsər, qənaətlə yaşayar və bununla da ailənin dolanışığını təmin edərlər.

Qadınlar haqqında aşağıdakı deyim isə "Kitabi-Dədə Qorqud"dandır: Ozan deyir: "Arvadlar dörd cürdür: birisi soysoldurandır; birisi toydoldurandır; birisi evin dayağıdır; birisi necə deyəsən, boyandır".

Qadınlarla bağlı indi deyəcəyimiz fikirləri isə Ömər İbn Əl-Xəttab demişdir: "Qadınlar üç cür olurlar: birincisi Allaha sitayiş eləyən, allahdan qorxan, ərini sevən, doğub törəyən, ərinin yaxşı günündə də, pis günündə də ona həmdəm olan qadın; ikincisi yalnız uşaqlarının qeydinə qalan, üçüncüsü, tövqi lənət olub ərinin boğazına keçən. Kişilər də üç cür olur: birincisi öz ağlı ilə iş görən, fərasətli kişilərdir; ikincisi, daha fərasətli kişilərdir ki, başına bir iş gələndə ağıllı adamlarla məsləhətləşirlər, onların dediyi kimi eyləyirlər; üçüncüsü, qətiyyətsiz düz yoldan bixəbər, məsləhətçi sözünə qulaq asmayan kişilərdir".

Deyilənlərdən aydın olur ki, uşaqların tərbiyəsində daha çox ağırlıq ata-ananın çiyninə düşür. Onların işgüzar, əlbir, ardıcıl zəhmətləri sayəsində övladları ürəklərincə, istəklərincə böyüyür, cəmiyyətdə özlərinə tərbiyələri müqabilində yer tuturlar. Fikrimizi çoxlu sayda müdriklərin dedikləri kəlamlar da təsdiq edir. Ərəb atalar sözündə deyilir: "Ata-ana şöhrətinin şöləsi uşaqların da üzərinə düşür". Aşağıdakı fikirlər isə V.A.Suxomlinskinindir: "Uşaq valideynlərin əxlaqi həyatının güzgüsüdür". "...günəş bir damla suda əks olunduru kimi, ana və atanın əxlaqi saflığı da uşaqda əks olunur" [2, s. 122]. Psixoloq-alim Ramiz Əliyev isə ata-

ananın zəhmətinin müqabilində övladlardan hörmət tələb edir: "Övlad üçün dünyada valideyndən əziz, valideyndən mehriban heç kəs yoxdur. Valideynlərinin qədrini bilməyən, onu sevməyən, övlad Vətənin də qədrini bilməz, xalqını da sevə bilməz" [7, s. 65]. Bu fikirlər isə "Kəlilə və Dimnə"dəndir: "Ana və ataya görə hörmət etmək lazımdır ki, hər ikisi sənlə yaradan arasında vasitədir" [6, s. 221].

Məhəmməd peyğəmbər deyirdi: "Kiçiyinizin halına acımayan, böyüyümüzün haqqını bilməyən bizdən deyil". M.Şəhriyar yazırdı: "Ey inkişafda olan bəxtiyar gənc! Təcrübəli qocadan gələcək yolunu öyrən". M.Əhvədi isə yazırdı: "Qocalığa cavanlıqdan hazırlıq aparmaq lazımdır". Bu hazırlığın bir yolu da şübhəsiz ki, qocalarla bir yerdə yaşayıb, onların nümunəsini əxz etməkdir. Bu fikir baxımından, Adigey atalar sözündə deyilir: "Yaxşı qoca olmayan yerdə yaxşı cavan da olmaz". Madaqasqarlılar isə bunu daha sərras deyiblər: "Qocalar arasındakı uşaq aqil olar".

Bir çox ailələrdə baba, nənə, ata, ana ilə birlikdə daha bir neçə yaxın adamlar – böyük bacı, qardaşlar, hələ ailə həyatı qurmamış əmilər və bibilər... vardır. Bir halda ki, onlar kiçik yaşlı uşaqlarla birlikdə yaşayır, deməli, həmin uşaqların tərbiyəsində onların da müəyyən təsirləri vardır. Onlar gün ərzində azı bir neçə saat uşaqla birlikdə olur, eyni süfrədə nahar edir, televiziyaya baxır, onların bağçaya, məktəbə aparılıb-gətirilməsində, bütün bu kimi qarşılıqlı münasibətdə, kiçiklərin tərbiyəsində iştirak etmiş olurlar [8, s. 72]. Buna görə də, münasibətlərində, rəftarlarında, oyun və nahar vaxtında mümkün qədər ədəb-ərkana, mədəni davranış qaydalarına əməl etməklə verilmiş tələbin vahidliyinin gözləməklə, doğruçuluq və düzlükləri ilə onlara örnək olmalıdırlar. Belə olarsa, ailə üzvləri onların əhatəsində böyüyən kiçiklərin tərbiyəsinə kömək göstərmiş olarlar.

İşin elmi nəticəsi. Ailədə uşaqların milli ruhda tərbiyəsi işinin səmərəli təşkili ata və ananın birgə düşünülmüş fəaliyyətinin nəticəsindən asılıdır. Müasir ailələrdə atanın və ananın rolu və fəaliyyəti milli adət və ənənələr üzərində kökləndikdə ailədə uşaqların milli tərbiyəsinə daha asan və keyfiyyətlə nail olmaq mümkündür.

İşin elmi yeniliyi. Tədqiqatda ailə şəraitində uşaq və yeniyetmələrin milli ruhda tərbiyə olunması işinin xüsusiyyətləri müəyyənləşdirilmiş, bu işin yolları və vasitələri üzə çıxarılaraq əsaslandırılmışdır.

İşin tətbiqi əhəmiyyəti. Tədqiqatın gedişindən, onun məzmunundan, alınan nəticə və təkliflərindən bütün ailələr, xüsusən də gənc ailələr daha çox faydalana bilərlər.

Ədəbiyyat

1. Abbasov, A.N. Ailə pedaqogikası / A.N.Abbasov, – Bakı: Mütərcim, − 2022. – 217 s.
2. Abbasov, A.N. Pedaqogika: Müntəxabat. Ali təhsil müəssisələri üçün dərs vəsaiti / A.N.Abbasov. – Bakı: Mütərcim, − 2021. – 608 s.
3. Abbasov, A.N. Milli əxlaq və ailə etikası / A.N.Abbasov, − Bakı: Mürtəcim, − 2018.
4. Bünyadov, T.Ə. Əsrlərdən gələn səslər / T.Ə.Bünyadov, − Bakı: Azərnəşr, − 1993.
5. Hüsenzadə, R.L. Ailə pedaqogikası / R.L.Hüsenzadə, – Bakı: ADPU, − 2017. – 197s.
6. Kazımov, N.M. Məktəb pedaqogikası / N.M.Kazımov, – Bakı: OKA Ofset, − 2016. – 531 s.
2. Əliyev, R.İ. Mentalitet / R.İ.Əliyev, –Bakı: ADPU, − 2014. – 126 s.
3. Əliyev, R.İ. Şəxsiyyət psixologiyası / R.İ.Əliyev, − Bakı: Nurlan, − 2010. – 130 s.

H.Q.Kerimova

The Role of Family in National Education

Summary

In article is investigated the role of family in national education, also analysis and showed the roles and importance of father, mother, member of family in a contemporary education process. The new feature and application of this character learned to Azerbaijani children national proudness, unity,

honor, fanaticism to motherland. Article is necessary for each young family and pedagogue. Different models, notes have a great educational importance.

Key words: *national education, family education, penetration of father, educational system, psychology of a child*

Г.Г.Керимова

Некоторые особенности современной воспитательной работы в семьях

Резюме

В статье показана роль семьи в национальном воспитании и намного глубже выяснена роль отца и матери и других членов семьи в процессе современного воспитания, а также приводятся новшества. Введение этих новшеств, прививает азербайджанским детям чувство национальной чести и достоинства, единства, пристрастия к Родине. Статья необходима каждой молодой семье и каждому педагогу. Приведенные примеры несут огромный воспитательный характер.

Ключевые слова: *социальное воспитание, семейное воспитание, влияние отца, система воспитания, детская психология*

Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev

Redaksiyaya daxil olub: 21.05.2024

V.A.LƏTİFLİ
baş müəllim
e-mail: vafalatifli@gmail.com

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 33)

:10.62021/0026-0028.2024.2.217

XARİCİ DİLİN TƏDRİSİNDƏ İNNOVATİV METODLARIN İSTİFADƏSİ

Xülasə. *Məqalə innovativ metodların təsvirinə həsr edilmişdir. İnnovativ tədris metodları və texnologiyaları bu gün getdikcə daha çox tanınır və şəxsiyyətlərarası qarşılıqlı əlaqənin qurulması ilə bağlı yeni imkanlar qazanır. Bu məqalə məqsədlərdən, yaş qruplarından və zehni inkişaf mərhələlərindən asılı olaraq fərqlənməli olan üsulların seçiminə yönəldilmişdir. Tədqiqat müasir təlim prosesinin strukturunu və onun nəticələrini təqdim edir. Bu məqalədə böyüklərin dilini və savadını öyrənənlərə tədrisin bəzi ümumi xüsusiyyətləri, habelə dil öyrəncilərinə xarici dillərin öyrədilməsi üçün dörd rəhbər prinsip göstərilir.*

Açar sözlər*: innovativ metod, layihə, aktiv öyrənmə, ənənəvi öyrənmə, yaradıcı tapşırıqlar*

Dillər həyatımızda çox mühüm rol oynayır. Onlar bizə duyğularımızı ifadə etməyə kömək edir. Bizə kömək edirlər ki, nə istədiyimizi izah edə bilək. Onlar bizə ünsiyyət qurmağa kömək edir və buna görə də dillər kim olduğumuzu ifadə etmək üçün əsas vasitələrdir. Belə ki, dil biliyi və ondan düzgün istifadə edilməsi bizi müəyyən etməsi üçün çox vacibdir. Dillər olmasaydı, canlı ünsiyyətimiz olmaz, heyvanların tərzi ilə heç bir fərqimiz olmazdı. Zamanın nəbzini tutmaq, müasir dövrlə ayaqlaşmaq üçün ingilis dilini öyrənmək zəruri əhəmiyyət kəsb edir. Başqa dillərdə danışan insanlar arasında o, ortaq ünsiyyət vasitəsi kimi ilk "beynəlxalq ortaq dil" statusunu qazanıb. İngilis dili dünyanın ən çox danışılan və eyni zamanda öyrənilən dilidir. Hazırda dünya üzərində internet resurslarının və çap olunan kitabların 80%-dən çoxu ingilis dilində olduğuna görə bu dili öyrənmək zərurəti yaranır. Ümummilli lider Heydər Əliyev dilimizi yüksək qiymətləndirərək çıxışlarında qeyd etdiyi kimi, hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. Dahi rəhbərin fikrincə, hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur. Heydər Əliyev öz ana dilini bilməyənləri şikəst adamlar adlandırırdı. Şübhəsiz, ana dili bizim varlığımızı, kimliyimizi, şəxsiyyətimizi sübut edən əsas "pasport"dur. Buna baxmayaraq, hazırda dünyaya inteqrasiya etmək, mədəniyyətlərarası əlaqələr və fərqli dünyagörüşləri tuta bilmək, üfüqü genişləndirmək üçün bir və ya bir neçə xarici dili bilmək bacarığı zamanın tələbinə uyğun prioritet məsələlərdəndir. Afinalı filosof Sokratın da məşhur aforizminə istinad etsək, "neçə dil bilirsənsə, o qədər adamsan" [2, s. 77].

Beləliklə, dillərin öyrədilməsi yolları insanın həyatında çox mühüm rol oynayır. İngilis dili bu dünyanın rəsmi və beynəlmiləl dili olduğundan bu dilin öyrədilməsi çox vacibdir. Çünki tək bizim ölkəmizdə deyil, dünyanın hər bir yerində bu dili öyrənməyə böyük tələbat var. İldən ilə dil öyrəncilərinin sayı artmaqdadır. Demək olar ki kiçikdən böyüyə bu dil hamının maraq dairəsindədir. Böyük tələbat, zəruriyyət yarandığından xarici dili tədris edən dilçilərdə öz tədris proqramlarını yeniləşdirməyə, daha çox əhəmiyyət kəsb edən üsul və vasitələrdən istifadə etməyə yönəlirlər. Sözsüz ki, burada əsas məqsəd dil öyrəncilərinin geniş əhatəsini dil bacarıqları ilə mükəmməl təmin etməkdir. Əvəzində innovativ tədris yeni tədris istiqamətləri hər hansı bir auditoriyaya daxil olunması prosesidir. Bu baxımdan məqsəd düzgün öyrənməni, akademik nəticələri yaxşılaşdırmaqdır [1, s. 52].

İnnovativ üsul və metodlar bizə tədrisdə necə yaxşı təsir qoya bilər və ya necə kömək edə bilər? Bu kimi sualları təhlil və tədqiq edərkən bizə aydın olur ki,bu metodlar bizi təkmilləşdirməyə xidmət edir. İnkişaf etmək bacarığını böyüdür və genişləndirir. Bu daima müəllimlərin öz tələbələrindən gözlədikləri və tələb etdikləridir. İnnovativ tədris böyümə düşüncəsi ilə başlayır. Tələbəyə nəyi isə öyrətməyə çalışarkən yeni istiqamət daha maraqlı bir vasitələr göstərməyə çalışır. Ola bilər ilk dəfədə biz uğurlu olmayaq. Amma yenə də cəhd edərək təkrarən növbəti dəfə edərik. Bir növ tələbəni eyni üsulları etməyə ruhlandırmış oluruq. Onlarda yaradıcı düşüncəni artırırıq. Əgər biz innovativ metodların tətbiqində öyrənənlərin fəallığını göz önündə tutsak, qazanma ehtimalının daha çox olmasının şahidi oluruq [5, s.165]. Fəal çalışan tələbənin sözsüz dərsdən yayınma ehtimalı az olur. Bu da birbaşa qazanmanın daha çox olmasına zəmin yaradır.

Bu tipli yaranan sualları cavablandırmaq üçün tədrisin innovativ tərəflərini təhlil edək; çevrilmiş metoda əsasən tələbə evdə mühazirə matrialını nəzərdən keçirir, sinifdə layihələr və tapşırıqlar üzərində işləyir [6]. Tələbələr qrup layihələrinini, debatları və təcrübələri bitirmək üçün bir-birlərini cəlb edirlər. Fərdiləşdirilmiş öyrənmə metoduna əsasən tələbəyə nəyi nə vaxt öyrətdiyimiz uyğun olmasıdır. Bu vasitə ilə müəllim uğur qazanmalarına görə bütün ortama deyil, hər bir tələbənin güclü tərəfinə uyğunlaşaraq istiqamət verir. Fərdiləşdirilmiş öyrənmə fərdi şəkildə tələbələr üçün təlim təcrübəsi və metodları təqdim edir. Son hədəf, məqsəd isə eynidir dili yaxşı mənimsəmək, onları verilmiş müəyyən standartlara uyğun yetişdirməkdir [7]. Növbəti effektiv metod layihə əsaslı öyrənmədir. Layihə əsaslı öyrənmə adlı innovativ metod əsasən tədqiqat, tənqidi düşünmə, problem həlletmə kimi bacarıqların inkişafına əsalanır. Layihə əsaslı öyrənmə tələbəyə öz bildiklərini əzbərləmək deyil, öz bildiyini tətbiq edərək mənimsəməni aktiv edən üsuldur. Belə bir əhatədə müəllim sanki bir bələdçi rolunda çıxış edir, tələbə də bütün mənimsədiklərinə sahib çıxmış olur [3, s. 82]. Sorğuya əsaslanan metod isə düşünmə və çətinliyi dəfetmə, həll etmə bacarığın inkişaf etdirir. Burada auditoriyada baş verənlər mühazirə tipli deyil, müəllim tərəfindən yaradılan suallar, problemlər yaradır və tələbələr verilən tapşırıqları qrup və ya fərdi şəkildə hazırlayırlar. Bu metodla tələbələr daha çox dərs mühitinə cəlb olunur, əldə etdikləri tapıntıları bir-birləri ilə bölüşürlər. Eyni zamanda sərbəst işləmə istiqamətini özlərində inkişaf etdirmiş olurlar. Aktiv öyrənmə innovativ öyrənmə metodların əsasında durur. Fəal təlim metodları tələbəni müzakirə etməyə, iştirak etməyə, yaradıcı olmağa sövq edir. Bu metod vasitəsi ilə tələbənin uğur qazanma imkanı daha genişdir [6]. Əlaqəli öyrənmə metodu da innovativ vasitələr sırasında yer alır. Bu baxımdan geribildirim mühüm yer tutur. Tələbə konstruktiv rəy təkif etməyi, eləcə də rəyi qəbul etməyi öyrənməlidir. Sorğu və emojilər kimi əks əlaqə bildirimləri sürətli geribildirim üçün çox əhəmiyyətli və vacibdir [7]. İnnovativ üsullar və texnologiyalar innovativ tendensiyanı təmsil edir. Daxili və qlobal tendensiyalara əsaslanan təhsil, ən yaxşı təcrübələr və ənənələri təqdim edir. Bir çoxlarının tərifləri uyğun olaraq lüğətlərdə "innovasiya", keyfiyyət artımını təmin edən, tələb olunan proseslər və ya məhsulların səmərəliliyini artıran bir vasitə kimi izah olunur. İnnovasiya yeniliklərin son nəticəsidir insanın intellektual fəaliyyəti, onun təxəyyülü, yaradıcı proseslər, kəşflər, ixtira yeniliklərinin son səmərəli nəticələridir. Bu gün "innovasiya" anlayışı geniş şəkildə belə şərh olunur. Dünyada innovasiyalar potensial elmi ideyalar arasında və texnoloji tərəqqi və onların reallığı yeni məhsullar və texnologiyalar haqqında iqtisadi ədəbiyyatı dönə-dönə vurğulayır [5, s. 168]. İnnovasiya dünyada birbaşa olaraq ixtira və yeni ideya məzmunu kimi əhəmiyyət kəsb edir [8, s. 102]. Bəzi alimlərin fikrincə desək, innovasiyalar hər bir sahədə yeniklik gətirərək elmi və istehsal amillərinin məcmusu olaraq, eləcə də hər bir sahəyə motivasiya ruhu verir [3, s. 89].

Təhsil sahəsindəki ortaya çıxan yenilik yeni məzmun, üsullar, təhsil prosesi və təşkili formaları, qabaqcıl texniki təlim praktikada istifadə olunan alətlər və ya sosiallaşmanı təqdim edir [5]. İngilis dilini yaradıcı şəkildə öyrətmək tələbələrinizi öyrəndikləri şeyə cəlb etməyin ən yaxşı yollarından biri ola bilər və onların uzun müddətdə məlumatı saxlama ehtimalını

artıra bilər [9, s. 51]. Lakin həqiqətən də yaradıcı şəkildə öyrətmək istəyirsinizsə, bu bölmənin sonunda hansı layihələri daxil etdiyinizə deyil, nə öyrətdiyinizə və onu necə öyrətdiyinizə təsir etmiş olar. İnnovativ metod və üsulların tətbiqindən danışarkən biz interaktiv üsulun geniş tətbiqini yaddan çıxartmamalıyıq. Əlbəttə ki, bütün dərslərdə interaktiv metodun tətbiqi vacibdir. Amma dil dərslərində bu daha çox vacibdir. Xüsusilə ingilis dili dərslərində bu metodun tətbiqi vacibdir [1, s. 55]. İlk öncə dil dərsləri müzakirəli şəkildə olmalıdır. Həm də təkcə müəllim deyil, tələbələr də öz aralarında müzakirələr aparmalıdır. Kompüter sahəsindən istifadə olunmalı, müxtəlif qısametrajlı filmlərə baxılmalı, musiqilər dinlənilməli, praktik olaraq işlər görülməlidir. İndiki gənc öyrəncilərin əsas tələbatı interaktiv metoddur. Ona görə bütünlüklə tədris interaktiv metoda üstünlük versə daha yaxşı nəticələr əldə etmək mükündür. Çünki bu metod artıq sınaqdan çıxmış bir metoddur. İnteraktiv metod da innovativ metodun aparıcı istiqamətlərindən biridir. Bu metod dil öyrənənləri passiv iştirakçı olmaqdan azad edir və onlar qarşıya qoyulmuş məqsədə daha sürətlə çatır.

Nəticə olaraq təqdim edilən innovativ metodların növləri, xarici dilin tədrisində rolu, təsiri, effektiv yanaşmaları, onların üstünlükləri tam təfsilatı ilə yazılan məqalənin məzmununda öz əksini tapmışdır. Bildiyimiz kimi innovasiya – yenilikdir. Nə qədər ki, yeniliklər edirik bir o qədər böyüyürük, inkişaf edirik. İnnovativ metodlardan istifadə strategiyası hətta müasir təhsildə bir çox problemlərin həll yolu kimi çıxış edə bilir.

Ədəbiyyat

1. Ağayev, Ə. Pedaqogika / Ə.Ağayev, Y.Talıbov, A.Eminov, İ.İsayev. − Bakı, − 2006, − 49-56 s.
2. Kərimov, Y. Pedaqoji tədqiqat metodları / Y.Kərimov. − Bakı, − 2009. − 75-87 s.
3. Xəlilov, B. Müasir Azərbaycan dilinin leksikologiyası / B.Xəlilov, − Bakı, − 2008, − 78-111 s.
4. https// www.british counsil.org/voices-magazine/ten- trends-innovations-english teaching − 2018.
5. Makoeeva, V.V.Network interaction a key development factor of education. − Tomsk State University Journal. − 2012, − pp. 160-169.
6. https//www.globaltalentbridge.org/toolkit// 2015.
7. hittps//www.corp.kaltura.com.
8. Kustov, Y.A. Succession of teaching in professional and high schools / Y.A.Kustov, − Sverdlovsk, − 1990, − pp. 92- 110.
9. Robert, M. Fano. Transmission of information; a statistical theory of communications. − NewYork: MITPress, − 1961. − p.48-59

V.A.Latifli

The Role of Innovative Methods in Teaching Foreign Languge

Summary

The article is devoted to description of innovative methods. Innovative methods and technologies of teaching today are gaining increasing recognition and new opportunities associated with the establishment of interpersonal interaction. In this article is paid attention to choices of methods which should vary with different purposes, ages groups, and stages of mental development. A structure of modern process of teaching and its results is presented in this receaerch. Some of the common learning characteristics of adult language and literacy learners as well as four guiding principles to teaching adults foreign languages are given in the article.

Key words*: innovative method, project, active learning, traditional learning, creative tasks*

В.А.Летифли

Роль инновационных методов в обучении иностранному языку

Резюме

Статья посвящена описанию инновационных методов. Инновационные методы и технологии обучения сегодня получают все большее признание и новые возможности, связанные с нала-

живанием межличностного взаимодействия. В данной статье уделено внимание выбору методов, которые должны различаться в зависимости от целей, возрастных групп и стадий психического развития. В исследовании представлена структура современного процесса обучения и его результаты. В статье приведены некоторые общие характеристики обучения взрослых, изучающих язык и грамотность, а также четыре руководящих принципа обучения взрослых иностранным языкам.

Ключевые слова: *инновационный метод, проект, активное обучение, традиционное обучение, творческие задания*

Rəyçi: f.f.d. R.R.Mehdizadə

Redaksiyaya daxil olub: 02.05.2024

K.F.MAHMUDOVA
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
e-mail: konul-mahmudova@mail.ru

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

:https://orcid.org/0000-0001-7042-9257

:10.62021/0026-0028.2024.2.221

BİOLOGİYA FƏNNİNİN HƏYATİ ƏHƏMİYYƏTİ

Xülasə. *Məqalədə ümumtəhsil məktəblərində tədris olunan bütün fənlər, eləcə də biologiya fənninin məzmununun bilavasitə həyati bacarıq və vərdişlərin formalaşdırılmasına istiqamətləndiyi qeyd olunmaqla bioloji təhsilin şagirddə hansı bacarıqları inkişaf etdirməli olduğu sualına cavab vermək üçün biologiya fənn kurikulumuna nəzər salınmış, məktəblərdə müəllimlərin dərsləri müşahidə olunmuş, həyati bacarıqların inkişaf etdirilməsi imkanları müəyyən edilmişdir. Məqalədə eyni zamanda təhsilverənlərin problemə yanaşması araşdırılaraq bu istiqamətdə çətinliklərinə aydınlıq gətirilmişdir.*

Açar sözlər: *bilik, bacarıq, həyati bacarıqlar, şəxsiyyət, resurs*

Ümumi təhsil müəssisələrinin 2023-2024-cü tədris ili üçün tədris planına əsasən biologiya fənninin tədrisi ümumtəhsil məktəblərinin VII-XI siniflərində nəzərdə tutulur. Fənnin tədrisi XXI əsr üçün vacib olan bir sıra bacarıqların formalaşdırılması baxımından xeyli imkanlara malikdir. Belə ki, fənnin tədrisi ilə istər XXI əsr bacarıqları, istərsə də həyat əhəmiyyətli bacarıqlar adlandırılmağından asılı olmayaraq problem həlletmə, qərar qəbuletmə, müxtəlif situasiyalarda çıxış yolunu müəyyənləşdirmə, əməkdaşlıq və s. kimi bacarıqların formalaşdırılmasına nail olmaq mümkündür [1].

Müasir məktəbin ən ümdə vəzifələrindən biri biliyin bacarığa çevrilməsi istiqamətində atdığı addımlardır. Ümumtəhsil məktəblərində tədris olunan fənlərin nəzəri əhəmiyyəti qədər praktik bacarıq formalaşdırması önəmlidir [6]. Belə ki, bu fikirə biologiya fənni aspektindən yanaşaraq bir sıra məsələlərə aydınlıq gətirmək istərdim.

İlk növbədə müəllim, təbii ki, biologiya müəllimi nəzərdə tutulur, dərsi planlaşdırarkən şagirdə hansı nəzəri materialı öyrədəcəyini, bu materialı necə öyrədəcəyini, bu nəzəri materialın şagirdin həyatında rolunu, daha dəqiq ifadə etsək, həyatda harada və necə tətbiq edə biləcəyini araşdırmalıdır. Müəllim deyə bilər ki, bu haqda ümumtəhsil məktəbləri üçün hazırlanan dərslikdə və yaxud da metodik vəsaitdə heç bir istiqamət verilməyib. Doğrudur, bu problemin bir tərəfi ola bilər. Ancaq müəllim və məhz biologiya müəllimi problemə daha geniş aspektdən yanaşmalıdır, çünki biologiya həyatın məhz özüdür.

Biologiya fənninin tədrisi şagirddə hansı bacarıqlar formalaşdırmalıdır sualına cavab vermək üçün hazırda tətbiq olunan biologiya fənn proqramına nəzər salsaq, orada ilkin yardımın göstərilməsi, ətraf mühitin, biomüxtəlifliyin qorunması, canlıları, onlarda gedən bioloji prosesləri fərqləndirə bilmək, insan orqanizmində baş verə biləcək patoloji halların səbəbini araşdırmaq və s. kimi bacarıqların olduğunu görə bilərik. Və hesab edirəm ki, hazırda tətbiq olunan biologiya fənn proqramı günümüzlə səsləşən, demək olar ki, bütün problemlərin həllinə istiqamətlənmiş bacarıqların formalaşdırılması imkanınma malikdir. Bəs problem nədədir?

Problemin kökünə getmək üçün dərslik komplektlərinin təhlilinə, bir sıra müşahidələrin, sorğuların nəticələrinə, şagirdlərin, tələbələrin fikirlərinə istinad etməyi məqsədəuyğun hesab etdim. Araşdırma aşağıdakıları deməyə imkan verdi:

Problem birmənalı olaraq müəllim faktorundan qaynaqlanır. Belə ki, bir qrup müəllimlər yalnız dərsliklə kifayətlənərək əgər dərslikdə həyatla əlaqədən söz getmirsə bu məsələlərə ümumiyyətlə toxunmurlar.

Digər qrupa aid olan müəllimlər nələrsə etməyə çalışırlar, ancaq bu proses ardıcıl, sistemli olaraq həyata keçirilmədiyindən buna nail olmaları sual altındadır.

Bir qrup müəllimlər resurs azlığından şikayətlənirlər, çünki həqiqətən də metodik dəstəyə ehtiyac duyurlar.

Bir qrup müəllim müəllim üçün son dərəcə vacib hesab olunan tədqiqatçılıq bacarığına malik olmadığından uğursuz nəticə alır. Məsələn, tədqiqatçı, innovativ, yaradıcı təfəkkürə malik olan müəllim ilk növbədə özünə bir neçə sual verməlidir. Nə öyrədirəm? Niyə öyrədirəm? Bu şagirdə həyatda nə üçün lazım olacaq? Öyrətdiyimin həqiqətən də nəticəsini – tətbiq olunduğunu haradan biləcəyəm? Bu bacarığı necə-hansı meyarlarla, hansı şəraitdə qiymətləndirəcəyəm?

Əgər müəllim bu sualların hamısının, əvvəldən ən sonuncu suala qədər cavabını verə bilmirsə, o zaman həyati bacarıqdan danışmaq heç bir məna kəsb etmir.

Bir nümunə üzərində fikirlərimə daha da aydınlıq gətirmək istərdim.

Şagird VII sinifdə heyvanlar aləmi ilə yaxından tanış olur. Heyvanların müxtəlif tipləri, sinifləri, dəstələri, növlərinin quruluşunu, onlarda gedən bioloji prosesləri ətraflı öyrənir. Lakin şagirdi düşündürən başqa suallara cavab tapılmalıdır. Azərbaycanda hansı heyvan növləri hansı ərazilərdə yayılıb, bu heyvanların faydası və zərəri nədən ibarətdir, onlarla hansı şəraitdə rastlaşa bilərəm, hansı ayaq izi hansı heyvana məxsussdur, onları necə ayırım ki, təhlükədən uzaq olum, hansı heyvanın hücumuna məruz qalsam, nə edə bilərəm və s. Bir sözlə, şagirdə biologiya fənninin tədrisində əldə edilən bilik və bacarıqların insan həyatında necə tətbiq edilə biləcəyini öyrətmək vacibdir [2].

Respublikanın bir neçə ümumtəhsil məktəblərində aparılan müşahidələr aşağıdakıları deməyə əsas verir və hal-hazırda biologiya dərslərində nəzərə çarpan məqamlar bunlardır:

– Dərs prosesində hələ də mühazirələrə (monoloji dərslərə) daha çox yer verilir.

Halbuki müasir təlimdə bu qısa şəkildə verilməli, şagirdin müstəqil öyrənməsinə şərait yaradılmalı, müəllim şagirddə formalaşdırmalı olduğu bacarığa xidmət edən bir strategiya qurmalıdır.

– Bəzi hallarda müasir təlim üsullarından istifadəyə aludəçilik həddindən artıq olduğundan vaxt bölgüsü nəzərə alınmır, dərsin ən əsas hissəsi – tədqiqatın aparılmasına kifayət qədər vaxt ayrılmır, dərs prosesi tamamlanmır, nəticə alınmır.

– Biologiya fənninin şagirdlər üçün ən çox həyati əhəmiyyət kəsb edən mövzuları məsələn, insan və heyvan orqanizmində yaranan xəstəlikləri, onların əlamətləri, yaranma səbəblərinin şagirdlər tərəfindən araşdırılmasına ehtiyac olduğu halda, müəllimlərin əksəriyyəti nəzəri məlumat verməklə kifayətlənirlər. Səbəb isə araşdırmanın müəyyən bir zaman tələb etməsidir. Belə ki, araşdırma nəticəsində toplanan məlumat sonradan təqdim edilməli, emal olunmalı, şagirdlərlə müzakirə edilməlidir. Bu vaxt aldığından müəllimlər şagirdlərin araşdırma aparmalarına, təqdimat hazırlayıb təqdim etmələrinə çalışmırlar.

– Bir sıra bacarıqların (dərman bitkiləri, onların fərqləndirilməsi, qruplaşdırılması) formalaşdırılmasında ekskursiyaların təşkilinə, məktəbyanı sahədə işin aparılmasına ehtiyac vardır. Lakin müşahidələr göstərir ki, müəllimlər bu cür praktik dərslərə üstünlük verməyərək, səbəbini vaxtın çatışmazlığı, eyni zamanda, təhlükəsizlik, uşaqları bir yerə yığa bilməmək baxımından izah edirlər.

– Bitki və yaxud heyvan orqanizminin quruluşunun öyrənilməsi zamanı bəzən resurs çatışmazlığı ilə qarşılaşdıq. Bu, bəzi hallarda müəllimin dərsə laqeyd yanaşması, bəzi hallarda isə tədris müəssisəsində məktəbyanı sahənin, canlı guşənin olmaması ilə əlaqədardır.

Resurs çatışmazlığı (yaxud işlək olmaması) müəllimlərin işini çətinləşdirir və şagirdlərdə lazımi bacarıqların formalaşdırılmasına imkan vermir. Məsələn, müvəqqəti preparatların

hazırlanması üçün kifayət qədər mikroskopun olmaması, parazit qurdlar, həzm prosesinin baş verməsi və s. barədə maraqlı videoçarxların olmasına baxmayaraq, İKT vasitələrinin işlək vəziyyətdə olmaması və yaxud da internet şəbəkəsindən istifadə imkanının olmaması çətinliyə səbəb olur.

– Bəzi siniflərdə həm müəllim, həm də şagirdlər daha çox nəzəri biliklərə üstünlük verirlər. Keçirilən təcrübə dərslərinə etinasız yanaşırlar. Bu daha çox əzbərçi şagirdlərə şamil olunur. Onlar demək olar ki, heç bir təcrübəyə maraq göstərmir, nəzəriyyəyə daha çox üstünlük verirlər. Müəllimlər də bu halda məktəbin şagird şəxsiyyətinin inkişafındakı rolunu deyil, qəbul imtahanında yüksək nəticəyə nail olunmasını əsas götürərək ümumiyyətlə həyati bacarıqların formalaşdırılması istiqamətində iş aparmırlar.

– Vaxt çatışmazlığını bəhanə edən müəllimlər dərslikdəki tapşırıqlarla kifayətlənir, daha çox kollektiv iş təlim formasından istifadə edirlər. Əlavə təlim materiallarından istifadə etmir, şagirdlərin müstəqil araşdırmalarına imkan vermirlər.

– Biologiyada ayrı-ayrı canlıların müqayisəsi vacibdir. Bu şagirdlərin canlıları fərqləndirmələrinə imkan yaradır. Əfsuslar olsun ki, müşahidələr müəllimlərin bir qisminin yalnız müxtəlif canlıları tanıtmağa çalışdığını göstərir. Əslində isə şagird canlıları müqayisəli öyrənməlidir ki, onları bir-birindən fərqləndirsin. Məsələn suda-quruda yaşayan göl qurbağasını kərtənkələ ilə müqayisəli öyrənməsi onlar arasındakı fərqi asanlıqla müəyyən etməyə imkan verər.

– Şagirdlərimizin təkcə ətrafdakı canlıları tanıması deyil, daha çox onlardan təyinatı üzrə istifadə edə bilməsi həyati bacarıqdır. Lakin əfsuslar olsun ki, bir neçə məktəbdə aparılan müşahidə sonda onu deməyə əsas verir ki, müəllimlər bu məsələyə bir mənalı yanaşmırlar. Məsələyə daha çox canlı tanıdım, şagird bu canlı ilə rastlaşdıqda onu tanısın aspektindən yanaşılması tamamilə yanlışdır. Məsələn, şagird bilməlidir ki, yalançı tülküqulağı yeməli tülküqulağı göbələyinə bənzəyir, lakin fərq onların papağındadır. Buna görə də meşədə göbələk toplamaq istədikdə zəhərli və yeməli növü bir-birindən ayırmalıdır. Bu mövzunun həyati əhəmiyyəti, öyrədilmə məqsədi məhz bundan ibarətdir. Və yaxud şagird bitkilərin şərti olaraq qruplaşdırılması zamanı öyrəndiyi pomidor, kələm, xiyar kimi tərəvəz bitkilərini, qızılgül, astra kimi bəzək bitkilərini təkcə bir-birindən fərqləndirməklə kifayətlənməməli onların şitillərinin əkilməsi qaydalarını bilib onları tətbiq etməlidir. Şagirdlər torf, peyin qatılmış münbit torpaqlı dibçəkdə tərəvəz və bəzək bitkilərini əkməkdən zövq almaqla yanaşı, onlarda bitkilərin əkilməsi, onlara qulluq qaydalarına əməl olunması bacarıqlarına yiyələnmək, qidalanmaq, estetik zövq almaq üçün özünün də əmək sərf edərək əməyinin nəticəsini görməsi sonrakı siniflərdə özünün "Öyrəndim, bunu harda istifadə edə bilərəm?" kimi düşünməsinə və tədqiqatçı, həyati bacarıqları olan bir şəxsiyyət kimi formalaşmasına yol açacaqdır.

Məqalənin aktuallığı: Şagirdlərin həyati bacarıqları olan bir şəxsiyyət kimi formalaşdırılması aktual hesab edilir.

Məqalənin elmi yeniliyi: Məqalədə biologiya fənninin həyati bacarıqların formalaşdırılması baxımından imkanları, hazırda müəllimlərin bu istiqamətdə çətinlikləri göstərilir.

Məqalənin praktik əhəmiyyəti və tətbiqi: Məqalədən ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilər.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları, − 2020.
2. Seyidli, Y. Ümumi təhsil məktəblərinin 7-ci sinifləri üçün Biologiya fənni üzrə dərslik / Y.Seyidli, X.Əhmədbəyli, N.Əliyeva. − Bakı nəşr, − 2018.
3. Путюков, Ю.А. Основы педагогической технологии / Ю.А.Путюков, − М.:Просвещение, − 2001, − с.181.
4. Orucov, F.M. Biologiyanın tədrisində yeni texnologiyaların tətbiqi istiqamətləri. Metodik vəsait / F.M.Orucov. − Bakı: Mütərcim, − 2007, − 139 s.

5. Верзилин, Н.М. Общая методика преподавания биологии / Н.М.Верзилин, В.М.Корсунская. − М.: Просвещение. − 1983, − с.384.
6. Методика обучения биологии / В.С.Конюшко, С.Е.Павлюченко, С.В.Чубаро. − Мн.: Книжный дом, − 2004.
7. Dervişoğlu, S. Orta öğretim öğrencilerinin biyoloji dersine ve biyoloji konularına ilgilerinin belirlenmesi / S.Dervişoğlu, M.Yaman, H.Soran, − Hacettepe Üniversitesi Eğitim Fakültesi Dergisi, − 2004.

K.F.Makhmudova

The Vital Importance of Biology

Summary

In the article, noting that all the subjects taught in secondary schools, as well as the content of the biology subject are directly aimed at the formation of life skills and habits, the biology subject curriculum was looked at in order to answer the question of what skills biological education should develop in the student, the lessons of teachers were observed in schools, the development of life skills possibilities have been determined. At the same time, the approach of the educators to the problem was investigated in the article, and their difficulties in this direction were clarified.

Key words: *knowledge, skills, life skills, personality, resource*

К.Ф.Махмудова

Жизненно важное значение биологии

Резюме

В статье, отмечая, что все предметы, преподаваемые в средней школе, а также содержание предмета биологии непосредственно направлены на формирование жизненных навыков и привычек, рассмотрена программа предмета биологии с целью ответить на вопрос, какие навыки биологическое образование должно развивать у ученика. Проведены наблюдения за уроками учителей в школах, определены возможности развития жизненных навыков. Вместе с тем, в статье исследован подход педагогов к проблеме, выяснены их трудности в этом направлении.

Ключевые слова: *знания, умения, жизненные навыки, личность, ресурс*

Rəyçilər: b.ü.e.d., prof. R.L.Sultanov,
p.ü.f.d. İ.A.Cavadov

Redaksiyaya daxil olub: 14.05.2024

A.Ş.NAMƏTOVA
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
e-mail: a.namatova@adu.edu.az

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

:10.62021/0026-0028.2024.2.225

XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ MÜASİR METOD VƏ TEXNOLOGİYALAR

Xülasə. *Azərbaycanın müstəqil respublika kimi dünya dövlətləri sırasına qoşulması aparıcı dillərin, ilk növbədə, müasir dünyada qlobal ünsiyyət vasitəsi statusunu əldə etmiş, xüsusi əhəmiyyətə malik olan ingilis dilinin öyrənilməsini və kommunikativ məqsədlərlə istifadə olunmasını zəruri şəkildə ön plana çəkir. Pedaqogikada müəllimlərin praktik təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsi əsasında, tədris prosesinin həyata keçirilməsi üçün özəl şərtlər və şərtlərin müxtəlif kombinasiyalarına görə tədris metodlarının seçilməsinə dair müxtəlif yanaşmalar inkişaf etmişdir.*

Açar sözlər: *tədris, xarici dil, metodika, nitq fəaliyyəti, müasir texnologiyalar*

Giriş. Bildiyimiz kimi, ənənəvi tədris metodları var. Müasir tədris metodları da fərqlənir. Ənənəvi texnologiyalar izahlı və illüstrativ tədris metodu üzərində qurulmuşdur. Müəllim şagirdlərə yeni material təqdim edir və müşayiət olunan material müəllimin monoloqu şəklindədir. Şagirdlər müəllimin tapşırıqlarını dinləyir və yerinə yetirirlər və sonra material əzbərlənir. Bu texnologiyanın mənfi tərəfi tələbələrin ünsiyyət bacarıqlarının aşağı səviyyədə olması, ətraflı cavabları və öz baxışlarının olmamasıdır.

Müəllim, müəyyən şərtlər və tələblər kompleksini əsaslandıraraq, şifahi, vizual və ya praktik metodların, reproduktiv və ya araşdırma metodlarının, işin müstəqil idarə edilməsi, nəzarət və özünü idarə etmə metodlarının seçilməsi barədə bir sıra qərarlar qəbul edir. Çox sayda yanaşma, təlim üsulların klassifikasiyası tədqiqat obyektinin çətinliyi həmçinin cəmiyyətin modern məktəbə verdiyi vəzifələr ciddi bir şəkildə izah edilir. Məktəb üçün yeni tələblər işığında elm adamları həmçinin metodistlər sözügedən tələblərin çözümünə ən effektiv töhfə verəcək bu cür təlim üsulları axtarışındadırlar. Ənənəvi və müasir tədris texnologiyaları arasındakı fərqlərin nə olduğunu gəlin anlamağa çalışaq.

Ənənəvi tədris texnologiyalarında müəllim tədris texnologiyasının mərkəzindədir. Müəllimin rolu nədir? Öyrənməyi öyrətmək. Öyrənmə fəaliyyəti əməkdaşlığa əsaslanır. Şagirdlər öyrənmədə fəal rol oynayırlar. Tələbələrin kommunikativ səriştəsinin və öyrənmə qabiliyyətinin inkişafı texnologiyanın mahiyyətidir.

İnformasiya texnologiyaları. Müasir texnologiyaya hansı texnologiyalar aiddir? İnformasiya Texnologiyaları, bir qayda olaraq, audio video, video texnologiyası, kompüter və interaktiv lövhələr kimi texniki təlim vasitələrindən istifadə edən texnologiyaları əhatə edir.

Bu dövrdə universal kompüterləşmə dövrü, informasiya texnologiyalarından danışarkən, kompüter və internet mənbələri haqqında danışmaq lazımdır. Kompüter və internet resurslarından istifadə dilin əsas aspektlərini (lüğət, qrammatika, fonetika, nitq fəaliyyətinin növlərini inkişaf etdirmək, dinləmək, oxumaq, yazmaq və danışmaq) inkişaf etdirməyə imkan verir. Şagirdlər xarici dil öyrənmək motivasiyasını artıraraq və şagirdlərin dünyagörüşünün genişlənməsinə kömək edərək lazımi məlumatları əldə edirlər.

Dərsdə kompüter və internetdən istifadə edərək real ünsiyyət modeli yaradılır, prinsipləri ünsiyyətlilik, interaktivlik və orijinallıq kimi həyata keçirilir və buna görə tələbələrin kommunikativ mədəniyyətini inkişaf etdirilir.

Keys stadi metodu müstəqil qərar qəbuletmə bacarıqlarının inkişaf etdirilməsinə kömək edir və auditoriyada kommunikativ təcrübəni artırır. Xarici dil tədrisində kommunikativ komponenti gücləndirmək lazımdır. Keys stadi metodu xüsusi situasiya problemlərini həll etməklə təlimə əsaslanan problemli vəziyyətin təhlilidir. Qruplara bölünmüş tələbələr vəziyyəti təhlil etməli və praktiki həll yolunu müəyyənləşdirməlidirlər; prosesin sonu, qarşıya qoyulmuş problem kontekstində ümumi müzakirə çərçivəsində qiymətləndirmə və müzakirə edilməlidir. Keys stadinin istifadəsinə həsr olunmuş bir sıra işlər mövcuddur [3; 6].

P.İ. Qayrbekova qeyd edir ki, keyslərin məqsədi xarici dili öyrənən dinləyicilərin ünsiyyət və sosiomədəni biliklərinin formalaşmasına yardım etmək, müxtəlif ünsiyyət vəziyyətlərinin yaradılması prosesində son dərəcə yaxın olan real vəziyyətlərə yanaşmaqdır [3].

İ.A.Oskalskaya tədris işi üçün bir mövzu seçməyi təklif edərkən aşağıdakı qaydalara riayət etməli olduğunu qeyd edir: [5]

1. Mövzunun spesifikliyi sadə olmalıdır.
2. Mövzu ictimai olmalıdır.
3. Mövzu real olmalıdır.

Bir mövzu seçərkən fərdi yanaşma vacibdir və bir qrup tələbələr üçün uyğun olanı seçmək lazımdır. Bu qrupun xüsusiyyətinə (yaş, ölkə və milliyyət) diqqət yetirmək lazımdır. Milli ənənələr və mentalitetin xüsusiyyətləri nəzərə alınmaqla müəyyən bir qrup tələbə üçün uyğun və məqbul məlumatlar seçilir. Tələbələr arasında Avropadan olan tələbələr varsa, cinsi azlıqlar, nikahdan kənar münasibətlər mövzusunda ünsiyyət qura bilərik lakin bu tip mövzular yerli auditoriya ilə arzuolunmazdır. Keys stadi istifadə edərkən qrupdakı tələbələr arasındakı əlaqəni müəyyənləşdirmək vacibdir: bir-birləri ilə nə qədər tez-tez ünsiyyət qururlar? Aralarında hansı emosional iqlim formalaşıb? İştirakçılar arasındakı məsafə fərdiliyi açıq şəkildə göstərməyə imkan verməyəcəkdir. Keys stadinin məqsədi ünsiyyətdir [4].

Texnologiya dərsləri. Oyun yalnız uşaqlar üçün deyil, həm də yetkin tələbələr üçün ən yaxşı təhsil formasıdır. Uşaqlar oyun vasitəsilə onlara verilən materialı yaxşı və effektiv şəkildə öyrənirlər. Oyun metodları dilin əsas aspektləri, yəni lüğət, qrammatika, fonetika kimi işləməyə imkan verir, eyni zamanda nitq fəaliyyətinin əsas növlərini inkişaf etdirməyə imkan verir, yəni dinləmək, oxumaq, yazmaq, danışmaq. Dərslərdə oyunların istifadəsi ünsiyyət bacarıqlarını inkişaf etdirir və dil maneəsini aradan qaldırır, xarici dil tədris vasitələrinin olmaması xarici dil öyrənmək motivasiyasını artırdıqda və yaradıcılıq qabiliyyətlərini inkişaf etdirdikdə vəziyyətdən çıxma qabiliyyətini inkişaf etdirir.

Layihə metodu. Layihə metodu tələbələrə praktik problemlərin və ya problemlərin həlli prosesində müstəqil bilik əldə etmək imkanı verməkdən ibarətdir. Müəllim inkişafetdirici, koordinator, ekspert və məsləhətçi rolunu oynayır.

Layihə üzərində dərs mərhələləri:

1. Tələbə Qrupu üçün layihə mövzusunun formalaşdırılması.
2. Layihə üzərində işin planlaşdırılması – iş mərhələlərini məhdudlaşdıran vaxt çərçivəsinin müəyyənləşdirilməsi.
3. Tələbələrin tədqiqat işləri və müstəqil olaraq yeni biliklər əldə etmələri. Məlumatın axtarılması və toplanması, digər tələbələrlə, müəllimlərlə, valideynlərlə və s. məlumat paylaşımı. Xüsusi ədəbiyyatın öyrənilməsi, mediadan, internetdən materiallarının cəlb edilməsi.
4. Ümumiləşdirmə mərhələləri: sistemləşdirmə, alınan məlumatların İnternetdə tezislər, hesabatlar, təqdimatlar şəklində qurulması.
5. Nəticələrin təqdimatı.

Layihə metodu fəaliyyət vasitəsilə öyrənmə prinsipinə əsaslanır. İnkişafa yönəlmiş məlumat yanaşmasına deyil, tədqiqat fəaliyyəti üçün zəruri olan düşüncə qabiliyyətləri kompleksinin formalaşmasına yönəlmiş fəaliyyətə əsaslanır.

Layihə metodu, ünsiyyətə təbii ehtiyacın yarandığı əlverişli və təsirli bir mühit yaradan dil öyrənməyin çoxsəviyyəli bir yanaşmasıdır.

Əməkdaşlıqda təlim. Kiçik qrup təhsili bu əməkdaşlıq təlimidir. Bu texnologiyanın ideyası bütün tələbələrin aktiv birgə təhsil fəaliyyəti üçün şərait yaratmaqdır. Şagirdlərdə materialın qavranılması müxtəlif yollarla baş verir. Biri müəllimin bütün izahlarını tez başa düşür, materialı, ünsiyyət bacarıqlarını asanlıqla mənimsəyir, digərləri isə daha çox vaxt, əlavə nümunələr, izahatlar tələb edir. Hər kəsin materialı lazımi səviyyədə qavramamasını nəzərə alsaq, bu vəziyyətdə uşaqları kiçik qruplara birləşdirə və hər bir tələbənin rolunu izah edərək onlara bir tapşırıq verə bilərsiniz. Birgə səylərlə qarşıya qoyulan tapşırıq həll olunur və güclü tələbələr onun icrası uğurunda zəiflərə kömək edirlər. Bu, əməkdaşlıqda öyrənmənin ümumi ideyasıdır və tədris tapşırığını yerinə yetirmək üçün tədris qrupu elə formalaşır ki, güclü və zəif tələbələr olsun və tapşırığı yerinə yetirmək üçün qiymət bütün qrup üçün eyni olsun..

Distant təhsil. Bu, kompüter, telekommunikasiya şəbəkələrindən istifadə edərək məsafədən öyrənmədir, tələbələr müstəqil olaraq təklif etdikləri tapşırıqları yerinə yetirirlər ki, müəllimlər ya da kursantlarla onlayn görüşdə qiyabi təlim kimi yoxlayır və ya elektron poçtdan istifadə edərək tələbələrin işinə nəzarət edirlər. Distant təhsilin əsas xüsusiyyəti müəllim-tələbə formatında telekommunikasiya təlimidir. Hal-hazırda xarici dillərin distant tədrisini təşkil edən müxtəlif variantlar hazırlanmışdır və bu cür tədrisin effektivliyi də sübut edilmişdir.

Bu gün xarici dil yalnız müəyyən bir millətin mədəniyyətinin bir hissəsi deyil, həm də tələbə karyerasında uğur və gözəl gələcəyin açarıdır. Müəllim üçün düzgün tədris metodunu seçmək üçün xarici dil tədrisinin ən son metodlarını, xüsusi tədris texnikalarını və üslubunu bilmək vacibdir. Tədris metodu müəllimin idarəetmə funksiyasını yerinə yetirmək üçün bir vasitə təlimdir. Tədrisin hazırkı mərhələsində ali məktəbdə xarici dil tədrisinin məqsədi tələbələrin müəyyən ünsiyyət problemlərini həll etmək üçün bilik və bacarıqlarını həyata keçirməyə imkan verən kommunikativ səriştəyə sahib olmasıdır. Təhsildə müasir texnologiyalar xarici dilin peşəkar yönümlü tədrisi, informasiya və telekommunikasiya texnologiyalarının tətbiqi, xarici dildə tədris kompüter proqramları ilə işləmək, xarici dillərin tədrisində distant texnologiyalar, güc nöqtəsi proqramında təqdimat yaratmaq, kompüter mühitində xarici dilin tədrisi (forumlar, bloqlar, sosial şəbəkələr, e-poçt), internet resurslarından istifadə və ən son test texnologiyaları.

"Texnologiya" anlayışı yunanca "sənət, sənətkarlıq" mənasını verən Techne və "tədris, bilik" mənasını verən loqotiplərdən gəlir. "Texnologiya" elmi bilik, ustalıq bacarıqları deməkdir [7].

Bu gün tələbə, şəxsiyyəti və bənzərsiz daxili dünyası diqqət mərkəzindədir. Müasir müəllimin əsas məqsədi tələbələrin təhsil fəaliyyətinin təşkili metod və formalarını seçməkdir. Məqsəd şəxsiyyətin inkişafıdır. Dərs prosesində yeni informasiya texnologiyalarından istifadə məsələsi tez-tez qaldırılır. Tədris prosesinə yeni yanaşma burada tədrisin yeni formaları və metodlarıdır. Cəmiyyətdəki qlobal dəyişikliklərlə əlaqədar olaraq xarici dilin təhsil sistemindəki rolu da dəyişdi. Sadə bir akademik mövzudan müasir təhsil sisteminin əsas elementinə, şəxsiyyətin peşəkar reallaşmasına nail olmaq vasitəsinə keçdi. Bugünkü cəmiyyət çərçivəsində şəxsiyyətin daha səmərəli inkişafına yönəlmiş xarici dil tədrisinin müasir xarici metodları nəzərdən keçirilir.

İnteraktiv texnologiyalar informasiya axtarışı, beynəlxalq elmi layihələrin inkişafı, elmi tədqiqatların aparılması üçün geniş imkanlar yaradır. İnternet bir informasiya sistemi olaraq istifadəçilərinə müxtəlif məlumat və mənbələr təqdim edir. Əsas xidmətlər dəstinə aşağıdakılar daxil ola bilər:

- E-poçt
- Telekonfranslar
- Videokonfranslar
- Öz məlumatlarınızı dərc etmək, öz ana səhifənizi yaratmaq imkanı
- İnformasiya resurslarına giriş
- İstinad kataloqları

– Axtarış sistemləri
– Sosial şəbəkələrdə ünsiyyət.

Kompüter, internet və multimedia vasitələri sayəsində tələbələrə çox sayda məlumatı qavramaq üçün unikal bir fürsət verilir və bununla da təhsil fəaliyyətinin əsasını genişləndirir və motivasiya edir [5].

Tandem metodu. Tandem metodu bizə nə verir? Dil tədrisində şəxsiyyətyönümlü bir yanaşma konsepsiyasını həyata keçirən bu tədris metodu, fərqli ana dillərinə sahib iki tərəfdaş tərəfindən xarici dilin müstəqil öyrənilməsinin yollarından biridir. Tandemin məqsədi real və ya virtual ünsiyyət formatında tərəfdaşının ana dilini qavramaq, şəxsiyyəti, mədəni komponenti, hədəf dil ölkəsinin mədəniyyəti ilə tanış olmaq, habelə maraq sahələri haqqında məlumat əldə etməkdir.

Tandem metodunun prinsipləri qarşılıqlı əlaqə və muxtariyyət prinsipidir.

Qarşılıqlı əlaqə prinsipi, tandem iştirakçılarının hər birinin ünsiyyətdən eyni dərəcədə faydalanacağını və muxtariyyət prinsipinin tərəfdaşların hər birinin öyrənmə hissəsində bir hədəf seçməsindən və son nəticələrindən müstəqil olaraq məsuliyyət daşıdığına əsaslanır.

Virtual ünsiyyət canlı ünsiyyət ilə müqayisədə bir sıra üstünlüklərə malik olan xüsusi bir ünsiyyət növüdür.

1. Rabitə sərhədləri və imkanları dünyanın demək olar ki, bütün ölkələrində tapıla bilən dünya tandem tərəfdaşlarına qədər genişlənir.

2. Hər iki tərəfdaş texniki materiallardan istifadə üçün əlverişli, alışdığı yaşayış məkanındadır, və lazımi məlumat mənbəyi onlar üçün mövcuddur.

3. Ünsiyyət əsasən yazılı şəkildə (e-poçt və ya ünsiyyət yolu ilə) həyata keçirilir və bu, yazı bacarıqlarını inkişaf etdirməyə imkan verir.

4. Təlim mətnli mesajlar şəklində baş verir.

5. Mesajlaşma zamanı yazılı mətnləri anlamaq bacarığı formalaşır.

6. Tərəfdaşın məktublarındakı səhvlərin düzəldilməsi başqalarının və öz səhvlərinin axtarışı və təhlili bacarığını formalaşdırmağa kömək edir.

Tandem metodunda toplanmış təcrübə aşağıdakı nəticələrə gəlməyə imkan verir:

Tandem metodu dil dərslərində müasir tədris texnologiyalarından istifadənin perspektivli variantlarından biridir, müntəzəm e-poçt mübadiləsi nəticəsində yazı bacarıqları və e-poçt yazmaq bacarığı təkmilləşdirilir. Kompüterlə işləmək və internetdən istifadə bilikləri genişləndirir. Dünyagörüşü genişlənir, öyrənilən dil sisteminin bilikləri genişlənir. Bu texnologiya xarici dildə məktəb tədris sistemində kütləvi şəkildə tətbiq olunmağa layiqdir.

Kommunikativ metod. Məqsəd kommunikativ səriştəyə sahib olmaqdır.

Mətnlər tələbəni öz fikirlərini bildirməyə təşviq edən münaqişələri göstərməlidir. Təlim qrammatika vasitəsilə deyil, ünsiyyət niyyəti ilə idarə olunur. Şagirdlər özlərini tədris prosesinin mərkəzində tapırlar. Dil ünsiyyət vasitəsinə çevrilir. Ünsiyyət istiqamətindəki məşqlər vasitəsilə tələbələr ünsiyyət zamanı ünsiyyəti qurmağı öyrənirlər. Tələbə danışıq bacarıqlarını inkişaf etdirir, səhv qorxusunu və xarici dildə açıq danışma maneəsini aradan qaldırır.

İşin elmi nəticəsi. Ənənəvi və interaktiv metodların birləşməsi həm bilik və praktik bacarıqların tətbiqində, həm də şagirdlərdə mənəvi dəyərlər institutunun formalaşmasında yaxşı nəticə verə bilər ki, bu da ahəngdar bir şəxsiyyətin tərbiyəsi və millətlərarası münasibətlərin təminləşdirilməsi üçün vacib amildir. Bu, mədəniyyətlərarası ünsiyyəti inkişaf edir və müxtəlif dillərdə və mədəniyyətlərdə ünsiyyət quranlar arasında şifahi və qeyri şifahi ünsiyyətdir.

İşin elmi yeniliyi. Qlobal dil kimi bütün dünyada tanınan ingilis dili müxtəlif xalqları, sivilizasiyaları və mədəniyyətləri birləşdirən bir dil olmuşdur. İngilis dilində kommunikasiya elə bu baxımdan dünyada müxtəlif insan münasibətlərini tənzimləyən gözəl davranış formasına çevrildi və eyni zamanda insanların birgə fəaliyyəti əsasında onların əlaqələrini bölüşdürən və müxtəlif mədəniyyətləri formalaşdıran bir yol, bir vasitə oldu.

İşin tətbiqi əhəmiyyəti. Xarici dillərin tədrisinin əsas məqsədi tələbələr tərəfindən nitq fəaliyyətinin bütün növlərində ünsiyyət təlimlərinə yiyələnmək və şagirdlərin dildən ünsiyyət vasitəsi kimi istifadə etmək qabiliyyətlərini inkişaf etdirməkdir. Müəllimin vəzifəsi hər bir tələbənin dərs prosesində öz fəaliyyətini göstərməsinə imkan verəcək bir tədris metodu seçməkdir.

Ədəbiyyat

1. Адонина, Н.П. Кейс-стади: история и современность // − 2012 г. №2. − с. 43-48.
2. Блонский, П.П. Память и мышление Избранные психологические произведениям / П.П.Блонский, −Просвещение, −1964 г.
3. Гаирбекова, П.И. Актуальные проблемы цифровизации образования в России / П.И.Гаирбекова / Современные проблемы науки и образования. – 2021.
4. Лежнина Л.В. Кейс-метод в обучении педагогов-психологов / Наука и школа. − 2008. №5. − с. 68-70.
5. Оскальская, И.А. Активное внедрение технологий кейс-стади в процессе обучения иностранному языку студентов неязыковых специальностей. − 2016 . №3-2(15). − с. 77-82.
6. Шумек, М.А. Кейс-метод на уроках русского языка как иностранного и неродного / М.А.Шумек. − 2017. №13. − с. 25-29.
7. Юлдашев, З.Ю. Инновационные методы обучения: особенность кейс-стади метода обучения и пути его практического использования / З.Ю.Юлдашев, Щ.И.Бобахужаев, − 2006. − с. 88.

A.Sh.Namatova

Modern Methods and Technologies in Teaching Foreign Languages

Summary

The article under consideration addresses the theoretical underpinnings of the use of several contemporary teaching methodologies in an English language classroom. Given the inadequate theoretical and methodological advancement of using contemporary methods in an English instruction, the selected study issue is pertinent. Opinions from other scientists are also covered in the article.

Key words: *Education, foreign language, methods, speech activity, modern technologies*

А.Ш.Наметова

Современные методы и технологии обучения иностранным языкам

Резюме

В статье рассматриваются теоретические основы использования нескольких современных методик обучения на уроках английского языка. Речь идет об актуальности выбранного вопроса исследования с учетом достаточного теоретико-методического прогресса в использовании современных методов обучения английскому языку. В статье также обсуждаются идеи и публикации других ученых.

Ключевые слова: *обучение, иностранный язык, методика, речевая деятельность, современные технологии*

Rəyçi: dos. S.Hüseynova

Redaksiyaya daxil olub: 15.05.2024.

T.Ə.NƏBİYEVA
pedaqogika üzrə fəlsəfə doktoru
e-mail: tahmina_nabiyeva@mail.ru

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

:10.62021/0026-0028.2024.2.230

K.D.UŞİNSKİNİN PEDAQOJİ ANTROPOLOGİYA TƏLİMİNİN ÇAĞDAŞ DÖVRDƏ ƏHƏMİYYƏTİ

Xülasə. *Məqalədə K.D.Uşinskinin elmi-pedaqoji ideyalarına bir daha aydınlıq gətirilir. Uşinski hesab edirdi ki, pedaqogika, ilk növbədə, tərbiyə haqqında, ələlxüsus "insanın insanda tərbiyəsi" konsepsiyası ilə formalaşmalıdır. Bu səbəbdən də bizlərin, müasir dövrün pedaqoqlarının, tədqiqatçılarının ən ümdə vəzifələrindən biri milli-mənəvi dəyərlərimizi qorumaq, mədəniyyətimizə sahib çıxmaq və bu dəyərlərin qorunması üçün var qüvvəmizlə çalışmaqdır.*

Açar sözlər: *K.D.Uşinski, pedaqoji antropologiya, təhsilin inkişafı, müasir təhsil müəssisələri, mənəvi dəyərlər*

13 aprel 2023-cü il tarixində Gəncə Dövlət Universitetinin Ümumi pedaqogika kafedrası Rusiyanın paytaxtında Moskva Dövlət İncəsənət Universitetinin və M.Utemisova adına Qərbi Qazaxstan Universitetinin pedaqogika və psixologiya kafedraları ilə birlikdə böyük rus pedaqoqu, görkəmli alim Konstantin Dmitriyeviç Uşinskinin (1823-1870) anadan olmasının 200 illiyinə həsr edilmiş Beynəlxalq elmi-praktik konfrans keçirmiş və demək olar ki, bütün çıxış edən məruzəçilər eyni növ məsələləri önə çəkmişlər. Konfransda prof. T.V.Xristidis (Rusiya), prof. N.F.Spinjar (Qazaxıstan), prof. Ş.T.Tağıyev (Azərbaycan), akademik A.Sakketti (İtalia) və b. dəyərli məruzələrlə çıxış edərək, K.D.Uşinskini "həqiqi müəllimlər müəlimi" kimi səciyyələndirmişdir. Necə ki, Lomonosov millət alimi, Suvorov xalq sərkərdəsi, Puşkin isə xalq şairi kimi şöhrət tapmışlar.

Heç şübhəsiz ki, K.D.Uşinskinin elmi-yenilikçilik fəaliyyəti bütövlükdə yalnız öz xalqı ilə məhdudlaşmayıb, bəşəri elm və təhsilin inkişafı naminə bir çox onillikləri qabaqlayan təlimin təməlini qoymuşdur ki, bununla da müasir günümüzdə də pedaqogika sahəsində fəaliyyət göstərən bir çox tədqiqatçılar, filosof və pedaqoqlar, o cümlədən də elmi antropologiya sahəsinin alimləri şəxsiyyətin formalaşması məsələləri ilə bağlı araşdırmalarında bunlardan yetərincə faydalanırlar.

Hal-hazırda bu sahələrdə aparılan tədqiqatların mərkəzində insan faktoru, onun şəxsiyyət kimi inkişafı, təbiətinin səciyyəvi xüsusiyyətləri dayanır.

Bir məqama xüsusi diqqət yetirilməsi tələb olunur – Konstantin Dmitriyeviç öz tədqiqatlarında nəyə nail olmuşdur və onun şəxsiyyətinin böyüklüyünü əsaslandıran məqamlar hansılardır. Əvvəla, məhz bu görkəmli alim pedaqoji səciyyəli araşdırmalarda antropoloji yanaşmanın üzvi bağlılığını əsaslandırır, pedaqoji inkişaf prosesinin psixoloji təkamülün qanunauyğunluqlarından asılı olduğunu bildirir. Bundan əlavə, istər iradi, istərsə də dolayı vasitələrlə tərbiyənin imkanlarını göstərə bilir.

K.D.Uşinski özünün müəllifi olduğu fəlsəfi-pedaqoji inkişaf konsepsiyasını işləyərkən ilk dəfə olaraq "pedaqoji antropologiya" terminini işlətmişdir ki, bu da mahiyyəti etibarilə insan şəxsiyyətinin daha mükəmməl səviyyədə inkişafının təmin edilməsi üçün pedaqoji üsul və vasitələrdən istifadə etməklə xüsusi elm sahəsinin əsaslandırılmasını özündə ehtiva edirdi. Bu görkəmli rus mütəfəkkiri pedaqoji elmi mövcud sənətlərin ən mükəmməli hesab edirdi. Və bu fikrini belə əsaslandırırdı ki, pedaqoji elm əslində insan mükəmməlliyə doğru inkişafının tə-

min edilməsinə istiqamətləndiyi üçün o, şəxsiyyətin qəlbi və cisminin təkmilləşməsinə yönəlmişdir; bununla da "bu incəsənətin ən mühüm idealı mükəmməl insandır" [4, s. 11].

Bunu da qeyd etmək zəruridir ki, K.D.Uşinskinin antropoloji modeli tam mənası ilə bu elmi əhatə edən digər sahələrlə bilavasitə bağlıdır: psixologiya, fiziologiya, pedaqogika, məntiq və s.

Bu böyük alim özünün "İnsan - tərbiyə vasitəsi və pedaqoji antropologiyanın mövzusudur" başlıqlı əsərində əsaslandırır ki, pedaqoqun fəaliyyətinə verilən xüsusi tələblər mövcuddur. Bunlara aiddir – uşaqların psixoloji xüsusiyyətlərinin nəzərə alınması şərtilə fəaliyyətin təşkil edilməsi, uşaq və yeniyetmələrin səciyyəvi cəhətlərinin davamlı olaraq dəyərləndirilməsi və yoxlanılması işinin qurulması [4, s. 73].

Lakin bir çox mədəniyyət və təhsil ocaqlarında çalışan müəllimlər, tərbiyəçilər bəzi məqamlarda onların fəaliyyətinə verilən bu cür mühüm tələbləri önə çəkmir, yaxud ümumiyyətlə ona əhəmiyyət vermirlər. Hətta bir çox hallarda müəllimlərin öz işinə etinasız yanaşmasının, uşaqlarla bağlı məsələlərdə laqeydlik nümayiş etdirmələrinin şahidi oluruq. Bu əksər hallarda nə ilə bağlı olur − əvvəla, rəhbərlik tərəfindən çoxsaylı lüzumsuz sənədlərlə yüklənmə nəticəsində, və yaxud uşaqlarla işdə marağın olmaması. Təbii ki, belə məsələlər ən yüksək səviyyədə mənfi məqam kimi qaldırılmalıdır.

Artıq bu gün istər mədəniyyət, istərsə də təhsil müəssisələrində çalışan müəllimlər bilməlidirlər ki, onlar gənc nəsil üçün həqiqi örnək olmalıdırlar, vətəni, onun dəyərini təmənnasız sevməli və qiymətləndirməlidirlər, öz sənətini yüksək tutaraq yaşatmalıdırlar.

Maraqlı məqamdır ki, mədəniyyət ocaqlarında çalışan müəllimlərin fəaliyyəti mahiyyəti etibarilə öz şagird və müdavimlərinə qayğı üzərində qurulmalı, onların problemli vəziyyətlərinin aradan qaldırılması və dünyagörüşləri ilə bağlı ortaya çıxan çoxsaylı problemlərin həll edilməsi kimi vacib məsələlərə həsr edilməlidir ki, son nəticə məhsuldar və uğurlu olsun. Burada uşağın problem və qayğılarına fərdi yanaşma, onun bir növ incəsənət duyğusu ilə xəfif şəkildə, kobudluğa yol verilmədən həll edilməsi çox vacibdir.

Görkəmli alim, pedaqoq K.D.Uşinskinin ən məşhur deyimlərindən birində qeyd edildiyi kimi, psixoloji-pedaqoji diaqnostikada şəxsiyyətin hərtərəfli inkişaf etdirilməsi və tərbiyələndirilməsi üçün ilk növbədə onu hərtərəfli tanımaq vacibdir. Əks halda lazımi nəticə əldə edilə bilməz. Sual olunur – biz şagirdlərimizi tanıyırıqmı, öz həmkarlarımıza lazımınca bələd olmuşuqmu, özümüzü tanıya bilmişikmi? Əlbəttə ki, hər bir iş heyətinin, kollektivin əsasını təşkil edən məqam dərs apardığın, işlədiyin, həmkarı olduğun şəxslərin sevincini paylaşmaqla yanaşı, onların kədərinə də qoşulmağı bacarmaq önəmlidir, çünki onları özünlə eyniləşdirə bilməsən, münasibətlər heç vaxt müsbət məcraya yönələ bilməyəcək.

Uşinskinin müasiri olmuş digər bir görkəmli alim və pedaqoq A.S.Makarenko haqlı olaraq qeyd edirdi ki, "Kollektivçilik fərdiyyətçiliyin əksinə olaraq insanların ictimai həyatının inkişafının təmin edilməsinin əsas vasitələrindən biri kimi əhəmiyyətlidir" [3, s. 154]. İnkaredilməz faktdır ki, kollektiv daxilində tərbiyə artıq uzun illərdir ki, insan inkişafının ənənəvi üsul və vasitələrindən biri kimi uğurla tətbiq edilir. Bu iş istər mədəniyyət, istərsə də təhsil ocaqlarında eyni uğurla həyata keçirilə bilir.

Bir məqama da diqqət yetirmək lazımdır ki, bütün təhsil və mədəniyyət ocaqlarında tətbiq edilən asudə vaxtın səmərəli təşkili və sinifdənxaric məşğələlərdə istifadə edilən və kifayət qədər müsbət nəticələrə səbəb olan məhz kollektiv münasibətlərdir. Burada diqqət çəkən məsələ budur ki, kollektiv işin təşkili zamanı müəllimlər, təşkilatçılar məhz eyni xüsusiyyətlərə sahib olan insanları bir araya toplayaraq onların tələbatları, ehtiyaclarını nəzərə almaq şərtilə onların daha məhsuldar nəticələr əldə etmək imkanlarını üzə çıxarmaq mümkün olur. Bu prosesdə hər bir iştirakçının fərdi inkişafı üçün lazımi şərait yaradılır və individual bacarıq və qabiliyyətləri üzə çıxa bilir.

Məsələn, nümunə olaraq mədəniyyət ocaqlarında asudə vaxtın səmərəli təşkili üçün tətbiq edilən proqramları göstərmək olar. Burada bir tərəfdən bədii yaradıcılıq ilə zəngin olan fəaliyyət

nümunəsi diqqəti cəlb edir, digər tərəfdən isə müəllimlərin, həmçinin tərbiyəçilərin illərə istinad edən gərgin zəhmətinin, ağır əməyinin nəticələri özünü büruzə vermiş olur. Amma bu prosesdə müəllimlərin zəhməti sayəsində hər bir şagirdin, yeniyetmənin şəxsi keyfiyyətlərinin inkişaf etdirilməsi, onların bilik və bacarıqlarının artırılması məsələsi diqqəti cəlb edir. Bu isə bilavasitə müəllim və tərbiyəçilərin bilik və bacarıqlarının nəticəsi olaraq ərsəyə gəlmişdir.

Müasir ziddiyyətlərin və təxribatların baş alıb getdiyi dünyamızda Azərbaycan vətəndaşının özünün həyati tələb və maraqlarının tənzimlənməsində pedaqoqların rolu az əhəmiyyətli olmamışdır. Bir məsələni nəzərə almaq lazımdır ki, bu zaman ilk əsaslı zərbələr yeniyetmə və uşaqlara dəymiş olur. Daha doğrusu, həyatda öz şəxsi mövqeləri tam formalaşmamış bu uşaq və yeniyetmələr xarici dövlətlərin mənfi səciyyəli təbliğatına uyaraq bu zərbələrin təsirlərinə tuş gəlirlər.

Pedaqoji antropologiyanın vasitəsilə, həmçinin milli-mənəvi dəyərlərin və əcdadların zəngin tarixi yaddaşının sayəsində pedaqoqlar şagirdləri həqiqət yoluna yönəltməlidir. Bunların heç şübhəsiz ki, həlli yolları vardır və müasir mənəvi dəyərlərə istinad önəmlidir. Mədəniyyət və təhsil ocaqlarında müəllimlərin işi müasir informasiya texnologiyaları vasitəsilə də həyata keçirilir.

Yuxarıda qeyd edilənlərə nümunə olaraq professor L.S.Jarkovanın "bir tərəfdən insan inkişafı mümkün qədər azad, mütəhərrik idraka əsaslanmalıdır, digər tərəfdən isə məhz mədəniyyət sahəsində tamamilə yeni bir axına istiqamətlənmə mümkündür" [1, s. 105] fikirlərini göstərmək mümkündür.

Bu gün insan susuz, qidasız, yuxusuz mövcud ola bilər, amma mədəniyyətsiz insan varlığını yaşada bilməz. Təəssüflər olsun ki, qonşu dövlətlərdə ötən əsrin 90-cı illərindən cəmiyyət özünün çoxəsrlik mədəni dəyərlərinin çox hissəsini itirərək mənfi meyillərə istiqamətlənmişdir. Bunların bizə də müəyyən təsirləri olur. Bu səbəbdən də müasir günümüzdə yalnız yeniyetmələri deyil, onların valideynlərini də tərbiyə etmək vacibdir. Burada əsas məqam valideynlərlə maarifləndirici işin aparılması, onlara nəsillərdən nəsillərə vacib dəyərlərin varislik əsasında ötürülməsi məsələlərinin aşılanmasıdır. Eyni zamanda özündən böyüklərə hörmət, valideynlərə ehtiram və müəllimlərə hörmət hissinin yenidən ali insani dəyərlər kimi təbliğ edilməsi də az əhəmiyyətli deyildir.

Ümumiyyətlə, son zamanlarda valideynlərdə daha çox müəllimləri bütün həyat və tədris yükü ilə yükləmək kimi mənfi fikirlər müşahidə edilir. Valideynlər bunu onunla əsaslandırırlar ki, müəllim, tərbiyəçi şagirdə, uşağa bütün lazımi bilikləri öyrətməlidir və burada valideynlərin üzərinə heç bir cidd məsuliyyət düşməyir. Əlbəttə ki, tədris və mədəniyyət ocaqlarında müəllimlər zəruri bilik və bacarıqlarını şagirdlərə öyrədirlər, lakin müəllimlər, tərbiyəçilər heç vaxt şagirdlərə atalıq və analıq duyğusunu yaşada bilməzlər, və yaxud da ailə mühiti, böyüklərə həssas məhəbbət hissini valideynlər qədər təlqin edə bilməzlər.

Həqiqətən də yuxarıda sadalanan yüksək insani mənəvi dəyərlərin təməli, ilk növbədə valideynlər tərəfindən qoyulur, amma bu duyğuların zənginləşdirilməsi işi müəllimlərin üzərinə düşür.

Məhz bu səbəbdən də müasir təhsil və mədəniyyət ocaqlarında müəllimlər tərəfindən ənənəvi milli-mənəvi dəyərlərin öyrədilməsinə xüsusi əhəmiyyət verilir. Bu məqsədlə asudə vaxtın səmərəli təşkili üçün ardıcıl sistemli tədbirlər keçirilir, festival və müsabiqələr təşkil olunur, burada da əsas diqqət gənc nəslin milli dəyərlərə sahiblənməsi və tədbirlərin tamaşaçılarının bədii zövqünün qarşılanmasına lazımi şərait yaradılır. Burada doğma vətənin ənənəvi dəyərlərinin təbliği əsas məqsəd kimi müəyyən edilir.

Qeyd etmək zəruridir ki, mənəvi dəyərlərin mübadiləsi zamanı yalnız tədbirin tamaşaçıları deyil, həm də təşkilatçılar da mənəvi cəhətdən zənginləşirlər. Maraqlıdır ki, məhz bu prosesin sayəsində, xüsusilə də gərgin və davamlı əmək nəticəsində istər dinləyicilər, iştirakçılar, istərsə də təşkilatçılar şüuraltı olaraq vətənpərvərlik duyğusu gücləndirilir, milli təəssübkeşlik

duyğusunun tərkib hissəsi olaraq asudə vaxtın səmərəli təşkili üçün keçirilən mədəni proqramlarda doğma xalqın sahib olduğu zəngin çoxəsrlik irsin ən ümdə cəhətləri əxz edilir.

Prof. L.S.Jarkovanın qeyd etdiyi kimi, "asudə vaxtın səmərəli təşkili məqsədi daşıyan bütün mədəni-kütləvi tədbirlərin əsas qayəsi auditoriyanın formalaşdırılması tələbidir. Burada xüsusi olaraq tamaşıya təsir və əks təsir məqamlarını önə çəkmək lazımdır, çünki bu faktor bilavasitə təşkilatçılığın əsasını təşkil edir və lazımi nəticələrin əldə edilməsinə imkan verir. Burada auditoriya möhkəm ictimai bağlar vasitəsilə əlaqələndirilmiş mütəşəkkil toplu kimi nəzərdən keçirilməlidir. Bu toplu özünün xüsusi, fərqli həyat dəyərləri ilə mövcudluğunu təşkil edir, bu zaman onun səciyyəvi cəhətlərini dərindən öyrənmək lazımdır ki, təsir vasitə və üsullarını da düzgün müəyyən etmək mümkün ola bilsin" [1, s. 61-62].

Məhz təhsil və mədəniyyət müəssisələri bir çox hallarda insanların ümumi dünyagörüşünün düzgün şəkildə formalaşmasına, dünyada insanın özünü daha müfəssəl şəxsiyyət kimi tanımasına şərait yaratmaqla yanaşı, fərdlərin özünə hörmət duyğusunu gücləndirməsi və bəşəri məhəbbətə sahib olmasını uğurla təbliğ və təşviq edir. Məsələn, pedaqoji elmlər doktoru, prof. T.V.Xristidisin aşağıdakı fikirlərini qeyd etmək mümkündür: "Mahiyyəti etibarilə dünyagörüşü dünyaya düzgün münasibətin müəyyən təcrübə və biliklərin toplusu kimi qavranılması və sistemli şəkildə tətbiqidir" [5, s. 2].

Uşinski hesab edirdi ki, pedaqogika ilk növbədə, tərbiyə haqqında, ələxüsus "insanın insanda tərbiyəsi" konsepsiyası ilə formalaşmalıdır. Bu səbəbdən də bizlərin, müasir dövrün pedaqoqlarının, tədqiqatçılarının ən ümdə vəzifələrindən biri milli-mənəvi dəyərlərimizi qorumaq, mədəniyyətimizə sahib çıxmaq və bu dəyərlərin qorunması üçün var qüvvəmizlə çalışmaqdır.

İşin elmi nəticəsi. Beləliklə, aparılmış tədqiqatlara yekun vuraraq xüsusi olaraq qeyd etmək lazımdır ki, müasir təhsil və mədəniyyət müəssisələrində yenilikçi pedaqoji yanaşma uğurla tətbiq edilməli, insan şəxsiyyətinin özünü təsdiq etməsi istiqamətində kollektiv ilə birgə səmərəli fəaliyyət təşkil edilməlidir.

İşin elmi yeniliyi. Müəyyən edilir ki, K.D.Uşinskinin elmi-yenilikçilik fəaliyyəti yalnız öz dövrü, öz xalqı ilə məhdudlaşmır. Rus pedaqogikasının banisi bəşəri elm və təhsilin inkişafı naminə bir çox onillikləri qabaqlayan təlimin təməlini qoymuşdur.

İşin praktik dəyəri ondan ibarətdir ki, K.D.Uşinskinin xidmətləri ilə bağlı məqalədə söylənilən fikirlər müasir günümüzdə də pedaqogika sahəsində fəaliyyət göstərən tədqiqatçılar, filosof və pedaqoqlar, o cümlədən də elmi antropologiya sahəsinin alimləri faydalana bilərlər.

Ədəbiyyat

1. Жаркова, Л.С. Организация деятельности учреждений культуры и искусств. / Л.С.Жаркова. – М.: Издательский дом МГУКИ, − 2010. – 105 с.
2. Жарков, А.Д. Теория, методика и организаия социально-культурной деятельности / А.Д.Жарков. – М.:Издательский дом МГУКИ, 2012. –339 с.
3. Макаренко, А.С. Воспитание гражданина сборник м просвещение / А.С.Макаренко, − 1988. − 301 с.
4. Ушинский, К.Д. Педагогические сочинения: В 6 т. – М., 1988. – Т.3. − 168-169 с.
5. Христидис, Т.В. Черчиченко В.И. Педагогика высшей школы: теория воспитания: Учеб.пособ / Т.В.Христидис, − М.: Издательский дом МГУКИ, − 2009, − 224 с.

T.A.Nabieva

The Importance in the Modern Period of Teaching Pedagogical Anthropology by K.D.Ushinsky

Summary

The article re-clarifies the scientific and pedagogical ideas of K.D. Ushinsky. Ushinsky believed that pedagogy should be formed, first of all, on the concept, especially with the concept of "education of Man in man." For this reason, one of the most important tasks for us, educators and researchers of

the modern era, is to protect our national and moral values, take responsibility for our culture and work with all our might to preserve these values.

Key words: *K.D.Ushinsky, educational anthropology, development of education, modern educational institutions, moral values*

Т.А.Набиева

Значение педагогической антропологии К.Д.Ушинского

Резюме

В статье повторно уточнены научно-педагогические идеи К.Д.Ушинского. Ушинский считал, что педагогика должна формироваться, прежде всего, на концепции, особенно с понятием «воспитание Человека в человеке». По этой причине одна из важнейших задач для нас, педагогов и исследователей современной эпохи, – защитить наши национальные и моральные ценности, взять на себя ответственность за нашу культуру и всеми силами работать для сохранения этих ценностей.

Ключевые слова: *К.Д.Ушинский, педагогическая антропология, развитие образования, современные образовательные учреждения, нравственные ценности.*

Rəyçi: ped.e.d., dos. T.B.Eminli

Redaksiyaya daxil olub: 15.05.2024

S.Z.QUBATOVA
e-mail: sakinaqubatova@gmail.com

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

:10.62021/0026-0028.2024.2.235

YENİYETMƏ MƏKTƏBLİLƏRİN SOSİALLAŞMASI

Xülasə. *Məqalədə göstərilir ki, məktəbdə təhsilin sosial səmərəliliyi kifayətedici səviyyədə deyil. Təhsilin faktik və formal səviyyələri arasında əsaslı uyğunsuzluqlar mövcuddur. Təhsilin sosial effektivliyi yalnız insanların aldığı biliklərin kəmiyyət və keyfiyyətindən asılı deyil, həm də onların sosial və əmək fəaliyyətində praktik olaraq tətbiqi səviyyəsindən asılıdır. Təhsil həm simvolik, həm də praktik dəyər kəsb edir. Təhsilin praktik dəyəri konkret olaraq bilik, bacarıq və vərdişlərdə öz əksini tapır. Simvolik dəyər isə təhsilin ictimai mövqeyində əks olunur.*

Açar sözlər: *təhsilin sosialogiyası, konflikt-emosional münasibətlər, yeniyetmə şəxsiyyətinin formalaşması, "imitasiya" və "identifikasiya" mexanizmləri, sosiallaşma*

Məktəb yeniyetmənin sosiallaşmasında ən nüfuzedici və təsirli amil kimi həmişə ön planda olur. Uşaq məktəbdə əldə etdiyi biliyi, bacarığı və sosial vərdişləri ömrü boyu yadda saxlayır. Məktəbin yeniyetməyə hərtərəfli təsiri ailənin, həmyaşıd yoldaşların və ətraf mühitin təsiri ilə uyğunlaşdıqda onun sosiallaşmasının və mənəvi fiziki sağlam inlişafının düzgün istiqamətlənməsinə kömək edir və yol göstərir. Məktəb uşağa məktəb həyatının uzun müddət ərzində təsir edə bilən əsas sosiallaşma faktorlarından biri kimi özünü göstərməlidir.

Prof. N.M.Kazımov göstərir ki, məktəbin rolu, sosiallaşmasının bir amili kimi, təkcə bilikləri, bacarıqları və vərdişləri yeniyetmələrə ötürülmə vasitəsi kimi deyil, həm də məktəb yeniyetmələrə öz tərbiyə xarakteri ilə, davranış vərdişlərini, dəyərlər istiqamətini, mənəvi normaları, qrupla davranış vərdişlərini, uşağın böyük həyat tərzinə keçidini təmin edən bir qrup kimi təsir edir [3, s. 264]. Lakin uşağa amiranə təsir üsulu, məktəb həyatının tənzimlənməsini, yeniyetmənin təşəbbüsünü zəiflədir, onun işə aid olan münasibətini kənarlaşdırır. Klassik təhsil sistemi yaddaş əsasında qurulmasını təhlil etmək bacarıqlarının inkişaf etdirilməsini, şəxsi nəticələrin tez çıxarılması əvəzinə onun yadda saxlamaq vərdişlərini əsas götürür. Hal-hazırda elmin və biliklərin qiymətinin aşağı düşməsi (ziyalıların əməyi cəmiyyətin digər təbəqələrindən olanlardan az qiymətləndirilir) təhsilə tələbatın aşağı düşməsindən xəbər verir. Lakin bununla yanaşı gənclərdə ali məktəblərə qəbul olunmaq istəyi azalmır. Bu da bütün ailələrdə formalaşmış bir mövqe olaraq qalmaqdadır.

Məktəb, uşağın sosiallaşması prosesində ən təsirli amildir. Onun təsiri tədricən ailənin, həmyaşıd yoldaşların və digər sosial faktorların təsiri ilə vəhdət təşkil edir. Məktəbdə uşaq nə əldə edirsə onu həyatı boyu saxlamağa çalışır, məktəbdə o bir şəxsiyyət kimi formalaşmasına davam edir. Sosiallaşma prosesi uşağın ictimai məktəb münasibətlərinə tədricən daxil olmasını və müstəqil, yeni sosial münasibətlərin qurulmasını nəzərdə tutur. Yeniyetmənin məktəbdə sosiallaşmasına həm istiqamətlənmiş sosial faktorlar, həm də nəzərdə tutulmayan bəzi sosial faktorlar təsir edir.

Məktəbdə aparılan tərbiyə prosesi uşağın həyatında iki əsas məsələnin həllini həyata keçirir.

1. Sosiallaşma prosesinin yaranmasını təşkil edir.
2. Mühüm xariqə elementlərinin təsirini kənarlaşdırır [1, s. 54].

Məktəblinin sosiallaşması onu əhatə edən insanlarla psixoloji, sosial və mənəvi münasibətlərin necə qururlmasından əmələ gəlir. İnsanların psixoloji münasibətləri onların bir-birinə emosional dayağı deməkdir. Bu münasibətlə məktəbli təəssürat yaratmaq və yaxın isti münasibət qurmağı öyrənir. Sosial münasibətlər − məktəbdə, sinifdə rolların müəyyənləşməsi,

sosiumla münasibətlərin qurulmasıdır. Məktəbli müxtəlif sosial rolları, onların məzmununu əldə etmək qabiliyyətinə malikdir.

Mədəni münasibətlər isə mədəniyyətin xüsusiyyətlərindən əmələ gələn məktəbdaxili münasibətlərdir. Yeniyetmə ailənin, cəmiyyətin, məktəbin, sinfin qaydalarını və ənənələrini mənimsəyir. Beləliklə, şagird onun məktəbində və cəmiyyətdə yüksək qiymətləndirilən dəyərləri mənimsəyir. Məktəbdə sosiallaşmanın əsas mexanizmlərini "imitasiya" və "identifikasiya" təşkil edir. "İmitasiya" şagirdin müəllimlərin davranışına şüurlu və ya şüursuz şəkildə oxşar olmağa can atmasını, müəyyən davranış modellərinin mənimsəməsini müəyyən edir. "İdentifikasiya" (uyğunlaşma) uşaqların məktəb davranışını, pedaqoji məsləhətləri, göstərişləri və dəyərləri özününkü kimi qəbul etməsidir [2, s. 58]. "İmitasiya" prosesində şagirdin oxşamaq istədiyi nümunə birinci növbədə müəllim olur və bu da müəllimin ilk növbədə məktəb davranışının modellərinin və qaydalarının təşkil etməsi ilə izah olunur.

Yeniyetmənin sosiallaşması uzun müddət məktəbin təsiri altında həyata keçir, bu da ondan asılıdır ki, şagird uzun müddət təhsil sistemindən asılı vəziyyətdə olur və müəllimlər şagirdlər üçün uzun müddət "əhəmiyyətli böyük"lər rolunu oynayır. Prof. R.İ.Əliyevin fikrincə, müəllimlər tərbiyə prosesində uşağın davranışına və onun sosiallaşmaya meyilinin artmasına 3 əsas mexanizm vasitəsilə təsir edə bilirlər: a) qüvvətləndirmək – yaxşı davranışa görə mükafat, pisə görə cəza tədbiri tətbiq etmək; b) eyniləşdirmək – uşağın müəllimə bənzəmək həvəs və istəyini artırmaq; c) başa düşmək – uşaq aləmini bilmək və onun problemlərinə hay vermək, yardım etmək [4, s. 91].

Uşağa ən əsaslı təsir vasitəsi onu yaxşı başa düşmək göstərilir. Yeniyetmələrin tərbiyəsində və sosiallaşmasında onun nədən istifadə etməyi hər zaman müsbət nəticələr verir. Bu mexanizmin tətbiqi şagirdə sevgi və onu olduğu kimi qəbul edilməsinə əsaslanır. Bu prosesdə müəllimin köməyi ilə şagird birinci özünü başa düşməyi, sonra isə başqalarını başa düşməyi öyrənir.

Sosial təcrübənin əsas bir hissəsini uşaqlar sadəcə olarq məktəbdə, sinifdə, müəllimlərdə, şagirdlərdə müşahidə etdikləri davranışları özləri üçün nümunə etdikləri zaman əldə edirlər. İmitasiya müəllimlərin səsini, hərəkətlərini, davranışlarını və digər xüsusiyyətlərini təqlid etməsində özünü daha aydın göstərir. İdentifikasiya ondan ibarətdir ki, uşaq özünü o biri uşağın yerinə qoyur, onun hisslərini, onun başına gələnləri başa düşür. Məktəbli, məktəbdə ona nümayiş edilmiş davranış üsullarını öyrənməyi əldə edir. Sosiallaşma prosesini pozan şəraitlər kimi aşağıdakıları göstərmək olar.

Məktəbdə sosial prosesin pozulması çox zaman yeniyetmə şəxsiyyətinin məktəb tərbiyəsinin qeyri-müvəffəq faktorlarının təsiri və şəraiti ilə bağlıdır. Bu zaman yeniyetmənin lazım olan aparıcı tələbatlarının təmin edilməsini çətinləşdirir və yaxud mümkünsüz edir. Bu elə qeyri-müvəffəq təsirlər, sosiallaşma prosesinin gedişinə ya müəyyən mənada təsir edirlər, yaxud sosiallaşma prosesinin hərəkət mexanizmlərinin pozulmasına gətirib çıxarır. Belə olan halda sosial təcrübənin qavramasını çətinləşdirir, yəni sosiallaşma prosesinə əlavə olaraq mənfi təsir edir.

Məktəbdə yaranan neqativ şəraitə müəllimlər və ya şagirdlər tərəfindən qeyri-obyektiv münasibət yeniyetmənin nümunə seçməsinə mənfi təsir edir. Əlavə təsirlərə isə məktəb mühitinin şəraiti və tərbiyənin mənfi üsullarını da aid etmək olar [5, s. 22]. Ədəbiyyatlarda professionalizmin aşağı səviyyədə olması, müdiriyyətin pedaqoji bacarıqsızlığı sinifdə, məktəbdə konflikt – emosional münasibətlər kimi qeyri-müvəffəq faktorların adının çəkilməsi ilə rastlaşırıq. Ümumiyyətlə, yeniyetmə şəxsiyyətinin inkişafında və onun sosiallaşmasına təsir göstərən şəraitlərə məktəbdə olan münasibətləri aid etmək olar.

Təhsilin sosiologiyası sosioloji biliyin bir sahəsi olub, sosial faktor olan təhsil sistemini, onun fəaliyyət və inkişaf qanunauyğunluqlarını, cəmiyyətlə qarşılıqlı təsirini öyrənir. Faktlar göstərir ki, təhsilin sosial effektivliyi kifayət qədər yüksək deyildir. Təhsilin formal səviyyəsi ilə faktik səviyyəsi arasında nəzərə çarpan ayrılıq mövcuddur. Təhsilin sosial effektivliyi təkcə adamların aldıqları biliklərin həcmindən və keyfiyyətindən asılı deyil, o, həm də onların tətbiqi dərəcəsindən, insanların əmək və ictimai fəaliyyətinin praktik surətdə reallaşmasından asılıdır.

Təhsil həm simvolik, həm də praktik əhəmiyyət kəsb edir. Təhsilin praktik əhəmiyyəti konkret biliklərdə, vərdişlərdə və bacarıqlarda əks olunur. Simvolik isə təhsilin ictimai mövqeyində görünür. Təhsil müəssisələrinin daxilində şagird şəxsiyyətinin formalaşmasına, tədrisə münasibətinə və müvəffəqiyyətinə həmyaşıdlar qrupunun təsirinin böyük olması qeyd edilməlidir. Ailə və məktəbin qarşılıqlı fəaliyyəti məsələləri ilə yaxından tanış olmaq, müəyyən araşdırmalar aparmaq, müəyyən nəticələr əldə etmək və faydalı tövsiyələr hazırlamaq lazımdır.

Nəticə. Gənclərin sosiallaşmasının fərdin öz xarakterindən, xüsusiyyətlərindən, ətraf mühitin, məktəbin, ictimai cəmiyyətin təsiri və fərdin təhsil aldığı məktəbin sosioloji əsaslarla qurulmasından asılıdır.

Tədqiqatın elmi yeniliyi. Özünüidarəetmə orqanının inkişafı şagirdlərə sosial münasibətlərin mürəkkəbliyini başa düşməyə, sosial mövqeyi formalaşdırmağa, lider funksiyalarını realizə edəndə öz imkanlarını müəyyənləşdirməyə kömək göstərir.

İşin tətbiqi əhəmiyyətini yeniyetmə şagirdlərin sosiallaşmasında mövcud problemlər üzrə mövcud təcrübənin öyrənilməsi, ümumiləşdirilməsi və geniş tətbiqinin praktiki yolları təşkil edir.

Ədəbiyyat

1. Abbasov, A.N. Pedaqogika nəzəriyyəsi və tarixi. Dərslik / A.N.Abbasov, L.A.Məmmədli, L.A.Əmirəliyeva. – Bakı: Mütərcim, − 2022. – 464 s.
2. Ağayeva, B.S. Şagirdlərin sosiallaşması üzrə tərbiyə işinin təşkili / B.S.Ağayeva, V.H.Vahidova. – Bakı: Mütərcim, − 2011. – 97 s.
3. Kazımov, N.M. Seçilmiş əsərləri / N.M.Kazımov. – Bakı: OKA Ofset, − c.8. − 2012. – 264 s.
4. Əliyev, R.İ. Humanist psixologiya / R.İ.Əliyev. –Bakı: ADPU-nun nəşriyyatı, – 2023. – 197 s.
5. Vahidov, F.Q. Sosiologiya. Dərslik / F.Q.Vahidov, T.B.Ağayev. – Bakı: Təhsil, – 2008. – 308 s.

S.Z.Qubatova

Socialization of Teens of School for

Summary

Article deals with the research of school's social effectiveness are not high enough. There is considerable discrepancy between the formal level of education and the actual level. The social effectiveness of education not only depends on the amount and quality of the knowledge people receive, but also their degree of application, the practical realization of people's labor and social activities. Education is both symbolic and practical. The practical significance of education is reflected in specific knowledge, skills and abilities. Symbolism appears in the public domain of education.

Key words: *socialization of education, conflict-emotional relations, teenage identity formation, "imitation" and "dentification" mechanisms, socialization*

С.З. Губатова

Социализация подростков-школьников

Резюме

В статье показано, что социальная эффективность школы, образования недостаточно высока. Существует значительное несоответствие между формальным и фактическим уровнем образования. Социальная эффективность образования зависит не только от количества и качества знаний, полученными людьми, но и от степени их применения, практической реализации их в трудовой и социальной деятельности. Образование имеет как символическую, так и практическую значимость. Практическая значимость образования отражается в конкретных знаниях, привычках и навыках. Символическая значимость же проявляется в общественной позиции образования.

Ключевые слова: *социализация образования, конфликтно – эмоциональные отношения, формирование подростковой личности, «имитация» и «механизмы идентификации», социализация*

Rəyçi: ped.f.d., dos. G.R.Məmmədova
Redaksiyaya daxil olub: 27.03.2024

A.V.SADIQOVA
e-mail: aysel.sadqova.01@mail.ru

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

:10.62021/0026-0028.2024.2.238

ŞAGİRD ŞƏXSİYYƏTİNİN MİLLİ ZƏMİNDƏ FORMALAŞMASINDA VALİDEYNLƏRİN ROLU

Xülasə. *Tədqiqat nəticəsində bir daha aydın oldu ki, insan bioloji və sosial varlıq olmaqla doğulduğu gündən ömrünün sonunadək mənsub olduğu xalqın genini özündə daşımaqla mühit və tərbiyənin təsiri altında formalaşır. Azərbaycan xalqı həm intellektual potensialı və inkişafı, həm də milli xarakteri baxımından dünyanın ən qabaqcıl xalqlarından biri, Azərbaycan isə inkişaf etmiş, qabaqcıl dövlətlərdən olmaq imkanına malikdir.*

Açar sözlər: *cinsi tərbiyə, milli ruh, şəxsiyyətin formalaşması, milli mənsubiyyət, pedaqoji ədəbiyyat*

Uşağın cinsi inkişafı onun ümumi inkişafının mühüm bir cəhətini təşkil edir, əslində oğlan və qızın doğulduğu gündən başlayaraq fasiləsiz surətdə davam edir. Lakin o, uzun müddət spesifik xarakter daşımır. Cinsi həvəs ancaq müəyyən yaş dövründən etibarən fəallaşır. Bunu nəzərə alaraq, oğlan və qızların cinsi inkişafı prosesini şərti olaraq iki əsas dövrə bölmək olar.

Birinci dövr doğulmuş uşaq yaşından başlayaraq məktəbəqədər yaş, eləcə də müəyyən mənada kiçik məktəbli yaşı dövrünü əhatə edir [1, s. 348].

"Cinsi fərqlər nəzəriyyəsinin tarixi b.e.ə VI-V əsrdən başlasa da, bu problem uzun müddət köklü şəkildə öyrənilməyib. Ayrı-ayrı cinsi fərqləri müəyyən ediblər, lakin onların mahiyyətini araşdıra bilməyiblər. Bu, təkcə anatomiya, fiziologiya, təbabət, psixologiya və s. kimi elmlərin inkişaf səviyyəsi deyil, həm də, bəlkə də hər şeydən öncə köklü əxlaqi maneələrlə şərtlənib" [4, s. 29]. Araşdırmalar göstərdi ki, cinsi tərbiyə problemi ən azı aşağıdakı cəhətlər baxımından diqqəti cəlb edir:

a) cinsi tərbiyə probleminin öyrənilməyə başlandığı vaxt çox qədim bir tarixə malikdir;

b) bu sahədə hələ də sistemli tədqiqat aparılmayıb, onun çoxsaylı sahələri kifayət qədər öyrənilməyib;

c) cinsi tərbiyə eyni zamanda əxlaqi, mənəvi problemdir;

ç) cinsi fərqlər özünü uşaq doğulduğu gündən göstərir, deməli, cinsi tərbiyə ilə də uşaq dünyaya gəldiyi gündən məşğul olmaq lazımdır.

Bir çox müəlliflər Ə.Ə.Əlizadə [1], R.İ.Əliyev [2], İ.S.Kon [4] və b. göstərir ki, uşaq hələ dünyaya gəlməmişdən əvvəl valideynlər cinsi mənsubiyyətindən asılı olaraq ona fərqli münasibət bəsləyirlər. R.İ.Əliyev yazır: "Dünyaya gələcək uşağın oğlan və qız olacağından asılı olaraq valideynlər ona münasibətini müəyyənləşdirir, onun tərbiyəsi ilə necə məşğul olacağını təsəvvür edir, elə bil ki, buna hazırlaşır. Valideynlərin oğlan və qız barədə müxtəlif arzu, istək, fikir, münasibətləri və qayğıları uşaqların tərbiyəsi prosesində bütün dolğunluğu ilə əks olunur. Ata və ana istər-istəməz oğlanların tərbiyəsi ilə bir cür, qızların tərbiyəsi ilə başqa cür məşğul olur, onlara birbaşa və dolayısı ilə müxtəlif keyfiyyətlər, cinsi mənsubiyyət hissi aşılayırlar" [2, s. 42].

Yuxarıda deyilənlər cinsi fərqlər və cinsi tərbiyə ilə bağlı çoxsaylı suallar yaradır. Biz ilk növbədə cinsi fərqlər və cinsi tərbiyənin psixoloji xüsusiyyətləri və şəxsiyyətin formalaşmasına onun təsiri üzərində dayanmaq istərdik.

İlkin olaraq qeyd etmək istərdik ki, hər hansı bir insan cəmiyyətində oğlan və qızlar özlərini fərqli şəkildə aparır. İstənilən hər hansı bir insan cəmiyyəti oğlan və qızlardan fərqli davranış tələb edir, onlara fərqli münasibət bəslənir.

Cinsi fərqlər və ona müvafiq olaraq cinsi tərbiyənin psixoloji xüsusiyyətləri o dərəcədə müxtəlifdir ki, bunu hətta insanlığın cinsi sosiallizasiyası mədəniyyəti adlandırmaq olar.

Oğlan və qızların sosializasiyası məzmunca bir-birindən necə fərqlənir? Bu suala cavab, bir tərəfdən, onların psixoloji xüsusiyyətlərindən, digər tərəfdən, cəmiyyətin onlarda hansı əxlaqi-psixoloji keyfiyyətləri görmək istəməsindən asılıdır.

Cinsi sosializasiyanın mühüm amili nədir və kimdir? Valideynlər, yoxsa başqa uşaqlar, öz həmcinsi, yoxsa əks cinsin nümayəndəsi?

Psixoloji tədqiqatlar birmənalı şəkildə burada valideynlərin rolunu yüksək qiymətləndirir. Uşağın ilkin sosializasiyası doğulduğu andan, anatomik cinsi mənsubiyyət müəyyənləşən kimi başlayır. Valideynlər və digər yaşlılar onlara cinsindən asılı olaraq qadın və ya kişi rolunu öyrədirlər.

Psixoloji tədqiqatlar (Ə.Ə. Əlizadə, İ.S. Kon və b.) onu da göstərir ki, uşaq cinsi mənsubiyyətini 1,5 yaşından başlayaraq bilir və tədricən onun daha vacib cəhətlərini mənimsəyir. 3-4 yaşlı uşaqlar artıq ətrafdakı adamların cinsi mənsubiyyətini fərqləndirə bilirlər. Hətta intuitiv şəkildə onlar daha əvvəl kişi və qadınları fərqləndirə bilir, onlara müxtəlif cür reaksiya verirlər. Üç yaşından sonra uşaqlar cinsi fərqləri zahiri əlamətlərə, geyimə, paltara görə fərqləndirirlər. Həmçinin cinsi mənsubiyyətin dəyişdiyini fikirləşirlər. Bir çox hallarda 3-4-5 yaşlı uşaqlar valideynlərinə belə suallar verirlər. "Ana, sən balaca olanda oğlan idin, yoxsa qız?" "Mən böyüyəndə kişi olacağam. Bəs, mən nə vaxt qız olacağam?" [4, s. 31].

6-7 yaşlı uşaqlar özlərinin cinsi mənsubiyyətini tamamilə dərk edir və bu özünün əksini onların davranışında da tapır. Oğlan və qızlar özləri, böyüklərin təsiri olmadan belə müxtəlif oyunlar oynayır, özlərinə tərəfdaş seçirlər.

Uşaqların hansı əlamətlərə görə özlərinin və başqalarının cinsi mənsubiyyətlərini müəyyənləşdirdikləri mübahisəlidir. Bəziləri bədən quruluşunu, digərləri isə böyüklərin onlara münasibətlərinin təsirini qeyd edirlər.

Yuxarıda qeyd etdiyimiz kimi, cinsi fərqlər həm psixoloji mahiyyət kəsb edir, həm də sosial mühitin təsiri altında formalaşır. Başqa sözlə, valideynlərin və digər böyüklərin uşaqlarda tərbiyə etmək istədikləri keyfiyyətlərdən asılı olaraq inkişaf edir.

Psixoloq və pedaqoqlar, valideynlər, bütövlükdə cəmiyyət həm insanlar arasındakı münasibətlərdən, həm də iqtisadi, mənəvi-psixoloji durumdan asılı olaraq oğlan və qızların tərbiyəsinə müxtəlif mövqedən yanaşmışlar. Müasir dövrdə oğlan və qızların tərbiyəsinə, onlarda hansı keyfiyyətlərin inkişafına diqqət yetirdiklərini müəyyənləşdirmək üçün biz 52 nəfər ailə qurmağa hazırlaşan gənc oğlan və qızlara, eləcə də təzə ailə qurmuş ər-arvada müraciət etdik.

Sorğuda iştirak edən 45 faiz qadın və 41 faiz kişi müasir dövrdə iqtisadi çətinliyin olduğunu qeyd etməklə bərabər, mənəvi-psixoloji sahədə müəyyən dəyişikliyin olduğunu bildirdilər. Eyni zamanda onlar çətinliyin ailəyə, ər-arvad münasibətlətinə təsir etməməli olduğunu söyləmişlər. Bildirmişlər ki, ailədə ilk növbədə səmimiyyət, qarşılıqlı inam və kömək olmalıdır. Hər cür iqtisadi, maddi çətinlik olsa da, uşaqların sayı çox olmalıdır. Başqa sözlə, onlar ailədə uşaqların sayının 4-6 arasında olmasını məqbul hesab etmişlər.

Sorğunun nəticələrindən göründüyü kimi, nəsillər arasında bu sahədə kifayət qədər fərq olduğu özünü göstərir. Bu ilk növbədə gənclərin və gənc ailələrin maddi təminata, nisbətən yaşlı nəslin isə mənəvi-psixoloji, qarşılıqlı anlaşmaya münasibətlərində özünü göstərir.

Nəsillər arasındakı fərqin cəlb edən tərəflərindən biri də gənclərin ailə həyatında daha çox məsuliyyəti əks cinsin üstünə atması ilə bağlıdır. Onlar eyni zamanda ailədə daha az uşağın olmasını istəyirlər. Diqqəti cəlb edən digər bir cəhət isə müasir gənclərin öz övladlarına daha yaxşı təhsil vermək istəmələrindən ibarətdir.

Nəsillər arasında göstərdiyimiz bu fərqlər təbii ki, gələcəkdə Azərbaycan ailəsində oğlan və qızların tərbiyəsində, ər-arvad münasibətlərində baş verəcək dəyişiklikləri indidən söyləmək imkanı verir. Burada ilk növbədə milli adət və ənənələrimizin, münasibətlərin müəyyən mənada dəyişəcəyi gözlənilir. Təbii olaraq bu prosesin özbaşına, pərakəndə şəkildə inkişafına

yol vermək olmaz. Xüsusilə, məktəbin, pedaqoji kollektivin də üzərinə müəyyən vəzifələr düşür. Onlar təlim-tərbiyə prosesində ailə münasibətləri, övlad tərbiyəsi barədə pedaqoji maarifləndirmə işi ilə də məşğul olsalar daha faydalı olar.

Nəticə. Müəyyənləşdirilmişdir ki, təhsil sistemi, təhsilin məzmunu milli təfəkkür tərzinə, milli mənlik şüuruna, milli özünüdərkə əsaslandırdıqda, onun formalaşdırılmasına xidmət etdikdə həm təlim müvəffəqiyyəti yüksəlir, həm də şagirdlər milli mənəvi dəyərləri daha yaxşı və asan qəbul edir, öyrənirlər.

Tədqiqatın elmi yeniliyi. Şagird şəxsiyyətinin formalaşması problemi ilk dəfədir ki, ictimai mühit, iqtisadi durum, milli xüsusiyyətlər, ailə tərbiyəsi və təhsilin kompleks təsiri baxımından öyrənilir, onların şagirdin yaşıdları, müəllimlər, valideynlər, ətrafdakı adamlarla qarşılıqlı münasibətlərinin qurulmasına, təlim fəaliyyətinə təsiri tədqiq olunur.

İşin tətbiqi əhəmiyyəti. Tədqiqatın nəticələrindən orta ixtisas və ali pedaqoji məktəblərdə, kadr hazırlığı ilə məşğul olan müəssisələrdə ixtisasartırma kursunda istifadə oluna bilər.

Ədəbiyyat

1. Bayramov, Ə.S. Psixologiya. Ali məktəblər üçün dərslik / Ə.S.Bayramov, Ə.Ə.Əlizadə. − Bakı: Maarif, − 2009.
2. Əliyev, R.İ. Şagird şəxsiyyətinin formalaşmasında milli xüsusiyyətlərin nəzərə alınması / R.İ.Əliyev, − Bakı: Maarif, − 2015.
3. Əliyev, R.İ. Şagird şəxsiyyətinin formalaşmasında cinsi xüsusiyyətlərin rolu // Azərbaycan məktəbi, − 2018, №9, − s.48-52.
4. Кон, И.С. Психология половых различий журнал Вопросы психология // − 2001, №2.

A.V.Sadigova

The Role of Parents in the Formation of a Student's Personality on a National Basis

Summary

As a result of the research, it once again became clear that a person, being a biological and social being, from the day of his birth to the end of his life is formed under the influence of his environment and upbringing, carrying within himself the genes of the people to whom he belongs. The Azerbaijani people have every opportunity to become one of the most advanced nations in the world in terms of their intellectual potential and development, national character, and Azerbaijan is one of the developed and advanced states in the world.

Key words: *sex education, national spirit, personality formation, nationality, pedagogical literature*

А.В.Садыгова

Роль родителей в формировании личности ученика на национальной основе

Резюме

В результате исследований еще раз стало ясно, что человек, будучи биологическим и социальным существом, со дня своего рождения и до конца жизни формируется под влиянием среды и воспитания, неся в себе гены народа, которому он принадлежит. Азербайджанский народ имеет все возможности стать одной из самых передовых наций мира по своему интеллектуальному потенциалу и развитию, национальному характеру, а Азербайджан одним из развитых и передовых государств мира.

Ключевые слова: *половое воспитание, национальный дух, формирование личности, национальность, педагогическая литература*

Rəyçi: ped.e.d., dos. T.B.Eminli

Redaksiyaya daxil olub: 06.05.2024

N.B.SALMANOVA
professor

Ş.H.ƏBDÜRƏHMANOV
professor

R.Ş.ƏBDÜRƏHMANOV
dosent

S.Q.QARAYEVA
dosent

Azərbaycan İdman Akademiyası
(Bakı şəh., Fətəli xan Xoyski pr., 98)

:10.62021/0026-0028.2024.2.241

YENİYETMƏLƏRİN ASUDƏ VAXTININ SƏMƏRƏLİ TƏŞKİLİ VƏ FƏAL HƏYAT TƏRZİNİN FORMALAŞMASINDA KÜTLƏVİ-SAĞLAMLIQ İDMAN NÖVLƏRİNİN ROLU

Xülasə: *Tədqiqat üçün seçdiyimiz mövzu bu gün ən aktual problemlərdən biridir. Cəmiyyətimizin mənəvi inkişaf səviyyəsi ən yüksək və pak mənəviyyat prinsiplərini və normalarını yeniyetmələrin şüurunda və davranışında möhkəmləndirməyi bir aktual problem kimi qarşıya çıxarır. Yeniyetmələrin həyat tərzi, asudə vaxtlarının səmərəli təşkili, zərərli vərdişlərə cəlb olunmamaları valideynlərin, müəllimlərin, məşqçilərin ən vacib vəzifələrindən biridir. Daha vacib məsələ yeniyetmələrin asudə vaxtını onların marağına səbəb olan vasitələrlə təşkil etməklə onlarda fəal həyat tərzinin formalaşdırılmasıdır.*

Açar sözlər: *yeniyetmə,asudə vaxt, fəal həyat tərzi, idman, kütləvi-sağlamlıq idman növləri, iradi-mənəvi keyfiyyətlər*

Yeniyetmələr arasında aparılan sorğu nəticəsində aydın oldu ki, asudə vaxtın səmərəli təşkilinin əsas vasitələrindən biri kimi idmanla məşğul olmaq birinci sırada yer alır.

İşin təşkili: Hər bir yeniyetmənin fəal həyat tərzi təkcə onu əhatə edən mühit və şəraitdən deyil, eləcə də onun özündən, qarşıya qoyduğu məqsəddən, seçdiyi həyat yolundan, bu yolda göstərdiyi fədakarlıqdan və alışqanlıqdan asılıdır. Buna görə də hər bir yeniyetmənin dərin zəkalı, hərtərəfli inkişafa malik şəxs kimi formalaşıb yetişməsinə, özündə şəxsi məsuliyyət hiss etməsinə, cəmiyyətin ixtiyarlı, xoşbəxt üzvü kimi tanınmasına çalışmaq lazımdır.

Ümummilli Lider H.Əliyev 1979-cu il aprel ayında keçirilən "Fəal həyat mövqeyinin formalaşdırılması: mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri"nə həsr olunan elmi-praktik konfransda etdiyi məruzəsində şəxsiyyətin fəal həyat mövqeyi anlayışının mahiyyətinə belə açıqlama vermişdir: "Fəal mövqe şəxsiyyətin ... əqidəsini, onun iradə zənginliyini, ideya-mənəvi düşüncələrini ifadə edərək, insana yeni-yeni məsələləri irəli sürüb, həll etməkdə, çətin şəraitdə özünü itirməməkdə, qətiyyətli hərəkət etməkdə, öz üzərinə məsuliyyət götürməkdə kömək edir. Fəal mövqe bəşəriyyətin hazırladığı bütün mənəvi sərvətlərlə öz daxili aləmini daim zənginləşdirməyi tələb edir..." [1, s. 15].

Şəxsiyyətin hərtərəfli inkişafı əl ilə başın eyni vaxtda fəaliyyəti zamanı mümkündür. Başqa sözlə, əl icra etdiyini baş düşünsün və əksinə, baş düşündüyünü əl icra etsin. Şəxsiyyətin hərtərəfli inkişafında fiziki tərbiyənin rolu haqqında dünyanın aqilləri, filosofları, görkəmli pedaqoqları müxtəlif fikirlər söyləmişlər. Onlar insanların fiziki sağlamlığına xidmət edən fi-

ziki tərbiyəni şəxsiyyətin hərtərəfli inkişafının əsas komponenti saymışlar. Elə bu səbəbdən də yunanlar deyirlər ki, sağlam bədəndə sağlam ruh olar. Sağlamlıq normal yaşayışın ilkin şərtidir. Çünki cəmiyyətin ən qiymətli sərvəti insandır, dünyanın ən böyük möcüzəsi olan insanın sağlamlığı təmin olunmasa fəaliyyətin müxtəlif sahələrində müvəffəqiyyət qazanmaq olmaz. Buna görə də insanların sağlamlığı hələ Hippokrat dövründən müdrik insanların diqqət mərkəzində olmuşdur. Antik dövrün böyük filosofu Platon sağlamlığı insan üçün birinci xoşbəxtlik hesab edirdi. Hippokrata görə, isə hərəkətsiz müalicə yoxdur. Loğman adı ilə tanınan Əbu Əli ibn Sina deyirdi:

Vərzişlə yaxşıca olsan aşina,
Çatarsan fərəhlə sən yüz yaşa.

Misralardan göründüyü kimi böyük təbib və alim Əbu Əli ibn Sina fiziki hərəkət məşğələlərini uzun ömürlüyün əsas komponenti saymışdır.

Böyük Çex pedaqoqu Y.A.Komenski uşaqların erkən yaşdan fiziki hərəkətlərlə müntəzəm məşğul olmalarını tövsiyə edərək göstərirdi ki, uşaqlarla aparılan fiziki və zehni hazırlıq onlarda əməksevərliyə çevrilməlidir.

Görkəmli pedaqoq V.A.Suxomlinski insanın hərtərəfli və ahəngdar inkişafının ən mühüm əlaməti kimi bədən tərbiyəsinin rolunu xüsusilə qiymətləndirirdi. Suxomlinski yazır: "Bədən tərbiyəsi – əvvələn, sağlamlıq və ən yüksək sərvət olan həyatın qorunması üçün qayğıdır; ikincisi, fiziki inkişafın və mənəvi həyatın, insanın çoxcəhətli fəaliyyətinin ahəngdarlığını təmin edən iş sistemidir" [3, s.88].

V.A.Suxomlinski haqlı olaraq göstərirdi ki, bədən tərbiyəsi insan şəxsiyyətinin əxlaqi ləyaqət, hiss və münasibətlərin təmizliyi və nəcibliyi, həyati ideal, əxlaqi və estetik meyardır. O qeyd edirdi ki, yeniyetmələr öz sağlamlıqlarına qayğı göstərməklə, başqa adamların sağlamlığı, istirahəti, həyatın dolğunluğu üçün zəruri olan şərait yaradırlar. Özünə qarşı dəqiqlik başqalarına laqeydlik hesabına inkişaf etməlidir.

Dahilər öz əsərlərində asudə vaxt anlayışını şəxsiyyətin ahəngdar inkişafı üçün zəruri şərt kimi dərindən əsaslandırmışlar. Onlar asudə vaxtı dincəlmək üçün, bir vətəndaş kimi öz hüquqlarından istifadə etmək üçün vaxt kimi müəyyən etmişlər. Beləliklə, bu vaxt şəxsiyyətin intellektual və fiziki təmayül və qabiliyyətinin inkişafına, sosial tələbatının ödənilməsinə xidmət edir. Bu mənada asudə vaxt həqiqətən ictimai sərvət meyarıdır.

Asudə vaxtdan səmərəli istifadə olunması yeniyetmələrin ideya-siyasi, əmək və mənəvi tərbiyəsi sahəsində dövlətin müxtəlif təşkilatlar qarşısında qoyduğu vəzifələrin çox mühüm tərkib hissələrindən biridir. Asudə vaxtdan istifadə edilməsinə dövlət rəhbərliyi məsələsinin aktuallığı yeniyetmələrin asudə vaxtının artması, ondan düzgün və səmərəli istifadə etmək imkanlarının genişlənməsi, asudə vaxtdan səmərəli istifadə olunmasına ictimai təsirin güclənməsi kimi getdikcə daha aydın təzahür edən meyillərlə də müəyyən edilir. Digər sözlə deyilsə, onunla müəyyən edilir ki, asudə vaxtın artması həyatımızın obyektiv meyilinə çevrilir, onun təşkil edilməsinə tələbat isə mühüm ictimai zərurətə çevrilir.

Yeniyetmələrin bir qismi öz asudə vaxtını müxtəlif texniki bölmələrin, dərnəklərin, idman bölmələrinin işində iştirak etməklə keçirirlər. Nəticə etibarilə bu, ixtisasın artmasında, səmərələşdiricilər, ixtiraçılar hərəkatının genişlənməsində və nəhayət, əmək məhsuldarlığının yüksəldilməsində və məhsulun keyfiyyətinin yaxşılaşmasında öz əksini tapır.

Yeniyetmə yaşa dolduqca artıq təsadüfi məşğələlər deyil, özünütərbiyə vasitəsi kimi idmanın müxtəlif növləri ilə məşğul olmağa başlayır. Onlar müxtəlif idman bölmələrinə yazılır, idman dərəcəsi almağa çalışırlar. İdman məşğələləri bir çox yeniyetmələrin ünsiyyət vasitəsinə çevrilir.

Yeniyetmələr çox vaxt özləri tərtib etdikləri planı yerinə yetirməkdə çətinlik çəkirlər. Bu isə onlarda özünəinam hissini itirir, zəruri keyfiyyətləri qazanmağa maneçilik törədir. Bu-

rada müəllim və məşqçilər yeniyetməni müntəzəm surətdə müstəqilliyə alışdırmalı, onda öz qüvvəsinə inamı formalaşdırmalıdırlar.

Yeniyetmələrin bədən tərbiyəsi və idman məşğələlərinə cəlb olunması onların asudə vaxtını təşkil etməyin mühüm cəhətlərindən biridir. Bədən tərbiyəsi və idman insanın sağlamlığını möhkəmləndirməyin, onun iş qabiliyyətinin artmasının mühüm amilidir. Minlərlə yeniyetmə kollektivlərdə yaradılmış idman bölmələrində məşğul olurlar. İdman iki və ya daha çox şəxsin ruhən, əqlən və cismən mübarizəsindən ibarətdir [2, s. 11].

Yeniyetmələrin tərbiyəsində, onların asudə vaxtının səmərəli təşkilində kütləvi-sağlamlıq idman növlərinin (üzgüçülük, velo idmanı, idman turizmi, poliatlon, triatlon) böyük rolu vardır. Bu idman növləri yeniyetmələrin asudə vaxtının məzmunlu keçməsinin mühüm vasitəsi olmaqla yanaşı, həm də onların vətənpərvərlik tərbiyəsində xüsusi əhəmiyyət kəsb edir. İdmanın bu növləri oğlan və qızların nəinki fiziki cəhətdən bərkiməsində, həm də onların fəal həyat mövqeyinin, əxlaqi-iradi keyfiyyətlərinin formalaşmasında, gənc nəslin əməyə və Vətənin müdafiəsinə hazırlanmasında böyük rol oynayır.

İdman turizminin xüsusiyyətləri yeniyetmələrdə onunla məşğul olmaq üçün daha çox maraq yaradır. İdman turizminin(piyada turizmi, veloturizm) əsas xüsusiyyətlərindən biri onun mümkün olmasıdır. Verilən fiziki yükün öhdəsindən gəlmək üçün yeniyetmə turist lazımi səviyyədə hazır olmadıqda, həddən artıq yüklənmə müşahidə edilir, bu da orqanizmə mənfi təsirlər göstərə bilir. Çünki həddən artıq fiziki yük orqanizmin imkanlarından artıq olur. İdman turizmdə, baxmayaraq ki, fiziki yük mürəkkəbliyinə görə çox yüksək olur, ümumilikdə götürüldükdə güc daxilindədir. Çünki o vaxta görə məhdudlaşdırılmır, əksinə, hətta çox vaxt müddətinə paylaşdırılır.

Kütləvi-sağlamlıq idman növü kimi sağlamlığının təmin olunmasında üzgüçülük əhəmiyyətli rol oynayır. Üzgüçülük orqanizmə hərtərəfli müsbət təsir göstərən, fiziki və funksional inkişafı təmin edən əsas vasitələrdən biridir. Üzgüçülük orqanizmi xarici mühitin təsirinə hazırlayır və bədənin ümumi müqavimətini artırır. Üzgüçülüklə məşğul olan yeniyetmənin emosionallığı çox yüksək olur.

Yeniyetmələrin əksəriyyəti çox həvəslə asudə vaxtlarında poliatlon (atletika, gimnastika, üzgüçülük, atıcılıq hərəkətləri) və triatlon(velosiped sürmə, kross, üzgüçülük) kimi çoxnövçülüklə məşğul olurlar. Bu çoxnövçülüklərin orqanizmə təsiri daha çoxdur. Məşğul olanlarda yaxşı əhvali-ruhiyyə, gümrahlıq və fiziki inkişaf müşahidə edilir. Yüksək dərəcəli fiziki və funksional imkanlar yaranır ki, bunlar da həm əmək meydanında, həm də idman mübarizəsində lazımdır. Çoxnövçülük gümrahlıq, sağlamlıqla yanaşı yüksək iş görmə qabiliyyətini də artırır. Ciddi məşq prosesində çoxnövçülüyün tərbiyəvi əhəmiyyətini təyin etmək mümkündür. Belə məşğələlər zehni tərbiyəyə də təsir göstərirlər. Məlum olduğu kimi, yeni hərəkətlərin mənimsənilmə qabiliyyətinin inkişafı əsasında sinir sisteminin plastikliyi, yəni koordinasiya hadisəsinin yenidən qurula bilmə, xarici və daxili mühitin müxtəlif təsirlərinə qarşı uyğunlaşma qabiliyyəti durur. Öz növbəsində sinir sisteminin plastikliyi, hərəkət fəallığının hərtərəfli inkişafı nəticəsində təkmilləşir, daha da inkişaf edir. Fiziologiyanın məlumatlarına əsasən məşq prosesində müxtəlif koordinasiyalı standart olmayan hərəkətlərdən istifadə edilməsi plastikliyin təkmilləşməsi üçün əsas imkan yaradır. Çoxnövçülüklə məşğul olduqda orqanizmin hərəkət fəallığı artır. Məşğul olanlarda yeni bacarıq və vərdişlər yaranır.

Çoxnövçülüyün çox böyük tətbiqi əhəmiyyəti vardır. O asudə vaxt problemini həll etməklə yanaşı, hər bir yeniyetmədə fəal həyat tərzini formalaşdırmaqla yanaşı, onlarda Vətəni müdafiə üçün lazım olan bacarıq və vərdişlərin tərbiyə edilməsini təmin edir.

Apardığımız araşdırma nəticəsində aydın oldu ki, kütləvi-sağlamlıq idman növləri ilə məşğul olan yeniyetmələr yaşıdları ilə müqayisədə fəaliyyət zamanı özlərinə daha çox güvənir, sürətli düşünmə və qərar qəbuletmə potensialına malik olurlar və onlarda iradi-mənəvi keyfiyyətlər formalaşaraq əsrimizin bəlasına çevrilmiş narkotik vasitələrdən, siqaret, spirtli içki asılılığından uzaq durmalarına əhəmiyyətli təsir göstərmiş olur.

İşin elmi nəticəsi: yeniyetmələrin asudə vaxtının səmərəli təşkili və onlarda fəal həyat tərzinin formalaşdırılması üçün kütləvi-sağlamlıq idman növləri ilə məşğul olmaq tətbiq olunur.

İşin elmi yeniliyi: yeniyetmələrin asudə vaxtının səmərəli təşkili və onlarda fəal həyat tərzinin formalaşdırılması haqqında nəzəri təhlil həyata keçirilmiş, kütləvi-sağlamlıq idman növləri seçilmiş və tətibiq edilmişdir.

İşin tətbiqi əhəmiyyəti: yeniyetmələrin asudə vaxtının səmərəli təşkili və onlarda fəal həyat tərzinin formalaşdırılması sahəsində səmərəli fəaliyyət üçün valideynlərə, müəllimlərə, məşqçilərə təkliflər tövsiyə edilmişdir.

Ədəbiyyat

1. Fəal həyat mövqeyinin formalaşdırılması: mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri‖ mövzusunda 1979-cu il aprelin 25-27-də Bakıda keçirilmiş ümumittifaq elmi-praktik konfransında Heydər Əliyevin məruzəsi. – Bakı: Azərnəşr, 1979. – 62 s.
2. Əliyev, K. İdmançının qələbə psixologiyası / K.Əliyev. − Bakı: Ozan, − 2008, − 200 s.
3. Suxomlinski, V.A. Vətəndaşın doğulması / V.A.Suxomlinski. − Bakı: Maarif, − 1975, − 361 s.

N.B.Salmanova, Sh.H.Abdurakhmanov,
R.Sh.Abdurakhmanov, S.G.Garayeva

The Role of Mass Health Sports in the Effective Organization of Leisure and Formation of an Active Lifestyle of Youth

Summary

The topic that we have chosen for research is one of the most pressing problems of our time. The level of spiritual development of our society represents an urgent task to strengthen the highest and purest moral principles and norms in the consciousness and behavior of adolescents. One of the most important tasks of parents, teachers and coaches is effectively organize the lifestyle and free time of teenagers, and not instill in them bad habits. A more important issue is the formation of an active lifestyle in adolescents by organizing their free time in ways that interest them. As a result of a survey conducted among teenagers, it turned out that sports rank first as one of the main means of effectively organizing free time.

Key words: *teenager, free time, active lifestyle, sports, mass recreational sports, volitional and spiritual qualities*

Н.Б.Салманова, Ш.Х.Абдурахманов,
Р.Ш.Абдурахманов, С.Г.Караева

Роль массового оздоровительного спорта в эффективной организации досуга и формировании активного образа жизни подростков

Резюме

Тема, которую мы выбрали для исследования, на сегоднящний день является очень актуальной проблемой. Уровень морального развития нашего общества с ясными принципами и нормами, определяет для нас актуальную проблему. Нужно укрепить её в подсознании и поведении подростков. Одна из важнейших задач родителей, педагогов и тренеров – эффективно формировать образ жизни, организовать свободное время подростков, не прививать им вредные привычки. Более важным вопросом является формирование у подростков активного образа жизни путем организации их свободного времени с интересующими их способами. В результате опроса, проведенного среди подростков, выяснилось, что занятие спортом занимает существенное место в жизни подростков как одно из основных средств эффективной организации свободного времени.

Ключевые слова: *подросток, свободное время, активный образ жизни, спорт, массово-оздоровительный спорт, волевые и духовные качества*

Rəyçi: ped.e.f.d., prof. Y.B.Səmədov

Redaksiyaya daxil olub: 01.04.2024

N.B.SALMANOVA
professor

O.Ə.NOVRUZOV
müəllim, magistr

Z.İ.QƏHRƏMANOVA
dosent əvəzi

Azərbaycan İdman Akademiyası
(Bakı şəh., Fətəli xan Xoyski pr., 98)

:10.62021/0026-0028.2024.2.245

FİZİKİ MƏHDUDLUĞU OLAN ATICILARIN MƏŞQ PROSESİ ÜÇÜN SƏMƏRƏLİ VASİTƏ VƏ METODLARIN TƏYİNİ

Xülasə: *Müraciət etdiyimiz mövzu demək olar ki, bütün zamanlar üçün aktual olub. Söhbət fiziki məhdudiyyətli insanlardan gedir. Bu bir gerçəklikdir ki, bəşəriyyət durduqca, hər zaman cəmiyyətin gündəmində bu məsələ özünə yer alacaq. Əlillik sonradan müəyyən xoşagəlməz hadisələrin nəticəsi olmaqla yanaşı, həm də doğuşdan gələn bir fəsaddır. Yəni bu aktual məsələyə həm də tibbi tərəfdən yanaşılır. Daha vacib məsələ əlillərin reabilitasiyası, onların cəmiyyətə inteqrasiyasıdır. Əlillərin asudə vaxtının səmərəli təşkilinin əsas vasitələrindən biri kimi idman əlillər arasında böyük marağa səbəb olmuşdur.*

Açar sözlər: *atıcılıq, pnevmatik tapança, məşq prosesi, fiziki məhdudiyyət, sabitliyin pozulması, metod*

İşin təşkili: Azərbaycan Respublikası BMT Baş Məclisinin qəbul etdiyi konsepsiyaya qoşulmuş və aşağıdakılara riayət etməkdədir:

1. İştirakçı dövlətlər əlillərin digər şəxslərlə bərabər mədəni həyatda iştirak etmək hüququnu tanıyır və bütün zəruri tədbirləri görürlər ki, əlillər:

a) münasib formatlarda sənət əsərlərindən istifadə edə bilsinlər;

b) münasib formatlarda televiziya proqramlarından, filmlərdən istifadə, teatr və digər mədəni tədbirlərdə iştirak edə bilsinlər;

c) teatr, muzey, kinoteatr, kitabxana və turizm xidmətləri kimi mədəni tədbir və xidmətlərdən yararlanma, həmçinin mümkün olduqca milli mədəni əhəmiyyət kəsb edən abidə və obyektlərə baxma imkanı əldə edə bilsinlər.

2. İştirakçı dövlətlər yalnız əlillərin rifahı üçün deyil, həmçinin cəmiyyətin zənginləşdirilməsi naminə əlillərə yaradıcı, bədii və intellektual potensiallarını inkişaf etdirmək imkanını yaratmaq üçün bütün zəruri tədbirləri görür.

3. İştirakçı dövlətlər beynəlxalq hüquqa müvafiq olaraq, əqli mülkiyyət hüquqlarının qorunması haqqında qanunların əlillərin mədəniyyət əsərlərindən istifadələrinə əsassız və ya diskriminasiya xarakterli maneə olmaması üçün bütün zəruri tədbirləri görür.

4. Əlillərin jest dilləri və karların mədəniyyəti daxil olmaqla, xüsusi mədəni və dil özünəməxsusluğunun tanınmasına və dəstəklənməsinə digər şəxslərlə bərabər səviyyədə hüquqları vardır.

5. Əlillərə digər şəxslərlə bərabər asudə və istirahət vaxtını keçirmək və idman tədbirlərində iştirak etmək imkanının verilməsi üçün iştirakçı dövlətlər aşağıdakı məqsədlər üçün zəruri tədbirləri görürlər:

a) əlillərin bütün səviyyəli ümumi profilli idman tədbirlərində iştirakının təbliği və təşviqi;

b) əlillərə, xüsusilə əlillər üçün nəzərdə tutulan idman və asudə vaxt tədbirlərini təşkil etmək, inkişaf etdirmək və bu tədbirlərdə iştirak etmək imkanının yaradılması və bununla əlaqədar digər şəxslərlə bərabər təhsil, hazırlıq və resurslarla təmin olunmalarına yardım edilməsi;

c) əlillərin idman, rekreasiya və turizm obyektlərindən istifadə etmək imkanının təmin edilməsi;

d) əlil uşaqların digər uşaqlarla birlikdə asudə və istirahət vaxtının keçirilməsində, oyunlarda, yarışlarda və ya idman tədbirlərində, o cümlədən məktəb sistemi çərçivəsində keçirilən tədbirlərdə iştirak etmək imkanının təmin edilməsi;

e) əlillərin asudə vaxtının, turizmin, istirahət və idman tədbirlərinin təşkili ilə məşğul olanların xidmətlərindən istifadə imkanının təmin edilməsi [2, s. 5].

Əlillərin asudə vaxtının səmərəli təşkilinin əsas vasitələrindən biri kimi idman əlillər arasında böyük marağa səbəb olmuşdur.

Güllə atıcılığında müxtəlif fiziki məhdudiyyəti olan idmançılara fərdi və komanda yarışlarında birgə mübarizəyə imkan verən funksional təsnifat sistemindən istifadə olunur. İdmançılar mövcud fiziki məhdudiyyətdən (bədəninin yuxarı və aşağı ətrafların hərəki qabiliyyəti, əzələ gücü, cəldlik dərəcəsi və görmə itiliyindən) asılı olaraq qruplara bölünürlər:

1. SH1 – Silahı saxlamaq üçün əlavə dayaqdan istifadə etməyənlər
2. SH2 – Silahı saxlamaq üçün əlavə dayaqdan istifadə
3. SH3 – Yalnız SH1 və SH2 qrupları üzrə Paralimpiya oyunlarında yarışlar keçirilir.

İdmançılar 22 kalibrli tüfəng və havalı tapançalardan(sıxılmış hava və ya sıxılmış qazla CO_2 və ya yaylı) istifadə edirlər. Tətiyin çəkilməsi zamanı qaz CO2 maye halından qazaoxşar hala düşür və güllənin hədəfə doğru hərəkətinə təkan verir. 10 m məsafəyə atəş açmada 4.5mm, 25m və 50m məsafəyə atəş açmada 5.6 mm kalibrli güllələrdən istifadə olunur.

Yarışlarda hərəkət məhdudluğu olan idmançılar 3 vəziyyətdən atəş açırlar:

* stullardan istifadə etməklə ayaq üstə vəziyyətində – standing
* istinad stollarından istifadə etməklə diz üstü vəziyyətində – kneeling
* uzanılmış vəziyyətdə – prone

Fiziki məhdudluğu olan atıcılar qüsurlarının dərəcəsindən asılı olaraq, müxtəlif psixoloji hallara malikdirlər. Bunu nəzərə alaraq, onların məşqində tətbiq olunan əsas metod fərdi yanaşma olmalıdır.

Diqqətin pozulmasını xarakterizə edən amillər siyahısında sidiyin ifrazı ilk yerdədir. Bu problemi aradan qaldırmaq üçün biz həmin atıcıları hər məşqdə 70 güllədən sonra mütəmadı olaraq sidiyin ifraz olunması aktını yerinə yetirməyi tapşırdıq (yarış qaydalarına əsasən qadınlar 40, kişilər 60 güllə atır). 3 aydan sonra artıq bu hal onlarda avtomatlaşmış hala çevrildi.

Ardıcıl dəqiq atəşlərdən sonra, hətta müsbət emosiyaların nəticəsində qan-damar sistemində ritmin artması ilə əlaqədar əzələlərdə yaranan titrəyişləri aradan qaldırmaq üçün biz aromaterapiyadan istifadə etdik. Təsadüfi deyil ki, bu gün aromaterapiya – efir yağlarının vasitəsi ilə orqanizmə təsir etmə müxtəlif sahələrdə tətbiq olunur. Müxtəlif ətirlərin vasitəsilə istənilən vaxt əhvalı-ruhiyyəni yüksəltmək mümkündür. Güllə atıcıları müəyyən atəşlərdən sonra əllərində olan tərləməni silmək məcburiyyətində olurlar. Bildiyimiz kimi, hal-hazırda müxtəlif ətirli kağız dəsmallar istehsal olunur. Biz atıcıların hansı iyi daha çox xoşladığını sorğu vasitəsilə müəyyən etdik:

Muradov Əkbər – limonun ətrini (yorğunluğu aradan qaldırır, yuxuya meyilliliklə mübarizə aparmağa kömək edir və insanda iş qabiliyyətini daha da artırır).

Zeynalov Kamran – mixək ətrini (çox incə bir ətrə malikdir ki, onunla əqli hücuma keçməmişdən öncə nəfəs almaq çox faydalı olur. O, həmçinin vacib məsələlərin həllinə hazırlaşanda da yardımçı ola bilər, belə ki insanın zehnini gücləndirir).

Məmmədov Elşad – çobanyastığı ətrini (sinir sistemini sakitləşdirir).

Biz atıcılara məşq prosesində belə ətirlər hopdurulmuş kağız dəsmallar payladıq və onlardan istifadə etməyi tapşırdıq. Bu atıcılar tərəfindən maraqla qarşılandı və nəticəsi müsbət oldu.

Rənglər də məşq prosesində atıcıların davranışına müəyyən təsir göstərir. Diqqət yetirsək, görərik ki, atıcılıq idmanında güllələr üçün nəzərdə tutulmuş qabların əksəriyyətində daha çox sarı və yaşıl rəngə üstünlük verilir.

Ruh düşkünlüyünü aradan qaldırmaq üçün sarı rəngdən istifadə olunur. Əzələləri gücləndirir, həzm sisteminə təsir edir. Depressiyanı azaldır, melanxoliya əlamətlərini aradan qaldırır. Mənfi emosiyalardan təmizlənməyə köməkçi olur. Coşğu və optimizm yaradar. Sarı ağılın rəngidir və zehni qabiliyyətləri inkişaf etdirir. Bunun üçün də atıcılara sarı rəngdə idman köynəklərində məşq etmək tövsiyə olundu.

Yaşıl inadcıllıq, təkidlilik, öz maraqlarına, mənafeyinə sadiq qalmaq rəngidir. Bu rəng qələbəyə can atmağı yüksəldir, daxili harmoniyaya dəctək olmağa kömək edir. Yoxlama yarışlarında yaşıl rəngli idman köynəklərində iştirak etmək tapşırıldı.

Gözlərdə yorğunluğun yaranması ilə əlaqədar görmə itiliyinin zəifləməsini aradan qaldırmaq üçün biz məşq prosesində aşağıdakı hərəkətləri tətbiq etdik:

1. Gözü hərəkətə gətirən əzələlər üçün hərəkətlər kompleksi.
2. Göz hərəkətlərinin koordinasiyası üçün hərəkətlər kompleksi (boyun əzələlərinin iştirakı ilə).
3. Tennis topu ilə hərəkətlər kompleksi (bütün göz əzələləri iştirak edir).
4. Gözü hərəkətə gətirən əzələlərin tonusu üçün hərəkətlər kompleksi.

Müxtəlif hallar olur ki, silahın tətiyində təmirə ehtiyac yaranır. Sözsüz ki, təmir olunmuş tətik işlək hala gətirildikdə əvvəlkinə nisbətən gərgin olur və atıcıdan daha çox qüvvə tələb edir. Bəzən atıcı yarışlara hazırlaşan zaman öz silahının tətiyinin gərilmə xüsusiyyətlərinə həddindən artıq alışır, onu həssaslıqla və yüksək səviyyədə idarə edə bilir. Lakin yarışqabağı tətik mexanizmində baş vermiş hər hansı bir nasazlıqla əlaqədar silahın təmir edilməsi tətiyin gərilmə xüsusiyyətlərinin də dəyişməsinə səbəb olur. Təmirdən sonra tətiyin tam saz (işlək) vəziyyətdə olmasına baxmayaraq, atıcı onun gərilmə xüsusiyyətlərinin əvvəlkindən fərqləndiyini hiss edir və bu yeni şəraitə uyğunlaşmaqda çətinlik çəkir. Elə buna görə də məşqlər zamanı atıcının eyni hərəkəti hərdən-bir tətiyin gərilmə xarakterini dəyişməklə alternativ (başqa bir) silahla da təkrar etməsi məqsədəuyğun hesab edilir. Bu amili aradan qaldırmaq üçün ay ərzində atıcılara bir neçə məşqdə müxtəlif gərginlikli tətiklərə malik silahlarla məşq etmək tapşırıldı. 3 aydan sonra bu amil üzrə atəşlərdə yayınma aradan götürülmüş oldu.

Sabitliyin pozulması amili də atıcılarda çox da olmasa baş vermiş oldu. Nişanalma zamanı atıcı silahı əlində tərpənməz şəkildə saxlamaq qabiliyyətinə malik olmalı və onun sabit qalmağını təmin etməyi bacarmalıdır. Sabitlik dedikdə, silahın arpacığının 4 saniyə ərzində hədəfin 9-luğuna tərpənməz şəkildə tuşlanmış vəziyyətdə saxlanılması başa düşülür. Atıcının yüksək sabitliyə nail olması barmaq əzələlərinin daha fəal aktivliyinə səbəb olur. Bu məqsədlə məşqin hazırlayıcı hissəsində 10 dəqiqə boş silahla tuşlama hərəkətləri tətbiq olundu.

Nəfəssaxlama zamanı gərginliyin artması və hərəkətlərin bir-biri ilə uzlaşdırılmaması amili demək olar ki, aşağı dərəcəli atıcıların hamısına məxsus bir vəziyyətdir. Nişan alma zamanı atıcı nəfəsi saxlayarkən döş qəfəsi, qarın, çiyin, üz və s. əzələlərini gərginləşdirir. Belə gərgin vəziyyət atıcıya narahatlıq yaradaraq nişanalma zamanı və tətiyi çəkərkən onun öz hərəkətlərinin uzlaşdırmasını çətinləşdirməklə yanaşı, həm də tez yorulmasına da səbəb olur.

Atəş zamanı atıcının gərgin vəziyyətdə olmasını onun zahiri görünüşündən, yəni üz əzələlərinin gərginliyindən və tənəffüs sistemindəki pozuntudan müşahidə etmək olar. Bu yorğunluğun aradan qaldırılması üçün biz 3-4 seriyadan sonra atıcılara xüsusi hərəkətlər verdik:

1. Çiyin əzələləri üçün hərəkətlər kompleksi.
2. Əl və barmaqlar üçün hərəkətlər kompleksi.

İşin elmi nəticəsi: Fiziki məhdudluğu olan atıcılar üçün səmərəli məşq vasitələri seçilərək məşq prosesində tətbiq olunur.

İşin elmi yeniliyi: Fiziki məhdudluğu olan atıcıların məşq prosesi haqqında nəzəri təhlil həyata keçirilmiş, fiziki məhdudluğa müvafiq məşq vasitələri və metodları seçilmiş və tətibiq edilmişdir.

İşin tətbiqi əhəmiyyəti: Fiziki məhdudluğu olan atıcılar əsasən əl və barmaq falanqalarında ağrı hiss etdikləri üçün, xüsusi hərəkətlər kompleksi tərtib edilmiş və bu kompleks hərəkətlər atıcılıq üzrə paralimpiyacıların məşqində tətbiq olunur.

Ədəbiyyat

1. Əlilliyin qarşısının alınması, *əlillərin* reablitasiyası və sosial müdafiəsi *haqqında* Azərbaycan Respublikasının Qanunu. − 31 may 2018-ci il.
2. BMT-nin Əlillərin hüquqları haqqında" Konvensiyasının icrasına dair Azərbaycan Respublikasının ilk hesabatı. − Yanvar, – 2011
3. Eminbəyli, Y.İ. Atıcılıq idmanı. Dərslik /Y.İ.Eminbəyli, O.A.Stepanova, Z.İ.Qəhrəmanova. − Bakı: Araz, − 2014.

N.B.Salmanova, O.A.Novruzov, Z.İ.Qahramanova

Determination of Effective Tools and Methods for the Training Process of Physically Disabled Shooters

Summary

The topic we are addressing has been relevant for almost all time. We are talking about people with physical disabilities. It is a fact that this issue will always be on the agenda of the society as long as humanity exists. Disability is not only the result of certain unpleasant events, but also a consequence of birth. That is, this urgent issue is approached from a medical point of view. A more important issue is the rehabilitation of disabled people, their integration into society. As one of the main means of effectively organizing the leisure time of the disabled, sports has attracted great interest among the disabled.

Key words: *shooting, air pistol, training process, physical limitation, instability, efficient tool, method*

Н.Б.Салманова, О.А.Новрузов, З.И.Гахраманова

Определение эффективных средств и методов тренировочного процесса стрелков с физическими недостатками

Резюме

Тема, которую мы затрагиваем, актуальна практически во все времена. Речь идет о людях с физическими недостатками. Это факт, что этот вопрос всегда будет в повестке дня общества, пока существует человечество. Инвалидность – это не только результат тех или иных неприятных событий, но и следствие рождения. То есть к этому актуальному вопросу подходят с медицинской точки зрения. Более важным вопросом является реабилитация инвалидов, их интеграция в общество. Как одно из основных средств эффективной организации досуга инвалидов, спорт вызывает большой интерес среди инвалидов.

Ключевые слова: *стрельба, пневматический пистолет, тренировочный процесс, физическое ограничение, нестабильность, эффективный способ, метод*

Rəyçi: ped.e.f.d., prof. Y.B.Səmədov

Redaksiyaya daxil olub: 18.05.24

A.M.SƏFƏRLİ
e-mail: aysel.seferli.2001@mail.ru

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

:10.62021/0026-0028.2024.1.249

KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN YARADICI TƏXƏYYÜLÜNÜN FORMALAŞMASI XÜSUSİYYƏTLƏRİ

Xülasə. *Məqalədə təxəyyülün inkişaf mərhələləri, təxəyyülün komponentləri, kiçikyaşlı məktəblilərin təxəyyül xüsusiyyətləri, təxəyyülün inkişafında nitqin, diqqətin, hafizənin və oxu dərslərinin rolu kimi məsələlər araşdırılır. Həmçinin məqalədə şagirdlərin yaradıcı təxəyyülünün inkişaf etdirilməsinə imkan yaradan əsas şərtlər tədqiq olunur.*

Açar sözlər: *təxəyyül komponenti, təxəyyül xüsusiyyətləri, təsəvvür, yaradıcı təxəyyül, motivasiya səviyyəsi, emosional sfera*

Kiçikyaşlı məktəblilərin formalaşmasının əsas mərhələləri onun təxəyyülünün inkişafı ilə qırılmaz sürətdə bağlıdır. Görkəmli psixoloq L.Vıqotski uşaq yaşlarında təfəkkür, hafizə və təxəyyülün sıx əlaqədə olması nəticəsində, bu üçlüyün birinin inkişaf etməsi ilə digərlərinin inkişafına təsiri haqqında fikirlərin əsasını qoymuşdur. L.S.Vıqotskiyə görə, uşaq təxəyyülünün erkən yaşlardan aktiv inkişaf etməsinə baxmayaraq, o, böyüklərlə müqayisədə daha zəif olur, lakin uşağın həyatında daha çox yer tutur. Bunları nəzərə alaraq uşaqlarda təxəyyülün inkişaf mərhələlərini müəyyənləşdirək. Fransız psixoloqu T.Ribo insanda təxəyyülün inkişafının əsasən üç mərhələsini ayırd etmişdir.

1. Uşaqlıq və yeniyetməlik dövrü − xülya, oyun, nağıl və müxtəlif məzmunlu ideyaların hakim mövqeydə olması mərhələsi;

2. Gənclik dövrü − xəyalların fəaliyyətlərdə gerçəkləşdirilməsi cəhdləri və konstruktiv mühakimələr yürüdülməsi mərhələsi;

3. Yetkinlik dövrü − təxəyyülün intellektə tabe olunduğu mərhələ [1].

Uzun müddət psixologiyada V.Ştern və D.Dyuinin irəli sürdüyü fərziyəyə əsasən, təxəyyülün uşaqlarda daha məhsuldar olduğu fikri aktual olmuşdur. Onlar iddia edirdilər ki, uşağın təxəyyülü daha zəngindir və yaş artdıqca təxəyyül intellektə tabe olaraq rassional düşüncəylə əvəzlənir.

Lakin L.S.Vıqotski təxəyyül problemini yaş aspektində təhlil edərək, bu cür mövqelərin əsassızlığını göstərdi. O, iddia edirdi ki, bütün təxəyyül obrazları real həyatda qazanılan təsəvvür və təəssüratlara əsaslanır. Ona görə də uşağın təcrübəsi yetkin insanın təcrübəsindan daha az, intellekti daha elementar və sadədir, yəni uşağın təxəyyülünün daha zəngin olduğunu söyləmək çətindir. Sadəcə bəzən uşaqlar kifayət qədər təcrübəyə malik olduqda, həyatda qarşılaşdıqlarını özünəməxsus şəkildə izah edir va bu izahlar çox vaxt gözlənilməz və orijinal görünür.

Təxəyyül, istənilən digər psixi proseslər kimi, insan ontogenezində müəyyən inkişaf yolu keçir. O.M.Dyaçenko özünün araşdırmasında göstərmişdir ki, uşaq təxəyyülü öz inkişafında digər psixi proseslərin tabe olduğu qanunlara tabe olur. O, təxəyyülün iki komponentə malik olduğunu müəyyən etmişdir:

– məsələnin həllinin ümumi ideyasının yaranması;

– bu ideyanın həyata keçirilməsinin planının tartib edilməsi.

L.F.Berifainin fikrincə, uşağın təlim şərtlərinə asan uyğunlaşması üçün onlarda təxəyyül aşağıdakı xüsusiyyətlərə malik olmalıdır:

– əşyaların yenidən qurulma prinsiplərini canlandıra bilmək qabiliyyətinə;
– istənilən obyektin tam obrazının yaradılması qabiliyyətinə;
– ilkin məqsədlərdən kənarlaşma və yeni məqsədlərin qoyulması qabiliyyətinə;
– əşya ilə xəyali eksperimentin aparılması, obyektin yeni kontekstlərə daxil edilməsi və müvafiq fəaliyyətə uyğun üsul və ya prinsipləri tapmaq qabiliyyətinə [2].

Müasir tədqiqatçılar göstərmişlər ki, təxəyyülün inkişafının ən yüksək səviyyəsi 8-11 yaşda müşahidə olunur, bu isə kiçik məktəbli yaş dövrüdür. Deməli, məhz ibtidai məktəbdə təxəyyülün inkişaf etdirilməsinə daha çox vaxt və diqqət ayırmaq lazımdır.

Təxəyyül məktəblinin idrak proseslərində nə qədər çox iştirak edərsə, onun öyrənməsi daha aktiv və tədris fəaliyyəti bir o qədər yaradıcı olacaqdır. Təxəyyül tərəfindən yaradılmış hər bir obraz, əsasən, real həyatdan götürülmüş və insanın əvvəlki təcrübəsində olan elementlərdən qurulur. Ona görə də insanın təcrübəsi nə qədər zəngin olarsa, onun təxəyyülü də bir o qədər çox materiala malik olur. Uşaqların təxəyyülünün bu xüsusiyyətlərini nəzərə almaq lazımdır. Yalnız şagirdin materialı necə dərk etdiyini deyil, həm də bu materialın onun təxəyyülündə necə öz əksini tapdığını bilmək vacibdir. Təxəyyülün inkişafı zamanı əşyavi mühitin yalnız müxtəliflik baxımından deyil, həm də uşaqlara təsəvvür etmək, düşünüb tapmaq, yaratmaq imkanı verəcək formada təşkil edilməlidir.

Nitq təxəyyülün inkişafı və fəaliyyəti baxımından əhəmiyyət kəsb edir. Nitqin, eləcə də əyani-obrazlı təfəkkürünün inkişaf etdirilməsi sayəsində uşaqların təxəyyülü əhəmiyyətli dərəcədə dəyişikliyə uğrayır, o, konkret obrazlı komponentlərdən azad olur və mücərrəd təfəkkürün bir sıra elementlərini özündə əks etdirir. Təxəyyül prosesinin başlanğıcında əldə edilmiş təcrübənin əsasını qavrayışlar təşkil edir. Uşağın gördüyü, eşitdiyi, hiss etdiyi hər bir şey onun gələcək yaradıcılığı üçün ilk istinad nöqtəsini təşkil edir. Toplanan materiallar əsasında yeni obrazlar yaradılır. Daha sonra bu materialın mürəkkəb emal prosesi həyata keçirilir.

Yaradıcı təxəyyülün inkişafı diqqət və hafizənin inkişaf səviyyəsindən də asılıdır. Psixoloqların verdiyi məlumatlara görə, məhz bu keyfiyyətlər məktəblilərin təfəkkürünün, yaradıcılıq qabiliyyətlərinin və yaradıcı təxəyyülünün inkişafının əsasını təşkil edir və onların yaradıcı axtarış fəallığını yüksəldir. Doğru şəkildə seçilmiş dərs tapşırıqları kiçikyaşlı məktəblilərin yaradıcı təxəyyülünün inkişafında halledici rol oynayır. Tapşırıq növləri məktəblilərin təfəkkürünün inkişafına müxtəlif şəkildə təsir göstərir. Bu, mətnlərin məzmunu ilə bağlı sualların verilməsi, mənzərənin formalaşdırılması, cavab verən şagirdə əlavə sual vermək bacarığının formalaşdırılması ola bilər. Təxəyyülün çevikliyini artırmaq üçün dərsdə müxtəlif tipli tapşırıq və məsələləri həll etmək, həm də onları araşdıraraq həll xüsusiyyətlərini müzakirə etmək lazımdır. Yeni məsələni həll edərkən onun köhnə məsələlərlə müqayisə etmək va onların həllində yeni elementləri müəyyən etmək lazımdır. Müəllimlər şagirdlərin yaradıcı təxəyyülünü inkişaf etdirmək məqsədilə onları işin nəticələrini müstəqil şəkildə yoxlamasına həvəsləndirə bilər. Onların qarşısında belə bir məsələ qoyulmalıdır; öz nəticələrini digər şagirdlərin cavabları ilə, dərsliklə, lüğətlə, müəllim tərəfindən təqdim edilmiş nümunə ilə müqayisə etməmək, məsələni müstəqil şəkildə yoxlamaq; məsələnin yoxlanması zamanı hansı qaydadan istifadə edəcəklərini müəyyən etmək.

Yaradıcı təxəyyülün inkişaf etdirilməsi üçün Azərbaycan dili və oxu dərslərində müxtəlif metodlardan istifadə etmək lazımdır. Məsələn, mənasına görə bənzər və ya ziddiyyət təşkil edən sözləri seçmək; hekayəni davam etdirmək; yaddaş dəftərçəsini tərtib etmək; hekayə, sözlar, söz birləşmələrini fikirləşib tapmaq; həmin sözlərdən, şəkil va ya sxem üzrə, söz birləşmələri ilə cümlələr qurmaq; cümlələri genişləndirmək; suallar üzrə, mətnin məzmunu üzrə şəxsi təəssüratların əsasında hekayə tərtib etmək; hekayəyə şəkil çəkmək; hekayanin hissələrinə, şeirə ad vermək və s. lazımdır. Bu cür tapşırıqların dərslərin strukturuna daxil edilməsi məktəblilərin təxəyyülünün müxtəlif yaradıcı keyfiyyətlərinin formalaşdırılmasını təmin edir.

Təlim oyunlarının tətbiq edilməsi fərdi və şəxsi keyfiyyətlərin inkişaf etdirilməsinə imkan yaradır. İnteraktiv təlim texnologiyalarının tətbiq edilməsi hər bir şagirdin fəaliyyətini bi-

ləşdirməyə, onun tədris fəaliyyətinin və şəxsiyyətlərarası ünsiyyətini genişləndirməyə imkan verir. Beləliklə, təlimin şagirdin yaradıcılığına istiqamətləndirilməsi müəllimin dərslərin təşkili və keçirilməsi üzrə fəaliyyəti ilə bağlı məqsədə çatmaqdan ibarətdir. Təlimin təşkilində müəllimin oynadığı aparıcı rol onun üzərinə bazi tələbləri qoyur. Belə ki, müəllim peşəkarlığı ilə bağlı irəli sürülmüş tələblər bunlardır: xarici görünüş, ünsiyyət tərzi və insani keyfiyyətlərin müsbət mənada büruzə verməsi, eləcə də şagird kollektivini təşkil etmak bacarığı. K.N.Volkovun fikrincə, avtoritar ünsiyyat tərzi şagirddə passivlik, qorxaqlıq, qətiyyətsizlik, inamsızlıq, təcavüzkarlıq kimi keyfiyyatların formalaşmasına, laqeyd ünsiyyət tərzi isə uşaqlarda qəzəb və kin, ədavət hisslərinin oyanmasına səbəb olur. Eləcə də A.Y.Qordin qeyd edir ki, müəllimin soyuqqanlılıq hissinin itirməsi şagirddə özünü patoloji həyacanlanma və ya ətalət vəziyyətində büruzə verən müdafiə reaksiyası olan immunitet yaradır.

Motivasiya səviyyəsi yaradıcı təxəyyülün inkişafı üçün böyük əhəmiyyət kəsb adit. A.V.Bruşlinski və M.İ.Volovikovanın fikrincə, motivasiya sahəsinin təsir qüvvəsinin əsasında təlimin emosional-iradi tənzimlənməsi durur, onlar vəhdət içərisində fəaliyyət göstərir. L.L.Bojoviç dərs materialının yeniliyini, orijinallığını, əks etdirən tədris fəaliyyətinin tənzimləyicisi kimi emosiyaların xüsusi rolunu vurğulayır. Şagirdin iradi komponentin iştirakı tədris vəziyyətlərini sadəcə emosional baxımdan əks etdirməsi üçün deyil, həm də tədris məsələlərini optimal surətdə həll etməsi, xüsusi olaraq öz işinin nəticələrinə və onun yerinə yetirilməsi üsuluna nəzarət etməsi üçün zəruridir.

Beləliklə, aşağıdakı şərtlər şagirdlərin yaradıcı təxəyyülünün inkişaf etdirilməsinə imkan yaradır.

1. Şagirdlərin müxtəlif fəaliyyət növlərinə qoşulması;
2. Təlim prosesində qeyri-ənənəvi formalardan istifadə olunması: ekskursiyalar, problemli vəziyyətlərin yaradılması, rollu oyunların tətbiq edilməsi və s.
3. Psixoloji tapşırıq və məsələlərin tətbiq edilməsi;
4. İşin şagirdlər tərəfindən müstəqil şəkildə yerinə yetirilməsi;
5. Tapşırığın yerinə yetirilməsi üzrə işin planlaşdırılması;
6. Dərsin hər bir mərhələsində işin müxtəlif formalarının tətbiq edilməsi;
7. Dərslərdə müxtəlif materiallardan istifadə;
8. Yaradıcı təxəyyülün inkişaf etdirilməsinə yönəldilmiş müxtəlif tapşırıqlardan stifadə olunması [4].

Kiçik məktəbli yaş dövrü idrak proseslərinin formalamasında keyfiyyət dəyişikliklərinin baş verməsi ilə xarakterizə olunur. Kiçikyaşlı məktəblinin yaradıcı təxəyyülünün inkişafı onların fərdiliyinin üzə çıxarılması, onlarda emosional sferanın, kommunikativ bacarıq və vərdişlərin, dəyər münasibətlərinin, tədris fəaliyyətinin və şəxsiyyətlərarası ünsiyyətin formalaşması məsələlərində böyük rol oynayacaqdır. Eyni zamanda, şagirdlərin motivasiya səviyyəsinin yüksəldilməsi, onların yaş xüsusiyyətlərinə uyğun fəaliyyət növlərinə cəlb edilməsi, təlim prosesində tətbiq edilən təlim oyunlarının artırılması, nitq və əyani-obrazlı təfəkkürün inkişaf etdirilməsi yaradıcı təxəyyülün inkişafını şərtləndirəcəkdir.

Elmi nəticə: Kiçikyaşlı məktəblilərin müxtəlif fəaliyyət növlərinə qoşulması, işin müstəqil şəkildə yerinə yetirilməsi, dərslərdə müxtəlif materiallardan istifadə etməsi təxəyyülün inkişafına xidmət edir.

Elmi yenilik: Təlim fəaliyyəti prosesində motivasiya səviyyəsinin düzgün təşkili yaradıcı təxəyyülün inkişaf etdirilməsinə imkan yaradır.

Tətbiqi əhəmiyyəti: Təlim fəaliyyətinin təşkilində təxəyyül surətlərinin düzgün tətbiqi sayəsində kiçikyaşlı məktəblilərin idrak imkanları əsaslı şəkildə inkişaf edir.

Ədəbiyyat

1. Eminov, A.İ. Şagirdlərdə yaradıcı fantaziya tərbiyəsi / A.İ.Eminov. − Bakı, − 1990.
2. Əliyev, R.İ. Məktəbə psixoloji xidmətin aktual məsələləri / R.İ.Əliyev, − Bakı, − 2004.

3. Əzizov, Q.Q. Psixologiya / Q.Q.Əzizov, − Bakı, − 2024.
4. Əlizadə, Ə.Ə. Şagirdlərdə təxəyyülün inkişafı və tərbiyə edilməsi / Ə.Ə.Əlizadə, − Bakı, − 1995.
5. Əlizadə, Ə.Ə. Təxəyyül: Psixoloji etüdlər / Ə.Ə.Əlizadə, − Bakı, − 2006.
6. Daniels, S. Yaratıcı çocuklar yetiştirmek / S.Daniels, − Ankara, − 2015.

A.M.Safarli

Features of the Formation of the Creative Imagination of Younger Schoolchildren

Summary

The article explores the stages of development of imagination, components of imagination, characteristics of imaginative abilities of primary school students, and issues such as the role of speech, attention, memory, and reading lessons in the development of imagination. Additionally, the article investigates the fundamental conditions that create opportunities for the development of creative imagination in students.

Key words: *Formation characteristics of creative imagination in primary school students*

А.М.Сафарли

Особенности формирования творческого воображения у младшеклассников

Резюме

Статья посвящена рассмотрению таких аспектов проблемы формирования творческого воображения, как этапы развития воображения, компоненты воображения, особенности воображения детей младшего школьного возраста, роль речи, внимания, памяти и уроков чтения. В статье также исследуются основные условия развития творческого воображения младшеклассников.

Ключевые слова: *компонент воображения, особенности воображения, представление, творческое воображение, уровень мотивации, эмоциональная сфера*

Rəyçi: dos. Q.Q.Əzizov

Redaksiyaya daxil olub: 15.05.2024

T.F.SƏLİMLİ
baş müəllim
e-mail: temkineselimli@gmail.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

:10.62021/0026-0028.2024.2.253

FRANSIZ DİLİNİN XARİCİ DİL KİMİ TƏDRİSİNDƏ İSTİFADƏ EDİLƏN QRAMMATİK TAPŞIRIQLAR

Xülasə. *Araşdırmada fransız dilinin xarici dil kimi tədrisində müxtəlif tapşırıqların istifadəolunma məqsədi və yararlılığı əks olunur. Burada kifayət qədər, sadə tapşırıqlardan başlayıb daha mürəkkəb tapşırıq növlərinə yer verilir. Əlbəttə ki, tapşırıqları tərtib edərkən dilöyrənənlərin səviyyələri mütləq nəzərə alınmalıdır. Qrammatik biliklərin tədrisində dilöyrənənlərin ana dildəki qrammatik bilik səviyyələri də mütləq şəkildə diqqətdə saxlanmalıdır. Fransız dilinin qrammatikası və Azərbaycan dilinin qrammatikası arasında fərqlər mövcuddur, qrammatika sahəsindəki bu fərqliliklər diqqətdə saxlanılmaqla dilöyrənənlər xarici dilləri ana dilləri ilə müqayisəli şəkildə mənimsəyirlər. Xarici dillərin tədrisində müqayisəli təhlil aparılması tədris prosesini asanlaşdırır və sürətləndirir. Qrammatik təhlilin aparılması cümlələrin düzgün tərcümə olunmasına, düzgün mənanın başa düşülməsinə imkan verir.*

Açar sözlər: *qrammatik çalışmalar, mahnı dinləmə, çoxseçimli tapşırıqlar, əlaqəli tapşırıqlar*

Fransız dilinin xarici dil kimi tədrisində qrammatikanın öyrənilməsində, dilöyrənənlərin dil, bilik və bacarıqlara yiyələnmələrində tapşırıqlar mühüm rola malikdir. Qrammatik tapşırıqlar dilöyrənənlərin yazılı və şifahi nitqinin formalaşmasına imkan verir. Onların vərdiş, səriştə bacarıqlarını inkişaf etdirir və dilöyrənmə prosesini asanlaşdırır. Tapşırıq və çalışmaların əsas xüsusiyyəti qarşıya qoyulmuş məqsədə çatmaqdır. Dilöyrənənlər əldə etdikləri biliklər çərçivəsində fəaliyyət növlərini reallaşdırırlar. Məqsədyönlü təşkil edilmiş fəaliyyətlər sayəsində dilöyrənənlər xarici dildə bilik və bacarıqlar əldə etmiş olurlar. Tapşırıqlar yaradıcı xarakter daşımalıdır. Dilöyrənənlər mənimsədikləri linqvistik biliklərdən istifadə edərək, onlar öz sərbəst fikirlərini ifadə edə bilir, dialoji və monoloji nitq vərdişləri əldə edirlər.

Qrammatik qaydaların tədrisinə xidmət edən tapşırıq növləri müxtəlif situasiyalar daxilində dilöyrənənlərə təqdim edilə bilər. Bu tapşırıqlarda başlıca məqsəd zaman uzlaşmalarını düzgün işlətmək və boşluqları düzgün əvəzliklərlə tamamlamaq vərdişi formalaşdırmaqdır. Qrammatik tapşırıqların hər birinin yerinə yetirilməsi müəyyən konkret, dəqiq məqsədlərə xidmət edir. Burada başlıca məqsəd dilöyrənənlərin xarici dil vərdiş və səriştələri əldə etmələridir. Müəyyən tapşırıq və çalışmaların əldə edilmiş qrammatik biliklər çərçivəsində tətbiq edilməsi dil bacarıqlarının yaranmasına, formalaşmasına və xarici dillərin sistemli şəkildə tədrisinə xidmət edir [1, s. 23].

Natamam mətnə digər bir nümunə göstərmək olar. Misal üçün, mahnı dinləmə ilə əlaqəli olan tapşırıqlar. Mahnılar da öz növbəsində xarici dillərin öyrənilməsində, tədrisində autentik materiallar kimi mühüm rol oynayır. Leksikanın, qrammatikanın üzərində işləmək üçün lüğət ehtiyatının zənginləşməsində, eyni zamanda dilöyrənənlərin anlama və yazı bacarıqlarının formalaşmasında linqvistik biliklərin təkmilləşməsində mahnıların dinlənməsinə üstünlük verilir. Bizim fikrimizcə, mahnılar dillərin tədrisində, daha çox lüğət ehtiyatının zənginləşməsinə, dilöyrənənlərin söz və ifadələri daha mükəmməl mənimsəmələrinə kömək edir. Dərslərin maraqsız keçməsinin qarşısını almaq üçün əlavə tapşırıqlar tərtib etmək lazımdır. Mahnı dinləməklə bərabər tələbələr şifahi anlama bacarıqlarını inkişaf etdirirlər. Mahnıda buraxılan söz-

ləri tamamlamaq nitq fəaliyyətini inkişaf etdirir. Fransız dilinin xarici dil kimi tədrisində mahnı dinləmə fəaliyyətlərinin təşkili, tələbələrdə mədəni dəyərlərin formalaşmasına imkan verir. Auditoriya mühitində reallaşan fəaliyyət növləri dərsin məzmununa uyğun şəkildə təşkil edilməlidir. Yaradıcı xarakterli tapşırıq növləri xarici dil biliklərinin əldə edilməsində əsasən, eşidib-anlama vərdişlərinin formalaşmasında mühüm rol oynayır. Dinləmə nəticəsində yeni sözlər, ifadələr, ümumilikdə desək leksik, qrammatik biliklər izah olunur. Bütün bunlar tapşırıqların yerinə yetirilməsi prosesinə müsbət təsir göstərir. Dilöyrənənlər bilmədikləri, ilk dəfə eşitdikləri yeni sözlərin mənasını lüğətlərdən istifadə etməklə öyrənirlər. Bununla yanaşı, qeyd etmək lazımdır ki, feillərin təsrif olunmuş formalarına, sözlərin cümlə daxilində işlənmə xüsusiyyətlərinə bələd olmadan mənanın düzgün başa düşülməsi mümkün deyil. Bunun nəticəsində qrammatik struktur və quruluşlar tapşırıqların köməyilə aydınlaşdırılır. Mənanın düzgün başa düşülməsi və dinləmə materiallarının təhlil edilməsi üçün xarici dildə mövcud olan bütün qrammatik formaları, qaydaları, dil normalarını bilmək daha məqsədəuyğundur. Metodik dərs vəsaitlərinin çoxunda qrammatik qayda və qanunların, strukturların, quruluşların tədrisinə imkan verən tapşırıqların müxtəlif növləri mövcuddur. Tapşırıq və çalışmalar qrammatik bacarıqların yaranmasında, formalaşmasında və təkmilləşməsində mühüm əhəmiyyət kəsb edir.

Məlumdur ki, qrammatik tapşırıq növləri müxtəlif dil bacarıq və vərdişlərinin yaranmasına və inkişafına xidmət edirlər. Anlama vərdişini, ifadəetmə vərdişini formalaşdıran, inkişaf etdirən qrammatik tapşırıq növləri ilə yanaşı leksik bilik və bacarıqların yaranmasına xidmət edən çalışma və tapşırıq tipləri mövcuddur. Çoxseçimli tapşırıq növləri bu sahədə xüsusilə fərqləndirilir. Bu tapşırıqlar dilöyrənənlərin ümumi bilik səviyyələrinin qiymətləndirilməsində daha effektiv vasitələrdir. Verilmiş tapşırığı yerinə yetirərkən dilöyrənənlər təklif olunan cavablar arasından düzgün olan cavabı seçib təsdiq etməlidir. Çoxseçimli tapşırıqlar anlama bacarıqlarının yoxlanmasında və leksik biliklərin qiymətləndirilməsində mühüm rola malikdirlər (sinonimlər üzərində iş, naməlum sözü tapmaq və s.). Bu tapşırıq növləri iki, üç cavabdan və ya "düz" (Vrai), "səhv" (faux), "razı" (Oui), "əks" (Non) seçimlərindən ibarətdir [3, s. 52].

Çoxseçimli tapşırıqlar müxtəlif formalarda təqdim oluna bilər [5, s. 3]. Məsələn: 1) tək düzgün cavab şəklində; 2) çoxsaylı cavablar şəklində; 3) bütün cavablarda doğruluq var, amma kiçik bir nüans səhv cavabı tapmağa imkan verir [5, s. 4]. Burada qrammatik biliklər nəzərə alınmasa da dilöyrənənlərin dünyagörüşü bu tapşırıqların yerinə yetirilməsində mühüm rol oynayır. Məsələn: a) boşluğu tamamlama [5, s. 6]. b) eyni qrupa aid sözləri sıralamaq [5, s.4].

Bu tapşırıq yazılı anlama fəaliyyətidir. Tapşırığı yerinə yetirmək üçün fransız dilində tədris olunan ölkəşünaslıq biliklərini bilmək lazımdır. Düzgün cavablar bəzən şans nəticəsində əldə edilə bilər. Ümumiyyətlə, bu tip tapşırıqlar dilin müxtəlif sahələri üzrə bilikləri yoxlamağa imkan verir. Burada qrammatik bilikləri yoxlamaq daha effektivdir.

Struktur tapşırıq növlərinə nominal vahidlərin əvəzlənməsinə əsaslanan tapşırıqları, oyun tapşırıqlarını, qarşılıqlı şəkildə iki hissəyə bölünmüş cümlələrin tamamlanmasına xidmət edən tapşırıqları, kommunikativ xüsusiyyətli tapşırıqları və s. tapşırıq növlərini aid etmək olar. Sözönülərin, zamanların işlənməsi əsasında təşkil edilən tapşırıq növlərini də struktur çalışmalara aid edilir.

Əvəzetmə tapşırıqları qrammatikanın və qrammatik strukturların öyrənilməsində mühüm rol oynayırlar. Bu tapşırıqlar sayəsində dilöyrənənlər avtomatik dil vərdişləri əldə edirlər. Struktur tapşırıqların əsas tərkib hissələrindən birini təşkil edən bu tapşırıqlar verilmiş konstruksiya modelləri əsasında yeni cümlələrin qurulmasını və yeni ifadələrin dilöyrənənlər tərəfindən işlənməsinə imkan verir. Əvəzetmələr leksik və qrammatik olmaqla fərqləndirilir. Bu tapşırıqlar təkrarlardan xilas olmağa, əsas fikrin digər terminlərlə ifadə olunmasına xidmət edir. Nümunə üçün, *"Pierre a réussi son bac haut la main, Pierre a obtenu d'excellentes notes!" 1. Pierre a réussi son bac haut la main, il a obtenu d'excellentes notes! 2. Pierre a réussi son bac haut la main, le jeune homme a obtenu d'excellentes notes!* [4].

Leksik əvəzləmə tapşırıqlarında əsasən nominal vahidlərə məxsus təkrarlardan (sinonimlərdən) qaçılır. Burada daha çox əvəzliklərdən istifadə olunmaqla əvəzləmələr reallaşdırılır. Bunlar qrammatik sözlərin, əvəzliklərin əvəzlənməsi adlandırılır. Əvəzləmə tapşırıqları öyrənmə prosesində söz ehtiyatının zənginləşməsi, xarici dildə lüğət biliklərinin əldə edilməsini asanlaşdırır.

Əlaqəli tapşırıqlar, həmçinin cütləşmə tapşırıqları da adlandırılır. Yazılı anlama fəaliyyətinin formalaşmasında, təkmilləşməsində mühüm yer tutur. Bu tip tapşırıqları yerinə yetirərkən sintaktik və lüğət biliyinə yiyələnmək lazımdır. İki sırada verilmiş sözlərin cərgəsindən uyğun olan cüt sözlər dilöyrənən tərəfindən qarşılaşdırılıb qeyd olunur. Bu tapşırıq növlərini yerinə yetirmək çətin deyil, amma kifayət qədər effektivdir. Mətndən götürülərək iki hissəyə bölünmüş cümlələr arasında semantik, morfoloji və sintaktik əlaqələr nəzərə alınır [2, s. 12].

Dilöyrənənlər cümləni tamamlamaq, bərpa etmək üçün hər iki cərgədə olan elementlərin hər birini təhlil edir və birinci cərgənin elementlərini, ikinci cərgənin elementlərinə uyğunlaşdırmağa cəhd edir. İkinci halda, idiomatik ifadələr seçilir və onların mənaları müəyyənləşdirilir. Biz güman edirik ki, dilöyrənənlər bütün ifadələrin mənasını bilmir, amma sözləri əlaqələndirməklə, nümunələrin köməyilə orta neytral sözlərin mənasını anlamağa çalışırlar. Yoxlamanın nəticəsi dilöyrənənlərin seçimindən asılıdır.

Düzgün cavabları seçərkən sütunlardakı sözlərin mənasına diqqət yetirmək və onları qarışdırmamağa səy göstərmək lazımdır. Tapşırıq həm qrammatikanın öyrənilməsinə, həm də lüğət ehtiyatının inkişafına, anlamaya imkan verir. Tapşırıqlar dilöyrənənlərin dil biliklərini və bacarıqlarını daha yaxşı qavramalarına imkan verir.

İşin elmi nəticəsi: Fransız dilinin xarici dil kimi tədrisində istifadə olunan qrammatik tapşırıq növlərini yerinə yetirərkən dilöyrənənlər qrammatik formaları mənimsəməklə düzgün ifadələri, sözləri şifahi nitqdə işlədə bilmə bacarığı əldə etmiş olurlar. Çalışmaları yerinə yetirməklə qrammatik bacarıqlar avtomatik səriştə, vərdiş halına çevrilir. Dilöyrənənlər düzgün, dəqiq, səlis danışıq və yazı bacarıqlarını təlim prosesi çərçivəsində reallaşdırırlar. Müəllim tərəfindən təqdim edilmiş müxtəlif situasiyalar daxilində biliklərin həyata keçirilməsi qiymətləndirmə prosesinə imkan verir. Tapşırıqların səhvsiz, mütəmadi olaraq yerinə yetirilməsi tələbə və şagirdlərin dil qabiliyyətlərinin və bacarıqlarının aşkarlanmasına imkan verir. Eyni zamanda yeni biliklərin tətbiqinə şərait yaradır. Ana dilində verilmiş cümlələrin tərcüməsinə, mürəkkəb cümlələrin təhlilinə, vasitəsiz və vasitəli nitqə çevrilməyə, müxtəlif situasiyalara uyğun yaradıcı fəaliyyətlərə əsaslanan və s. müxtəlif qrammatik tapşırıq növləri dil sinfi mühitində həyata keçirilir və dil öyrənmə prosesini sürətləndirir. Dilöyrənənlərin özlərinə inamı və xarici dilə maraqlarını artırır.

İşin elmi yeniliyi: Dilöyrənənlərin dörd dil bacarıqlarının (anlama, danışma, yazı və oxu) formalaşdırılması və vərdişlərə yiyələnmələri məqsədilə tapşırıqların növləri araşdırılmışdır.

İşin tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi: Fransız dilinin xarici dil kimi tədrisində dilöyrənənlərin dil bacarıq və səriştələrinin əldə edilməsində tapşırıq və çalışmalar mühüm rol oynayır. Qrammatikanın öyrədilməsinə xidmət edən çalışmalar toplusu düzgün yazılı və şifahi nitqi formalaşdırır. Məqsədli qrammatik tapşırıqların istifadə edilməsi dil öyrənmə prosesini sürətləndirir və asanlaşdırır.

Ədəbiyyat

1. Бурина, Е.В. Сборник грамматических упражнений по французскому языку. Учебное пособие / Е.В.Бурина, −Москва:Изд-во Рос.экон.акад., − 2006, − 128 с.
2. Girardet, J., Pécheur J. Campus méthode de français 2, // CLE International, − 2018, − Paris, − 206 p.
3. Girardet, J., Pécheur J., Duranton L., Garnaud C. Campus cahier d'exercices 2. // CLE Internatinal, − Paris, − 2018, − 126 p.
4. http://gramm-fle.ulb.ac.be/95/ (consulté plusieurs fois au cours de l'année 2010)
5. http:// www.questy.fr

T.F.Salimli

Grammatical Assignments used in the Study of the French Language as a Foreign Language

Summary

The purpose and usefulness of using various assignments in the study of the French language as a foreign language in research is reflected. Here, as much as possible, starting from simple terms and moving on to more complex terms are given. Of course, the levels of the speakers must be taken into account when arranging the instructions. In the training of grammatical knowledge, the level of grammatical knowledge of the speakers in their native language must be kept attentive. There are differences between the grammar of the French language and the grammar of the Azerbaijani language. Keeping in mind the differences in the field of grammar, the learners can absorb the new language comparing it with their native one. Making comparative analysis in the analysis of foreign languages simplifies and accelerates the process of interpretation. Making grammatical analyzes allows the sentences to be translated correctly and the correct meaning to be captured.

Key words: *grammar studies, listening to songs, multiple choice tasks, related tasks*

Т.Ф.Салимли

Грамматические задания, используемые при изучении французского языка как иностранный

Резюме

В исследовании отражены цель и полезность различных задач при обучении французскому языку как иностранному. Здесь их довольно много, начиная от простых задач и заканчивая более сложными типами задач. Разумеется, при составлении заданий необходимо учитывать уровни претендентов. При обучении грамматическим знаниям необходимо учитывать уровень грамматических знаний на родном языке обучающихся. Существуют различия между французской грамматикой и азербайджанской грамматикой. Учитывая эти различия в области грамматики, учащиеся овладевают иностранными языками аналогично родному языку. Сравнительный анализ при обучении иностранным языкам облегчает и ускоряет процесс обучения. Проведение грамматического анализа позволяет правильно перевести предложения и понять правильный смысл.

Ключевые слова: *изучение грамматики, прослушивание песен, задачи с множественным выбором, связанные задачи*

Rəyçi: filol.f.d. A.M.Ağakişiyeva

Redaksiyaya daxil olub: 15.05.2024

Y.B.SƏMƏDOV
pedaqogika üzrə fəlsəfə doktoru, professor əvəzi

S.B.ƏLİZADƏ

Azərbaycan İdman Akademiyası
(Bakı şəh., Fətəli xan Xoyski pr., 98)

:10.62021/0026-0028.2024.2.257

ATICILIQDA PSİXOLOJİ ÇƏTİNLİKLƏRİN DƏF EDİLMƏSİNƏ DAİR

Xülasə. *İdmançıların hazırlanması sisteminin təkmilləşdirilməsi və idman məşqinin nəzəriyyəsi və metodikası baxımından atıcılıqda psixoloji çətinliklərin dəf edilməsinin tədqiqi mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan məqalədə atıcılıq üzrə keçirilən yarış zamanı yaranan psixoloji gərginliklər, onları yaradan obyektiv və subyektiv çətinliklər şərh olunur. Çünki bu çətinlikləri bimədən, hiss etmədən, onları ustalıqla aradan qaldırmadan yüksək idman nəticələri əldə etmək mümkün deyil. Təqdim olunan məqalədə atıcılıq idmanında psixoloji çətinliklərin dəf edilməsinin detalları, şərtləri izah olunub və bütün bunlar ön plana çıarılaraq, nəzəri təhlilə cəlb edilmişdir.*

Açar sözlər: *psixi vəziyyət, artan həyəcan, atıcı, məşq*

GİRİŞ

İdmançıların atıcılıq zamanı yaranan müxtəlif çətinlikləri məharətlə, əzmlə aradan qaldırmaları inkişaf etdirilən yüksək mənəvi və iradi keyfiyyətləri idman nəticələrinin əldə edilməsində əsas amillərdəndir. Azad Mirzəcanzadə iradi keyfiyyət haqqında yazmışdır: "İnsanın iradəsinin onun ömür yollarında necə böyük xariqələrin, qələbələrin əsas mənbəyi olduğu haqda çox misallar və ibrətamiz hekayələr söyləmək olar.

Ümumiyyətlə, insanın yaşamaq haqqı iradə, dözüm, mübarizə, vəziyyətdən baş çıxarma və s. şərtlərin kontekstində özünü doğruldur" [4, s. 151].

Dediklərimizlə əlaqədar Bernard Şounun bir mülahizəsi maraqlıdır: "İradə olmayan yerdə yol da yoxdur".

İdmançının iradəsi yalnız şüurlu tərzdə çətinlikləri aradan qaldırma prosesində inkişaf edir və möhkəmlənir.

Belə çətinliklər çoxdur. Bunlar ilk növbədə verilmiş idman növünün xüsusiyyətlərindən asılı olaraq obyektiv (xarici) çətinliklərdir. Buraya tamaşaçıların reaksiyası, kənar səslər, radioda hakim rəyləri, uçan təyyarənin güclü səsləri, atışda gözlənilməz fasilələr, atma mexanizmlərinin sıradan çıxması, çoxlu sayda "parlaq" görünüşü olan hədəflər, müxtəlif işıqlandırma, silahın nasazlığı, keyfiyyətsiz sursat və yağış, soyuq, külək kimi diqqəti yayındıran iqlim şəraiti daxildir.

Subyektiv (daxili) çətinliklər atıcının şəxsi xüsusiyyətləri, vərdişləri və rəqabətli atıcılıq təliminin keçirildiyi mühitin müxtəlif təsirlərinə emosional münasibəti ilə əlaqələndirilir. Stend atıcılığında subyektiv çətinliklərin xarakterik fərqləndirici xüsusiyyəti, atış zamanı atıcının hərəkətlərinə birbaşa təsir göstərən açıq şəkildə mənfi emosional vəziyyətlərin yarışlarda görünməsidir.

Psixoloji hazırlıq vahid və ardıcıl prosesdir. Atıcılıqda psixoloji çətinliklərin dəf edilməsində taktiki hazırlığın psixologiyasının mühüm rolu vardir. Bu baxımdan "Azərbaycanda idman psixologiyasının bəzi aktual problemləri" adlı dərs vəsaitində deyilir: "Taktiki fəaliyyətdə həlledici əhəmiyyət kəsb edən psixi proses təfəkkürdür. ...İdmançı taktiki təfəkkürün kö-

məyi ilə sürətlə dəyişən vəziyyətləri qiymətləndirməyi bacarır və özünün taktiki fikirlərini sahmana salır" [3, s. 144].

Məqsəd və vəzifələr

İdmançılarda orqanizm üçün zərərli olan emosional gərginlik halları müxtəlif səbəblərdən baş verir. Həmin səbəblər bunlardır: yarışlara tam hazırlaşmaqda qeyri-müəyyənliyə əsaslanan səhvlər qorxusunun yaranması; komandanın nəticəsini aşağı salmaq qorxusu; yüksək rəqabət səviyyəsi; bu yarışlar üçün məşqçi tərəfindən qoyulmuş mümkün olmayan tapşırıqlar; atıcılıq nəticələrinin azalması üçün qorxunun yaranması və s.

Stend atıcılığı idmançının döyüş hazırlığı vəziyyətinə ciddi tələblər qoyur. Hədəf atəşində idmançı daim diqqətin maksimum konsentrasiyası və atışın uçan hədəfə vaxtında yerinə yetirilməsi ilə əlaqədar silahın məkan oriyentasiyasına dəqiq və kifayət qədər sürətli vizual-motor reaksiya ehtiyacı ilə qarşılaşır.

Atış zamanı bütün hərəkətlərin incə koordinasiyası, ciddi səy dozası sinir proseslərinin optimal səviyyəsini tələb edir. Bu tələblərdən yayınma atıcının düzgün hərəkətlərinin ciddi şəkildə pozulmasına səbəb olur.

Bütün bu dəyərli elmi fikirlərə əsaslanaraq deyə bilərik ki, atıcının psixi vəziyyətini vaxtında və düzgün qiymətləndirməsi qarşıdan gələn çətinliklərin gedişatına və nəticə əldə etməsinə əhəmiyyətli dərəcədə təsir göstərə bilər. Buna görə də psixi vəziyyəti arzu olunan səviyyəyə çatdırmağın yol və vasitələrini bilmək idmançının taktiki məharətinin ən mühüm təzahürüdür.

Məlumdur ki, idmançılar yarışlardan əvvəl hazırlıq vəziyyətini, yəni artan əsəb həyəcanı inkişaf etdirir. Bu da bədənin qarşıdakı hərəkətləri yerinə yetirmək üçün kökləndiyini göstərir. Bu tənzimləmə müxtəlif şərtlərlə baş verir. Sinir həyəcanının (aktivləşməsinin) səviyyəsinə və müddətinə əsasən onu dörd mərhələyə bölmək olar.

Birinci mərhələ idmançının yarışa daxil olunduğu andan kifayət qədər uzun müddət çəkir. Burada həyəcanverici proseslər baş verir, lakin onların inkişafı əsasən idmançının fiziki hazırlığından asılıdır.

İkinci mərhələ yarışa başlamazdan əvvəl birbaşa hazırlıq dövrüdür. Bu dövrdə xüsusilə yarış ərəfəsində güclü həyəcanlanma baş verir.

Üçüncü mərhələ idmançının yarış atmosferinə daxil olduğu anda baş verən başlanğıc vəziyyətdir. Bu anda atıcılar ya optimal oyanma (aktivləşmə) vəziyyətində olurlar, ya həddən artıq həyəcanlanırlar, ya apatiya vəziyyətinə düşüb emosional gərginlik nümayiş etdirirlər.

Dördüncü mərhələ birbaşa rəqabət fəaliyyətində həyəcan şəraitinin yarandığı zamandır.

Bütün bu mərhələlər müəyyən səviyyədə həyəcan ehtiva edir və idmançı ya öz-özünü idarə etməlidir, ya da məşqçi və ya komanda yoldaşlarından kömək almalıdır.

Psixi vəziyyətləri müalicə etmək üçün bütün hərəkətlərin əsası idmançının yarışlarda çıxış etmək üçün səfərbər olmasına müsbət (və ya mənfi) təsir göstərə bilən taktiki üsulların istifadəsidir. Əlverişsiz amilləri aradan qaldırmaq üçün atıcının yarışlara hazırlıq və onlarda iştirak zamanı təlim-tərbiyə işləri prosesində idmançıların psixi vəziyyətinə müsbət təsir göstərən taktiki texnikanın variantlarını seçmək lazımdır. Psixi vəziyyəti arzu olunan səviyyəyə çatdırmağın yol və vasitələrinə dair biliklər, eləcə də əldə edilmiş təcrübə atışda taktiki məharətin təzahürünün ən mühüm mənbələridir.

Beləliklə, atıcıların fərdi psixi vəziyyətlərini nəzərdən keçirmək və onların tənzimləmə yollarını müəyyənləşdirməyin mühüm əhəmiyyəti vardır. Psixi vəziyyətlərin tənzimi ilə bağlı Tomas İsmayılovun və Cəmilə Məmmədovanın fikirləri belədir: "Psixi vəziyyətlərin geniş mənada tənzimi iki yolla aparılır: onların baş verməsini xəbərdar etmək və kənardan təsir metodları və yaxud özünütənzim metodları" [2, s. 264].

Özünütənzim vasitələri müsbət dinamikaya malik olduqda onlardan istifadə etmək mümkündür. Belə hallarda idmançı, özünütəqlinə müraciət edir: "Mən güclüyəm", "Mən bütün çətinlikləri dəf edə bilərəm", "Mürəkkəb situasiyadan çıxdığımı günbəgün hiss edirəm" və s.

Son illər idmanda autogen məşq metodlarına psixogegiyenaya, götürülmüş xüsusi relaksasiya və digər metodlara keçid müşahidə edilir [5, s. 100].

"Psixi tənzimləmənin bir növü relaksasiya adlanır. Bu psixi sakitlik və əzələ boşalmasından ibarətdir ki, bunu da insan özü-özünə təlqin edə bilir. Bu çox asan psixi tənzimləmə yoludur. Hipnozdan fərqli olaraq burada başqa bir insan sənə öz fikrini qəbul etdirməyə çalışmır. İkincisi, bu məşqə peşəkar psixoloq cəlb etməyə ehtiyac yoxdur və heç bir əlavə maliyyə xərci tələb olunmur. Bu təlqini harada və nə vaxt istəsən, məşq etmək mümkündür. Onu insan həyatının çox sahəsində həyata keçirmək imkanı vardır. Buna autogen məşq də deyilir" [1, s. 100; 6].

Aktivləşdirmənin optimal vəziyyəti (həyəcan). Optimal həyəcanlılıq mərhələsində orqanizm qarşıdan gələn fəailiyyətə yaxşı hazırlaşır, idmançı enerji və inam artımını yaşayır, eyni zamanda onda yüksək əhvali-ruhiyyə tənzimlənir. Optimal aktiv fazada olan atıcı demək olar ki, vəziyyətini düzgün qiymətləndirə bilir. Yorğunluq, həddindən artıq həyəcan və ya yaxşı sinir-əzələ hazırlığını göstərən simptomları tanıya bilər. Ən əsası, atıcı optimal həyəcanlılıq şəraitində fərdi atışa, seriyaya və bütün rəqabətli məşqlərə uyğunlaşa bilir.

Ancaq nəzərə almalıyıq ki, mərkəzi sinir sisteminin optimal həyəcanlı vəziyyəti uzun müddət davam edə bilməz. Atış yükünün və rəqabətli vəziyyətlərin təsiri altında əsəbi yorğunluq yaranır, görmə kəskinliyi və diqqət kütləşir və s.

Optimal aktivləşmə mərhələsində olan, özünü yorğun hiss edən idmançı yarış zamanı fasilələr arası məharətlə istirahət, vaxtında isinmə, özünü masaj, multivitaminlər, orqanizmin fəaliyyətini bərpa etmək üçün içkilər, qəhvə və s. maddələr qəbul edə bilir. Bu hallarda ən vacib şey özünə təlqindir, atışlara başladığınız eyni psixi vəziyyətdə, yəni optimal aktivləşmə mərhələsində çəkilişlərə davam etmək üçün özünü tənzimləmədir.

Artan həyəcan vəziyyəti. Artan həyəcan vəziyyətində atıcı tez-tez özünə inam hissi yaşayır. O, bir qayda olaraq, artan templə atışa başlayır və bilməyərək yanlışlıqlara yol verir. Bununla da nəticələrin kəskin azalmasına səbəb olur. Həddindən artıq həyəcanlanmanın mənfi təzahürü müxtəlif formalarda ifadə edilə bilər. Mənalı və koordinasiyalı çəkilişlərə tamamilə mane olan hallar olur. İdmançılar silaha sahib olmaq kimi qeyri-adi hisslərlə rastlaşırlar. Bunlara ayaqların titrəməsi, tərləmə, hədəf uçuşuna diqqəti cəmləyə bilməməsi və s. aid edilir.

Bu vəziyyət daha çox yüksək səviyyəli yarışlarda ilk dəfə iştirak edən atıcılarda və ya yarışlarda yüksək dərəcəli və rəqiblərlə üzləşən gənc atıcılarda və ya yarışın nəticələrinə böyük ümidlər bəsləyən idmançılarda, məsələn, qələbə qazanmaq, daha yüksək idman standartını yerinə yetirmək, milli komandaya qoşulmaq və s. üçün qeyd olunur.

Yarışlara həddindən artıq həyəcanlı vəziyyətdə gələn və ya yarışlar zamanı özlərini həddən artıq həyəcanlı aparan idmançılara bədəni optimal vəziyyətə gətirmək üçün sakit qaçış və gimnastik yeriş hərəkətlərindən istifadə edərək silahsız sakitləşdirici isinmə hərəkətləri etmək tövsiyə oluna bilər. Eyni zamanda əzələlərdə daha çox sərtlik tapsanız, rahatlama məşqindən istifadə edin, yəni növbə ilə qolları və ayaqları silkələməklə, sakitləşdirici masajdan istifadə edərək əzələləri rahatlaşdırmaq lazımdır. Həddindən artıq həyəcanlı vəziyyətdə hədəfə cəld və sakit şəkildə atəş əmrini vermək pis manevr deyil.

Gərginliyin səbəbi məqsədlərə çatmamaq qorxusudursa, atıcını onun üçün mümkün olan nəticəyə yönəltməli və ya onu ruhlandıracaq vasitələrdən istifadə etməlidir. Əgər atıcı həddən artıq həyəcanlanmışdırsa,(orkestr, tamaşaçılar, parad, yüksək səviyyəli atıcıların olması və s.) onda atıcının diqqətini rəqabət şəraitindən ayırmaq, başqa mövzulara keçmək, sakitləşməyin yollarını tapmaq lazımdır. Həyəcan səviyyələrini bərabərləşdirmək üçün, əksinə, aktivləşdirmə səviyyəsi optimal səviyyədən aşağı olan atıcılarla əlaqə yaratmağa çalışmalıdır. Psixoloji vəziyyəti optimal vəziyyətə gətirmək üçün çox təsirli bir vasitə autogenik təlimdir. Buna özünətəlqin vəziyyəti deyilir.

Emosional əzginlik (özünəgüvənsizlik) vəziyyəti. Emosional depressiya vəziyyətində atıcının hər cür şübhəsi var: məşqdə irəliləyişlər, müəyyən bir yarış üçün verilən tapşırıqların yerinə yetirilməməsi və bəzən yarışlarda iştirak etmək istəməməsi. Güclü və erkən başlanğıc

həyəcanı artmasına səbəb olur və yarış zamanı sinir − psixi gərginliyin həddən artır olması onu apatiya vəziyyətinə gətirir.

Belə hallarda əsasən atıcı zahirən sakit görünür, amma etdiyi hərəkətlərdə süstlük və zəif nəticələr özünü biruzə verir. Apatiya vəziyyətində olan atıcıya aşağıdakılar tövsiyə olunmalıdır:

– gimnastika hərəkətləri, gəzinti və qaçışdan istifadə edərək artan templə isinmə hərəkətləri (silahlı və ya silahsız) icra etməli. Tonusu yüksəltmək üçün hədəfi yüksək səslə və qəfildən soruşmaq;

– komandanın taleyi və yarışlarda şəxsi iştirak üçün məsuliyyət hiss etmək, yarış vəziyyətlərinə diqqət yetirmək, fərdi atıcıların və komandaların nəticələri ilə maraqlanmaq;

– həyəcan səviyyəsi kifayət qədər yüksək olan atıcılarla əlaqə yaratmağa çalışmaq;

– əgər idmançının özündə iradə yoxdursa, məşqçi ona kömək etməlidir.

İşin elmi nəticəsi. Beləliklə, atıcı idmançıların fərdi xüsusiyyətləri və situasiyanın spesifikliyi nəzərə alınmaqla, psixo-tənzimin tətbiq olunan müxtəlif taktikaları, yalnız ümumi ənənəvi qanunlara tabe olmaqla yüksək psixi vəziyyətdə fiziki və texniki imkanları aşkar edir. Və bu da atıcıların psixoloji çətinliklərinin dəf edilməsinə imkan verir.

İşin elmi yeniliyi. Məqalədə qaldırılan problem müxtəlif alimlər tərəfindən nəzəri cəhətdən tədqiq olunsa da atıcılıqda psixoloji çətinliklərin dəf edilməsi ilk dəfədir ki, metodiki cəhətdən araşdırılır.

İşin tətbiqi əhəmiyyəti. Məqalədə tədqiq olunan mövzu, atıcılıqda psixi çətinliklərin dəf edilməsi psixi vəziyyətin çox mürəkkəb proses olub, onun sabitləşməsinə xidmət edir ki, dominantlıq kəsb etsin və sonradan şəxsi xassəyə çevrilsin. Burada başlıca məsələ idmançı xarakterinin əsasını təşkil edən müvafiq münasibətlərin təşəkkülü və möhkəmləndirilməsidir. Bu isə məşqçi və başqaları tərəfindən, yəni tərbiyə prosesində, özünü təşkil və özünüsəfərbəretmənin təsiri ilə, idmançının özünütərbiyə prosesi ilə yaradılır.

Yuxarıda göstərilənlərdən aydın olur ki, atıcıların psixi vəziyyətlərinə təsir edən və tənzimləmə metodları taktiki texnikaların arsenalı olduqca müxtəlifdir. Məqsəd atıcıların və məşqçilərin onlardan öz fəaliyyətlərində məharətlə və geniş istifadə etmələridir.

Ədəbiyyat

1. Əliyev, K. İdmançının qələbə psixologiyası / K.Əliyev, − Bakı: Ozan, − 2008, − 200 s.
2. İsmayılov, T.M., İdman psixologiyası. Bədən tərbiyəsi və İdman Akademiyası üçün dərslik / T.M.İsmayılov, C.M.Məmmədova. − Bakı: Maarif, − 2002. − 276 s.
3. Qurbanov, X.K. Azərbaycanda idman psixologiyasının bəzi aktual problemləri. Dərs vəsaiti / X.K.Qurbanov, T.M.İsmayılov. − Bakı, − 2008, − 246 s.
4. Mirzəcanzadə, A.X. İxtisasa giriş. Neft və qaz profilli ali məktəblər üçün dərs vəsaiti / A.X.Mirzəcanzadə. − Bakı: Bakı Universiteti nəşriyyatı, − 1990, − 336 s.
5. Nəsrullayev, M. Bədən tərbiyəsi nəzəriyyəsi və metodikası. Dərs vəsaiti / M.Nəsrullayev, E.Hüseynov, İ.Əliyev, Y.Nuriyev. – Bakı: Araz, − 2012, − 372 s.
6. Şıxbabayev, A. Hipnoz və müalicəvi təlqinlər / A.Şıxbabayev, − Bakı: Azərnəşr, − 1982.

Y.B.Samadov, S.B.Alizade

Overcoming Psychological Difficulties in Shooting

Summary

Improvement of the training system of athletes and sports training overcoming psychological difficulties in shooting from the point of view of theory and methodology research is important. In this regard, the shooting competition in the article psychological tensions arising during the period, objective and subjective difficulties that create them is interpreted. Because without feeling these difficulties, overcome them skillfully it is impossible to achieve high sports results without lifting.

Submitted The article explains the details and conditions of overcoming psychological difficulties in shooting sports and all these have been brought to the fore and involved in theoretical analysis.

Key words*: mental state, heightened arousal, shooter, training*

Я.Б.Самедов, С.Б.Ализаде

Преодоление психологических трудностей в стрельбе

Резюме

Важное значение с точки зрения совершенствования системы подготовки спортсменов и теории и методики спортивной подготовки имеет исследование преодоления психологических трудностей в стрельбе. В связи с этим в статье дается трактовка психологической напряженности, возникающей в соревнованиях по стрельбе, порождающей ее объективных и субъективных трудностей. Потому что невозможно добиться высоких спортивных результатов, не зная, не чувствуя этих трудностей, не умело их преодолевая. В представленной статье описаны детали, условия преодоления психологических трудностей в стрелковом спорте, и все это вынесено на первый план, подвергнуто теоретическому анализу.

Ключевые слова: *психическое состояние, повышенное возбуждение, стрелок, тренировка*

Rəyçi: dos. S.A.Əliyev

Redaksiyaya daxil olub: 28.03.2024

Ş.M.SEYİDOVA
doktorant
e-mail: seyidova.shebnem@mail.ru

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

:10.62021/0026-0028.2024.2.262

ÜMUMTƏHSİL MƏKTƏB ŞAGİRDLƏRİNİN BİOLOGİYADAN TƏDQİQATÇILIQ FƏALİYYƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

Xülasə. *Fənlərin, o cümlədən, biologiyanın tədrisində şagirdlərə tədqiqatçılıq bacarıqlarının aşılanması dövrün aktual probelmlərindəndir.*
Məqalə ümumtəhsil məktəb şagirdlərinin biologiyanın tədrisində tədqiqatçılıq fəaliyyətinə həsr olunmuşdur. Orada tədqiqatçılıq fəaliyyətinin əsas istiqamətləri araşdırılır. Biologiyanın tədrisində şagirdlərin tədqiqatçılıq bacarıqlarının inkişafına təsir edən amillər: canlılar və onlarda gedən bioloji proseslər üzərində müşahidələrin təşkili, qazanılmış biliklərin praktikada tətbiqi, inteqrativ məzmunlu hesablama və eksperimental məsələlərin, məsələ, misalların həll edilməsi və s. aşkar edilir. Onların dərslərdə tətbiqi xüsusiyyətləri izah olunur. Şagirdlərin tədqiqatçılıq bacarıqlarına verilən pedaqoji, metodiki tələblər əsaslandırılır. Bu sahədə müəllimlərə metodik tövsiyələr verilir.

Açar sözlər: *tədqiqatçılıq fəaliyyəti, məsələ həlli, müşahidə, əməkdaşlıq, bacarıq, təlim, hüceyrə, eksperiment, inteqrasiya*

Giriş. Fənn kurikulumu təlim-tərbiyə ilə bağlı bütün proseslərə, fənnin məzmununa, təlim strategiyalarına yeni yanaşma tələb edir. Yeni yanaşma isə şagirdlərə fənnin məzmununun praktik istiqamətlərini, tədqiqatçılıq bacarığının inkişaf etdirilməsini, təlim nailiyyətlərinin düzgün qiymətləndirilməsini, həyatda, istehsalatda və əməkdə tətbiqi imkanlarını, qazanılmış bilik, bacarıq və vərdişlərin müasir cəmiyyətin tələbinə uyğunlaşmasını tələb edir [3, s. 39].

Mövzunun aktuallığı. Biologiyanın tədrisində şagirdlərin tədqiqatçılıq fəaliyyətinin təhlilindən məlum oldu ki, biologiya dərslərində şagirdlərin tədqiqatçılıq bacarığının interaktiv təlimin tətbiqi ilə inkişaf etdirilməsi mümkündür. Belə bir yanaşma dərsin effektliyini xeyli artırır, şagirdlərin tədqiqatçılıq bacarığının inkişafına zəmin yaradır.

Biologiyanın tədrisində tədqiqatçılıq bacarığının inkişaf etdirilməsinə təsir edən amillərdən biri regionun təbii sərvətləri, istehsalat müəssisələrinin fəaliyyəti ilə tanış olmalarıdır. Təlim prosesində şagirdlər tədqiqatçılıq və praktik vərdişlər qazanmaqla tədris materiallarını dərindən və şüurlu olaraq mənimsəyir, tədqiqat aparmağın sirlərinə yiyələnirlər.

Yuxarıdakı faktlar bir daha göstərir ki, biologiyanın tədrisi ilə bağlı tədqiqatçılıq istiqamətinin mahiyyəti əsasən şagirdlərin bioloji proseslər və maddələr üzərində geniş müşahidə aparmaq, canlıların qidalanması, tənəffüsü, hərəkəti, onlarda gedən maddələr mübadiləsi kimi proseslərin daxili ziddiyyətləri əsasında meydana çıxan qanunauyğunluqları əks etdirən cədvəl, model, sxem hazırlamaq, təcrübələr aparmaq, təcrübələrin gedişi əsasında bioloji məzmunlu inteqrativ məsələləri həll etmək və s. kimi müstəqil fəaliyyətlərlə bağlıdır. Bu baxımdan demək olar ki, biologiyanın tədrisində şagirdlərin tədqiqatçılıq bacarığının inkişaf etdirilməsi imkanları daha geniş və çoxtərəflidir.

Əsas hissə. Biologiyanın tədrisində inteqrativ məzmunlu hesablama və eksperimental məsələlərin, testlərin həlli yollarına geniş yer verilməsi şagirdlərin tədqiqatçılıq bacarığının inkişafına güclü təsir göstərir. Eksperimental və hesablama məsələlərinə bitkilərin hüceyrəvi quruluşu, dayaq-hərəkət sistemi, tənəffüs sistemi, hüceyrədə maddələr və enerji mübadiləsi kimi problemlərin dəqiqləşməsinə, tamlaşmasına, konkretləşməsinə və ümumiləşməsinə, xü-

susilə şagirdlərin tədqiqatçılıq bacarığının inkişafına şərait yaradır. Biologiyanın tədrisində çətin mənimsənilən materialların (hüceyrədə plastik və enerji mübadiləsi, zülallar, fotosintez və s.) seçilməsində, onların izahında nəticəyönümlülük prinsipindən istifadə etdikdə, mövzu asan və şüurlu mənimsənilir. Beləliklə, şagirdlərin tədqiqatçılıq bacarıqları inkişaf edir və formalaşır [9, s. 103].

Fəal təlim metodlarından (BİBÖ, beyin həmləsi, klaster, layihələr, tədqiqat və s.) və təşkil formalarından (qruplarla, cütlərlə, fərdi və s.) səmərəli istifadə edildikdə şagirdlərin nəzəri bilikləri daha da dərinləşir, tədqiqatçılıq fəaliyyətləri yaxşılaşır.

Biologiyanın tədrisində şagirdlərə izah olunur ki, təbiət elə bir aləmdir ki, orada dərin inteqrasiya mövcuddur. Bu təbiətdəki obyekt və hadisələr arasında vəhdətin olduğunu göstərir. Təbiət bütöv, tam, vahid bir sistemdir. Təbiət fənlərinin tədrisində məzmun məktəblilərə məhz belə bir vəhdətdə təqdim olunmalıdır. Varlığın bu sahəsinin inteqrasiyalaşdırılmış mahiyyəti insanın təbiətə tam baxışının formalaşması imkanını və artıq məktəbin başlanğıc həlqəsində insanın yerini müəyyənləşdirir. Bu əsasda biologiyanın tədrisində şagirdlərdə:

– təbiətin obyekt və hadisələrinin yaranması, müxtəlifliyi, xassələri, keyfiyyətləri və vəziyyəti haqqında geniş təsəvvürlər;

– obyekt və hadisələr arasında əlaqələrin, asılılığın, zamana və məkana görə dəyişməsinin dərk olunması;

– ekoloji mədəniyyət və təfəkkürün əsas şərtləri, təbii mühitin qorunması haqqında qanunların qəbul edilməsi və onların şüurlu yerinə yetirilməsi;

– idrak dairəsi, əqli qabiliyyətlər və müxtəlif maraqlar formalaşdırılır.

Şagirdlərin tədqiqatçılıq bacarıqlarını aşağıdakı kimi səciyyələndirilir:

– cansız və canlı təbiətin obyektləri üzərində müşahidə aparmaq, onların təsvirini vermək, onları müqayisə etmək, mühüm və qeyri-mühüm əlamətlərini aşkara çıxarmaq, oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək, qruplaşdırmaq, təsnif etmək, təbiətin obyektləri, hadisələri arasında əlaqələri, onların bir-birindən asılılığını müəyyən etmək;

– müşahidəçilik qabiliyyətinə yiyələnmək, ətraf təbiətdə canlılarda baş verən dəyişiklikləri görmək, təcrübələr əsasında dəyişiklikləri tədqiq etmək;

– laboratoriya avadanlıqları ilə işləmək, təcrübə qoymaq, baş verən dəyişiklikləri qeyd etmək, təhlilini aparmaq, ümumiləşdirmək, nəticə çıxarmaq, cədvəl, sxem və diaqramlar hazırlamaq;

– temperatur, işıq, səs, vaxt, sahə duyğularını fərqləndirmək, özünün və başqalarının emosional vəziyyətini (şadlıq, qorxu, qəzəb, fərəh və s.) fərqləndirmək, öz hiss və həyəcanlarını qiymətləndirmək (mən qəzəbləndim, kədərləndim, sevindim); öz emosiyalarını idarə etmək üçün sadə idarə priyomlarından (bir işdən başqasına keçmək, sakitləşmək, bir işə köklənmək və s.) istifadə etmək;

– insanın xarici və daxili quruluşunu qısaca səciyyələndirmək;

– ətraf mühitin vəziyyətini qiymətləndirmək, təbii zənginliklərə qənaətlə və qayğıkeşliklə yanaşmaq, təbiətdə davranış qaydalarına, sağlamlığın qorunmasına riayət etmək, zərərli vərdişlərdən uzaqlaşmaq, faydalı adətlərə yiyələnmək bacarığını özündə tərbiyə etmək;

– fövqəladə hallarda, zədələnmələrdə (əzilmə, kəsilmə, yanıq, ürək və ya epilepsiya tutmalarında, bayılma, koma donvurma, qıcolma və s. zamanı) ilk yardım göstərmək [6, s. 15, 16].

Şagirdlərin tədqiqatçılıq bacarıqlarının formalaşdırılması biliklərin tətbiqi prosesində həyata keçirilir.

Belə ki:

– təbiətdə, canlılar üzərində müşahidə, təcrübə və praktik işlər aparılır, bunun üçün sadə alətlərdən (termometr, barometr, flüger və s.) istifadə etməklə suyun, havanın, bədənin temperaturu ölçülür;

– müşahidələrin nəticələri qeyd edilir;

– canlılar arasında təbii əlaqələrin müşahidəsi aparılır, ümumiləşdirilir;

– bioloji proseslərə dair təcrübələr təşkil edilir;
– canlıların quruluşuna dair laboratoriya işləri aparılır;
– bitkilər müxtəlif yollarla (toxum, qələm, calaq və s.) çoxaldılır;
– təbiətdə, canlı guşədə bitkilərə və heyvanlara qulluq edilir;
– gigiyena qaydalarını öyrənilir və sağlam həyat tərzi qaydalarına əməl edilir;
– canlılarla normal davranış qaydalarına riayət olunur;
– insanların təbiətə münasibəti qiymətləndirilir;
– təbiətin qorunması işlərində məsuliyyətini dərk edir;
– müxtəlif cihazlardan istifadə etməklə nəbzi, ağciyərlərin həyat tutumunu, çəkini, qan təzyiqini ölçür;
– zərərçəkmişlərə ilk tibbi yardım göstərir;
– bioloji proseslərə dair misal və məsələ həll edir;
– müşahidələrin nəticələrini sxem, cədvəl, qrafiklə ümumiləşdirir;

Nəticə. Göründüyü kimi, bioloji biliklər şagirdlərin tədqiqatçılıq fəaliyyətində daha da dərinləşir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün biologiya fənn kurikulumu. − Bakı. − 2013.
2. Əhmədov, B.A. Pedaqogikanın qanunları və prinsipləri / B.A.Əhmədov, A.I.Hacıyev. − b., − 1993, − 208 s.
3. Əhmədov, H.H. pedaqogika. Dərslik / H.H.Əhmədov, − Bakı, − 2013, − 320 s.
4. Əhmədov, B. Düşünməyi öyrənək və öyrədək // Bakı: Azərbaycan məktəbi, − 1997, № 1, − 14-17 s.
5. Hacıyeva, H.M. Biologiyanın ümumiləşdirici sxemlərlə tədrisinin mənimsəməyə təsiri. Dərs vəsaiti / H.M.Hacıyeva və b. − Bakı, − 2011, − 167 s.
6. Həmzəyev, M.Ə. Pedaqoji psixologiya / M.Ə.Həmzəyev, − Bakı, − 1981, − s.76.
7. İbrahimov, F., Pedaqogika. Dərslik / F.İbrahimov, R.Hüseynov. I cild, − Bakı, − 2013, − 708 s. (s.514-519).
8. İbrahimov, F.N. Təlimin dərk edilməsinə “sistem-struktur” baxımından yanaşma / F.N.İbrahimov, − Bakı, − 1999, − 172 s.
9. İsmixanov, M. Pedaqogikanın əsasları / M.İsmixanov, − Bakı: BDU, − 2011, − 289 s.
10. Mehrabov, A. Pedaqoji texnologiyalar / A.Mehrabov, Ə.Abbasov, Z.Zeynalov, R.Həsənov. − Bakı: Mütərcim, − 2006, − 372 s.
11. Orucov, F.M. Biologiya dərslərində şagirdlərdə tədqiqatçılıq bacarığının inkişaf etdirilməsi yolları. Dərs vəsaiti / F.M.Orucov. − Bakı, − 2011, − 181 s.
12. Paşayev, Ə. Pedaqogika (yeni kurs) / Ə.Paşayev, F.Rüstəmov. − Bakı, − 2002.
13. Seyidli, Y. Biologiya 6. Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün dərslik / Y.Seyidli, X.Əhmədbəyli, N.Əliyeva. − Bakı, − 2013, − 160 s.
14. Seyidli, Y. Biologiya 7. Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün dərslik / Y.Seyidli, X.Əhmədbəyli, N.Əliyeva. − Bakı, − 2013, − 144 s.
15. Təlim prosesində yeni texnologiyalar. − Bakı, − Mütərcim, − 2011, − 321 s.
16. Богоявленский, Д.Н., Менчинская Н.А. Психология усвоения знаний в школе. − М., − 1960. − с. 266-267.
17. Рубинштейн, С.Л. Основы общей психологии / С.Л.Рубинштейн. − М., − 1946. − ч.630-631.

Sh.M.Seidova

Teaching Research Skills to Students in the Teaching of Subjects, Including Biology, is One of the Current Problems

Summary

The article is dedicated to the research activity in the teaching of biology of secondary school students. There, the main directions of research activities are investigated. Factors affecting the development of students' research skills in teaching biology: organization of observations on living organisms and biological processes in them, application of acquired knowledge in practice, calculation with integrative content and solving experimental issues, problems, examples, etc. is detected. The features of their application in lessons are explained. Pedagogical and methodical requirements for students' research skills are justified. Methodical recommendations are given to teachers in this field.

Key words: *research activity, problem solving, observation, collaboration, skill, training, cell, experiment, integration*

Ш.М.Сейидова

Основные направления исследовательской деятельности старшеклассников по биологии

Резюме

Обучение студентов исследовательским навыкам при преподавании предметов, в том числе биологии, является одной из актуальных проблем.

Статья посвящена исследовательской деятельности в преподавании биологии школьников. Там исследуются основные направления исследовательской деятельности. Факторы, влияющие на развитие исследовательских умений студентов при обучении биологии: организация наблюдений за живыми организмами и биологическими процессами в них, применение полученных знаний на практике, расчеты с интегративным содержанием и решение экспериментальных задач, задач, примеров и т.п. обнаружен. Объясняются особенности их применения на уроках. Обоснованы педагогические и методические требования к исследовательским умениям студентов. Преподавателям в этой области даются методические рекомендации.

Ключевые слова: *исследовательская деятельность, решение задач, наблюдение, сотрудничество, навык, обучение, ячейка, эксперимент, интеграция*

Rəyçi: bio.e.d., prof. R.L.Sultanov

Redaksiyaya daxil olub: 14.05.2024

R.L.SULTANOV
professor, biologiya elmləri doktoru
e-mail: rsultanov@bk.ru

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

:10.62021/0026-0028.2024.2.266

BİOLOGİYA FƏNNİ ÜZRƏ ON BİRİNCİ SİNİFLƏRİNDƏ TƏDRİS OLUNAN MÖVZULARLA ƏLAQƏDAR VALİOLOJİ BİLİKLƏRİN İNTERAKTİV YOLLARLA ÖYRƏNİLMƏSİ XÜSUSİYYƏTLƏRİ

Xülasə. *Məktəbin on birinci sinifində insan sağlamlığı ilə əlaqədar infeksion proseslərin gedişində mikroorqanizmlərin rolu, infeksion proseslərin baş verməsində sahib orqanizmin rolu və mühit şəraitində infeksion xəstəliklərin gedişinə təsiri ilə əlaqədar valeoloji biliklərin öyrənilməsi qarşıya məqsəd qoyulmuşdur.*
Şagirdlərə infeksion xəstəliklərin insan orqanizmində yaratdığı qüsurları vaxtında qarşısının alınması üçün təxirə salınmaz qabaqlayıcı tədbirlərin həyata keçirilməsinə dair valeoloji biliklərə bacarıqların formalaşdırılması yolları haqqında biliklər verilir.

Açar sözlər: *infeksion xəstəliklər, mikroorqanizmlər, sahib orqanimzlər, valioloji biliklər, insan sağlamlığı*

Biologiya elminin valiologiya elmi ilə əlaqəsi çox genişdir. Biologiya canlılar haqqında elmdirsə, valeologiya insan sağlamlığı və onun mühafizəsi haqqında elmdir. Bu elmlər bir-biri ilə sıx əlaqəli olduğundan onları eyni vaxtda inteqrasiyanın prinsiplərinə əsasən öyrənilməlidir. Biologiya və valeologiya qarşılıqlı əlaqədə olması baxımından insan sağlamlığına dair biliklərin öyrənilməsində, biri digərinin problemlərinin həllinə kömək edən elmlərdir. Ona görədə bu elmlər qarşılıqlı əlaqədə də tədris edilməlidir.

Məktəbdə biologiya və valeologiyanın təlim prosesində inteqrasiyasının həyata keçirilməsi üçün proqramların və dərsliklərin imkanları müəyyənləşdirilərək tədris zamanı fənlərarası bağlantıların həyata keçirilməsini təşkil etmək lazımdır.

Ona görədə məktəbin on birinci sinfinin biologiya fənnində infeksion proseslərin gedişində mikroorqanizmlərin rolu, infeksion proseslərin baş verməsində sahib orqanizmin rolu, mühit şəraitinin infeksion xəstəliklərin gedişinə təsiri ilə əlaqədar mövzular tədris olunduqda valeoloji biliklərin imkanlarından geniş istifadə olunmalıdır. İnsan sağlamlığı daima insanın öz əlində olur. İnsan heç vaxt özünə laqeyd olmamalıdır. Diqqət və qayğı insan sağlamlığının ən yaxşı və ümüdlü dayağıdır.

İnteqrasiyanın şagirdlərin biliklərinin və bacarıqlarının inkişafı üçün onlarda idrak fəaliyyətinin gücləndirilməsi, təlim və tərbiyənin yüksəldilməsi, elmi dünyagörüşün inkaf etdirilməsi, təlimin həyatla əlaqələndirilməsinin çox böyük əhəmiyyəti vardır. Valeologiya fənninin tədrisində təhsilalanların bilgi və istedadlarını inkişaf etdirilməsidə inteqrasiya kifayət qədər işıqlanmış, bu cür vacib bir məsələ tədqiq olunmamışdır. Bu baxımdan valeologiya fənninin tədrisində inteqrasiyanın imkanlarına uyğun olaraq, şagirdlərin bilik və bacarıqlarının formalaşması üsullarının müəyyən edilməsi önəmli məsələlərdəndir.

İnfeksion proseslərin gedişində mikroorqanizmlərin rolu ilə əlaqədar valeoloji biliklər. Bir çox mikroorqanizmlər insanların hüceyrə və toxumalarına nüfuz edərək müəyyən dəyişikliklər əmələ gətirir, orqanizmdə müvafiq qüsurları törədir. Bu da insan sağlamlığında ciddi dəyişikliklər yaradır.

Müəllim xəstəlik törədən mikroorqanizmlərə dair anlayışlar, onların yayılması yolları (su, hava, çirkli əllər, çirklənmiş qida məhsulları, həşəratlar, xəstə insanlar) istifadə olunan

ümumi əşyalar və.s haqqında şagirdlərə valeoloji biliklərə əsaslanmış məlumatlar çatdırılmalıdır. Evdə məişət avadanlıqlarının gigiyenik tələblərə uyğun olmasına daim nəzarət edilməlidir. İnfeksion xəstəliyə tutulmuş insanların yanına getdikdə ehtiyatlı olmaq lazımdır [1].

Müasir dövrdə biologiya, tibbi və valeoloji sağlamlığa dair müalicə çox böyük nailiyyətlər əldə etmişdir. Bu elmlər diaqnostika, profilaktik tədbirlər və sanitar -gigiyenik tələblər baxımında müəyyən nailiyyətlər əldə etmişlər. Bu nailiyyətlər insan sağlamlığının qorunmasında müstəsna rol oynayır . Burada insan sağlamlığı ilə əlaqədar valeoloji biliklərin şagirdlərə tərəfindən öyrənilməsi böyük əhəmiyyət kəsb edir.

İnsanları əhatə edən ətraf mübitin hər bir yerində mikroorqanizmlər mövcuddur və bütün proseslərdə iştirak edirlər. Mikroorqanizmlərə bakteriyalar, göbələklər, spiroxitlər, ibtidailər, viruslar və yaşıl yosunlar aiddir. Müəllim biologiya dərsində mikroorqanizmlərin qidalanması, inkişafı, çoxalması və həyat tərzi haqqında bilikləri tədris edərkən insan sağlamlığına dair valioloji biliklər haqqında məlumatları şagirdlərə eyni vaxtda çatdırmalıdır. İnsan ömrünün qısaldılmasının əsas səbəbi infeksion xəstəliklərin geniş yayılmasıdır. Bunun nəticəsində milyonlarla insan dünyasını dəyişir. İnfeksion insan xəstəlikləri patogen virusları, bakteriyalar və ibtidailəri tərəfindən törədilir.

İnfeksion proseslərin baş verməsində sahib orqanizmin rolu ilə əlaqədar valeoloji biliklər. İnfeksion proseslərdə helmintozlar parazit qurdlar kimi onların yayılmasında həm də sahib orqanizmlərin rolu böyükdür. Helmintozlar parazit qurdların – helmintlərin törətdiyi xəstəliklərdir. İnsan bədənində 250 növdən artıq helmint parazitlik edir. Helmintlər həyat prosesində bir neçə ardıcıl inkişaf dövrü keçir. İnsan helmintlər üçün həm son, həm də ara sahib ola bilər.

İnsan orqanizmində proganimoz, teniarixoz, difillobotrioz, askaridoz və başda helmintlərin törətdiyi infeksion xəstəliklərin baş verməsində sahib orqanizmin rolu böyükdür. Proganimoz helmintində parazitin son sahibləri və invaziya ocağı bəlğəmlə, nəcislə helmint yumurtalarını xaricə ifraz edən insan, pişiklər, itlər, donuzlar və digər ətyeyən vəhşi heyvanlar törədirlər. Onların ara sahibləri şirin su molyuskaları, şirin su krabları və xərçənglərdir. Teniarinxoz parazitinin ara sahibi qaramaldır. Difillobotriozun son sahibi və invaziya ocağı insanın nazik bağırsağında parazitlik edən helmintdir, nadir hallarda balıq yeyən heyvanlardır. Askaridoz parazitinin son sahibi və vahid invaziya ocağı insandır.

Antroponoz xəstəliklərdə infeksiya mənbəyi insan − yoluxmuş xəstə və ya törədici mikrob gəzdiricisi, zoonoz xəstəliklərdə isə infeksiyalaşmış heyvanlardır. Şagirdlər biologiya dərslərində infeksion proseslərin baş verməsində sahib orqanizmin roluna dair geniş biliklərə sahib olduqdan sonra insan sağlamlığı ilə əlaqədar valeoloji biliklərdən istifadə edərək mövcud qüsurların baş verməməsi üçün profilaktiki tədbirlərin aparılması yollarını öyrənməlidirlər.

İnsanlar infeksion xəstəliklərdən qorunması üçün valeoloji biliklərə əsaslanaraq onun mənbəyinə qarşı profilaktiki tədbirlər aparmalıdırlar. İnsan sağlamlığını infeksiya mənbələrindən qorunması üçün sahib orqanizmlər kimi insanları onlardan mühafizə etmək və digər sahib orqanizmlərdən isə təcrid etmək lazımdır [2].

İnsan sağlamlığı ilə əlaqədar aparılan bütün profilaktiki tədbirlər üç əsas qrupa: sanitariya-gigiyenik, dezinfeksiya və dezinseksiya tədbirlərinə bölünür. İnfeksiya mənbələrinə qarşı profilaktiki tədbirlər infeksion xəstəlik olan ocaqlarda, onun varlığından asılı olmayaraq ictimai yerlərdə aparılmalıdır.

Məktəblərdə infeksion proseslərin baş verməsi üçün sahib orqanizmlərlə müəyyən profilaktiki tədbirlərin həyata keçirilməsi xüsusi hazırlanmış proqram əsasında həyata keçirilməlidir. Bunun üçün ilk növbədə infeksiyalı xəstələr hospitolizasiya edilməlidir. Xəstəliyə şübhəli insanları klinik, bakterioloji, seroloji, virusoloji və biokimyəvi analizləri müvafiq laboratoriyalarda aparılması təşkil edilməlidir.

Mühit şəraitinin infeksion xəstəliklərin gedişinə təsiri ilə əlaqədar valeoloji biliklər- infeksion xəstəliklərə yoluxma bütün insanlarda eyni cür baş verir. Uzun müddət isti şəraitdə qalmaq istivurmaya səbəb olur. Bu insan orqanizminin immun sisteminin zəifləməsinə gətirib

çıxarır. Soyuğun təsirindən isə insan orqanizminin xəstəlik törədən mikroorqanizmlərə qarşı davamlılığı zəifləyir. Xüsusən də insanda tənəffüs yolları xəstəlikləri artır. İonlaşdırıcı şüalar immun sistemini sarsıdır. Yoluxucu xəstəliklərin baş verməsində cəmiyyətin sanitar mədəniyyəti, məişət şəraiti və s. əhəmiyyət kəsb edir. Hal-hazırda infeksion xəstəliklərin vaxtında aşkarlanmasına, onların qarşısının alınmasına yönələn peyvəndlərdən geniş istifadə olunur. Xəstəlik baş verən zaman isə xəstələrə müalicə zərdabları vurmaqla onların müalicəsi aparılır.

Ətraf mühitdə insan orqanizminə, onun sağlamlığına bilavasitə və dolayısı yolla təsir göstərən müxtəlif canlı orqanizmlər mövcuddur. İnfeksion xəstəliklərin törədiciləri və insan eyni mühit şəraitində birlikdə yaşayırlar. Təbii mühit müxtəlif xəstəlik törədiciləri və ya onu ətrafa yayanlarla zəngindir. Ona görə də insanlar mühit şəraitinə uyğun olaraq infeksion xəstəliklərin törədicilərinə qarşı profilaktiki tədbirləri həyata keçirirlər [3].

İnfeksion xəstəlik törədiciləri insanları əhatə edən təbii mühitdə, vəhşi və ev heyvanlarında, ən çoxu məişətdə, gəmiricilərdə və quşlar arasında yayılmışlar. Bu törədicilər heyvandan heyvana, heyvandan insana ötürülməklə xəstəlik törədirlər. Təbiətdə ən çox yayılan və insanların daim ətrafında (təbiətdə və məişətdə) olan həşərat və gənələr xəstəliyin ötürücüsü rolunu oynayırlar. Ən qorxulu taun, tulyameriya, ensefalit, səpgili yatalaq ətraf mühitin ocaq xəstəliklərinə aid edilir. İnsanlar ətraf mühitin infeksion xəstəliklərə törədicilərinin yayıldığı və yaşadığı ərazilərdə tutulurlar.

Bunun üçün müəllim şagirdlərə infeksion xəstəliklərin baş verməməsi üçün aparılan sanitar-gigiyenik və profilaktiki tədbirlər haqda bilik və bacarıqlar aşılanmalıdır.

Məqalənin aktuallığı: Məktəbin on birinci sinfində insan sağlamlığı ilə əlaqədar infeksion proseslərin gedişində mikroorqanizmlərin rolu, infeksion proseslərin baş verməsində sahib orqanizmin rolu və mühit şəraitinin infeksion xəstəliklərin gedişinə təsiri ilə əlaqədar valeoloji biliklərin şagirdlərə öyrədilməsi qarşıya məqsəd qoyulmuşdur. İnfeksion xəstəliklərin insan orqanizmində yaratdığı qüsurların vaxtında qarşısının alınması üçün təxirəsalınmaz qabaqlayıcı tədbirlərin həyata keçirilməsinə dair valeoloji biliklər verildiyi üçün təqdim olunmuş mövzu aktualdır.

Məqalənin elmi yenilikləri: Məqalədə ilk dəfə olaraq məktəbin on birinci siniflərində şagirdlərə infeksion xəstəliklərin yaratdığı qüsurların qarşısının vaxtında alınması üçün valeoloji sağlamlıq haqqında təlimatlara uyğun olaraq profilaktiki tədbirlərin həyata keçirilməsinə dair biliklərin verilməsi və bacarıqların formalaşdırılması yolları verilir.

Tədqiqat işinin praktik əhəmiyyəti: Aparılmış tədqiqat işinin nəticələrindən tədris prosesində fənnə dair ədəbiyyatların tərtibatında istifadə edilə bilər. Ondan müəllimlər tədris prosesində, tədqiqatçılar elmi işlərində və şagirdlər dərs prosesində və referatların tərtibatı zamanı istifadə edə bilərlər.

Ədəbiyyat

1. Sultanov, R.L.Valeoloji təhsilin keyfiyyətinin yüksəldilməsində müəllimin pedaqoji ustalığının rolu // − Gəncə:Gəncə Dövlət Universitetinin elmi əsərləri. − 2021. №3, − s.41-46.
2. Sultanov, R.L. Təhsilalanların sağlamlığının qorunmasında və mühafizə edilməsində pedaqoji valeologiyanın imkanları // − Bakı: Bakı Qızlar Universiteti, Elmi əsərlər. − 2020, − c.2, №3(43), − s.178-181.
3. Sultanov, R.L. Ətraf mühitdə insan sağlamlığının qorunmasında valeoloji biliklərdən istifadənin imkan və yolları. Humanitar elmlərin öyrənilməsinin aktual problemləri // − Bakı: Bakı Slavyan Universiteti. Elmi məqalələr məcmuəsi. − 2021 №1, − s.258-260.

R.L.Sultanov

Characteristics of Interactive Ways of Learning Value Logical Knowledge Related to Subjects Taught in the Eleventh Grades of Biology Subject

Summary

In the eleventh grade of the school, the role of microorganisms in the course of infectious processes associated with human health, the role of the host organism in the occurrence of infectious processes, the influence of environmental conditions on the course of infectious diseases are directed. When mastering valeological knowledge.

Students are given knowledge about the ways of developing skills for valeological knowledge to carry out urgent preventive measures for the timely prevention of defects caused by infectious diseases in the human body.

Key words: *infectious diseases, microorganisms, host organisms, valeological knowledge, human health*

Р.Л.Султанов

Характеристика интерактивных способов обучения ценность логических знаний, связанных с предметами, преподаваемыми в одиннадцатых классах по биологии

Резюме

В одиннадцатом классе школы направлена роль микроорганизмов в течении инфекционных процессов, связанных со здоровьем человека, роль организма хозяина в возникновении инфекционных процессов, влияние условий внешней среды на течение инфекционных забо-леваний. При усвоении валеологических знаний.

Учащимся даются знания о путях формирования умений к валеологическим знаниям по проведению неотложных профилактических мероприятий по своевременному предупреждению дефектов, вызванных инфекционными заболеваниями в организме человека.

Ключевые слова: *инфекционные болезни, микроорганизмы, организмы-хозяева, валеологические знания, здоровье человека*

Rəyçi: prof. M.Ş.Babayev

Redaksiyaya daxil olub: 02.04.2024

C.F.TAĞI-ZADƏ
baş müəllim
e-mail: tagizadcmal@gmail.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

:10.62021/0026-0028.2024.2.270

FRANSIZ DİLİNİN TƏDRİSİNDƏ TƏLƏBƏLƏRDƏ CÜMLƏQURMA VƏRDİŞİNİN İNKİŞAF ETDİRİLMƏSİ YOLLARI

Xülasə. *Müasir dövrdə xarici dillərin öyrənilməsinə olan maraq, hər hansı bir xarici dildə sərbəst ünsiyyət qurmaq məsələsi tədrisin aktual problemlərindən birinə çevrilmişdir. Dilin öyrənilməsində əsas məsələlərdən biri lüğət ehtiyatının zənginləşdirilməsidir. Belə ki, fransız dilinin tədrisində leksik çalışmalar dilin leksik aspektinin inkişafına xidmət edir, bura sinonim və antonimin tapılması, mənasına görə sözlərin qruplaşdırılması, eyni qrupa daxil olmayan sözün seçilməsi, tapmaca vasitəsilə sözün tapılması və s. aid edilə bilər.*
Məqalədə dərs prosesində yeni sözlərin izahı, lüğət ehtiyatının zənginləşdirilməsi, tələbələrdə cümləqurma vərdişinin inkişaf etdirilməsi yolları təhlil edilir. Dili daha yaxşı mənimsəmək məqsədilə müstəqil işlərdən geniş istifadə edilməsi, dərsin hər mərhələsinin öyrədici xarakter daşıması, müstəqil işləmək bacarığının yaradılması məsələlərinə toxunulur.

Açar sözlər: *fəal təlim, kontekst, lüğət ehtiyatı, oxunun təşkili, yazı bacarıqları, nitq bacarıqları*

Respublikamız öz müstəqilliyini əldə etdikdən sonra aparılan uğurlu dövlət quruculuğu prosesi digər sahələrdə olduğu kimi təhsildə də əsaslı şəkildə yenilənməni zəruri etmişdir. Təhsil islahatı üzrə dövlət proqramı dünyadakı qabaqcıl təcrübənin ölkəmizdə tətbiqi istiqamətində mühüm addımlar atılıb və atılmaqdadır. Ali təhsil müəssisəsinə qəbul olmuş tələbə istənilən xarici dil dərslərində kommunikativ nitq bacarıqlarının inkişafı onların ünsiyyət bacarıqlarının formalaşmasına, lüğət ehtiyatının zənginləşməsinə, qrammatik anlayışların və dil konstruksiyalarının mənimsənilməsinə, oxu, yazı texnikası və dinləyib-anlama vərdişlərinin inkişaf etdirilməsinə fəal təlimlərlə zəmin yaradır. Yeni təlim metodları dərs prosesində dilin minimal lüğət ehtiyatını zənginləşdirməyə kömək etməklə yanaşı, həm də çox vacib olan tələbələrin şifahi nitqini, onların danışıq bacarığını sürətləndirir, eşidib-anlama, oxuyub-anlama və yazı bacarıqları kimi bir sıra vərdişləri formalaşdırır və təkmilləşdirir.

Tələbələr xarici dili öyrənən zaman qarşılaşdığı ən böyük çətinliklər danışma zamanı baş verir. Bu zaman yeni bir xarici dili öyrənən tələbə yaranmış situasiyaya məxsus bir söz demək üçün daha çox təcrübəyə ehtiyac duyur [1, s.31]. Bunun üçün çox zaman tələb olunur və onlar bunun əhəmiyyətini başa düşməyərək müəllim tərəfindən deyilmiş fikirləri təkrarlamaqla dil öyrənməyə çalışır və ona görə də müəllimin yaratmağa çalışdığı stimul isə süni görünməyə başlayır. Tələbələr dərs materialında verilmiş cümlələri təkrarlayır, çalışmaya verilən cümlələri tamamlayır və heç bir real dildən istifadə etmədiyinə görə dərsdən kənar kontekstdə fikir mübadiləsinə girə bilmir. Təbii ki, danışığa yiyələnmə tələbələrdə fransız dilində lüğət ehtiyatının zəngin olmasından az asılı deyil. Yeni xarici dil öyrənmənin ilkin mərhələsində lüğət ehtiyatı nə qədər çox zənginləşərsə bir o qədər öyrənən danışıqda sərbəst olar və özlərini daha aydın şəkildə ifadə edə bilər.

Xarici dildə ünsiyyətin öyrədilməsində lüğət ehtiyatının genişləndirilməsi faktorunu unutmamalıyıq. Ünsiyyət üçün vacib olan söz, cümlə, qrammatik struktur və bunların yaddaşda möhkəmlənməsi təbii ki, bu faktordan aslıdır. Müəllim danışığın tədrisində yeni bir xarici dil öyrənən tələbələrə stimul kimi elə söz və qrammatik strukturdan istifadə etməlidir ki,

onlar danışıq zamanı hər hansı bir situasiyada və ya mövzuda özünü doğrulda bilsin. Onlar tələbələri hazırlıqlı nitqdən hazırlıqsız nitqə öyrətməlidir [3, s. 37-49]. Tələbələrin tədris prosesində xarici dil dərslərinə yalnız tədris proqramına salınmış bir fənn kimi yox, həm də asudə vaxtın dəyərləndirilməsinin bir üsulu kimi baxması zəruridir. Xarici dillərin öyrənilməsinə həvəs və motivasiyanın yaradılması xarici dilin tədris olunduğu ilk gündən edilməsi zəruridir. Bu dövrdə qrammatikanın və söz ehtiyatının dili öyrənənlərin beyninə həkk edilməsi və bundan əlavə onlarda dilə qarşı sevginin yaradılması onların və cəmiyyətimizin həyatına müsbət keyfiyyətlər qazandıracaq amillərdəndir.

Göstərilən məqsədə nail olmaq üçün xarici dilin fəal metodlarla öyrənilməsində təlimdə fəaliyyət növləri göstərilən şəkildə müəyyənləşdirilir və reallaşdırılır: a) dinləyib-anlama; b) danışma; c) oxu; ç) yazı.

Fəal təlimlə dinləyib-anlama fəaliyyətinin təşkili nitq fəaliyyətinin digər növləri ilə sıx bağlı olub, danışma üçün zəmin yaradır və xarici dilin öyrənilməsində mühüm yer tutur. Nitqin formalaşmasında əsas rol oynayan dinləyib-anlama tələbələrdə eşitdiyi nitqi diqqətlə dinləmək, məzmununu müəyyənləşdirmək və əldə etdiyi yeni informasiyanı yadda saxlamaq bacarıqlarının formalaşdırılmasını təmin edir. Tələbə dinlədiyi mətndə əsas fikri müəyyən edir, dinlədiyi mətndə yeni informasiyanı seçir, dinlədiyi nitqdə danışıq dili ilə ədəbi dili fərqləndirir.

Fəal təlimlə danışma fəaliyyətinin təşkili həm monoloji, həm də dialoji formada təzahür edərək yaddaşda qalan sözlərin seçilməsi və onların nitq prosesinə daxil edilməsi, fikrin şifahi ifadəsidir. O, tələbələrdə ünsiyyətə girmək, öz fikirlərini ifadə etmək, gördükləri və eşitdikləri haqqında məlumat verə bilmək, danışanın fikrinə münasibət bildirmək bacarıqlarının formalaşdırılmasını təmin edir. Onlar nitqlərində sadə və mürəkkəb konstruksiyalardan istifadə edir, oxuduğu və ya dinlədiyi mətnin məzmununu izah edir, eyni fikri müxtəlif formalarda ifadə edir, əşya və hadisələrə, gördüyünə və eşitdiyinə, müzakirə olunan məsələlərə münasibət bildirir, şəraitə uyğun olaraq ünsiyyət qura bildiyini nümayiş etdirir, müxtəlif mənbələrdən topladığı informasiyalar əsasında təqdimat edə bilirlər.

Oxunun təşkili tələbələrdə oxu texnikasına (sürətli, düzgün, şüurlu, ifadəli) yiyələnmək, oxu vərdişlərini inkişaf etdirmək, yeni bilik və məlumatlar qazanmaq, ətraf aləmi dərindən dərk etmək imkanlarının yaranmasını təmin edir. Nəticədə, tələbə oxu prosesində tələffüz qaydalarını mənimsədiyini nümayiş etdirir, oxuduğu mətnlərdə əsas məzmunu müəyyən edir, oxuduğu mətnlərin məzmununu şərh və izah edir, oxuduğu mətndə əsas fikri müəyyən edir, yeni informasiyanı seçə bilir.

При развитии навыков устной речи необходимо помнить, что монологический ее элемент не уступает диалогическому. Поэтому далее следует идти на увеличение объема монологической реплики в диалоге и позднее к чисто монологическим формам устной речи. Поставленной цели можно добиться только на основе коммуникативно-ориентированных учебников и учебных материалов. И на начальном этапе изучения русского языка одной из важнейших целей является чтение, служащим средством для овладения другими видами речевой деятельности, что особенно важно на этом этапе изучения языка.

Научные выводы работы: Как известно, иностранным студентам в период обучения в российском вузе присущ высокий уровень мотивации овладения языком вообще. Таким образом, успешного обучения русскому языку как иностранному можно добиться применением в первую очередь, личностно-ориентированного подхода, дающий максимально раскрывать возможности личности студента, развивая его интеллектуальной потенциал, развивая его творческие возможности. Данный подход будет эффективным при соблюдении следующих условий:

– современной профессиональной подготовки преподавателя РКИ;
– обучение русскому языку как приобщению к русской культуре;
– активное включение иностранных студентов в реальную речевую деятельность;
– использование межпредметных связей в обучении.

Научная новизна работы: хотя проблема, поднятая в статье, изучается многими зарубежными учеными, у нас впервые изучается ее исследование со ссылкой на методику преподавания русского языка в азербайджаноязычной аудитории.

Практическое значение работы: повышение творческого понимания каждого упражнения как темы, изучаемой в статье, то есть как метода обучения русскому языку как иностранному с помощью личностно-ориентированного подхода.

Литература

1. Вьюгина, С.В. Практико-ориентированный подход при обучении русскому языку иностранных студентов // Материалы II Всероссийской научно-практической конференции «Язык в образовательном пространстве неязыкового вуза: теория и практика», 18-19 апреля 2019 г. – Новосибирск: НГТУ – 2019. – 247-253 с.
2. Вьюгина, С.В. Место информационных технологий в преподавании русского языка как иностранного // Материалы международного симпозиума «Надежность и качества» – Пенза, − 2019. т.2. – 94-96 с.
3. Льюис, Р.Д. Деловые культуры в международном бизнесе. От столкновения к взаимопониманию. / Р.Л.Льюис. – М, − 1999.
4. Стародумов, И.В. Особенности преподавания русского языка как иностранного / И.В.Стародумов // Молодой ученый. – 2018. №40. – 204-207 с.

L.M.Məmmədova, O.C.Xəlilova, Ş.M.Quliyeva

Rus dili xarici dil kimi: tədrisin təşkili xüsusiyyətləri

Xülasə

Məqalə xarici tələbələrin rus dilini xarici dil kimi öyrənməsinə həsr edilmişdir. Müasir təhsil sistemində ali təhsil müəssisələrində öz xüsusiyyətlərinə malik qeyri-dil universitetində rus dilinin xarici dil kimi tədrisi metodikasının müxtəlif növlərindən istifadə etmədən dərslər keçirmək mümkün deyil. Tədris metodikasında müxtəlif yanaşmaları, rus dilinin xarici dil kimi effektiv öyrənilməsi üçün zəruri olan, həyata keçirilən təhsil funksiyalarını təsvir edirik, bunlardan biri şəxsiyyətyönümlü yanaşmanın rus dilini xarici dil kimi tədris metodologiyasına daxil edilməsidir.

Açar sözlər: *rus dili, tədris, tədris prosesi, metodologiya, tədris*

L.M.Mammadova, O.J.Khalilova, Sh.M.Kuliyeva

Russian as a Foreign Language: Features of the Organization of Teaching

Summary

The article is devoted to teaching foreign students Russian as a foreign language. In the modern educational system of the university, it is impossible to conduct classes without using various types of methods of teaching Russian as a foreign language in a non-linguistic university, which has its own characteristics. We describe various approaches in teaching methods, implemented educational functions necessary for effective learning of Russian as a foreign language, one of them is the inclusion of a personality-oriented approach in the teaching methodology of the Russian Language.

Key words: *Russian language, teaching, educational process, methodology, training*

Рецензент: д.ф.филол. Х.А.Аббасова

Redaksiyaya daxil olub: 06.05.2024

И.А.МИКАИЛОВА
старший преподаватель
e-mail: qasimova_1982@list.ru

Бакинский славянский университет
(г. Баку, ул. С.Рустама, 33)

:10.62021/0026-0028.2024.2.303

К ИЗУЧЕНИЮ ОСЛОЖНЕННЫХ ПРЕДЛОЖЕНИЙ НА ЗАНЯТИЯХ ПО РУССКОМУ ЯЗЫКУ КАК ИНОСТРАННОМУ

Резюме. *В статье рассматриваются предложения, осложненные обособленными второстепенными членами, на занятиях по русскому языку как иностранному. Обособленные второстепенные члены являются относительно самостоятельными в предложении и характеризуются интонационным выделением. В большинстве случаев обособленные второстепенные члены вступают в полупредикативные отношения с основой предложения или с каким-либо его членом. Важной предпосылкой обособления является отсутствие тесной синтаксической связи словоформы со своим определяемым. По этой причине обособляются преимущественно свободно присоединяемые детерминанты, согласуемые и примыкающие именные словоформы. Полупредикативной функцией могут выступать согласованные и несогласованные определения, а также предложения, относящиеся к личным местоимениям. Изучение осложненных предложений способствует развитию устной и письменной речи студентов-азербайджанцев.*

Ключевые слова: *русский язык как иностранный, осложненное предложение, обособление, полупредикативность*

Одним из видов осложнения предложения является обособление второстепенных членов предложения. Предложения с обособленными второстепенными членами, представляют собой наиболее трудный раздел в вузовском курсе русского языка как иностранного. Эти трудности объясняются тем, что предложения, осложненные обособленными второстепенными членами, недостаточно четко освещены в теоретическом плане [1; 4].

Обычно под понятие обособленных второстепенных членов подводятся различные синтаксические категории, которые характеризуются «относительной смысловой самостоятельностью, с наличием в них дополнительных оттенков значений… Общими для всех обособленных второстепенных членов признаками являются их относительная смысловая самостоятельность в предложении и обусловленное ею интонационное выделение внутри предложения» [4, с. 58].

В большинстве случаев обособленные второстепенные члены вступают в полупредикативные отношения с основой предложения или с каким-либо его членом: *Народы против войны,* ***несущей безумие разрушения, физическое уничтожение миллионов человеческих жизней*** (А. Толстой); *Через два часа,* ***пристроившись на попутную*** *машину, мы выехали из города* (В.Песков).

Существенными условиями обособления обычно считают: 1) изменение порядка следования определяющего и определяемого, например, постпозицию распространенного определения: *Образ****, возникающий в воображении читателя,*** *- решающее дело в искусстве* (А.Толстой.); 2) распространенность члена предложения: *И по широкому лицу Дикого Барина,* ***из-под совершенно надвинувшихся бровей,*** *медленно прокатилась тяжелая слеза* (И.Тургенев); 3) наличие у словоформы дополнительного значения: *Небеса в проломах голубели.* ***Грезившийся в громе и в дыму,*** *мир лежал дитятей в колыбели, были сутки от роду ему* (П.Проскурин); 4) уточняющий характер значения

словоформы с одноименной функцией: *В большом ауле,* ***под горою, близ саклей дымных и простых,*** *черкесы позднею порою сидят* (М.Лермонтов).

В полупредикативной функции могут выступать согласованные и несогласованные определения, одиночные и распространенные. Всегда обособляются определения, относящиеся к личным местоимениям, и определения, выраженные краткими именами прилагательными или краткими формами страдательных причастий: *Ты создал сам свое страданье.* ***Бессмысленный,*** *ты обладал душою чистой, откровенной* (М.Лермонтов); *Опавшие,* ***в оранжевых накрапах,*** *они* [*колосья*] *цветным пластом на землю лягут* (Р.Рождественский).

Как правило, обособляются согласованные определения, выраженные причастными и адъективными оборотами и находящиеся в постпозиции к определяемому имени существительному: *Встречает их в гостиной крик княжны,* ***простертой на диване*** (А.Пушкин); Если такие определения относятся к семантически недостаточным словам, т. е находятся с ними в комплетивных отношениях, они не обособляются: *В то далекое чеховское время мы – два агронома, люди* ***между собой почти незнакомые,*** *ехали в тележке в старый Волоколамский уезд* (М.Пришвин). Распространенное согласование определение в препозиции обособляется лишь в случае осложнения обстоятельственным (временным, причинным, уступительным или условным) значением: ***Оглушенный тяжким гулом,*** *тракторист машет рукой* (Из разг.). Два и более одиночных определения в постпозиции обособляются, если перед существительным есть определение или если они удалены от определяемого существительного: *Дым из трубы поднимается вверх,* ***высокий, прямой и живой*** (М.Пришвин).

Несогласованные определения обособляются, как правило, при подчеркивании их смысловой значимости, особенно если они оказываются в одном ряду с обособляемыми определениями: *Высоко над толпою, над ее плечами, на золотом плоском щите, облеченный пурпурной хламидой,* ***с лавровым венком на взвившихся кудрях,*** *стоял его соперник* (И.Тургенев).

Обособленные детерминирующие обстоятельства выражаются деепричастными конструкциями, предложно-падежными формами и наречиями. Больше всего для полупредикативной функции по своей морфологической природе подходят члены предложения, выраженные одиночными деепричастиями или деепричастными оборотами. Вступая в семантическую связь и с глагольным сказуемым, и с подлежащим, «эти словоформы называют признак, приписываемый предмету, но соотносят его с моментом речи опосредованно, через сказуемое. Поэтому их иногда называют второстепенными сказуемыми» [2, с. 78]. Всегда обособляются деепричастные обороты, одиночные деепричастия в препозиции к сказуемому, а также детерминант со значением уступки, выраженный именем существительным с предлогом *несмотря на: Смеркалось; на столе,* ***блистая,*** *шипел вечерний самовар,* ***китайский чайник нагревая*** (А.Пушкин); *Они* [Облонский и Левин] *любили друг друга,* ***несмотря на различие характеров и вкусов*** (Л.Толстой).

«При реализации в высказывании разных типов осложненного предложения обнаруживается тесная взаимосвязь грамматической и коммуникативной функции интонации» [3, с. 214]. Работу над понятием об обособленных второстепенных членах можно начать с сопоставления двух предложений, в одном из которых есть обособленный член, а в другом отсутствует: 1) *Справа на лугу стояли большие скирды сена;* 2) *Справа, на лугу, стояли большие скирды сена.*

Анализируя и сопоставляя данные примеры, студенты отмечают, что при выразительном чтении первое предложение читается с постепенным повышением голоса, а затем голос понижается. Во втором же предложении сочетание *на лугу* произносится с большей силой голоса, а перед ним и после него слышатся паузы. Во втором предложе-

нии слова *на лугу* приобретают больший синтаксический вес и добавочное сообщение по сравнению с необособленным второстепенным членом предложения.

Преподаватель напоминает студентам о том, какое значение в речи имеют логические ударения, паузы и вообще интонация.

В заключение следует отметить, что изучение предложений с обособленным членом приводит к интересным результатам. Это связано со смысловым и ритмико-интонационным выделением в предложении второстепенных членов. Обособленные второстепенные члены имеют добавочную функцию, совмещают несколько значений и воспринимаются как дополнительное сообщение.

Научная новизна статьи заключается в том, в большинстве случаев обособленные второстепенные члены вступают в полупредикативные отношения с основой предложения или с каким-либо его членом. Важной объективной предпосылкой обособления является отсутствие тесной синтаксической связи словоформ со своим определяемым. Это имеет определенное значение для дальнейшего изучения предложений с обособленными членами, для их систематизации и обобщения. Изучение предложений, осложненных обособленными второстепенными членами, имеет большое практическое значение, так как это способствует развитию устной и письменной речи студентов-азербайджанцев.

Научная новизна статьи: новизна статьи в том,что в большинстве случаев обособленные второстепенные члены вступают в полу предикативные отношения с основой предложения или с каким- либо его членом.

Научный результат статьи: учитывая вышеизложенное,можно сказать, образование в современное время направлено на развитие личности профессионального учителя.

Практическая значимость статьи: изучение предложений, осложнённых обособленными второстепенными членами,имеет большое практическое значение,так как это способствует развитию устной и письменной речи студентов - азербайджанцев

Литература

1. Дмитриева, Л.К. Осложнение предложения (функции однородности, обособления, вводности и обращения) // Функциональный анализ грамматических категорий. Ленинград, − 1973, − 153-191 с.
2. Камынина, А.А. Современный русский язык. Синтаксис. Осложненные предложения полупредикативными членами. − Москва: МГУ, − 1983, − 102 с.
3. Практическая методика обучения русскому языку как иностранному. Под ред. А.Н.Щукина. − Москва: Русский язык, − 2003.
4. Прияткина, А.Ф. Русский язык. Синтаксис осложненного пред-ложения / А.Ф.Прияткина, − Москва: Высшая школа, − 1990, − 176 с.

İ.A.Mikaylova

Xarici dil kimi rus dili məşğələlərində mürəkkəbləşdirilmiş cümlələrin öyrənilməsinə dair

Xülasə

Məqalədə xarici dil kimi rus dili üzrə məşğələlərində ikincidərəcəli cümlə üzvlərinin xüsusiləşməsi nəzərdən keçirilir. Xüsusiləşmiş ikincidərəcəli cümlə üzvləri müəyyən mənada sərbəst olur və intonasiya baxımından ayrılırlar. Əksər hallarda xüsusiləşmiş üzvlər cümlənin əsas hissəsi və ya hər hansı bir üzvü ilə yarımpredikativ əlaqəyə girir. Xüsusiləşmənin vacib əlamətlərindən biri söz formasının təyin edilən sözlə sıx sintaktik əlaqəsinin olmamasıdır. Buna görə də əksər hallarda qoşulma determinantlar, ismin uzlaşma və yanaşma söz formaları xüsusiləşir. Yarımpredikativ funksiyada uzlaşan və uzlaşmayan təyinlərə, həmçinin şəxs əvəzliklərinə aid olan əlavələr çıxış edir. Mürəkkəbləşdirilmiş cümlələrin öyrənilməsi azərbaycanlı tələbələrin rus dilində şifahi və yazılı nitqini inkişaf etdirir.

Açar sözlər: *rus dili xarici dil kimi, mürəkkəbləşdirilmiş cümlə, xüsusiləşmə, yarımpredikativlik*

I.A.Mikailova

About Studying Complicated Sentences in Russian as a Foreign Language Classes

Summary

The article discusses sentences, complicated by isolated of minors members, in the classroom on Russian as a foreign language. Isolated minors members are relatively independent in the sentence and are characterized by intonation emphasis. In most cases, isolated minor members enter into a semi-predicative attitude with the basic of the sentence or with any of its members. An important prerequisite for isolation is the absence of a close syntactic connection between the word form and it's definable. For this reason, predominantly freely attaching determinants, agreed and adjoining nominal word forms are isolated. The semi-predicative function can be harmonized and non-harmonized definitions, as well as sentences related to personal pronouns. The study of complicated sentences contributes to the development of oral and written speech of Azerbaijani students.

Key words: *Russian as a foreign language, complicated sentence, separation, semi-predicativeness*

Rəyçi: D.B.Cavadova

Redaksiyaya daxil olub: 15.05.2024

X.A.HÜSEYNOV
tarix elmləri doktoru, dosent
e-mail: xezerhuseynov@gmail.com

F.E.ABIŞOV
e-mail: faiqabisov170@gmail.com

Naxçıvan Dövlət Universiteti
(Naxçıvan şəh., Universitet şəhərciyi)

ERMƏNİLƏRİN TARİXİ AZƏRBAYCAN TORPAQLARI – İRƏVAN XANLIĞININ ƏRAZİSİNƏ KÖÇÜRÜLMƏSİ VƏ ONUN AĞIR NƏTİCƏLƏRİ

Xülasə. *Məqalədə ermənilərin kütləvi şəkildə İrəvan xanlığı ərazisinə köçürülməsindən bəhs olunur. Erməni katolikosu Nersesin hazırladığı xüsusi köçürmə layihəsinin həyata keçirilməsində Rusiyanın Qacarlar dövlətindəki səfiri A.S.Qriboyedov əsas rol oynamışdı.*
A.S.Qriboyedov və general İ.Paskeviçin iştirakı ilə Türkmənçay müqaviləsi hazırlanarkən ermənilərin Qacarlar dövlətindən Azərbaycana köçürülməsi məsələsi də öz əksini tapmışdı. Məqalədəki faktlara əsasən, 1828-1830-cu illərdə Azərbaycan ərazilərinə, Türkmənçay müqaviləsinə (1828) görə, 40.000 nəfər Qacarlar dövlətindən və Ədirnə sülh müqaviləsinə (1829) görə isə Osmanlı dövləti ərazisindən 84.000 nəfər erməni köçürülmüş və onların da böyük hissəsi İrəvan xanlığının ən məhsuldar torpaqlarında yerləşdirilmişdir. Məhz bu dövrdən başlayaraq Azərbaycanın qərb torpaqlarında ermənilərin yerləşdirilməsi zaman-zaman yerli Azərbaycan türklərinə qarşı kütləvi soyqırımların və deportasiyaların baş verməsinə gətirib çıxartdı.

Açar sözlər: *İrəvan xanlığı, Rusiya, İran, Türkmənçay müqaviləsi, Qafqaz*

"Böyük Ermənistan" mifik və millətçi ideologiyasına xidmət edən erməni tarixçiləri, ümumiyyətlə, İrəvan xanlığının Azərbaycan xanlığı olduğunu heç bir zaman qəbul edə bilmirlər və onların yol verdiyi bütün saxtakarlıqlar da bundan irəli gəlir. Ona görə də onlar bu ərazilərin azərbaycanlılara bağlılığını nümayiş etdirən bütün fakt və məlumatı saxtalaşdırır və ya da heç xatırlamamağa çalışırlar. Xanlığın azərbaycanlılara bağlılığı barədə müəyyən bir tarixi faktı anmaq məcburiyyətində qalanda da onları azərbaycanlıların deyil, farsların ayağına yazır və İrəvan xanlığını fars xanlıqlarından biri kimi oxucuya çatdırmaq üçün dəridən-qabıqdan çıxırlar. Erməni müəllifləri İrəvan xanlığı ərazisində mövcud olan maddi-mədəniyyət abidələrini, o cümlədən hərbi tikililəri də fars abidələri kimi qələmə verməklə xanlıqdakı Azərbaycan izlərini tam ört-basdır etməyə çalışırlar. Heç bir erməni müəllifinin əsərində İrəvan xanlığının əhalisinin mütləq çoxluğunu azərbaycanlıların təşkil etməsi barədə məlumata rast gəlmək mümkün deyildir. Lakin qaynaq və tarixi ədəbiyyatda bunun əksini sübut edən qiymətli məlumatlar vardır. Bu qaynaq və tarixi əsərlərdə İrəvan xanlığının əhalisi haqqında konkret rəqəmlər göstərilməsə də, etnik baxımdan xanlıqda azəri türklərinin üstünlük təşkil etməsini sübut edən faktlara rast gəlmək mümkündür. Məsələn, 1784-cü il iyulun 10-da Axalsıx hakimi Süleyman paşa İrəvan başçılarına göndərdiyi məktubda İrəvan əhalisini yerli türklər adlandırmışdı.

Səyyah Z.Şirvani "Bustanüs-səyahə" əsərində yazırdı: "O (İrəvan) Arran mülkindədir. Azərbaycana məxsusdur… Əhalisi türkdilli və şiə məzhəbindədir. Azacıq isəvi (xristian) də vardır…" [7, s. 276]. 1828-ci il aprelin 2-də qraf Paskeviç Baş qərargah rəisi qraf Dibiçə ün-

vanladığı məlumatda xanlıq əhalisinin böyük hissəsini müsəlmanların təşkil etdiyini bildirmişdi. Hətta azərbaycanlılara xüsusi hüsnrəğbəti olmayan rus generalı, İrəvan qalasını 1827-ci ildə işğal etmiş Paskeviç də öz məlumatlarının birində bildirirdi ki, "İrəvan vilayətində 10 min müsəlman və ancaq 3 min erməni ailəsi var idi" [1, s.49]. Yəni ermənilər xanlığın əhalisinin üçdə birindən də xeyli az idilər. İkinci Rus-İran müharibəsinin nəticələrinə görə bağlanan Türkmənçay müqaviləsinə əsasən İran və Türkiyədən xeyli sayda erməni əhalisi İrəvan xanlığı ərazisinə köçürülməsinə baxmayaraq, burada ermənilərin sayının mütləq çoxluğunu yaratmaq mümkün olmamışdı. Bu məqsədə nail olmaq üçün erməni liderləri havadarlarına arxalanaraq Şərq ölkələrindəki ermənilər İrəvan xanlığı ərazisində toplamaqla buradakı azərbaycanlı əhalini sıxışdırır, onları başqa ərazilərə köçməyə məcbur edirdilər. Belə siyasət həm XIX əsrdə, həm də XX əsrdə ardıcıl olaraq davam etdirilmiş və nəhayət İrəvan xanlığının hazırda Ermənistana məxsus olan ərazisi azərbaycanlılardan tam təmizlənmişdir.

Azərbaycan xalqının tarixi ilə bağlı olan fikirləri ciddi elmi və məntiqi təftiş tələb edən erməni tarixçiləri İrəvan xanlığının rus qoşunları tərəfindən işğal edilməsini, xanlığın ləğv edilərək yerində İrəvan vilayətinin yaradılmasını da erməni xalqının milli azadlıq hərəkatının nəticəsi kimi şişirtməyə cəhd göstərirlər. Ancaq elə sovet dövrünə qədərki bir çox rus tarixçilərinin bu mövzuya həsr edilmiş əsərləri göstərir ki, İrəvan xanlığının ləğv edilməsi, əvəzində iki rus zabitinin və erməni patriarxının daxil olduğu müvəqqəti idarə orqanının yaradılması heç də ermənilərin milli-azadlıq hərəkatının nəticəsi deyildi. Bu hadisə ermənilərdən yalnız bir vasitə kimi istifadə etməyə çalışan Rusiyanın bölgədəki təcavüzkarlıq niyyətlərinə xidmət edəcək bir addım idi.

Xanlıq ərazisində yeni İrəvan vilayətinin yaradılması ermənilərin istək və arzularından daha çox çarizmin mənafeyini əks etdirirdi. Rus tarixçisi V.Veliçkonun sözlərinə görə, satqınlığı, qarşılıqlı münasibətlərdə fenomenal etibarsızlığı ilə xarakterizə olunan ermənilərin Qafqazda öz müsəlman ağalarına qarşı üsyanlar qaldırmasından I Pyotr da istifadə etməyi lazım bilirdi. Ancaq o da özünü çarizmə sadiq göstərməyə çalışan İsrail Ori kimi ermənilərin sədaqətinə bel bağlamırdı. Elə İrəvan xanlığı ləğv edildikdən sonra onun yerinə yaradılan İrəvan vilayətinin müvəqqəti idarə orqanının tərkibinə erməni arxiyepiskopu Nerses Aştarakesi salınsa da, qısa müddətdən sonra onun da iç üzü ruslara məlum olmuş və elə Paskeviçin özünün təkidi ilə o, İrəvan vilayətindən qovulmuşdu.

Çarizm ermənilər həvəsləndirmək üçün onlara maliyyə kompensasiyası verir, nəqliyyat və daşınma işlərini öz üzərinə götürür, yeni məskunlaşdıqları yerdə ən yaxşı torpaqları ayırır və 6 il müddətində onları bütün vergilərdən azad edirdi. Rus tarixçisi Qlinikanın yazdığına görə, bir çox ermənilər rusların maliyyə yardımlarının müqabilində heç də öz yurdlarını tərk etmək istəmirdilər. Köçmək istəməyən ermənilərə qarşı güc tətbiq edilirdi. Belə köçürmə elə gərginliyə səbəb olmuşdu ki, İran şahzadəsi Abbas Mirzə ermənilərin köçürülmə kampaniyasına rəhbərlik edən palkovnik Lazarevə xüsusi məktub yazaraq onu güc tətbiq etməkdən imtina etməyə çağırmışdı [6, s. 156]. Lakin hərbi təşəbbüsü əlində saxlayan rus tərəfi qarşıya qoyulan məqsədə çatmaq üçün ən qətiyyətli tədbirlərə əl atmaqdan çəkinmirdilər. Bütün bunların nəticəsi o oldu ki, təkcə 1828-1829-cu illərdə İrandan təxminən 45 min, Türkiyədən isə 90 min erməni İrəvan xanlığı ərazisində məskunlaşdırıldı.

Qeyd etmək lazımdır ki, Türkmənçay müqaviləsindən sonra 1828-ci il martın 21-də çarın verdiyi fərmanla Naxçıvan və İrəvan xanlıqları ləğv edilərək hər iki xanlığın daxil olduğu "Erməni vilayəti" yaradılmışdı. Köçürülən erməni ailələrinin bir hissəsi bu vilayətdə yerləşdirilmişdi. 1829-1832-ci illərdə həyata keçirilən kameral siyahıyaalınmaya əsasən, İrəvan xanlığında yaşayan əhalinin etnik və say tərkibini nəzərdən keçirək. Qeyd etmək lazımdır ki, İrəvan xanlığında əhali əsasən şəhər və kəndlərdə yaşayırdı. Kameral siyahıyaalınmada İrəvan xanlığında bir şəhər, 15 mahalın olduğu göstərilsə də, siyahıyaalınmanın təhlili şəhər və kəndlərin sayınının hərtərəfli əhatə etmədiyini ortaya çıxarır. Kameral təsvirdə diqqəti cəlb edən əsas məsələlərdən biri vaxtilə yerli əhalinin yaşadığı və tamamilə dağıdılmış kəndlərdir. Bu kəndlərdə

heç bir yaşayış qeydə alınmamışdı. Bundan əlavə, yaşayış qeydə alınan kəndlərin xeyli hissəsində də yerli əhali göstərilməmiş, boş qalmış kəndlərə isə Cənubi Azərbaycandan, İrandan və Osmanlı dövlətindən köçürülən ermənilərin yerləşdirilməsi ilə kifayətlənmişdir [7, s. 281].

İrəvan xanlığı ərazisini ermənileşdirməkdə çarizmin başqa bir məqsədi də bu ərazilərdəki azərbaycanlıların əzmini və iradəsini qırmaq idi. Çünki Cənubi Qafqazdakı döyüşlər ərzində rus qoşunları məhz İrəvan xanlığı ərazisində daha çox itki və faciələrlə rastlaşmış və güclü müqavimətlə üzbəüz olmuşdu. Hər döyüşdən sonra İrəvan xanlığının müqavimətini daha da zəiflədiyi yəqin edilsə də tezliklə rus sərkərdələri gümanlarında səhv etdiklərinin şahidi olur və İrəvan qalasının işğal edilməsi çətinləşirdi. Xanlığın etnik tərkibinin dəyişməz qalacağı təqdirdə rus generalları şübhə etmirdilər ki, azərbaycanlı əhali özünün igid oğullarının komandanlığı altında birləşərək yenidən rus əsarətinə qarşı çıxa bilər. Daha itaətkar olan ermənilərin sayının vilayətdə artırılması təhlükəsizlik üçün etibarlı vasitələrdən biri idi.

Çarizmin İrəvan quberniyası əhalisinin etnik tərkibini ermənilərin xeyrinə dəyişdirmək siyasəti Türkmənçay müqaviləsindən sonra ardıcıl surətdə həyata keçirilmişdir. Ermənilərin İrəvan quberniyasına köçürülməsi 1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsi dövründə, XIX əsrin 90-cı illərində və XX əsrin əvvəllərində də ardıcıl olaraq davam etdirilmişdir. Bütün bunlara baxmayaraq, İrəvan quberniyasında azərbaycanlı əhalinin xüsusi çəkisi həmişə yüksək olmuşdur.

1917-ci il Qafqaz təqviminin məlumatına görə, 100 ildən çox davam edən soyqırımlarına və deportasiyalara baxmayaraq, azərbaycanlıların sayı 373 582 nəfər (33,35%) idi. Ermənilərin sayı isə qeyd olunan köçürmələr nəticəsində 669 871 nəfərə (59,8%) çatdırılmışdı. İrəvan quberniyasındakı beş şəhərin (Aleksandropol, Naxçıvan, Novobayazid, Ordubad, İrəvan) birlikdə əhalisi 132 559 nəfər (11,83%) idi. Əhalinin qalan hissəsi – 967 683 nəfər (88,17%) isə qəzalarda, o cümlədən İrəvanda (154 331 nəfər), Naxçıvanda (122 208), Sürməlidə (104 791), Şərur-Dərələyəzdə (90 250) yaşayırdı. Azərbaycanlılar bütün şəhər əhalisinin isə 35,3%-ni (348 538) nəfər təşkil edirdi. Əhalinin etnik tərkibinin dəyişdirilməsi quberniyanın mərkəzi İrəvan şəhərində də aparıldı.

1873-cü ildə İrəvan şəhərində azərbaycanlıların sayı 5805, ermənilərin sayı 5959, 1886-cı ildə müvafiq olaraq 7228 və 7142, 1897-ci ildə isə 12 516 və 12 529 olmuşdur. 1917-ci il Qafqaz təqviminin məlumatına görə, İrəvan şəhərində 51 286 nəfər əhali qeydə alınmışdır, onların 25 548 nəfəri (49,8%) kişi, 25 738 nəfəri (50,2%) qadın idi. Şəhər əhalisi 22001 nəfəri daimi, 29285 nəfəri müvəqqəti yaşayanlar idi. Həmin məlumata əsasən, İrəvan əhalisinin 12 557 nəfəri (24,5%) azərbaycanlı, 37 204 nəfəri (72,5%) erməni idi. Bu fakt bir daha aydın sübut edir ki, 1828-1917-ci illər arasında çarizmin həyata keçirdiyi məqsədyönlü köçürmə siyasəti və azərbaycanlılara qarşı ayrıseçkilik siyasəti nəticəsində İrəvanda yerli əhalinin – azərbaycanlıların sayı kəskin surətdə azalmışdı [10, s. 94].

Beləliklə, XIX əsrin əvvəllərində Qacarlar İranını və Osmanlı dövlətini məğlubiyyətə uğradaraq Cənubi Qafqazı işğal edən Rusiya imperiyası zor gücünə regionun etnik mənzərəsini dəyişdi. İran və Türkiyəyə qarşı yeni müharibələrə hazırlaşan Çar Rusiyası Cənubi Qafqazda yeni xristian bufer xətti yaratmaq üçün kütləvi surətdə ermənileri İran və Türkiyədən yenicə işğal olunmuş Şimali Azərbaycan torpaqlarına keçmiş İrəvan, Naxçıvan, Qarabağ xanlıqlarının ərazisinə və digər yerlərə köçürdü.

Bununla XIX əsrin 20-30-cu illərindən başlayaraq Cənubi Qafqazın etnik xəritəsində yeni – erməni toplumu peyda oldu. İran və Osmanlı dövlətinə qarşı müharibələrdə daim Rusiyaya hər cür xidmət göstərən, Azərbaycan, Gürcüstan, Türkiyə əraziləri hesabına özünə dövlət yaratmağa çalışan ermənilər Cənubi Qafqazda daimi gərginlik ocağı yaratdılar. Bütün Cənubi Qafqazda və Şərqi Anadoluda ermənilərin və onların havadarlarının əli ilə törədilən soyqırımları və deportasiyalar dövrü başlandı. Bu qanlı siyasətin əsas hədəfi isə Azərbaycan oldu.

Ədəbiyyat

1. Azərbaycan tarixi [7 cilddə]. Dördüncü cild. − Bakı: Elm, − 2007.
2. Bünyadov, Z.M. Azərbaycan tarixi / Z.M.Bünyadov, Y.B.Yusifov. – Bakı, − 1994, 2005.
3. İsmayıl, M. Azərbaycan tarixi / M.İsmayıl. – Bakı, − 1992.
4. Məmmədov, İ. Azərbaycan tarixi / İ.Məmmədov. − Bakı: 2005.
5. Qiyasi, C. Bozyel. Erməni kültür teroru / C.Qiyasi, − Ankara: 1996.
6. Nasir, N. Abbas Mirzə / N.Nasir, − Bakı: 1993.
7. Qarayev, E. İrəvan xanlığı / E.Qarayev. − Bakı: Avrop, − 2010.
8. Piriyev, V. Azərbaycanın tarixi-siyasi coğrafiyası / V.Piriyev, − Bakı: Araz, − 2002.
9. Azərbaycan tarixi. Ən qədim dövrlərdən XX əsrin əvvəllərinə qədər. − Bakı: Elm, − 1993.
10. Kərimova, S. Çarizmin Azərbaycanın işğalında və müstəmləkəçilik siyasətində erməni siyasət-bazlarının rolu / S.Kərimova, − Bakı: Azərnəşr, − 1995.

Kh.A.Huseynov, F.E.Abishov

The Resettlement of Armenians to Our Historical Lands, to the Territory of the Erivan Khanate and its Grave Consequences

Summary

The article deals with the mass resettlement of Armenians to the territory of the Erivan Khanate. The Russian Ambassador to the Gajars state A.S.Griboyedov played a major role in the implementation of a special resettlement project prepared by the Armenian Catholicos Nerses.

With the participation of A.S.Griboyedov and general I.Paskevich, the issue of the resettlement of Armenians from the Gajars state to Azerbaijan was reflected in the preparation of the Treaty of Turkmenchay. Based on the facts reflected in the article, in 1828-1830, 40,000 Armenians from the Gajars state were resettled in Azerbaijan under the Treaty of Turkmenchay (1828), and 84,000 Armenians from the territory of the Ottoman state under the Treaty of Adrianople (1829), most of them settled on the most fertile lands of the Erivan Khanate. Starting from this period, the placement of Armenians in the western lands of Azerbaijan led to mass genocides and deportations against local Azerbaijani Turks from time to time.

Key words: *Erivan Khanate, Russia, Iran, Treaty of Turkmenchay, Caucasus*

Х.А.Гусейнов, Ф.Э.Абышов

Переселение армян на исторические земли Азербайджана – на территорию Эриванского ханства и его тяжелые последствия

Резюме

В статье речь идет о массовом переселении армян на территорию Эриванского ханства. В осуществлении специального проекта переселения, подготовленного армянским католикосом Нерсесом, участвовал посол России в государстве Каджаров А.С.Грибоедов.

При подготовке Туркманчайского договора вопрос переселения армян из государства Каджаров в Азербайджан решался с участием А.С.Грибоедова и генерала И.Паскевича. На основании фактов, отраженных в статье, по Туркманчайскому договору (1828), в 1828-1830 годах на территории Азербайджана было переселено 40.000 армян из государства Каджаров, а по Адрианопольскому мирному договору (1829), – 84.000 армян с территории османского государства, большая их часть поселилась на наиболее плодородных землях Эриванского ханства. Расселение армян на западных землях Азербайджана, начиная с этого периода, время от времени приводило к массовым геноцидам и депортациям местных азербайджанских тюрков.

Ключевые слова: *Эриванское ханство, Россия, Иран, Туркменчайский договор, Кавказ*

Rəyçilər: tarix ü.f.d. N.M.Hüseynbəyli
tarix e.d. S.Z.Abbasova

Redaksiyaya daxil olub: 30.04.2024

A.B.KƏRİMLİ
doktorant
e-mail: altaykarimli@yahoo.com

Bakı Dövlət Universiteti
(Bakı şəh., Z.Xəlilov küç., 33)

:https://orcid.org/0000-0002-4212-076X

SOSİAL XİDMƏTİN İSVEÇ MODELİ

Xülasə. *Müasir dövrdə inkişaf etmiş dövlətlərin sosial siyasət modellərində sosial xidmət və qayğı əsas yer tutur, çünki sosial xidmət uğurla təşkil edilmədən səmərəli sosial siyasət qurmaq mümkün deyil. Yazılan məqalə bu məqsədlə deyilən mövzuları gözdən keçirərək, təhlil edərək, bu sahədə görülən işlərin mənfi və müsbət, güclü və zəif tərəflərini ortaya çıxararaq örnək bir sistem üçün lazımi elementləri qeyd edir. Sadalanan məsələlər zamanı bu gün dünyada aparıcı və ən uğurlu modellərdən sayılan Skandinav ölkələri, konkret olaraq İsveç götürülür və bu ölkədə son 100 ildə atılan ardıcıl addımlar, müvafiq qanunlar və siyasi proseslər vurğulanır, onların gətirdiyi nəticələr qeyd olunur. Skandinav sosial xidmət tipini, İsveç modelini nəzərdən keçirərkən sistemli yanaşma və işləmənin uğurlu olmasını aydın şəkildə sezmək olur. Digər baxımdan, uğurlu sosial model quruculuğunda əhalinin də böyük rol oynadığı, tarixi ənənələr, milli münasibət, sosial normaların bu işə böyük töhfə verdiyi, vəhdət halında daha böyük uğurlara nail olunmasını göstərir. Çağdaş sosial-mədəni dəyərlərin prosesə töhfəsi, bunların təmin edilmədən, insan hüquq və azadlıqlarına riayət etmədən uğurlu sosial rifah modeli qurulmasının mümkünsüzlüyü bir daha aydın olur.*

Açar sözlər: ı*osial rifah, ədalətlilik və bərabərlik, rifah dövləti, universal rifah siyasəti, əmək bazarı, şəffaflıq və açıqlıq, sosial demokratiya, iqtisadi təhlükəsizlik*

Problemin işlənmə dərəcəsi – Mövzu işlənərkən bu sahədə aparılan tədqiqatlardan uğurla istifadə olunaraq, zəngin təcrübə ilə akademik baxış birlikdə nəzərdən keçirilir. İsveç sosial rifah modelinin tarixən işlənib hazırlanması, 100 il ərzində keçdiyi inkişaf yolu, rastlanan çətinlik və problemlər, uğur və uğursuzluqlar; bunların səbəbi və doğurduğu nəticələr diqqətlə təhlil olunur. İsveç modelinin tərkib hissələri olan sosial demokratiya, rifah dövləti, yüksək məşğulluq həddi, işsizlikdən sığorta, ailə və uşaqlara ayrılan diqqət, iş və ailə həyatının balanslaşdırılması, fərdi hüquq və azadlıqların ümumi mənafe ilə uzlaşdırılması, gender bərabərliyi və ömürboyu təhsil məsələləri ayrılıqda və diqqətlə nəzərdən keçirilir. Məqalə mövzunu aydın şəkildə təhlil edərək vacib məqamları qeyd etməklə, çatışmazlıq və zəif tərəfləri də bildirir. Sosial siyasətin şəffaflığı və qərarların qəbulunun insanların ehtiyacına uyğunlaşdırılması diqqəti cəlb edir.

Məqsəd, vəzifələr – bu sahədə görülən işlərıı və aparılan araşdırmaları təhlil edərək, tarixi və müasir yanaşmalardan çıxış edərək bugünkü dünyada aparıcı sosial siyasət modellərindən olan İsveçin rifah dövləti quruculuğunda əsas götürdüyü faktorları, tətbiq edilən yanaşmaları analiz edərək bu sahədə mütərəqqi sistem və modelin qurulması üçün lazımi faktorları diqqətə çatdırmaq və bunların digər ölkələr üçün də işlənilə bilmə variantını göstərməkdir. Bu modelin təhlili əsasında universal, yerli sosial sistemlərin hazırlanması üçün lazımi nəzəri və praktiki biliklərin əsas götürülməsi və tətbiqi yollarını müəyyən etmək qarşımızda duran vəzifələrdəndir.

Metodlar – Tədqiqat zamanı mövzu ilə bağlı mənbələr arasında müqayisəli təhlil metodologiyasından, ümumilikdə analitik tədqiqat metodundan istifadə edilmişdir. Tətqiqatda qarşıya qoyulan vəzifələrdən asılı olaraq ümumiləşdirmə, abstraktdan konkretə yüksəlmə, tarixi-müqayisəli və sistemli yanaşma, analiz, sintez, induksiya və deduksiya kimi metodlardan istifadə edilmişdir.

Giriş

Günümüzdə sosial rifah və sosial xidmətlər dedikdə ağla gələn ilk məkanlardan biri Skandinaviya, daha konkret olaraq İsveç olur. Əlbəttə, bu məsələdə İsveçin coğrafi və tarixi mövqeyi (neytrallıq siyasəti), inkişaf etmiş ölkə olması da müəyyən rol oynayır, ancaq, digər inkişaf etmiş və ortaq və ya yaxın mövqeli ölkələrə baxdıqda görürük ki, bunlar heç də əsas deyil. Avropanın bir hissəsi olan bu bölgənin digər Avropa ölkələrindən əsas fərqlərindən biri sosial münasibətlər sistemi, insan azadlığını önə çəkməsi və iqtisadi təhlükəsizliyin cəmiyyətdə aparıcı yer tutmasıdır. Dini və milli mübahisələrin minimum həddə olması, insanların daha çox fərdi həyat və rifahlarını öndə görmələri, sosial məsafə və fərdi azadlıqların əhali üçün əsas dəyərlər sistemini formalaşdırması Skandinav ölkələrinin uğur səbəblərindən sayılır. Sosial siyasətin uğurlu qurulması və səmərəli idarəçiliklə yanaşı əhalinin buna münasibəti və özlüyündə bu sahədə yaratdığı və tətbiq etdiyi dəyərlər konkret siyasi modelin uğur qazanmasına gətirib çıxarır. Əlbəttə, İsveç modeli həm də milli modeldir və bunun digər ölkələrdə uğur qazanma ehtimalı heç də həmişə müsbət deyilir, çünki bu modeli uğurlu edən isveçlidir, onun tarixi və mədəni dəyərləri, müasir yaşayışı və gözləntiləridir. Ayrılıqda heç bir model xalqın iştirakı, razılığı olmadan uğur qazana bilməz. Uğur qazanmanın əsas faktorlarından biri insanların ehtiyacları ilə dövlətin potensialının uyğunlaşdırılması, ailə, iş və təhsil həyatının bir-birlərinə mane olmadan ardıcıl olaraq qurulmasıdır. Bu mövzuda hal-hazırda dünya üçün örnək sosial modellərdən olan İsveçin buna nail olmaq üçün keçdiyi yola və bu işdə atılan addımlara diqqət yetirilir, real göstəricilərə əsaslanan baxış, insan tələbatına uyğun tərzdə yürüdülən siyasətin və insanların bu prosesdə birbaşa iştirakının, regional fərqlərin nəzərə alınmasının gətirdiyi uğurlu nəticələr və bu prosesdən çıxarılan dərslər təhlil olunur.

İsveç Skandinav ölkələri arasında ən böyük və sosial xidmət modelinin daha yaxşı inkişaf etdiyi ölkədir. Beynəlxalq standartlara əsasən də, İsveç rifahın ölkə əhalisi üzrə daha çox bərabər paylandığı ölkədir. Bu model özünün inklüziv xarakteri, hər kəsin rifahını artırmaq xarakteri daşıması, eyni zamanda da vətəndaşların müstəqilliyini qorumağı hədəfləyir. İsveç modelinin əsasında üç prinsip durur: **dəyişikliyə uyğunlaşmanı asanlaşdıran əmək bazarı, universal rifah siyasəti və açıqlığı və stabilliyi təşviq edən iqtisadi siyasət**. Əmək bazarı fəal işçi qüvvəsini, işsizlikdən sığorta mexanizmini və struktur dəyişikliklər zamanı lazım olan yeni bilik və bacarıqlara, tapşırıqlara uyğunlaşmanı əhatə etməlidir. Rifah siyasəti bütün vətəndaşların yüksək keyfiyyətli sosial təminat xidmətlərinə çıxışının olmasını nəzərdə tutur. Sosial sığorta sistemi dövlət qarşısında müvafiq öhdəliklərini yerinə yetirən hər bir şəxsin maliyyə təhlükəsizliyini təmin etməlidir. İqtisadi siyasət açıqlığı və beynəlxalq rəqabəti təmin etməsi, beləliklə də iqtisadi stabillik və dinamik biznes sektoru üçün şərtlər yaratması ilə səciyyələnir. Maliyyə siyasətinin dayanıqlılığı üçün geniş dövlət xərcləmələrinin olması lazımdır. İsveç də bunu əsas götürərək, maliyyə siyasətinin möhkəmliyi və ardıcıllığını prioritet götürür. Bu zaman vətəndaşlarda dövlətə inam artır və maliyyə şəffaflığı daha rahat təmin olunur. Bu da özlüyündə iqtisadi sistemi legitimləşdirərək vergi siyasətinin daha effektiv şəkildə aparılmasına gətirib çıxarır. Əhalinin işlə təmin olunmasının yüksək olması da burada mühüm amildir, çünki universal rifah buradan maliyyələşir. Uzun müddətdir ki, aparılan bu siyasətin nəticəsində İsveçin Ümumi Daxili Məhsulu hər il (qlobal iqtisadi böhran dövrünü çıxmaqla) stabil şəkildə artır. Dünyada belə bir göstəriciyə malik yalnız bir neçə dövlət var. Bunun sayəsində resurs baxımından dəfələrlə zəngin olan Almaniya və Kanada kimi dövlətləri də geridə qoyub. İsveç modelinin konkret tərifi olmasa da, yürüdülən iqtisadi və rifah siyasəti, əmək bazarının xarakterinə əsasən onun bərabərlik və firavanlıq arasında əlaqələri qarşılıqlı şəkildə güclənməsinə əsaslandığını demək olar. Bu modelin ən mühüm məqsədi isə rifahın artması ilə resurslar və sərvətin əhali arasında bərabər şəkildə bölünməsinə nail olmaqdır. Digər mühüm məsələ isə bütün bunların insanların iqtisadi azadlıqlarını azaltmadan, əksinə bunu artıraraq edilməsidir. Modelin əsas hədəfləri: **firavanlıq, ədalətlilik və gender bərabərliyi**.

Ədalətlilik hədəfi bütün insanların bərabərliyinə və onların öz həyatında layiqli və bərabər şəkildə müstəqil həyat hüququna olan fundamental inama əsaslanır. Ədalətlilik bu modelin ayrılmaz dəyəridir. Gender bərabərliyi də bu dəyərin tərkib hissəsi və əsas prinsipi olaraq götürülür. Qadınların əmək hüququnun olması onların öz həyatlarını müstəqil şəkildə qurması üçün əsas elementdir. Bu həm də əmək bazarında işləkliyin artması ilə iqtisadi inkişafa, artıma da səbəb olur, rifaha gətirib çıxarır. İşsizlik iqtisadi çatışmazlıq olmaqla bərabər, həm də cəmiyyətdən təcridə aparıb çıxarır. Buradan aydın olur ki, gəlirlərin bərabər bölünməsi üçün əmək bazarı, iş səviyyəsi fundamental elementdir. Çünki işsizlik səviyyəsi nə qədər aşağı olarsa, rifah, ədalətli gəlir bölgüsü və bunu maliyyələşdirəcək vəsait də daha çox olar. İş imkanları ilə təminatın yüksəkliyində təhsil sitemi, kadrların yüksək ixtisaslı olması çox önəmli faktordur. Təhsil, səhiyyə, ahıl və uşaqlara qayğının dövlət tərəfindən maliyyələşdirməsi resursların daha ədalətli şəkildə bölünməsinə gətirib çıxarır.

İsveç modelinin daha bir məqsədi vətəndaşların müstəqilliyinin qorunması, güc bərabərsizliyinin qarşısının alınmasıdır. Bu işçilər və işəgötürənlər, həmçinin şəxslər və ailələri arasında olan münasibətlərin xarakterindən irəli gəlir. Rifah sistemi və müxtəlif dövlət strukturları vasitəsilə məqsəd şəxslərinə özləri üçün, ailələrindən asılı olmadan layiqli həyat səviyyəsini təmin etmək və onların sahibkarlarla münasibətdə güclü mövqedə olmasını təmin etməkdir. Tragardh və Berggren [6, s. 35] İsveç modelinin bu tərəfinə xüsusi diqqət yetirir. Onlar bunu fərdlə dövlət arasında həm hüquqlar, həm də vəzifələr baxımından birbaşa müttəfiqlik kimi qiymətləndirir. Vətəndaşın ailəsi, işəgötürən sahibkar və ya müvafiq dövlət qurumları ilə münasibətlərinin vəziyyətindən asılı olmayaraq, onun üçün həmişə sosial təhlükəsizlik şəbəkəsi var. Beləliklə, şəxsin ailəsindən, qonşularından, biznes qurumlarından və vətəndaş cəmiyyəti institutlarından asılılığı minimuma enir. Geniş dövlət xərcləmələrinə, dövlət sektorunun iqtisadiyyatda önəmli yer tutmasına rəğmən iqtisadi inkişaf və dayanıqlılığın təmin edilməsi nəzəri olaraq paradoks hesab edilsə də Skandinav ölkələri, o cümlədən İsveç ədalətlilik və səmərəlilik arasında arasında qarşılıqlı əlaqənin, bunların bir-birini dəstəkləməsi sayəsində buna nail ola biliblər. **Lindbeck və Ljunge** kimi tədqiqatçılar burada sosial normaların də vacib rol oynadığını bildirir. Belə ki, cəmiyyətdə insanların varlanma meyilinin aşağı olması, verilən imkanlardan sui-istifadə etməməsi də burada müəyyən rol oynayır. Eyni zamanda sui-istifadə hallarının qarşısını almaq üçün də müvafiq ölçülər nəzərə alınır. Şəxsə işsizlikdən sığorta müavinəti daimi yox müvəqqəti xarakter daşıyır və onun iş axtarması və bu məqsədlə təlim, təcrübə proqramlarında iştirakı nəzərə alınaraq verilir. Əksər hallarda gəlirlərin daha ədalətli bölgüsü üçün dövlətin hərtərəfli müdaxiləsinə ehtiyac olur. Dövlət sektorunun genişliyi və ÜDM səviyyəsinin stabil artımda saxlanması həm də ədalətlilik və səmərəlilik arasında olan münasibətlə yaxından bağlıdır. Digər baxımdan, dövlət sektoru şəxslər arasında resursların bərabər bölgüsünü təmin etməkdə bir alət kimi çıxış etməklə, təhsil, səhiyyə və uşaqlara, ahıllara qayğı məsələlərini maliyyələşdirməklə iqtisadiyyatda məhsuldarlığı artıra bilər. Düzgün vergiləndirmə və ayrılan vəsaitlərə nəzarət də bu prosesdə vacib faktordur.

İsveç modelinin daha bir vacib tərəfi rifah xidmətləri və sosial təhlükəsizlik sisteminin şəxsi **bütün həyatı boyu** əhatə etməsidir. Uşaqlar və gənclər müxtəlif qayğı sistemləri və təhsil, qocalar pensiyalar və müəyyən qayğı sistemləri ilə təmin olunur, iş qabiliyyətli əhali isə vergiləri ödəməklə bu prosesdə əsas rolu oynayır. Bu vergilər sosial sığorta sisteminin əsasını təşkil edir. Bütün yaş qruplarında olan insanlar təhsil və səhiyyə xidmətlərindən istədikləri zaman müəyyən çərçivədə pulsuz şəkildə faydalana bilər. Resursların ömürboyu bu şəkildə dövriyyəsi iqtisadi səmərəliliyi təmin edir və iqtisadiyyatı qəfil böhranlardan sığortalayır. Bütün bunlar cəmiyyət arasında güclü sosial müqavilə təmin etməklə, aztəminatlı şəxslərə istədiyi təhsil növündən faydalanmağa imkan verir. Toplanan sosial kapital və onun ədalətli və bərabər şəkildə bölünməsi buna imkan verir. Beləliklə, insan kapitalı potensialı daha uyğun şəkildə istifadə olunur. *Andersen və Maibom* [11, s. 105] tərəfindən aparılan empirik analizlər göstərir ki, İsveç yaxşı hazırlanmış siyasəti və düzgün təşkil olunmuş institutları ilə dünyada

sosial rifah sahəsində həm yüksək gəliri, həm də ədalətli bölgü ilə dünyada bu sahədə ən yaxşı praktiki ölkələrdəndir. Andersenə görə, bunun əsasında yüksək dövlət xərcləmələrinin səmərəli olması, bu xərclərin insanların rifah və gündəlik həyatlarına, gəlirlərə və işə birbaşa təsir etməsidir. İsveç əmək bazarının fərqləndirici xüsusiyyəti koordinasiyalı əməkhaqqı formalaşdırılması, fəal əmək bazarı siyasəti və işsizlikdən sığortadır. Bu siyasətin məqsədi hər 2 cinsin iş imkanlarını artırmaqla ehtiyac olduğu zaman struktur dəyişikliklərə asanlıqla keçidi təmin etməkdir. Bu zaman insanların bacarıqları əsas götürülür və buna uyğun iş imkanları təklif edilir. Cəmiyyət iş mühiti üçün uyğun şərtləri təmin etməli, fərdlər də eyni zamanda öz bilik və bacarıqlarını əmək bazarı tələblərinə uyğun inkişaf etdirməlidirlər. İşsizlik sığortası əmək bazarında uyğunlaşmanın vacib elementi olmaqla iqtisadiyyatda davamlı struktur dəyişikliyi ehtiyacının qəbul edilməsini təmin edir. Effektiv işsizlik sığortası gəlir təhlükəsizliyini təmin edir və beləliklə şəxsin müstəqilliyini qoruyub saxlayır. Şəxs işsiz olduğu vaxtı boşuna keçirmir, iş axtarır və bu məqsədlə yeni bacarıqlar, peşə öyrənir. Nəticədə insanlar qazandıqlarını xərcləməyə daha meyilli olurlar, bu da ümumi iqtisadiyyata fayda verir.

İsveç rifah siyasətinin həcmi və istiqaməti bu modelin əsaslandığı gəlirlərin ədalətli və yüksək səviyyədə bölgüsü və qeyri-bərabər güc mövqeyinin qarşısını almağa yönəlmiş fərdi müstəqilliklə müəyyən olunur. Sosial hüquqlar insanların digər şəxs və qurumlardan asılılığını azaldır. Bu sistem imkan və istəklərin uyğunlaşdırılması, yüksək məşğulluğun, sosial iştirakçılığın təmini və əmək bazarına uyğun yüksək keyfiyyətli işçilərin hazırlanması üzərində qurulub. Uşaqlara və onların sonrakı təhsilinə ayrılan kapitalla onlarda iqtisadi müstəqillik formalaşdırılır, daha sonra isə bu yüksək insan kapitalı və kadr potensialına yol açır. Rifah siyasətinin digər önəmli xüsusiyyəti isə onun universal olması, bütün əhalini əhatə etməsidir. Bundan başqa, ölkədə daha az təminatlı qruplar üçün də ayrıca sosial təhlükəsizlik şəbəkələri mövcuddur. Universallıq əhalidə dövlət siyasətinə inamı yüksəldir və əlavə xərclərə qənaət edir. Bayaq da vurğulandığı kimi, təhsil, səhiyyə, uşaq və yaşlılar üçün müxtəlif qayğı xidmətləri cəmiyyətin rifahının daha yaxşı təmin olunması, gəlirlərin ədalətli bölgüsü baxımından çox faydalıdır. Sosial və tibbi sığortanın olması insanları istədikləri zaman bu xidmətlərdən pulsuz və ya cüzi ödəniş qarşılığında istifadə etməyə imkan verir. Bu eyni zamanda orta məktəbdən tutmuş iş mühitinə qədər hər kəsə bərabər inkişaf imkanları verir. Bərabər inkişaf isə bərabər iş imkanları, gəlir bərabərliyi deməkdir. İqtisadi rifah maddi rifahın açarıdır, bu məqsədlə də insan kapitalı yüksək olmalıdır. Aparılan bu siyasət nəticəsində, İsveç dünyadan bilik − əsaslı və yüksək keyfiyyətli insan kapitalına əsaslanan iqtisadiyyatı olan ölkələr arasında ön sıralardadır. Yüksək keyfiyyətli təhsil bu xalqın dünyada qabaqcıl elm və araşdırma mədəniyyəti olan toplumlardan birinə çevirir. Təhsilin biznes sektoru ilə paralel işləməsi tələbələrin iş tapmasını asanlaşdırdığı kimi, hər iki sahədə ölkənin yüksək rəqabət qabiliyyətli olmasına gətirib çıxarmışdır.

İsveç sosial modelinin tarixçəsi və xüsusiyyəti

XIX əsrin sonunda Sənaye İnqilabının təsiri ilə İsveçin şəhərlərində əhali artmış və yeni orta sinif formalaşmağa başlamışdı. 1900-cü ildə İsveç yazar və feminisit Ellen Key-in "**Uşaq əsri**" əsəri o dövrdə sosial yardım və xidmətlərin əhəmiyyətini, bu sahədə uşaqlara qayğını bir daha diqqətə gətirməklə Avropada bu yöndə olan fikirlərin formalaşmasında vacib rol oynayan köklü əsərlərdən biri oldu. Yeni orta sinif uşaqların tərbiyəsi və təhsili məsələsində bu kitaba çox müraciət edirdi. Bu da uşaqlara qayğı, onların təhsil və təlimi məsələsində yeni yanaşmaların yaranmasına gətirib çıxarırdı. Müzakirələr dövlət səviyyəsinə çatdıqdan sonra, 1902-ci ildə uşaqlar üçün qəyyumluq haqqında qanun qəbul edildi. Eyni ildə azyaşlı və yeniyetmə uşaqlarla cinayət törətdikləri halda həbs yerlərində müvafiq davranış qaydaları (zorakılığa qarşı) haqqında başqa bir qanun qəbul edildi. Qanun uşaqları qorumaq məqsədi daşıyırdı. 1924-cü ildə qəbul olunan qanunla uşaqların lazım gəldikdə valideynin istəyinin əksinə belə olsa, onlardan alınmasına icazə verildi. Burada məqsəd uşaqları kriminal ailələrdən və gələcəkdə neqativ həyat tərzindən qorumaq xarakteri daşıyırdı. Bu məqsədlə xüsusi uşaq rifah

komitələri yaradıldı və bu iş onlara həvalə olundu [12, s. 153]. Bundan sonra İsveç cəmiyyətində bu sahədə stabilləşmə, uşaqlara yönəlik davranışın yaxşılaşması müşahidə olundu. XX əsrin ikinci yarısında İsveçdə iqtisadi stabillik və rifah mövcud idi, uşaqlarla qayğı sahəsində çoxsaylı peşəkar sosial işçilər, bu sahədə ixtisaslaşan institutlar və vətəndaş cəmiyyətləri artıq bütün ölkədə populyar idi. 1960-cı ildə "**Uşaqlar üçün Rifah Aktı**" qəbul olundu. 1974-cü ildə Titmus "**üçmərhələli sosial siyasət modeli**"ni irəli sürdü və bununla rifah dövlətləri tiplogiyaya ayrılmağa başlandı [8, s. 113]. Bu tipologiyaya əsasən, rifah dövlətlərin üç modeli seçilməyə başlandı: **Sosial-demokratik və ya İnstitusional, Korporativ-katolik və ya iş-əsaslı və Liberal**. Qanun əsasən inzibati xarakteri daşıyırdı və uşaqların rifahı yönündə görülən işləri qiymətləndirməyə yönəlmişdi. Buna baxmayaraq, cəmiyyətdə problemli ailələrin uşaqlarının da problemli olacağı kimi bəzi stereotiplər mövcud idi. 1980-ci ildə qəbul olunan növbəti qanunla bu kimi məsələlər nəzərə alındı və əvvəlki qanunlara bəzi dəyişikliklər edildi. Problemli uşaqlığın birbaşa ailə davranışı ilə bağlı olması anlayışı önəmini itirdi. Qanun, problemin nəzəri və praktiki həllində yeni yanaşma ortaya qoymaqla uşaqların rifahı sahəsində daha bütöv və hərtərəfli baxış ortaya qoyurdu. Uşaq rifah xidmətlərinə ciddi nəzarət dövlətdən könüllü əsasla valideynə və bu sahədə işləyən qeyri-hökümət təşkilatlarına keçdi. Dövlət icraçı yox, tənzimləyici funksiyanı yerinə yetirməyə başladı. Burada əsas məqsəd ailələrin ehtiyaclarını qarşılamaq və buna uyğun sistem qurmaq idi. Qanuna sonradan bəzi dəyişiklik və əlavələr edilsə də 1982-ci ildən indiyədək uşaqların rifahı sahəsində İsveçdə əsas qanundur. Bu ölkədə uşaq rifah sistemi özündə 2 mühüm elementi, **ailə yönümlü sistemi və uşaqların müdafiəsini** birləşdirir. Burada əsas hədəf ailələrin və uşaqların ehtiyaclarıdır. Digər önəmli xüsusiyyət yerli sosial xidmət təşkilatlarının, bələdiyyənin bu sahədə ailələrlə birgə işləməsi, onların şəxsi və psixo-sosial inkişafına dəstək verməli olmasıdır. 1989-1990-cı illərdə İsveçdə sonradan "**Əsrin vergi islahatı**" adlanan islahatları həyata keçirdilər. Bununla orta sinifin vergi yükü azaldıldı. Yüksək gəlirli ailələr üçün marjinal vergi yarıya qədər azaldıldı.

İsveçdə rifah xidmətlərində əsas funksiyanı regional və yerli idarəetmə orqanları daşıyır. Burada, ümumiyyətlə Skandinav ölkələrində sosial xidmətin fərqləndirici xüsusiyyətlərindən biri bunun ailədə bərabər paylanması, uşaqlar üçün ana və atanın qayğı sahəsində bərabər işləməsidir. Bələdiyyələrin sosial siyasətdə fəal rolu bu işi daha uyğun həyata keçirməklə bərabər, mərkəzi və regional hökümətin bu sahədə işini yüngülləşdirir. 1982-ci ildə qəbul olunan Sosial Xidmətlər Aktına əsasən bələdiyyələr ictimai sosial xidmətləri təşkil edir. Bələdiyyələr həll yolunu seçməkdə müstəqildir və bu sahədə aralarında xeyli fərqlər də mövcuddur [1, s. 76]. **Sosial Xidmətlər Aktı** 1982-ci ildən sonra dəfələrlə yenidən gözdən keçirilib və son dəfə 2002-ci ildə ona əlavə və düzəlişlər edilib. Qanun konkret hədəfi nəzərdə tutsa da, dövlət rəsmilərinə bu sahələrdə öz fərdi yanaşmalarına uyğun hərəkət etməyə imkan yaradır, bu da ölkənin müxtəlif bölgələri arasında olan fərqlərə görə nəzərə alınır.

Nəticə

Aparılan araşdırma və analizlər göstərir ki, uğurlu sosial sistem və rifah dövləti quruculuğu üçün güclü elmi-nəzəri əsaslarla yanaşı, ictimai rəy, tarixi-mədəni dəyərlər, münasibətlər sistemi və dövlət-vətəndaş əlaqələrinin şəffaflığı, əhalinin rifahının və hüquq və azadlıqların qorunması da vacibdir. Bu sadalanan faktorlar zəncirin həlqələri kimi vacib rol oynayır və hər hansı birində problemin olması ümumi sistemin işinə əngəl törədir. Biz, burada həm də ümumi maraqlar naminə fərdi maraqların arxa plana keçirilməsini, iş və ailə həyatının uğurlu balansını, gender bərabərliyinin təmini üçün hər iki cinsin birgə səylərini, təhsil və iş həyatının paralel və ardıcıllığını, əmək bazarının stabilliyinin saxlanması ilə ümumi iqtisadiyyatın inkişaf etdirilməsini, ömürboyu təhsil və sosial təminat sisteminin birgə işləməsini, vətəndaşlarla yanaşı miqrantların, əcnəbilərin də sosial hüquqlarının qorunmasını görürük. Dövlət insanlar üçün gündəlik tələbat məhsullarının hər kəs üçün əlçatanlığını təmin etməklə eyni zamanda insan sağlamlığına və cəmiyyətin mənafeyinə ziyanlı halların qarşısını maksimum alır, onları xeyirxah fəaliyyətə təşviq edir. Bütün bunları nəzərə alaraq belə nəticəyə gəlmək olar ki,

səmərəli və uğurlu sosial siyasət modeli, rifah modeli qurulması üçün dövlətlə vətəndaşların daha yaxından, birgə işləməsi və bir-birlərinə qarşı açıq olması, dürüst davranması ən vacib məqamlardan biridir. Bunu təkcə sosial yox digər sahələr üçün də demək olar.

Ədəbiyyat

1. The Dialectics Between Specialization and Integration: Politicians' and Managers' Views on Forms of Organization in the Swedish Social Services. *Perlinski, M., Blom, B., Morén, S., and Lundgren, M*. Administration in Social Work, 35(1). − 2010.
2. The Three Worlds of Welfare Capitalism. *Gosta Esping-Andersen*. − Princeton University Press Princeton, New Jersey, − 1991.
3. Parental leave, childcare and gender equality in the Nordic countries. Ingólfur Vilhjálmur Gíslason and Guðný Björk Eydal. − Copenhagen: Nordic Council of Ministers, − 2011. http://www.norden.org/en/publications/publikationer/2011-562.
4. Social protection in the Nordic countries 2007-2008: Scope, expenditure and financing. Copenhagen: Nordic Social-Statistical Committee. − NOSOSKO, − 2009.
5. Child and Family Welfare in Sweden. *Gunvor Andersson*, Wilfrid Laurier University. Partnerships for Children and Families Project. Reports and Papers -6, − 2002.
6. Is the Swede Human? Radical Individualism in the Land of Social Solidarity. *Henrik Berggren and Lars Trägårdh*. − 2006
7. The Incomplete Revolution: Adapting Welfare States to Women's New Roles. *Esping-Andersen Gosta*. − Cambridge: Polity Press, − 2009.
8. Social capitalism: a study of Christian democracy and the post-war settlement of the welfare state. *Kees van Kersbergen*. − Florence: European University Institute, − 1991.
9. The Spirit of the Welfare State? Adaptation in the Demand for Social Insurance. *Martin Ljunge*. SSRN Electronic Journal, − 2011.
10. Social Norms and Welfare State Dynamics. *Assar Lindbeck, Sten Nyberg, Jörgen W.Weibull* Journal of the European Economic Association, RePeC, 2003.
11. The trade-off between efficiency and equity. *Jonas Maibom, Torben M Andersen*. − 2016. VoxEU, CEPR.
12. Compulsory care of children: a study of legislation, professions and practice in the 20th century. *Tommy Lundström*, − Stockholm: Stockholms universitet, − 1993.

A.B.Karimli

The Swedish Model of Social Care

Summary

Social service and care occupy the main place in the social policy models of developed countries nowadays, because it is impossible to build an effective social policy without successfully organizing social service. For this purpose, the written article reviews and analyzes the mentioned topics, reveals the negative and positive, strong and weak aspects of the work done in this field and mentions the necessary elements for an exemplary system. Regarding mentioned issues, the Scandinavian countries, specifically Sweden, which are considered to be the leading and most successful models in the world today, has taken consistent steps respectively in the last 100 years, relevant laws and political processes have been highlighted, and the results they bring are noted. When considering the Scandinavian type of social service, the Swedish model, it is clear to see the success of the systematic approach and work. From another point of view, it shows that the population plays a big role in building a successful social model, historical traditions, national attitude, and social norms contribute a lot to this work, and it shows that greater success can be achieved in the case of unity. The contribution of contemporary sociocultural values to the process, the impossibility of establishing a successful social welfare model without ensuring them and observing human rights and freedoms becomes clear once again.

Key words: *Social welfare, justice and equality, welfare state, universal welfare policy, labor market, transparency and openness, social democracy, economic security*

А.Б.Керимли

Шведская модель социальной защиты

Резюме

Социальное обслуживание и забота сегодня занимают главное место в моделях социальной политики развитых стран, поскольку без успешной организации социального обслуживания невозможно построить эффективную социальную политику. С этой целью в написанной статье рассматриваются и анализируются упомянутые темы, раскрываются отрицательные и положительные, сильные и слабые стороны работы, проделанной в этой области, и упоминаются необходимые элементы образцовой системы. Что касается упомянутых вопросов, скандинавские страны, в частности Швеция, которые сегодня считаются ведущими и наиболее успешными моделями в мире, за последние 100 лет соответственно предприняли последовательные шаги, были освещены соответствующие законы и политические процессы, а также результаты они приносят, отмечены. При рассмотрении скандинавского типа социального обслуживания, шведской модели, становится ясно виден успех системного подхода и работы. С другой точки зрения, это показывает, что население играет большую роль в построении успешной социальной модели, исторические традиции, национальное мироощущение и социальные нормы вносят большой вклад в эту работу, и это показывает, что большего успеха можно достичь в случае единства. В очередной раз становится очевидным вклад в этот процесс современных социокультурных ценностей, невозможность создания успешной модели социального обеспечения без их обеспечения и соблюдения прав и свобод человека.

Ключевые слова: *социальное благосостояние, справедливость и равенство, государство всеобщего благосостояния, всеобщая политика благосостояния, рынок труда, прозрачность и открытость, социал-демократия, экономическая безопасность*

Rəyçi: prof. Q.Abbasova

Redaksiyaya daxil olub: 15.05.2024

M.H.NƏZƏROV
fəlsəfə elmləri doktoru, dosent
e-mail: muslimnazarov@mail.ru

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

POSTİNDUSTRİAL CƏMİYYƏTDƏ TƏHSİL XİDMƏTLƏRİ MARKETİNQİNİN FƏLSƏFİ İSTİQAMƏTLƏRİ

Xülasə. *Məqalədə təhsil xidmətləri bazarının mövcud vəziyyəti, "təhsil xidməti" kateqoriyasının mahiyyəti, təhsil xidmətləri bazarında marketinqdən istifadənin zəruriliyini, təhsil xidmətlərinin marketinqinin məzmununu araşdırılır. Marketinqin kompleks fəaliyyət kimi, o cümlədən marketinq mühitinin və rəqiblərin strategiyalarının tədqiqi kimi istifadə edilməsinin zəruriliyi əsaslandırılır, təhsil xidmətləri bazarının marketinq monitorinqinin aparılması məqsədi təhsil xidmətləri bazarında öz yerimizi tapmaq və təhsil müəssisəsinin əlverişli imicini yaratmaqdır.*

Açar sözlər: *təhsil, təhsil xidməti, təhsil marketinqi, marketinq, təhsil məhsulu*

Qlobal iqtisadiyyatda inkişafın əsas amili rəqabətqabiliyyətli işçidir, onun səlahiyyətləri bir-biri ilə əlaqəli iki bazarda − təhsil xidmətləri və əmək bazarında formalaşır və təkrar istehsal olunur. Təhsil sahəsində marketinqin missiyası insanın təkcə əmək bazarı mövqeyindən deyil, həm də ümumi humanist mənada dəyərinin artırılması strategiyasının formalaşdırılmasına yönəlmişdir. "Şüurlu təhsil fəaliyyəti, digər insanlara yönəldilməsindən asılı olmayaraq, insanın məqsədyönlü fəaliyyətidir, mahiyyəti və formaları onun əqidəsi ilə müəyyən edilir" [3, s. 7]. Bu cəhətlər onun artması ilə digərlərinin güclənməsinə səbəb olur. O, aşağıdakıların ehtiyaclarını səmərəli şəkildə ödəməyə yönəldilmişdir: fərdin − təhsildə; təhsil müəssisəsi − işçilərinin inkişafında və rifahında; firmalar və digər müştəri təşkilatları − insan resurslarının artımında; cəmiyyət − ümumi şəxsi və intellektual potensialın genişləndirilmiş təkrar istehsalında. Bu ehtiyacların səmərəli şəkildə ödənilməsi təhsildə marketinqin hədəfi, onun bu sahədə effektivliyinin meyarıdır. Təhsil sahəsində marketinq elmi və tətbiqi tərəflərə malik olan, təhsil müəssisələrinin fəaliyyətindən istifadə etməklə öyrənilən perspektivli və məhsuldar hadisədir.

Marketinq azad rəqabətli mübadiləni təmin etməklə insanların və təşkilatların ehtiyac və istəklərinin ödənilməsinə yönəlmiş sosial prosesdir [7].

"*Təhsil marketinqi* – dəyişən təhsil ehtiyaclarının strukturunun müəyyən edilməsi, yaradılması, təhsil müəssisəsinin bütün resurslarının onların təhsil müəssisəsi və istehlakçı üçün daha çox mənəvi və maddi mənfəətlə təmin edilməsidir" [8].

Təhsil xidmətlərinin marketinqi bir çox bilik sahələrinin kəsişməsində yerləşən, sivil təfəkkürün və fəaliyyətin fəlsəfəsini, strategiyasını və taktikasını, təhsil xidmətləri subyektlərinin davranış və münasibətlərini öyrənən və formalaşdıran elmi və praktiki intizamdır.

− Təhsil müəssisələri, istehlakçı təşkilatları, tələbə fiziki şəxslər, habelə bu xidmətləri və onlara aid xidmət və məhsulları istehsal edən, satan, alan və istehlak edən vasitəçi strukturlar. Təhsil müəssisəsinin məqsədyönlü şəkildə marketinqi bütün bazar subyektlərinin uzunmüddətli kommersiya və digər maraqları, eləcə də əlverişli və geniş yayılmış sosial mühit yaratmaq imkanı ilə müəyyən edilir.

"Təhsil xidməti" vətəndaşın dövlət tərəfindən müəyyən edilmiş təhsil səviyyələrinə nail olması barədə bəyanatla müşayiət olunan fərdin, cəmiyyətin və dövlətin maraqlarına uyğun məqsədyönlü təhsil və təlim prosesidir [4].

Təhsil xidmətinin mahiyyətinin müasir təfsiri şəxsi inkişafın bütün aspektlərini əhatə edir, təkcə bilik, bacarıq və qabiliyyətlər şəklində əvvəlki nəsillərin təcrübəsinin mənimsənilməsi təhsilin özünü deyil, həm də müəyyən keyfiyyətlərin tərbiyəsini əhatə edir.

Təhsil marketinqinin fəlsəfi xüsusiyyəti təhsildə maliyyə-təsərrüfat fəaliyyətinin əsasən qeyri-kommersiya xarakterli olması və müxtəlif maliyyə mənbələrindən istifadə edə bilməsidir. Təhsil müəssisəsinin marketinq fəaliyyəti müxtəlif sənaye və maliyyə şirkətləri, özəl sahibkarlar, xarici və yerli ictimai təşkilatlar. dövlət və bələdiyyə orqanları ola bilən birbaşa istehlakçılar (tələbələr və onların valideynləri) və donorlar (müştərilər) üçün fərqləndirilir. Marketinq fəaliyyətləri kommersiya sahələrində ənənəvi marketinqdən fərqli olaraq çoxölçülü olur.

Təhsil marketinqinin fəlsəfi xüsusiyyəti müəyyən edilərkən təhsil məhsulları bazarında informasiya asimmetriyası da nəzərə alınmalıdır. Təhsil müəssisələrinin kifayət qədər maliyyələşdirilməməsi şəraitində marketinq fəaliyyəti həm müştərilərə, həm də onlara münasibətdə kommersiya səylərinin intensivləşdirilməsinə qədər azaldıla bilər.

Təhsil marketinqinin məqsədi məhz təhsil fəaliyyəti kompleksinin daşıyıcısına rəqabət üstünlüyü verməkdir.

Təhsil xidmətlərinin məqsədyönlü şəkildə marketinqi bütün bazar subyektlərinin uzunmüddətli kommersiya və digər maraqları, eləcə də əlverişli, geniş sosial rezonans yaratmaq, milli intellektual potensialın təkrar istehsalıdır [6].

Müvafiq təhsil məhsulu yaratmaq və onun rəqabət qabiliyyətini təmin etmək, təşkilati, idarəetmə, iqtisadi və marketinq yanaşmalarının kombinasiyası lazımdır. Buna görə də, təhsil xidmətləri təklif edən təhsil müəssisəsi çərçivəsində aşağıdakı vəzifələri həll edən bir sıra xidmətlərin fəaliyyət göstərməsi zəruridir: təklif olunan təhsil müəssisəsinin keyfiyyətinin daim yüksəldilməsi; təsərrüfat fəaliyyətinin maliyyə təhlili və proqnozlaşdırılması; strateji planlaşdırma; keyfiyyətin idarə edilməsi; marketinq araşdırması; təhsil müəssisəsinin reklam siyasətinin aparılması.

Çoxstrukturlu təhsil sisteminin formalaşması və təhsil xidmətləri bazarının yaranması ölkənin ali təhsil müəssisələrini həm nəzəri, həm təşkilati, həm də metodoloji əhəmiyyət kəsb edən və sərt rəqabət şəraitinə uyğunlaşma zərurəti ilə əlaqəli problemlərlə üz-üzə qoyur. Ali təhsilin idarə edilməsinin xüsusiyyətləri aşağıdakıların zəruriliyində ifadə olunur: təhsil problemlərinin dövlət siyasəti səviyyəsində həll edilməsi; bütün səviyyələrdə təhsilin idarə edilməsində ardıcıllıq və səmərəlilik prinsiplərinin həyata keçirilməsi; regionlarda təhsil infrastrukturunun idarə edilməsinin təşkilində dövlətin rolunun və funksiyalarının nəzərdən keçirilməsi; ixtisaslı işçi qüvvəsinin təkrar istehsalı problemlərinin həllinə müxtəlif sosial institutların cəlb edilməsi; tədris prosesinin təşkilində müəllim və tələbələrin rolları arasında münasibətlərdə dəyişikliklər.

Təhsil xidmətlərinin keyfiyyətinin ölçülməsinə vahid nəzəri və metodoloji yanaşmanın olmaması qiymətləndirmə sisteminin aşağıdakı ümumi müddəalarının və prinsiplərinin işlənib hazırlanmasını zəruri edir:

1. Abituriyentlərin hazırlıq səviyyəsi, professor-müəllim heyətinin ixtisası, təhsil proqramlarının məzmunu kimi təhsilin keyfiyyətinə təsir edən amillərin nəzərə alınmasını tələb edən səmərəli peşəkar fəaliyyət göstərə bilən mütəxəssislərin zəruri hazırlığının təmin edilməsi; təhsil müəssisəsinin maddi-texniki bazası, təhsil müəssisəsinin prosesinin təşkili və idarə olunması səviyyəsi. Bu amillər təhsil xidmətlərinin göstərilməsinin bütün mərhələlərində – giriş, çıxış prosesində keyfiyyət potensialını xarakterizə edən göstəricilərin müxtəlifliyini də müəyyən edir;

2. Təlim prosesində biliyin həcmi artır və nəticədə onun dəyəri artır. Bu, o deməkdir ki, təhsil xidmətlərinin keyfiyyətini qiymətləndirərkən potensial biliyin artım dərəcəsini müəyyən etmək və onun inkişafının miqyasını ölçmək lazımdır;

3. Son nəticədə əmək bazarı meyarları müəyyən edir və məzunların keyfiyyətini və onların işlə təmin olunmasını qiymətləndirir. Buna əsaslanaraq, təhsil xidmətlərinin keyfiyyətinin ölçülməsi üçün kəmiyyət üsulları ilə yanaşı, ekspert metodlarından istifadə edilməsi təklif olunur;

4. Müxtəlif idarəetmə səviyyələrində təhsil xidmətlərinin qiymətləndirilməsi üçün göstəricilərin seçilməsi məsələsi hələ də həllini tapmayıb. Bazar iqtisadiyyatının ən mühüm komponenti rəqabətdir, iqtisadi kateqoriya kimi rəqabətqabiliyyətliliyi bir neçə səviyyədə təhsil sahəsində təsərrüfat subyektlərinin fəaliyyətinin nəticə göstəricisi hesab etmək olar: ölkə - region – təhsil müəssisəsi.

Bu prinsiplərdən hər hansı birinin istifadəsi təhsil xidmətinin faktiki keyfiyyətini və onu yaradan amilləri müəyyən etməyə imkan verən məlumatların məqsədyönlü müşahidəsini və qavranılmasını tələb edir.

Təhsilin marketinq strategiyası ali təhsilin güclü və zəif tərəflərini, bazar imkanlarını, rəqiblərini, onların fərqləndirici xüsusiyyətlərini təhlil etməyi və bu təhlil əsasında özünün rəqabət üstünlüklərini formalaşdırmaqdan ibarətdir. Təhsil xidmətlərinin marketinq strategiyası həmçinin ali təhsilin məqsəd və vəzifələrinin dəqiq təsvirini, habelə ali təhsilin bazara daxil olduğu təhsil proqramlarının rəqabət üstünlüklərini özündə əks etdirməlidir. Təhsil xidmətləri sahəsində köməkçi marketinq vasitələri üç elementdə əks olunur:

– əhəmiyyəti təkcə professor-müəllim heyətinin və digər işçilərin ixtisası, peşəkarlığı ilə deyil, həm də davranışı, əhvali-ruhiyyəsi, abituriyentlərlə, onların valideynləri ilə ünsiyyət tərzi və s. ilə müəyyən edilən kadrlar (insanlar);

– təhsil müəssisəsi və ixtisas seçimi zamanı qeyri-müəyyənlik dərəcəsini azaldan maddi sübutlar (fiziki sübutlar);

– təhsil xidmətlərinin göstərilməsinin müxtəlif yollarını və onunla əlaqəli hər şeyi təmsil edən proses: abituriyentlərin qəbulu, asudə vaxt və s [5].

Onların marketinq kompleksində rolu universitetin və onun xidmətlərinin cəlbediciliyinin artırılmasına, abituriyentin satınalma qərarı verərkən qeyri-müəyyənliyin azaldılmasına və edilən seçimin düzgünlüyünə dair şübhələrinin aradan qaldırılmasına əsaslanır.

Müxtəlif ölkələrin iqtisadi, sosial və mədəni xüsusiyyətləri, marketinq vasitələrindən daim bu və digər bazarın xüsusiyyətlərinə görə istifadənin vacibliyini təsdiqləyir. Bir çox hallarda söhbət marketinqin konkret xarici bazar üçün sosial modelindən gedir [1, s.15].

Ali təhsilin marketinqində problem hədəf auditoriyaların bəzən bir-birinə zidd olan ehtiyaclarını və gözləntilərini eyni vaxtda həll etmək zərurətidir.

Əmək bazarında və təhsil xidmətlərində rəqabətin güclənməsi obyektiv olaraq elə bir vəziyyətə gətirib çıxarır ki, idarəetmənin qeyri-mərkəzləşdirilməsi və ali təhsili idarə etmək səlahiyyətlərinin bir hissəsinin regionlara ötürülməsi, təhsil siyasətinin tənzimlənməsi və əlaqələndirilməsi məsələlərini həll etmək lazımdır.

Ali təhsil sistemində təhsil xidmətlərinin göstərilməsi üçün rəqabətli siyasətin inkişafı aşağıdakı vəzifələrin həlli ilə əlaqələndirilir:

1. Sosial-iqtisadi münasibətlərin strukturunda ali təhsilin rolunun müəyyən edilməsi; təhsil sisteminin idarə edilməsi xüsusiyyətlərinin aşkara çıxarılması;

2. Təhsil xidmətinin mahiyyətini, xüsusiyyətlərini, bazar tənzimləyiciləri baxımından onun ali peşə təhsilinin təhsil proqramı ilə əlaqəsini müəyyən etmək;

3. Ətraf mühitin artan mürəkkəbliyi və dəyişkənliyi şəraitində təhsil xidmətlərinin rəqabət qabiliyyətinə təsir edən amillərin təhlili;

4. Qiymətləndirmə, sertifikatlaşdırma və optimallaşdırma prosedurlarına əsas tələblərin hazırlanması;

Bu problemlərin həlli ali təhsilin mürəkkəb sosial-iqtisadi mahiyyətinin əsaslandırılmasından və təhsil xidmətləri bazarında onun yerini müəyyənləşdirməkdən başlamalıdır.

Deməli, "cəmiyyət, fərd və dövlət tərəfindən bir dəyər kimi təhsilə müasir münasibət olduqca ziddiyyətlidir və maraqların təzahürləri bütün məna və formalara malikdir" [2, s. 12].

Təhsilin effektivliyini müəyyən etmək üsullarının təhlili istehlakçı üçün təhsil xidmətinin effektivliyini qiymətləndirmək, əsas meyarları müəyyən edən statik xüsusiyyətlərin rəsmiləşdirilməsi zərurətinə səbəb oldu: cari xərclər, gəlirlilik indeksi, xalis indiki gəlirin dəyəri və daxili gəlir norması. Ali peşə təhsilinin iqtisadi artıma töhfəsinin müəyyənləşdirilməsi problemlərinin sistemli yanaşma əsasında həlli təhsilin keyfiyyətinin artırılması yollarını müəyyən etməyə imkan vermişdir.

Nəticə. Müasir rəqabət bazarında təhsil xidmətlərinin keyfiyyətini qiymətləndirərkən təhsil müəssisəsinə yüksək keyfiyyətli təhsil xidmətləri göstərən lider mövqeyini tutaraq istehlakçı tələbatındakı dəyişikliklərə operativ reaksiya verməyə imkan verən marketinq yanaşmasından istifadə edilməlidir. Nəzərə almaq lazımdır ki, bu zaman təşkilat həm dövlət sifarişinə, həm də öz analitik fəaliyyətinin nəticələrinə arxalanır. Ali təhsilin rəqabət strategiyasının formalaşdırılması üçün konkret təkliflər hazırlamağa, ali məktəblərdə təhsil fəaliyyətinin idarə edilməsi praktikasına innovativ təhsil metodları və effektiv təşkilati mexanizmlərin tətbiqi zamanı onun həyata keçirilməsi mexanizmini təkmilləşdirməyə imkan verir.

Məqalənin elmi yeniliyi: təhsil xidmətlərinin marketinqi və onun uğurla həyata keçirilməsi, təhsil xidmətlərinin keyfiyyətinin qiymətləndirilməsi, təkmilləşdirilməsi zamanı marketinq yanaşmasının həyata keçirilməsindən ibarətdir.

Məqalənin nəzəri əhəmiyyəti: təhsil marketinqinin əsas komponentləri aydınlaşdırılır: təhsil xidməti, təhsil sahəsində marketinq, təhsil bazarı, təhsil marketinqinin idarə edilməsi təhlil edilir;

Məqalənin tətbiqi əhəmiyyəti ondan ibarətdir ki, marketinq fəaliyyətinin fəlsəfi aspektləri təhsil müəssisələrinin idarə edilməsinin səmərəliliyini əhəmiyyətli dərəcədə artıra bilər və idarəetmədə marketinq sistemindən istifadəyə dair elmi əsaslandırılmış tövsiyələr verə bilər.

Məqalənin iqtisadi səmərəsi: təhsildə marketinq fəaliyyətinin təcrübəsi ilə ali məktəbdə marketinq xidməti sisteminin kifayət qədər inkişafı arasında; təhsil xidmətlərinə artan tələbatla təhsil müəssisələrinin onları ödəməyə hazırlığı arasındakı inkişafin səmərəliliyini nəzərdə tutur.

Ədəbiyyat

1. Allahverdiyeva, M.A. Beynəlxalq marketinq. Dərslik / M.A.Allahverdiyeva. − Bakı: İqtisad Universiteti nəşriyyatı, − 2010, − 444 s.
2. Nəzərov, M.H. Təhsilin sosial-fəlsəfi əsasları. Monoqrafiya / M.H.Nəzərov. − Bakı: ADPU, − 2023, − 456 s.
3. Nəzərov, M.H. Təhsil fəlsəfəsi. Dərs vəsaiti / M.H.Nəzərov. – Bakı, − 2022, − 496 s.
4. Ванькина, И.В. Маркетинг образования: учебник /И.В.Ванькина. − М.: Логос, − 2007, − 336 с.
5. Головчанская, Е.Э. Маркетинговое обеспечение конкурентоспособности среднего профессионального образования в России: рукопись дисс. ...канд.экон.наук: 08.00.05. / Е.Э.Головчанская. − Волгоград: − 2005. − 176 с
6. Котлер, Ф. Маркетинг менеджмент / Ф.Котлер, − СПб.: Питер, − 2012. − 496 с.
7. https://az.wikipedia.org/wiki/Marketinq
8. https://fundamental-research.ru/ru/article/view?id=31118

M.H.Nazarov

Philosophical Directions of Educational Services Marketing in Postindustrial Society

Summary

The article examines the current state of the educational services market, the essence of the "educational service" category, the necessity of using marketing in the educational services market,

and the content of educational services marketing. The need to use marketing as a complex activity, including the study of the marketing environment and competitors' strategies, is justified, to conduct marketing monitoring of the educational services market, the purpose of which is to find our place in the educational services market and create a favorable image of the educational institution.

Key words: *education, educational service, educational marketing, marketing, educational product.*

М.Х.Назаров

Философские направления маркетинга образовательных услуг в постиндустриальном обществе

Резюме

В статье рассматривается современное состояние рынка образовательных услуг, сущность категории «образовательная услуга», необходимость использования маркетинга на рынке образовательных услуг, а также содержание маркетинга образовательных услуг. Обоснована необходимость использования маркетинга как комплексной деятельности, включающей изучение маркетинговой среды и стратегий конкурентов, проведения маркетингового мониторинга рынка образовательных услуг, цель которого – найти свое место на рынке образовательных услуг и создать благоприятный имидж учебного заведения.

Ключевые слова: *образование, образовательная услуга, образовательный маркетинг, маркетинг, образовательный продукт*

Rəyçi: fəl.e.d. Z.B.Ağayeva

Redaksiyaya daxil olub: 27.03.2024

MÜNDƏRİCAT – СОДЕРЖАНИЕ

DİLÇİLİK – ЛИНГВИСТИКА

N.O.ƏBDÜRƏHMANOVA
İNGİLİS DİLİNİN MƏNŞƏYİ VƏ İNKİŞAFININ KEÇDİYİ TARİXİ YOL 5

H.N.ƏHMƏDOVA
MƏİŞƏTDƏ İŞLƏNƏN BİR SIRA FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN ETİMOLOGİYASI 9

A.İ.ƏLİYEVA
MÜASİR DÖVRDƏ FRANSIZ DİLİNİN QLOBAL VƏZİYYƏTİ 14

X.A.ƏLİYEVA
MƏTN DİLÇİLİYİN OBYEKTİ KİMİ 18

L.Ş.ƏSƏDOVA
MÜASİR İNGİLİS DİLİNDƏ RƏSMİ VƏ QEYRİ-RƏSMİ YAZIŞMALARIN LİNQVİSTİK XÜSUSİYYƏTLƏRİ 23

G.A.ƏZİZOVA
MÜASİR DÖVRDƏ TƏRCÜMƏÇİ ÜÇÜN ÇƏTİNLİK YARADAN MƏSƏLƏLƏR 29

M.İ.FƏRZƏLİYEVA
NƏZƏRİ DİLÇİLİKDƏ DİSKURS VƏ ONUN NÖVLƏRİ 34

N.N.KƏRİMOVA
İNGİLİS DİLİNDƏ LEKSİK İFADƏLƏRİN İŞLƏNMƏ XÜSUSİYYƏTLƏRİNƏ DAİR 38

N.F.MƏMMƏDOVA
ALMAN DİLİNİN LEKSİK QATINDA “QLOBALLAŞMA” KOMPONENTLİ MÜRƏKKƏB SÖZLƏRİN LİNQVOKOQNİTİV XÜSUSİYYƏTLƏRİ 43

A.R.MƏMMƏDOVA
İNGİLİS ATALAR SÖZLƏRİNİN TƏRİFLƏRİ VƏ ÖYRƏNİLMƏSİ 48

S.C.NOVRUZƏLİYEVA, N.Ə.ƏLİYEVA
İLHAM ƏLİYEVİN NİTQİNDƏ FRAZEOLOJİ FEİLLƏR 52

F.Q.ORUCOVA
SUBSTANTİVLƏŞMƏ MÜASİR AZƏRBAYCAN DİLİNDƏ AKTİV PROSES KİMİ 58

S.M.QAFAROVA
KOMPÜTER TERMİNLƏRİNİN METAFORİKLƏŞMƏSİ 63

A.Ə.QULİYEVA
İNGİLİS DİLİNDƏ OLAN ZOONİMLƏRİN LEKSİK XÜSUSİYYƏTLƏRİ 68

İ.N.SƏRDAROVA
ÜNSİYYƏTİN KOMMUNİKATİV MODELİ 72

S.E.TAĞIYEVA
DÜZƏLTMƏ SÖZLƏRİN YARANMASINDA KONVERSİYANIN ROLU 78

S.Ə.XASIYEVA
ALMAN DİLİNDƏ KONYUNKTİV II BƏDİİ ƏSƏRLƏRDƏ İFADƏ VASİTƏLƏRİ 83

L.E.HAJIYEVA
THE SUBJECT OF PHRASEOLOGY AND THE PROBLEM OF ITS SYSTEMATIC STUDY 88

A.M.SHABANOVA
THE USE OF HYPERBOLIC EXPRESSIONS IN ADVERTISEMENTS 93

Г.З.АЛЛАХВЕРДИЕВА
ОСОБЕННОСТИ СВАДЕБНЫХ АССОЦИАЦИЙ РУССКОГО НАРОДА 98

Н.Ш.МАМЕДОВ
ОТРИЦАТЕЛЬНЫЕ КОНСТРУКЦИИ В СВЯЗНОМ ТЕКСТЕ 102

С.Э.ПОЛАДОВА
ЭКСПЕРИМЕНТАЛЬНЫЙ ФОНЕТИЧЕСКИЙ АНАЛИЗ СОГЛАСНЫХ ФОНЕМ АНГЛИЙСКОГО ЯЗЫКА 107

О.Дж.ХАЛИЛОВА, Л.М.МАМЕДОВА, Ш.М.КУЛИЕВА
ПРОИСХОЖДЕНИЕ ФРАЗЕОЛОГИЧЕСКИХ ЕДИНИЦ РУССКОГО ЯЗЫКА 111

ƏDƏBİYYAT – ЛИТЕРАТУРА

G.M.BAĞIROVA
ROMAN QARİNİN “ÇİNGİZ XAİMANIN RƏQSİ” ROMANINDA POSTMODERNİST ELEMENTLƏR 115

S.A.ƏLİYEVA
CEYMS COYS AZƏRBAYCAN ƏDƏBİYYATŞÜNASLARININ GÖZÜ İLƏ 120

S.H.HƏSƏNOV
AZƏRBAYCANDA YAŞAYAN AZSAYLI XALQLARIN FOLKLORUNUN ÖYRƏNİLMƏSİ: REALLIQLAR, PERSPEKTİVLƏR 126

S.B.MƏMMƏDOV
“AVESTA”, ZƏRDÜŞTÇÜLÜK VƏ NOVRUZ ADƏT-ƏNƏNƏLƏRİNİN FOLKLORUMUZDA YERİ 131

M.Ə.ŞIXIZADƏ
AQATA KRİSTİNİN ƏSƏRLƏRİNDƏ BƏDİİ İFADƏ VƏ TƏSVİR VASİTƏLƏRİ 140

J.S.ŞÜKÜROVA
MƏHƏMMƏD FÜZULİ SÖZÜNÜN QÜDRƏTİ 144

Ş.Ə.UMUDOVA
MİLAN KUNDERA – “GÜLMƏLİ MƏHƏBBƏTLƏR” HEKAYƏSİNDƏ MƏHƏBBƏT İDEYASI 149

С.Л.ГАСАНОВА
«СЕФЕРНАМЕ» ИСМАИЛ БЕКА КУТКАШЕНЛЫ КАК ПЕРВОЕ В АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЕ ПРОИЗВЕДЕНИЕ, НАПИСАННОЕ В ЖАНРЕ «ПУТЕВЫХ ЗАМЕТОК» 153

Т.Г.ДЖАФАРОВ
ТЮРКСКИЙ КУЛЬТУРНО-ИСТОРИЧЕСКИЙ ТИП В КОНТЕКСТЕ ДИСКУССИЙ ОБ ИСТОРИИ МИРОВЫХ ЦИВИЛИЗАЦИЙ 160

PEDAQOGİKA. METODİKA. PSİXOLOGİYA – ПЕДАГОГИКА. МЕТОДИКА. ПСИХОЛОГИЯ

G.Ç.ASLANOVA
AZƏRBAYCAN XALQ MAHNILARININ SƏS VƏ FORTEPİANO ÜÇÜN YAZILMIŞ İŞLƏMƏLƏRİNİN TƏDRİS PROQRAMLARINDA YERİ 172

Y.M.BABANLI
HƏRBİ QULLUQÇULARIN PEŞƏKAR FƏALİYYƏT SAHƏSİNDƏ FİZİKİ HAZIRLIĞIN ƏSASLARI 177

E.Ə.BABAYEVA
MƏTNDƏKİ BƏDİİ DİLİN TƏSİRLİ ÇATDIRILMASINDA OXUNUN ROLU 181

N.A.CƏFƏROVA
İSLAM DƏYƏRLƏRİ VƏ MƏHƏMMƏD PEYĞƏMBƏRİN TƏRBİYƏ HAQQINDA KƏLAMLARI 185

İ.Ə.ƏHMƏDOVA
ƏSAS MUSİQİ ALƏTİ MƏŞĞƏLƏLƏRİNDƏ AZƏRBAYCAN BƏSTƏKARLARININ YARADICILIĞINDA İSTİFADƏ OLUNAN İNSTRUMENTAL JANRLAR HAQQINDA BİLİKLƏR 189

M.T.ƏLİYEVA
PROBLEMLİ-MODULLU TƏLİMİN MAHİYYƏTİ 193

Z.S.ƏMRAHLI
ŞƏXSİYYƏTLƏRARASI ZİDDİYYƏTLƏRİN PSİXO-PEDAQOJİ VƏ GENDER SƏBƏBLƏRİ 196

G.T.HACIZADƏ
XARİCİ DİLDƏ ÜNSİYYƏT ÜÇÜN ƏLVERİŞLİ MÜHİTİ XARAKTERİZƏ EDƏN AMİLLƏRİN ANALİZİ 200

İ.M.HƏSƏNOVA
İNFORMASİYA TEXNOLOGİYASINDAN İSTİFADƏNİN DİDAKTİK MƏZMUNU 205

Q.N.HEYBƏTOV
İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ ŞAGİRDLƏRDƏ MOTİVASİYANIN YARADILMASI ÜSULLARI 208

H.Q.KƏRİMOVA
AİLƏLƏRDƏ APARILAN MÜASİR TƏRBİYƏVİ İŞLƏRİN BƏZİ XÜSUSİYYƏTLƏRİ 213

V.A.LƏTİFLİ
XARİCİ DİLİN TƏDRİSİNDƏ İNNOVATİV METODLARIN İSTİFADƏSİ 217

K.F.MAHMUDOVA
BİOLOGİYA FƏNNİNİN HƏYATİ ƏHƏMİYYƏTİ 221

A.Ş.NAMƏTOVA
XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ MÜASİR METOD VƏ TEXNOLOGİYALAR 225

T.Ə.NƏBİYEVA
K.D.UŞİNSKİNİN PEDAQOJİ ANTROPOLOGİYA TƏLİMİNİN ÇAĞDAŞ DÖVRDƏ ƏHƏMİYYƏTİ 230

S.Z.QUBATOVA
YENİYETMƏ MƏKTƏBLİLƏRİN SOSİALLAŞMASI 235

A.V.SADIQOVA
ŞAGİRD ŞƏXSİYYƏTİNİN MİLLİ ZƏMİNDƏ FORMALAŞMASINDA VALİDEYNLƏRİN ROLU 238

N.B.SALMANOVA, Ş.H.ƏBDÜRƏHMANOV, R.Ş.ƏBDÜRƏHMANOV, S.Q.QARAYEVA
YENİYETMƏLƏRİN ASUDƏ VAXTININ SƏMƏRƏLİ TƏŞKİLİ VƏ FƏAL HƏYAT TƏRZİNİN FORMALAŞMASINDA KÜTLƏVİ-SAĞLAMLIQ İDMAN NÖVLƏRİNİN ROLU 241

N.B.SALMANOVA, O.Ə.NOVRUZOV, Z.İ.QƏHRƏMANOVA
FİZİKİ MƏHDUDLUĞU OLAN ATICILARIN MƏŞQ PROSESİ ÜÇÜN SƏMƏRƏLİ VASİTƏ VƏ METODLARIN TƏYİNİ 245

A.M.SƏFƏRLİ
KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN YARADICI TƏXƏYYÜLÜNÜN FORMALAŞMASI XÜSUSİYYƏTLƏRİ 249

T.F.SƏLİMLİ
FRANSIZ DİLİNİN XARİCİ DİL KİMİ TƏDRİSİNDƏ İSTİFADƏ EDİLƏN QRAMMATİK TAPŞIRIQLAR 253

Y.B.SƏMƏDOV, S.B.ƏLİZADƏ
ATICILIQDA PSİXOLOJİ ÇƏTİNLİKLƏRİN DƏF EDİLMƏSİNƏ DAİR 257

Ş.M.SEYİDOVA
ÜMUMTƏHSİL MƏKTƏB ŞAGİRDLƏRİNİN BİOLOGİYADAN TƏDQİQATÇILIQ FƏALİYYƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ 262

R.L.SULTANOV
BİOLOGİYA FƏNNİ ÜZRƏ ON BİRİNCİ SİNİFLƏRİNDƏ TƏDRİS OLUNAN MÖVZULARLA ƏLAQƏDAR VALİOLOJİ BİLİKLƏRİN İNTERAKTİV YOLLARLA ÖYRƏNİLMƏSİ XÜSUSİYYƏTLƏRİ 266

C.F.TAĞI-ZADƏ
FRANSIZ DİLİNİN TƏDRİSİNDƏ TƏLƏBƏLƏRDƏ CÜMLƏQURMA VƏRDİŞİNİN İNKİŞAF ETDİRİLMƏSİ YOLLARI 270

L.N.XƏLİLOVA
“GENDER” ANLAYIŞI: İNSANIN BİOLOJİ VƏ SOSİAL CİNSİ 275

А.Н.АББАСОВА
КРИТЕРИИ ОТБОРА АУТЕНТИЧНЫХ ТЕКСТОВ ДЛЯ РАЗВИТИЯ ДИАЛОГИЧЕСКОГО ОБЩЕНИЯ НА АНГЛИЙСКОМ ЯЗЫКЕ: ЯЗЫКОВОЙ ВУЗ 279

Г.Г.АХМЕДОВА
ИГРА КАК ФОРМА ОРГАНИЗАЦИИ РЕЧЕВОЙ ДЕЯТЕЛЬНОСТИ В ПРОЦЕССЕ ОВЛАДЕНИЯ РУССКИМ КАК ИНОСТРАННЫМ ЯЗЫКОМ 283

А.Я.ГАСЫМОВА
ПРИНЦИПЫ УСОВЕРШЕНСТВОВАНИЯ СОДЕРЖАНИЯ ВЫСШЕГО ПЕДАГОГИЧЕСКОГО ОБРАЗОВАНИЯ 288

А.Х.ИСАЕВА
ТИПОЛОГИЯ НЕКОТОРЫХ ЛЕКСИЧЕСКИХ ОСОБЕННОСТЕЙ АНГЛИЙСКОГО И РУССКОГО ЯЗЫКОВ В ТЕОРИИ КОММУНИКАТИВНОЙ КОМПЕТЕНЦИИ 295

Л.М.МАМЕДОВА, О.Дж.ХАЛИЛОВА, Ш.М.КУЛИЕВА
РУССКИЙ ЯЗЫК КАК ИНОСТРАННЫЙ: ОСОБЕННОСТИ ОРГАНИЗАЦИИ ПРЕПОДАВАНИЯ 299

И.А.МИКАИЛОВА
К ИЗУЧЕНИЮ ОСЛОЖНЕННЫХ ПРЕДЛОЖЕНИЙ НА ЗАНЯТИЯХ ПО РУССКОМУ ЯЗЫКУ КАК ИНОСТРАННОМУ 303

İCTİMAİ ELMLƏR – ОБЩЕСТВЕННЫЕ НАУКИ

X.A.HÜSEYNOV, F.E.ABIŞOV
ERMƏNİLƏRİN TARİXİ AZƏRBAYCAN TORPAQLARI – İRƏVAN XANLIĞININ ƏRAZİSİNƏ KÖÇÜRÜLMƏSİ VƏ ONUN AĞIR NƏTİCƏLƏRİ 307

A.B.KƏRİMLİ
SOSİAL XİDMƏTİN İSVEÇ MODELİ 311

M.H.NƏZƏROV
POSTİNDUSTRİAL CƏMİYYƏTDƏ TƏHSİL XİDMƏTLƏRİ MARKETİNQİNİN FƏLSƏFİ İSTİQAMƏTLƏRİ 318

Nəşriyyat redaktoru: **Aytəkin Sadıqova**

Texniki redaktor: **Türkan Abdulxalıqova**

Çapa imzalanıb: 26.07.2024. Format: 84x108 1/16.
Həcmi: 20,75 ç.v. Tiraj: 300.

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125/139b
Tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru
www.mutercim.az

Hörmətli müəlliflər!

"Humanitar elmlərin öyrənilməsinin aktual problemləri" adlı ali məktəblərarası elmi məqalələr məcmuəsində çap olunmaq üçün elmi məqalələrin qəbulu davam edir. Məcmuəyə **dilçilik, ədəbiyyatşünaslıq, pedaqogika, psixologiya, fəlsəfə və ictimai elmlərin aktual problemləri**nə dair məqalələr daxil edilir.

Məqalələr aşağıdakı şərtlərlə qəbul edilir:

• Məqalələr Azərbaycan, rus və ingilis dillərində qəbul edilir.

• Məqalələrin kompyuterdə yığılmış mətnlərinin nəşriyyata təqdim olunan variantı müəllif tərəfindən diqqətlə yoxlanılır, orfoqrafik, üslubi, durğu işarələri səhvləri aradan qaldırılır. Məqalə mətninin sonunda onun müəllif (müəlliflər) tərəfindən oxunub redaksiyaya təqdim olunması barədə qeyd aparılır.

• Məqalələr kompüterdə yığılmış formada elektron daşıyıcıda təqdim edilməlidir (Word proqramında, səhifənin ölçüləri – A4, şrift 14, sətirlərarası məsafə 1,5 interval, sağ və soldan 2 sm, yuxarı və aşağıdan 3 sm; Azərbaycan dilində mətnlər Times New Roman, Times-Latin, rus və ingilis dillərində mətnlər Times New Roman şrifti ilə).

• Məqalələrdə istinad və mənbələrin göstərilməsi vacibdir. İstinad və mənbələr bu qaydada göstərilir:

1. Ədəbiyyat siyahısı mətnin sonunda əlifba sırası ilə verilir.
2. İstinad olunan ədəbiyyat nəşr olunduğu dildə verilir.
3. Ədəbiyyatlar AAK-nın tələbləri əsasında göstərilir:

   Məs.: **Rəhimov A.N. Ana dilinin tədrisi metodikası. Bakı: Mütərcim, 1997.**

   Nağısoylu M.N. Abbasqulu ağa Bakıxanovun "Riyazül-Qüds" əsəri orijinaldır, yoxsa tərcümə // "Mütərcim" jurnalı, №1-2, 18 mart 2003-cü il, s. 34-35.
4. İstinad olunmuş ədəbiyyatın nömrəsi və səhifəsi mətnin içində göstərilir. Məs.: **[5, s. 112]**

- Məqalənin əvvəlində Azərbaycan, rus, ingilis dillərində 5-6 açar söz göstərilməlidir.
- Məqalənin başlanğıcında, açar sözlərdən sonra, onun qısa məzmununu əks etdirən (600-750 işarədən ibarət) xülasə verilir. Xülasənin məqalənin sonunda başqa iki dildə (Azərbaycan dilində yazılmış məqalələrə ingilis və rus dillərində; məqalə rus dilində yazılıbsa, Azərbaycan və ingilis dillərində; məqalə ingilis dilində yazılıbsa, Azərbaycan və rus dillərində) verilməsi də tələb olunur.
- İstinad olunmuş ümumi ədəbiyyat siyahısında son on ilə aid resurslara üstünlük verilməlidir.
- Elmi məqalənin sonunda onun elmi nəticəsi, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi göstərilir.

İşin elmi nəticəsi: mövzu və problem üzrə müəllifin gəldiyi nəticənin qısa təsviri.

İşin elmi yeniliyi: məqalədə qaldırılan problem və ya təqdim olunan mövzunun yeniliyi. Mövzu üzrə sistemləşdirmə və ümumiləşdirmə, nəzəri və praktiki aspektdə irəli sürülən orijinal mövqe, fərdi, fərqli və ya innovativ yanaşma.

İşin tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi: məqalədə təqdim edilən mövzunun, irəli sürülən nəzəri və praktik müddəaların, təkliflərin, gəlinən nəticələrin elm və tədrisdə, istehsalatda, xidmət və sair sahələrdə tətbiqolunma səmərəsi.

- Göstərilən parametrlərə uyğun olaraq, məqalələrin həcmi 6 səhifədən az, 12 səhifədən çox olmamalıdır.
- Məqalədə müəllifin elmi dərəcəsi, elektron poçt ünvanı, işlədiyi təşkilatın adı və ünvanı dəqiq göstərilməlidir.
- Məqalələrə bu sahə üzrə elmi dərəcəsi olan mütəxəssisin və ya müvafiq elmi müəssisənin Elmi Şurası rəy verməlidir.
- Redaksiya heyətinin, nəşrə məsul redaktorun və müvafiq elmi sahə üzrə rəyçinin rəyi əsas götürülməklə Ali Attestasiya Komissiyasının tələblərinə cavab verməyən, elmi, elmi-metodiki yeniliyi və əhəmiyyəti ilə seçilməyən məqalələr məcmuəyə daxil edilmir.

Ünvan: **Bakı şəh., Rəsul Rza küç., 125/139b**
tel.: 596 21 44
e-mail: mutarjim@mail.ru
Məcmuənin elektron variantı: www.mutercim.az

Dear authors!

"Actual problems of studying of humanities" continues to receive scientific articles for publication in the inter-university scientific journal. Articles on current problems of **linguistics**, **literary studies, pedagogy, psychology, philosophy and social sciences** are included in the journal.

Terms and conditions for accepting research papers:

- Articles are accepted in the Azerbaijani, Russian and English languages.
- The version of the text of the articles collected on the computer and submitted to the publisher is carefully checked by the author, spelling, stylistic, and punctuation errors are eliminated. At the end of the text of the article, a note is made that it has been read by the author(s) and submitted to the editorial office.
- The volume of the articles should not be less than 6 pages.
- Research papers should be submitted in an electronic format on computers (Word, paper size – A4, font 14, line spacing 1.5, 2 cm from the right and left, 3 cm from the top and bottom.; texts in the Azerbaijani language in Times New Roman, Times-Latin, Russian and English texts in Times New Roman font).
- It is important to indicate references and sources in articles. References and sources are provided according to these rules:

1. The references list is given in an alphabetical order at the end of the text.
2. The reference should be given in the language in which it was published.
3. The compilation of the reference list should be based on the requirements of the Higher Attestation Commission:

For example: **Rahimov A.N. Methodology of mother tongue teaching. Baku: Mutarjim, 1997.**

Nagisoylu M.N. Is Abbasgulu Agha Bakikhanov's work "Riyazul-Quds" original or a translation // "Mutarjim" magazine, № 1-2, March 18, 2003, p. 34-35.

4. The number and page of the cited literature are indicated in the text. For example: **[5, p. 112]**

- At the beginning of the article, 5-6 keywords in the Azerbaijani, Russian, and English languages should be indicated.
- At the end of the article, a summary should be given in two languages other than the language in which the article is written (in English and Russian for articles written in Azerbaijani; in Azerbaijani and English if the article is written in Russian, in Azerbaijani and Russian if the article is written in English).
- At the end of the scientific article, its scientific result, scientific novelty of the work, application importance, and economic benefit are indicated.
- According to the specified parameters, the volume of articles should not be less than 6 pages and not more than 12 pages.
- The author's scientific degree, e-mail address, name and address of the organization where he/she works should be clearly stated in the article.
- The Scientific Council of an expert with a scientific degree in this field or a relevant scientific institution must give an opinion on the articles.
- Based on the opinion of the editorial board, the editor responsible for the publication, and the reviewer in the relevant scientific field, articles that do not meet the requirements of the Higher Attestation Commission, are not selected for their scientific, scientific-methodical innovation and importance, are not included in the collection.

Address**: Rasul Rza street 125/139b., Baku city**
Phone: 596 21 44
e-mail: mutarjim@mail.ru
Electronic version of the collection**: www.mutercim.az**

Уважаемые авторы!

Продолжается прием научных статей для публикации в сборнике межвузовских научных статей **«Актуальные проблемы изучения гуманитарных наук»**. В сборник включаются статьи **по актуальным проблемам языкознания, литературоведения, педагогики, психологии, философии и общественных наук**.

Научные статьи принимаются в соответствии со следующими требованиями:

- Научные статьи принимаются на азербайджанском, русском и английском языках.
- Объем научных статей должен быть не менее 6, не более 12 страниц.
- Статьи должны быть набраны на компьютере и представлены на электронных носителях (формат страницы в программе Word – А4, шрифт – 14, междустрочный интервал – 1,5, поля: справа и слева – 2 см, сверху и снизу – 3 см; шрифт для текстов на азербайджанском языке – Times New Roman и Times-Latin, шрифт для текстов на русском и английском языках – Times New Roman).
- Набранный на компьютере вариант статьи отправляется в редакцию после устранения орфографических, пунктуационных и стилистических ошибок. Последний вариант текста статьи подтверждается подписью автора.
- В статьях необходимо указать ссылки и источники. Ссылки и источники должны быть представлены в следующем порядке:

1. Список литературы представлен в алфавитном порядке в конце текста.
2. Литература должна быть указана на том языке, на котором она была опубликована.
3. Список литературы представляется в соответствии с требованиями ВАК:

   Напр.: **Рагимов А.Н. Методика обучения родного языка. Баку: Мутарджим, 1997.**
   Нагисойлу М.Н. Произведение Аббасгулу Аги Бакиханова «Риязул-Кудс» оригинал или перевод // Журнал «Мутарджим», № 1-2, 18 марта 2003 г., с. 34-35.
4. В тексте указываются номер и страница цитируемой литературы. Напр.: [**5, с. 112**].

- В начале статьи необходимо указать 5-6 ключевых слов на азербайджанском, русском и английском языках.
- В конце статьи должно быть представлено резюме объемом не менее 5-6 предложений, при условии, что имя автора и название статьи будут написаны на двух языках, отличных от языка написания текста (статьи на азербайджанском языке – на английском и русском, статьи на русском языке – на азербайджанском и английском, статьи на английском языке – на азербайджанском и русском).
- В конце статьи отмечаются результаты, научная новизна, значение практического применения исследования.
- В статье должны быть точно указаны ученая степень автора, адрес электронной почты, название и адрес организации, в которой он работает.
- Статьи должны быть рецензированы специалистом, имеющим ученую степень в данной области, либо Ученым Советом соответствующего научного учреждения.
- Статьи, не соответствующие указанным выше требованиям, в сборник научных статей не включаются.

Адрес: **г. Баку, ул. Расула Рзы, 125**
тел.: 596 21 44; 497 06 25
e-mail: mutarjim@mail.ru
Электронный вариант сборника: www.mutercim.az